HEYDƏR ƏLİYEV MƏRKƏZİ

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ
UNEC

ISCEMR

RİİB Regional İnkişaf İctimai Birliyi

BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ

# AKADEMİK YAZI

Baş sponsor

Sponsor

**Layihə rəhbəri:**
i.e.n., dos. Söhrab İsayev

**Elmi redaktorlar:**
i.e.d., prof. Yaşar Kəlbiyev
i.e.n, dos. İlqar Seyfullayev

**Müəlliflər:**
i.ü.f.d., baş müəl. Səkinə Babaşova (bölmə 1)
i.ü.f.d., dos. Kəmalə Nəcəfova (bömə 2 )
i.ü.f.d., dos. Samirə Şamxalova (bölmə 3)
t.ü.f.d., baş müəl. Elnur Hüseynzadə (bölmə 4)
i.e.n., dos. İlqar Seyfullayev (bölmə 5, 7, 8 )
i.ü.f.d., dos. Aytən Hüseynli, Əsli Yaşar (bölmə 6)
f.ü.f.d., müəl. Hüseynqulu Quliyev (bölmə 9)
i.ü.f.d., müəl. Maral Camalova (bölmə 10)

**Korrektorlar:**
Könül Rəzzaqlı
Əsli Yaşar
Bəsirə Babayeva-Cəfərli

**Dizayner:**
Nazim Qurbanov

# MÜNDƏRİCAT


**Bölmə 1. Akademik yazının bütövlüyü, əsas prinsipləri və modelləri**

1.1. Akademik yazının bütövlüyü
1.1.1. Akademik mətnin bütövlüyünü təmin edən əsas xüsusiyyətlər
1.1.2. Orijinallıq və fərdi tədqiqatın rolu
1.2. Akademik yazının əsas prinsipləri
1.1.3. Məntiqi struktur və ardıcıllıq
1.1.4. Dəqiqlik və aydınlıq
1.1.5. Obyektivlik və tərəfsizlik
1.3. Akademik yazı modelləri
1.3.1. IMRaD modeli: akademik yazıda strukturlaşdırılmış yanaşma
1.3.2. Huni modeli və fokuslanma prinsipi
1.3.3. Problem yönümlü model: akademik yazıda problemdən həllə aparan strukturlaşdırma yanaşması
1.3.4. Arqument – Əks arqument – Sintez modeli: akademik yazıda tənqidi düşüncə və balanslı mövqe quruluşu
1.3.5. Tematik model: akademik yazının mövzuya əsaslanan strukturlaşdırılması
1.3.6. Xronoloji model: zaman ardıcıllığına əsaslanan akademik yazı strukturu
1.3.7. Hamburger modeli: akademik paraqraf strukturunun vizual və praktik yanaşması
1.3.8. Akademik yazı modellərinin yekunu və struktur müqayisəsi
1.4. Akademik yazıda çətinliklər və təkmilləşdirmə yolları
1.4.1. Akademik üsluba yiyələnmədə qarşıya çıxan problemlər
1.4.2. Yazı bacarıqlarının inkişaf etdirilməsi üçün strategiyalar
Ədəbiyyat siyahısı

**Bölmə 2. Akademik yazının əsas xüsusiyyətləri və digər yazı növlərindən fərqləri**

2.1. Akademik yazının mahiyyəti və qeyri-akademik yazı növlərindən fərqləri

2.2. Akademik yazı prosesinin mərhələləri
2.3. Tənqidi təhlil və onun akademik yazıdakı rolu
2.4. Akademik yazıda elmi obyektivlik prinsipi
Ədəbiyyat siyahısı

**Bölmə 3. Akademik yazıda arqumentasiya və tənqidi təfəkkür**

3.1. Akademik Arqumentin Əsasları: Tərif və Əsas Komponentlər
3.1.1. Akademik yazıda arqumentasiya ilə faktların və ya fikirlərin sadə ifadəsi arasındakı fərq
3.1.2. Akademik yazıda istifadə olunan arqumentlərin növləri
3.1.3. Akademik yazıda effektiv arqumentlərin qurulmasında məntiq və ritorikanın rolu
3.2. Tənqidi Təfəkkür və Onun Əsas Bacarıqlarının Müəyyənləşdirilməsi
3.2.1. Tənqidi təfəkkür və akademik yazı prosesi arasındakı əlaqə
3.2.2. Akademik yazıda məlumat mənbələrinin tənqidi qiymətləndirilməsi
3.2.3. Tənqidi təhlil əsasında şəxsi arqumentlərin formalaşdırılması
3.3. Aydın, Məqsədyönlü və Arqunetləşdirilmiş Tezisin Hazırlanması
3.3.1. Müvafiq və etibarlı sübutların seçilməsi: inandırıcı arqumentasiyanın əsası
3.3.2. Arqumentlərin və sübutların məntiqi təşkili: oxucu üçün aydın və cəlbedici bir yol xəritəsi
3.3.3. Arqumentasiyanı gücləndirmək üçün ritorik strategiyalardan istifadə
3.3.4. Kontrarqumentlərin uzaqgörənliyi və təkzib edilməsi: dialoq yolu ilə mövqeyin möhkəmləndirilməsi
3.4. Akademik Mətnlərdə Arqumentasiyanın Təhlili və Qiymətləndirilməsi
3.4.1. Müəllifin əsas arqumentlərini necə müəyyən etmək olar?
3.4.2. Arqumentlərin gücünü və inandırıcılığını qiymətləndirmək üçün meyarlar
3.4.3. Məntiqi səhvləri və yanlış əsaslandırmaları müəyyən etmək

3.4.4. Digər müəlliflərin arqumentlərinə konstruktiv rəyləri necə vermək olar?
3.5. Akademik Yazının Müxtəlif Növlərində Arqumentasiya və Tənqidi Təfəkkürün Tətbiqi
3.5.1. Esse
3.5.2. Elmi məqalələr
3.5.3. Xülasə və ədəbiyyat icmalı
3.5.4. Dissertasiya
Ədəbiyyat siyahısı

**Bölmə 4. Akademik yazıda mənbə və ədəbiyyatların istifadəsi qaydaları**
4.1. Akademik Tədqiqat
4.2. Elmi Ədəbiyyatın Qiymətləndirilməsi
4.3. Ədəbiyyatın axtarışı və istifadəsi qaydaları
4.4 Ədəbiyyatda istinadların araşdırılması
Ədəbiyyat siyahısı

**Bölmə 5. Elmi əsərlərdə giriş, nəticə və xülasə hissələrinin yazılması**
5.1. Elmi məqalələrin giriş, nəticə və xülasəsinin tərtibi
5.1.1. Xülasənin məzmunu
5.1.2. Girişin məzmunu
5.1.3. Nəticənin məzmunu
5.2. Dissertasiyaların giriş, nəticə və xülasə hissələrinin məzmunu
5.2.1. Dissertasiyanın giriş hissəsinin məzmunu
5.2.2. Dissertasiyanın “Nəticə” hissəsinin yazılması
5.2.3. Magistr dissertasiyası üçün “Xülasə”nin məzmunu
Ədəbiyyat siyahısı

**Bölmə 6. Elmi məqalənin yazılması qaydası**
6.1. Elmi dəyərə malik məqalə necə olmalıdır?
6.2 Elmi məqalənin yazılması prosesi, yaranan çətinliklər və dəstək alətləri
6.3. Elmi məqalə növləri
6.4. Elmi Məqalənin Strukturu
6.5. Elmi məqalənin tərtibinə dair format qaydaları

6.6. Nəticələrinin tətbiqi
Ədəbiyyat siyahısı

**Bölmə 7. Elmi əsərlərin qiymətləndirilməsi**
7.1. Elmi əsərin qiymətləndirilməsinə proses yanaşma
7 .2. Akademik yazıların mətninin ilkin qiymətləndirilməsi
7.3. Elmi əsərlərin məzmununun əsas meyarları
7.4. Azərbaycanda dissertasiyaların məzmununa qoyulan tələblər
Ədəbiyyat siyahısı

**Bölmə 8. Akademik yazıda etik dəyərlər**
8.1. Akademik yazıda dürüstlük və etik yazı tələbləri
8.2. Akademik yazıda plagiat və müəlliflik hüquqları
8.3. İstinadların əhəmiyyəti və göstərilmə formaları
8.4. Akademik yazıda mənbələrin siyahısının tərtibi
Ədəbiyyat siyahısı

**Bölmə 9. Beynəlxalq elmi jurnallarda (wos, scopus, elsevier və s.) məqalə nəşr etdirmənin əsas şərtləri**
9.1. Beynəlxalq elmi jurnalların rolu
9.2. Beynəlxalq Elmi Nəşriyyat Sistemi və İndeksləri
9.2.1. Beynəlxalq Elmi Məlumat Bazaları
9.2.1.1. Web of Science
9.2.1.2. Scopus
9.2.1.3. Google Scholar
9.2.1.4. Beynəlxalq Elmi Məlumat Baza və Platformalarının müqayisəsi
9.2.2. Beynəlxalq Elmi Nəşriyyatlar
9.2.2.1. Elsevier
9.2.2.2. Springer Nature
9.2.2.3. Taylor & Francis
9.2.2.4. SAGE Publications
9.2.2.5. Oxford University Press
9.2.2.6. Cambridge University Press
9.3.2.7. IEEE (Institute of Electrical and Electronics Engineers)
9.3.2.8. MDPI (Multidisciplinary Digital Publishing Institute)

9.2.3. Elmi Jurnalların Reytinq Sistemi və İndeksləmə
9.3. Düzgün jurnal seçimi və mövzu uyğunluğu
9.4. Məqalənin təqdim olunması və nəşr prosesi
9.4.1. Məqalənin jurnal sisteminə təqdim olunması prosesi
9.4.2. Redaktor tərəfindən ilkin qiymətləndirmə prosesi
9.4.3. Rəyçilərə göndərilmə və rəy prosesi
9.4.4. Məqalənin Qəbulu
9.5. Elmi jurnalların nəşr modelləri və müəllif hüquqları
9.5.1. Ənənəvi nəşr modeli (Subscription-based model)
9.5.2. Açıq Mənbə modeli (Open Access model)
9.5.3. Hibrid Model
9.5.4. Nəşr modellerinin qarşılaşdırılması
9.6. Elmi Nəşrlərdə Müəllif Hüquqları
9.7. Uğurlu nəşr üçün tövsiyələr və tez-tez buraxılan səhvlər
Ədəbiyyat siyahısı

**Bölmə 10. Akademik yazıda süni intellektdən istifadə: mövcud trendlər və gələcək inkişaf istiqamətləri**

10.1. Süni intellekt və akademik yazı
10.1.1 Süni intelletktdən istifadədə mövcud vəziyyət
10.1.2 Süni İntellektin 4T Piramida modeli
10.2. Süni intellektə müəllim, tələləbə və institusional yanaşmalar
10.2.1. Müəllimlərin yanaşması
10.2.2. Tələbələrin süni intellektdən istifadəsi
10.2.3. İnstitusional baxışlar
10.4. Etik çağırışlar və akademik dürüstlük
10.5. Faydalar, məhdudiyyətlər və gələcək perspektivlər
Ədəbiyyat siyahısı

# ÖN SÖZ

Elmi fəaliyyətlə məşğul olan tədqiqatçıların akademik yazı bacarıqları biliklərin cəmiyyətə ötürülməsində, elmi ideyaların yayılmasında və tədqiqat nəticələrinin qiymətləndirilməsində müstəsna əhəmiyyət kəsb edir. Elmi biliklər öz dəyərini kəşf edilməsi ilə yanaşı, həm də aydın, sistemli və əsaslandırılmış şəkildə təqdim edildiyi halda qazanır. Müasir informasiya bolluğu şəraitində elmi biliklərin təqdim edilmə forması onların əlçatanlığı üçün xüsusi önəm daşıyır. Məhz bu kontekstdə, akademik yazı təkcə bir kommunikasiya forması deyil, eyni zamanda intellektual mədəniyyətin əsas sütunlarından biri kimi çıxış edir.
Son illərdə təhsil mühitində və elmi ictimaiyyətdə müşahidə olunan rəqəmsal transformasiyalar elmi tədqiqatların aparılması proseslərində və onların təqdim edilmə formalarında yeni yanaşmaları meydana gətirməkdədir. Qloballaşan informasiya axını, beynəlxalq elmi bazaların geniş yayılması, plagiatla mübarizə imkanlarının genişlənməsi və süni intellekt texnologiyalarının elmi proseslərə inteqrasiyası kimi proseslər akademik yazı bacarıqlarına daha yüksək tələblər irəli sürməkdədir. Eyni zamanda, tələbələrin və gənc tədqiqatçıların yazı və mənbələrlə düzgün işləmə vərdişlərinin inkişaf etdirilməsində, fikirlərin elmi üsluba uyğun tərzdə ifadəsində rastlaşdığımız problemlər bu sahədə kompleks yanaşmaya ehtiyac olduğunu göstərir.
Bu kitabın hazırlanmasında əsas məqsəd akademik yazı üzrə nəzəri və praktik bilikləri sistemləşdirməklə yanaşı, tədqiqatçıları bu sahədə elmi-metodoloji biliklərlə təmin etmək və onları müasir akademik müzakirələrə hazırlığına dəstək verməkdən ibarətdir. Təqdim olunan vəsait akademik yazının struktur, məzmun və etik aspektlərini ardıcıl şəkildə təqdim edir. Kitabın strukturu oxucunu nəzəri çərçivədən praktik mərhələlərə aparmaqla, yazı prosesinin bütün komponentlərini əhatə edir.
Birinci fəsildə akademik yazının bütövlüyü, əsas prinsipləri və modelləri müzakirə olunur. Burada yazının konseptual əsasları, akademik müzakirənin müasir formaları və yazı prosesində müşahidə olunan ümumi struktur modelləri təqdim edilir. İkinci fəsildə isə akademik yazının digər yazı formalarından fərqləri, onun spesifik üslub xüsusiyyətləri və elmi dilin tələbləri geniş şəkildə şərh olunur.
Üçüncü fəsil tənqidi təfəkkür və arqumentasiya bacarığının akademik

yazıdakı yeri ilə bağlıdır. Bu fəsildə məntiqi sübut, arqumentin qurulması, müqayisə və təhlil strategiyaları, elmi debatların forması və funksiyası izah olunur. Dördüncü fəsildə akademik yazının əsas sütunlarından biri olan mənbələrlə işləmə bacarığına toxunulur, elmi ədəbiyyatın axtarışı və seçilməsi  məsələlərinə yer verilir.

Kitabın beşinci fəsil elmi mətnin əsas struktur komponentlərinə - giriş, nəticə və xülasə hissələrinin hazırlanmasına həsr olunmuşdur. Bu hissələrdə mövzunun aktuallığının və öyərnilmə səviyyəsinin, tədqiqatın obyekti və predmetinin, məqsəd və vəzifələrin, tədqiqat metodlarının, əldə edilən nəticələrin və onların elmi yeniliyinin necə təqdim olunması, eləcə də bu hissələrin mətnin bütövlüyünə təsiri müzakirə edilir. Altıncı fəsil konkret olaraq elmi məqalənin hazırlanması, onun beynəlxalq formatlara uyğun qurulması, tezis və arqumentlərin inteqrasiyası məsələlərinə fokuslanır.

Yeddinci fəsildə elmi əsərlərin qiymətləndirilməsi ilə bağlı beynəlxalq və yerli meyarlar izah olunur. Bu fəsil tədqiqatçılara həm yazı prosesinin keyfiyyət göstəricilərini anlamağa, həm də öz işlərini obyektiv şəkildə dəyərləndirmələrinə şərait yaradır, onların öz işlərinə tənqidi yanaşmaları üçün bilikləri təqdim edir. Səkkizinci fəsil isə elmi fəaliyyətin mənəvi-etik aspektlərinə yönəlir. Burada elm etikasının əsas məqamlarına, müəlliflik hüquqları və məsuliyyətinə, elmi plagiat hallarına, məlumatın təhrif olunması, istinadların əhəmiyyəti və istinad etmə formalarına xüsusi yer verilir.

Doqquzuncu fəsildə tədqiqatçılar qlobal elmi məkana çıxış imkanları ilə tanış olur, Web of Science, Scopus, Elsevier və digər nüfuzlu bazalarda indekslənən dərgilərdə məqalə dərc etdirmə qaydaları, redaksiya və resenziya prosesi, rədd səbəbləri və uğurlu nəşr üçün zəruri addımlar ətraflı şəkildə təqdim olunur. Bu fəsil elmi fəaliyyətini beynəlxalq səviyyəyə daşımaq istəyən gənc tədqiqatçılar üçün faydalı biliklərlə zəngindir.

Kitabın sonuncu fəsli isə son illərin ən aktual və bəlkə də ən mübahisəli mövzusuna – akademik yazıda süni intellektin istifadəsinə həsr olunmuşdur. Burada süni intellektin tədqiqatın aparılmasında və yazının hazırlanmasında roluna, etik dilemmalara, müəlliflik məsələlərinə və gələcəkdə bu sahənin necə inkişaf edə biləcəyinə dair elmi yanaşmalar təqdim edilir.

Kitabın məzmunu akademik yazının qayda və prinsiplərini təqdim etməklə yanaşı, tədqiqatçını düşünməyə, sorğulamağa, arqumentləndirməyə və öz tədqiqatını yazılı şəkildə ifadə etməyə təşviq

edən elmi-metodoloji alətləri də əhatə edir. Bütün bölmələrdə təqdim olunan nəzəri çərçivələr, praktik nümunələr və tapşırıqlar, oxucunun bilikləri yalnız qavramasına deyil, həm də tətbiq etməsinə şərait yaradır.
Bu kitabın yazılması zamanı müxtəlif universitetlərdə aparılan tədqiqatların materialları, müasir ədəbiyyat, elmi konfrans və seminarların nəticələri, eləcə də müəlliflərin praktiki təcrübədə əldə etdikləri biliklər əsas baza kimi istifadə edilmişdir. Eyni zamanda, beynəlxalq akademik yazı qaydaları, metodik vəsaitlər və dünya praktikasında qəbul olunmuş normalar əsasında mövzuya obyektiv və çoxistiqamətli yanaşma təmin edilmişdir.
Akademik yazı bacarıqlarını inkişaf etdirmək istəyən tələbə, magistrant, doktorant və tədqiqatçılar üçün nəzərdə tutulmuş bu kitab ali təhsil müəssisələrində akademik yazı dərslərini aparan müəllimlər üçün də metodiki vəsait rolunu oynaya bilər. Unutmayaq ki, akademik yazı elmi fikirlərin ifadə forması olmaqla bərabər, elm etikasının təcəssümüdür.

**Dos. Söhrab İsayev**
Beynəlxalq Magistratura və Doktorantura
Mərkəzinin rəhbəri

*i.ü.f.d., baş müəl. Babaşova Səkinə İsa*

# I. AKADEMİK YAZININ BÜTÖVLÜYÜ, ƏSAS PRİNSİPLƏRİ VƏ MODELLƏRİ


1.1. Akademik yazının bütövlüyü
1.1.1. Akademik mətnin bütövlüyünü təmin edən əsas xüsusiyyətlər
1.1.2. Orijinallıq və fərdi tədqiqatın rolu
1.2. Akademik yazının əsas prinsipləri
1.2.1. Məntiqi struktur və ardıcıllıq
1.2.2. Dəqiqlik və aydınlıq
1.2.3. Obyektivlik və tərəfsizlik
1.3. Akademik yazı modelləri
1.3.1. IMRaD modeli: akademik yazıda strukturlaşdırılmış yanaşma
1.3.2. Huni modeli və fokuslanma prinsipi
1.3.3. Problem yönümlü model: akademik yazıda problemdən həllə aparan strukturlaşdırma yanaşması
1.3.4. Arqument – Əks arqument – Sintez modeli: akademik yazıda tənqidi düşüncə və balanslı mövqe quruluşu
1.3.5. Tematik model: akademik yazının mövzuya əsaslanan strukturlaşdırılması
1.3.6. Xronoloji model: zaman ardıcıllığına əsaslanan akademik yazı strukturu
1.3.7. Hamburger modeli: akademik paraqraf strukturunun vizual və praktik yanaşması
1.3.8. Akademik yazı modellərin yekunu və struktur müqayisəsi
1.4. Akademik yazıda çətinliklər və təkmilləşdirmə yolları
1.4.1. Akademik üsluba yiyələnmədə qarşıya çıxan problemlər
1.4.2. Yazı bacarıqlarının inkişaf etdirilməsi üçün strategiyalar
Ədəbiyyat siyahısı

## 1.1. Akademik Yazının Bütövlüyü

Akademik yazı bilik istehsalının, paylaşılmasının və elmi biliklərin inkişaf etdirilməsinin ən mühüm vasitələrindən biridir. Akademik mühitdə yazının rolu sadəcə məlumat verməklə məhdudlaşmır. Onun əsas məqsədi mövcud bilik bazasına əsaslanaraq yeni fikirlər irəli sürmək, bu fikirləri əsaslandırmaq və onları məntiqi, sistemli və obyektiv şəkildə təqdim etməkdir. Beləliklə, akademik yazı həm fərdi tədqiqat bacarıqlarının ifadəsi, həm də elmi ictimaiyyətlə ünsiyyətin ən təsirli forması kimi çıxış edir. Akademik yazının bütövlüyü onun keyfiyyətinin və dəyərinin əsas göstəricilərindən biridir. Bütövlük, ilk növbədə, elmi dürüstlüyün qorunmasını, orijinal fikirlərin formalaşdırılmasını, istifadə olunan mənbələrin düzgün şəkildə göstərilməsini və plagiat hallarının qarşısının alınmasını nəzərdə tutur. Hər bir akademik mətn müstəqil düşüncəni əks etdirməli, elmi ədəb qaydalarına və metodoloji normalara uyğun tərtib edilməlidir. Bu yanaşma, yalnız fərdi məsuliyyət anlayışını gücləndirmir, həm də elmi etibar və şəffaflığın təmin olunmasına xidmət edir. Eyni zamanda, akademik yazının əsas prinsipləri onun strukturunda və məzmununda da öz əksini tapır. Məntiqi ardıcıllıq, arqumentlərin əsaslandırılması, mövzuya fokuslanma, terminlərin dəqiqliyi, aydın və qısa ifadə tərzi, həmçinin formal tələblərə (istinad üslubu, qaynaqların göstərilməsi və s.) riayət olunması bu prinsiplərin əsasını təşkil edir. Akademik yazıda hər bir fikir dəstəkləyici sübutlarla möhkəmləndirilməli, şəxsi mülahizələr isə elmi obyektivlik çərçivəsində təqdim edilməlidir.

Akademik yazının uğurla qurulması üçün müxtəlif yazı modellərindən istifadə olunur. Bu modellər fikirlərin daha sistemli təqdim olunmasına kömək edir və oxucunun mətnin məntiqi axarını rahat izləməsini təmin edir. Ən çox tətbiq olunan modellərdən biri "hamburger modeli"dir. Bu modelə əsasən giriş hissəsi mövzunun təqdimatını verir, əsas hissə arqumentləri və sübutları inkişaf etdirir, nəticə hissəsi isə ümumiləşdirməni və əsas ideyaların təsdiqini təqdim edir. Bununla yanaşı, problem-həll modeli, müqayisə və qarşılaşdırma modeli, analitik model kimi yanaşmalar da akademik yazının strukturlaşdırılmasında mühüm yer tutur.

Bu fəsildə akademik yazının bütövlüyünün qorunması yolları, əsas prinsipləri və effektiv yazı modelləri ətraflı şəkildə izah olunacaqdır. Məqsəd – tələbələrin və tədqiqatçıların elmi yazı bacarıqlarını inkişaf etdirmək, onların yazdıqları mətnlərin elmi standartlara cavab verməsi

ilə bağlı bilikləri təqdim etməkdir. Beləliklə, akademik yazının əsas qaydalarına dərindən yiyələnmək, həm fərdi akademik uğurun, həm də elmi cəmiyyətin inkişafının vacib şərtidir.

Akademik yazının bütövlüyü, elmi fəaliyyətin əsas prinsiplərindən biri olaraq, yazılı mətnlərdə dürüstlük, obyektivlik və orijinallığın qorunmasını nəzərdə tutur. Bütövlük müəllifin orijinal fikirlərini başqalarının ideyalarına və tədqiqat nəticələrinə düzgün şəkildə istinad etməklə və apardığı tədqiqatla əsaslandırmasını tələb edir. Akademik yazıda bütövlüyün təmin olunması elmi biliklərin keyfiyyətini və etibarlılığını artırır, tədqiqatçılar arasında qarşılıqlı etimad yaradır. Bütövlük özünü elmi yazının strukturunda göstərir: fikirlərin məntiqi inkişafı, arqumentlərin əsaslandırılması, terminlərin dəqiq istifadəsi və obyektiv yanaşma akademik standartların əsas tələblərindəndir. Etibarlı mənbələrə əsaslanmaq, sitat və istinad qaydalarına riayət etmək, fərdi yanaşmanı elmi sübutlarla birləşdirmək akademik dürüstlük çərçivəsində vacibdir. Nəticə etibarilə, akademik yazının bütövlüyü yalnız fərdi məsuliyyət deyil, həm də elmi cəmiyyətin inkişafı və biliklərin davamlı ötürülməsi üçün əsas şərtdir. Bütövlüyə sadiqlik, tədqiqat prosesində şəffaflığı və elmi nailiyyətlərin dəyərini qorumağa xidmət edir.

### 1.1.1. Akademik mətnin bütövlüyünü təmin edən əsas xüsusiyyətlər

Akademik mətnin bütövlüyü onun elmi dəyərinin, məzmun aydınlığının və peşəkar səviyyəsinin qorunmasını təmin edən əsas şərtdir. Yalnız ideyaların düzgün ifadəsi deyil, həm də bu ideyaların necə strukturlaşdırıldığı və oxucuya necə təqdim olunduğu akademik yazının keyfiyyətinə birbaşa təsir edir. Bütövlüyü qorumaq üçün bir sıra vacib xüsusiyyətlərə ciddi riayət olunmalıdır və bu xüsusiyyətlər bir-birini tamamlayaraq mətnin sistemli quruluşunu formalaşdırır (Bailey, 2018).

Akademik yazının ilk və ən vacib tələbi tematik fokuslanmanın təmin olunmasıdır. Mətn müəyyən olunmuş əsas mövzu ətrafında inkişaf etməli, əlaqəsiz və yayındırıcı ideyalara yer verilməməlidir. Yazar mövzudan kənara çıxmadan, fikirlərini sistemli şəkildə əsas ideyanın dəstəklənməsinə yönəltməlidir (Swales & Feak, 2012). Əks halda, mətnin bütövlüyü pozular, oxucu isə əsas məqamı anlamaqda çətinlik çəkə bilər.

Bununla yanaşı, təqdim olunan fikirlərin məntiqi ardıcıllığı qorunmalıdır. Məqalədə ideyalar bir-birini təbii şəkildə izləməli, səbəb-nəticə əlaqələri aydın olmalıdır. Oxucu bir arqumentdən digərinə keçərkən məntiqi bir ardıcıllıq hiss etməlidir (Hyland, 2019). Əgər fikirlər təsadüfi sıralanarsa və ya arqumentlər arasında əlaqə zəif qurularsa, bu, akademik yazının bütövlüyünü zəiflədə bilər.

Akademik mətnin bütövlüyünü təmin edən digər mühüm cəhət semantik tamlıqdır. Məna baxımından bütün hissələr bir-birini tamamlamalı, məqalədə fikir boşluqları və ya uyğunsuzluqlar olmamalıdır (Murray, 2017). Mətnin hər bir hissəsi əsas ideyanı dəstəkləməli, oxucu hər paraqrafdan sonra əsas məqsədə daha da yaxınlaşmalıdır. Struktur ardıcıllıq da akademik yazının əsas tələblərindəndir. Elmi əsərin (məqalə, dissertasiya, monoqrafiya və s.) ümumi quruluşu – giriş, əsas hissə və nəticə ardıcıllığı – aydın şəkildə təşkil olunmalıdır (Swales & Feak, 2012). Hər bir paraqraf öz daxilində məntiqli bir struktur daşımalı, bir əsas ideya ətrafında formalaşaraq onu sübut edən nümunə və arqumentlərlə dəstəklənməlidir.

Üslub vəhdəti bütöv mətn boyu qorunmalı, dil və terminologiya baxımından ardıcıl yanaşmaya riayət edilməlidir. Akademik yazıda obyektiv və elmi ifadə tərzi saxlanılmalı, qeyri-formal ifadələrə və ya şifahi üsluba yer verilməməlidir (Bailey, 2018). Terminlər ardıcıl şəkildə istifadə olunmalı və müxtəlif hissələrdə bir anlayış üçün fərqli terminlərdən istifadə olunmamalıdır. İnformasiya inteqrasiyası da akademik mətnin keyfiyyətinə birbaşa təsir edən amillərdəndir. Müxtəlif mənbələrdən əldə olunan biliklər və tədqiqat nəticələri bir-birindən ayrı şəkildə yox, əlaqələndirilərək, vahid bir ideya çərçivəsində təqdim olunmalıdır (Pecorari, 2015). Bu yanaşma elmi arqumentlərin daha güclü və inandırıcı olmasına şərait yaradır. Nəhayət, daxili ardıcıllıq təmin olunmalıdır. Məqalənin giriş hissəsində irəli sürülən məqsəd əsas hissədə inkişaf etdirilməli və nəticə hissəsində məntiqi olaraq ümumiləşdirilməlidir (Council of Writing Program Administrators, 2019). Əgər əsas hissədə girişdə qoyulmuş suallara cavab verilməzsə və ya nəticə həmin istiqamətdə yekunlaşdırılmazsa, məqalənin daxili ardıcıllığı pozular və məzmun bütövlüyü zəifləyər.

Beləliklə, akademik mətnin tematik fokuslanma, təqdimatın məntiqi ardıcıllığı, semantik tamlıq, struktur ardıcıllığı, üslub vəhdəti, informasiya inteqrasiyası və daxili ardıcıllıq kimi xüsusiyyətlər əsasında qurulması yazının elmi dəyərini artırır və oxucuya məzmunun aydın şəkildə çatdırılmasını təmin edir. Bu prinsiplərə riayət etmək, hər bir

tədqiqatçının və akademik yazarın peşəkar məsuliyyəti və elmi etibarının qorunmasının vacib şərtidir və mətnin elmi səviyyəsini yüksəltməyə və oxucuya məzmunun daha dəqiq ötürülməsinə xidmət edir. Aşağıda bu xüsusiyyətlər qısa şəkildə ümumiləşdirilərək cədvəl formasında təqdim olunur:

***Cədvəl 1.*** *Akademik mətnin bütövlüyünü təmin edən əsas xüsusiyyətlər*

| № | Xüsusiyyət | Qısa Təsviri |
|---|---|---|
| 1 | Tematik fokuslanma | Mətn əsas mövzu ətrafında sistemli şəkildə inkişaf etməli, əlaqəsiz fikirlərdən yayınmalıdır. |
| 2 | Təqdimatın məntiqi ardıcıllığı | Fikirlər və arqumentlər məntiqi səbəb-nəticə ardıcıllığına uyğun təqdim olunmalıdır. |
| 3 | Semantik tamlıq | Mətnin bütün hissələri məna baxımından bir-biri ilə əlaqəli olmalı, ziddiyyətlərdən qaçınılmalıdır. |
| 4 | Struktur ardıcıllığı | Giriş, əsas hissə və nəticə aydın şəkildə qurulmalı, hər bir paraqrafın daxili məntiqi olmalı və digər hissələrlə əlaqəsi olmalıdır. |
| 5 | Üslub vəhdəti | Mətn boyu dil və terminologiya ardıcıl və uyğun olmalı, qeyri-formal ifadələrdən istifadə edilməməlidir. |
| 6 | İnformasiya inteqrasiyası | Müxtəlif mənbələrdən əldə olunan biliklər əlaqələndirilməli və sistemli təqdim edilməlidir. |
| 7 | Daxili ardıcıllıq | Girişdə irəli sürülən suallar əsas hissədə cavablandırılmalı, nəticə ilə ümumiləşdirilməlidir. |

***Mənbə:*** *Bailey (2018), Swales və Feak (2012), Pecorari (2015), Murray (2017), Hyland (2019) kimi tədqiqatçıların nəticələrinin müəllif tərəfindən ümumiləşdirilməsi əsasında tərtib edilmişdir.*

### 1.1.2. Orijinallıq və fərdi tədqiqatın rolu

Elmi fəaliyyətin əsas dayaqlarından biri orijinallıq prinsipi və fərdi tədqiqatın roludur. Orijinallıq yalnız mövcud biliklərin təkrar təqdim olunmasından imtina deyil, həm də yeni baxış bucağının, alternativ yanaşmaların və innovativ ideyaların ortaya qoyulmasıdır. Müasir akademik mühitdə elmi tədqiqat yalnız məlumatların toplanması və təhlili ilə məhdudlaşmamalı, bu məlumatlar əsasında müəllifin öz yanaşması və təhlil bacarığı da açıq şəkildə görünməlidir. Fərdi tədqiqatın dəyəri onun təqdim etdiyi yeniliklə ölçülür. Bu yenilik ya nəzəri baxımdan mövcud modellərin inkişaf etdirilməsi, ya da praktik səviyyədə yeni metodların təklif olunması şəklində özünü göstərə bilər. Yeni ideya və yanaşmalar elmi diskussiyaya daxil olmaqla biliklər sisteminə töhfə verir və bu zaman tədqiqatçının fərdi baxış bucağı əsas amilə çevrilir. Orijinallığın təmin olunması üçün müəllif yalnız istifadə etdiyi mənbələrə istinad etməklə kifayətlənməməli, həmin materialları öz araşdırma kontekstində təhlil etməli, qarşılaşdırmalı və qiymətləndirməlidir. Bu isə müəllifin fərdi analitik qabiliyyətini və mövqeyini nümayiş etdirmək baxımından olduqca vacibdir (Murray, 2017). Fərdi tədqiqat həmçinin elmi cəsarətin göstəricisidir – çünki yeni bir fikri ortaya atmaq və onu əsaslandırmaq yalnız biliklə deyil, həm də tənqidə açıq olmaq məsuliyyəti ilə bağlıdır. Yeni ideyalar, xüsusilə interdisiplinar və lokal kontekstlərdə aparılan araşdırmalarda daha çox önə çıxır. Məsələn, qlobal nəzəriyyələrin yerli şəraitə uyğunlaşdırılması və ya lokal problemlərin universal çərçivədə təhlili kimi yanaşmalar elmi innovativlik baxımından yüksək qiymətləndirilir. Beləliklə, orijinallıq və fərdi tədqiqat sadəcə yazının forması ilə deyil, onun intellektual məzmunu ilə bağlıdır və hər bir akademik tədqiqatçının peşəkar mövqeyini müəyyən edən başlıca kriteriyalardan sayılır.

Orijinallıq və fərdi tədqiqat akademik yazının intellektual səviyyəsini müəyyən edən əsas göstəricilərdən biridir. Fərdi yanaşma yalnız mövzu seçiminə deyil, həm də həmin mövzunun necə işlənilməsinə aiddir. Bu kontekstdə tədqiqatçının mövcud biliklər sisteminə hansı yeni baxış bucağından yanaşdığı və hansı əlavə dəyəri yaratdığı əsas əhəmiyyət daşıyır. Elmi yazıda orijinallıq özünü yalnız yeni məlumat təqdim etməkdə deyil, həm də mövcud məlumatlara fərqli münasibət göstərməkdə, fərdi təhlil və interpretasiya qabiliyyətində göstərir. Məhz bu mərhələdə mövcud ədəbiyyatın tənqidi təhlili ön plana çıxır. Ədəbiyyat icmalının məqsədi sadəcə oxunan mənbələri xülasə etmək

deyil, onların dəyərini, güclü və zəif tərəflərini, məntiqi uyğunluqlarını və metodoloji sərhədlərini analiz edərək qiymətləndirməkdir. Tənqidi təhlil fərdi tədqiqatın əsaslandığı zəmini müəyyən edir, mövcud boşluqları üzə çıxarır və müəllifin tədqiqat mövqeyinin formalaşmasına imkan yaradır. Bu proses tədqiqatçını passiv məlumat istifadəçisindən aktiv bilik istehsalçısına çevirir. Yeni ideyaların və alternativ yanaşmaların formalaşması da məhz bu mərhələdə baş verir: tədqiqatçı fərqli nəzəriyyələri və yanaşmaları müqayisə edərək öz mövqeyini inkişaf etdirir, həm mövcud diskussiyalara qoşulur, həm də bu diskussiyaları yeni istiqamətə yönəldir. Orijinallığın yalnız "yenilik" kimi başa düşülməsi kifayət deyil – bu həm də artıq məlum olanların fərqli, daha dərindən və kontekstual şəkildə qiymətləndirilməsidir. Bu baxımdan, orijinal akademik yazı mövcud ədəbiyyatın tənqidi və analitik baxışla yenidən işlənməsi nəticəsində formalaşır. Beləliklə, fərdi tədqiqatın dəyəri təkcə yeni nəticələr əldə etməsində deyil, həm də mövcud bilikləri necə analiz edib, onları hansı formada inkişaf etdirməsində ortaya çıxır.

## 1.2. Akademik Yazının Əsas Prinsipləri

Akademik yazı yalnız fikirlərin yazılı ifadəsi deyil, həm də elmi düşüncə tərzinin sistemli şəkildə təqdim olunmasıdır. Bu yazı növü məlumat ötürməkdən daha çox tədqiqat aparmaq, arqument qurmaq və nəticə çıxarmaq məqsədi daşıyır. Elmi cəmiyyətdə qəbul olunmuş standartlara uyğun olaraq hazırlanan akademik mətnlər yalnız mövzuya bələdliyi deyil, həm də intellektual dürüstlüyü, metodoloji savadı və elmi mədəniyyəti əks etdirməlidir. Bunun üçün akademik yazının forması və məzmunu müəyyən prinsiplər çərçivəsində qurulmalıdır. Həmin prinsiplər təkcə texniki göstəricilər deyil, həm də yazının elmiliyini, oxunaqlığını və etibarlılığını təmin edən meyarlardır. Bu baxımdan məntiqi struktur və ardıcıllıq, dəqiqlik və aydınlıq, eləcə də obyektivlik və tərəfsizlik akademik yazının əsasını təşkil edən fundamental prinsiplər kimi çıxış edir.

Məntiqi struktur və ardıcıllıq prinsipi yazının giriş, əsas hissə və nəticə kimi bölmələrinin bir-biri ilə məntiqi bağlılıq təşkil etməsini və fikirlərin sistemli şəkildə inkişaf etdirilməsini tələb edir. Oxucu mövzuya girişdən başlayaraq, əsas hissədə arqumentlərin qurulmasını və nəticə hissəsində ümumiləşdirilməsini izləyə bilməlidir. Hər paraqraf bir əsas ideyanı ifadə etməli, əvvəlki və sonrakı paraqraflarla fikir əlaqəsi saxlamalıdır. Strukturun pozulması və fikir ardıcıllığının olmaması

yazının oxunaqlığını və akademik keyfiyyətini zəiflədir.
Dəqiqlik və aydınlıq prinsipi isə təqdim olunan məlumatların konkret, faktlara əsaslanan və anlaşıqlı şəkildə ifadə olunmasını nəzərdə tutur. Elmi yazıda qeyri-müəyyən, emosional və ya ümumi ifadələrə yer verilməməlidir. Hər bir termin düzgün kontekstdə istifadə olunmalı, statistik məlumatlar və istinadlar dəqiq göstərilməlidir. Aydınlıq üçün isə mürəkkəb cümlələrdən çəkinməli, fikirlər qısa, məzmunlu və məqsədyönlü qurulmalıdır. Yazının məqsədi oxucunu təsirləndirmək deyil, onu məlumatlandırmaq və düşündürməkdir. Bu isə yalnız aydın və səlis ifadə tərzi ilə mümkündür.
Obyektivlik və tərəfsizlik prinsipi isə müəllifin şəxsi münasibət və emosiyalardan uzaq durmasını, yalnız sübutlara əsaslanmasını və müxtəlif mövqeləri elmi əsaslarla dəyərləndirməsini tələb edir. Akademik yazıda bir fikir üstün tutularkən, əks mövqelər də təqdim olunmalı və onların niyə zəif hesab edildiyi elmi əsaslarla izah olunmalıdır. Yazıda tərəfli dil, emosional yüklü sözlər və subyektiv münasibətlərdən uzaq durulmalı, əvəzində neytral və sübuta əsaslanan dil istifadə olunmalıdır. Bu, yazının elmi etibarını və oxucu tərəfindən qəbul edilmə imkanlarını artırır.
Beləliklə, akademik yazının keyfiyyətli olması yalnız mövzu seçimi və araşdırma dərinliyi ilə deyil, həm də onun necə ifadə olunması ilə birbaşa bağlıdır. Məntiqi struktur, fikir ardıcıllığı, dəqiq və aydın dil, eləcə də obyektiv və tərəfsiz yanaşma akademik yazının elmiliyini təmin edən əsas sütunlardır. Bu prinsiplərə əməl edilmədən yazılan hər hansı mətn nə qədər zəngin məzmunlu olsa da, elmi dəyər baxımından zəif hesab edilə bilər. Növbəti hissələrdə bu prinsiplərin hər biri daha ətraflı şəkildə izah ediləcək, onların akademik yazıdakı rolu, tətbiqi və tez-tez rast gəlinən problemlər nümunələrlə təqdim olunacaq.

### 1.2.1. Məntiqi struktur və ardıcıllıq

Akademik yazının əsas məqsədi yalnız informasiya təqdim etmək deyil, bu informasiyanı elmi əsaslarla sistemləşdirmək, dəyərləndirmək və oxucuya aydın, məntiqi və əsaslandırılmış şəkildə çatdırmaqdır. Bu məqsədə çatmaq üçün beynəlxalq elmi ədəbiyyatda geniş şəkildə qəbul olunmuş struktura əsaslanmaq vacibdir. Həmin struktur giriş, əsas hissə və nəticə bölmələrindən ibarətdir. Bu bölmələr yazının yalnız texniki çərçivəsi deyil, onun elmi dəyərinin formalaşmasına və oxucu ilə effektiv ünsiyyətin qurulmasına xidmət edən vacib ünsürlərdir (Swales & Feak,

2012).
Giriş hissəsi yazının ideya baxımından başlanğıcı olmaqla yanaşı, oxucunun diqqətini mövzuya cəlb edən, problemin aktuallığını əsaslandıran və tədqiqatın məqsədini müəyyən edən hissədir. Girişdə ilk növbədə tədqiqatın predmeti, problem konteksti və mövcud elmi yanaşmalarla müqayisədə bu tədqiqatın hansı yeniliyi ortaya qoyduğu aydın şəkildə ifadə olunmalıdır. Burada tədqiqat sualı, hipotez və araşdırmanın məqsədi də konkret şəkildə təqdim olunmalıdır. Giriş eyni zamanda nəzəri baza üçün keçid nöqtəsi kimi çıxış edir. Əgər yazı empirik tədqiqat əsasında qurulubsa, bu hissədə mövcud ədəbiyyatla bağlı ilkin müşahidələr və çatışmazlıqlar da ümumi şəkildə qeyd olunur ki, bu da əsas hissəyə keçid üçün zəmin yaradır.

***Nümunə:*** *Süni intellektin əmək bazarına təsiri ilə bağlı bir tədqiqatda giriş hissəsində bu texnologiyanın əmək bazarında yaratdığı narahatlıqlar, müxtəlif ölkələrdə aparılmış tədqiqatların nəticələri, mövzu ilə bağlı nəzəri yanaşmalar və müəllifin bu sahədə hansı konkret boşluğu doldurmaq istədiyi göstərilməlidir.*

Əsas hissə yazının ən geniş və analitik hissəsi olmaqla, elmi arqumentlərin, faktların, təhlillərin və qiymətləndirmələrin təqdim olunduğu hissədir. Bu bölmədə tədqiqatın ədəbiyyat icmalı, nəzəri çərçivəsi, metodologiyası, analizin (empirik, nəzəri, icmal) nəticələri və sintez sistemli şəkildə qurulmalıdır. Ədəbiyyat icmalı (literature review) zamanı mövcud tədqiqatlar müqayisəli formada təhlil edilir, elmi boşluqlar müəyyən olunur və bu yazının həmin boşluğu necə dolduracağı əsaslandırılır (Hart, 2018). İcmal tənqidi və məqsədli şəkildə qurulmalı, yalnız məlumatların sadalanması ilə kifayətlənməməlidir. Daha sonra metodologiya hissəsində tədqiqatın hansı üsullarla həyata keçirildiyi, məlumatların necə toplanıldığı və hansı analiz alətlərindən istifadə olunduğu izah edilir. Bu, yazının elmi obyektivliyini təmin edən əsas texniki hissədir (Creswell & Creswell, 2018). Burada həm keyfiyyət, həm də kəmiyyət metodlarının izahı, nümunə kütləsinin seçimi, dəyişənlər, analiz proqramı (məsələn, SPSS, Eviews, Python, R və s.) və tədqiqatın məhdudiyyətləri açıq şəkildə göstərilməlidir. Metodologiyadan sonra təqdim olunan analiz hissəsində isə müəllif tədqiqat sualına cavab verə biləcək nəticələri təqdim edir, bu nəticələri izah edir və əvvəlki tədqiqatlarla müqayisə edir. Hər bir nəticə faktlara əsaslanmalı və məntiqi şəkildə strukturlaşdırılmalıdır. Əsas hissənin

uğurlu olması üçün paraqraflar arasında keçidlər aydın, arqumentlər ardıcıl və əsaslandırılmış olmalıdır (Booth, Colomb, & Williams, 2016).

Nümunə: Əgər müəllif iddia edirsə ki, süni intellekt aşağı ixtisaslı işçi qruplarına daha çox təsir göstərir, bu fikir rəsmi statistikalar, anket nəticələri və ya digər müəlliflərin empirik nəticələri ilə sübut olunmalıdır. Qarşı mövqelərə də yer verilməli, onların niyə zəif hesab edildiyi əsaslandırılmalıdır.

Nəticə hissəsi yazının yekun və ümumiləşdirici hissəsidir. Bu bölmədə müəllif təqdim etdiyi arqumentləri qısa şəkildə xatırladır, tədqiqat sualına cavab verir və yazının elmi əhəmiyyətini vurğulayır. Burada yeni məlumat təqdim olunmur, əksinə əvvəlki hissələrdə aparılan təhlillər nəticəsində əldə olunmuş əsas qənaətlər ümumiləşdirilir. Eyni zamanda gələcək tədqiqatlar üçün təkliflər də bu hissədə yer almalıdır.

Nümunə: Süni intellektin əmək bazarında struktur dəyişikliklər yaratdığını əsaslandıran bir yazının nəticəsində müəllif bu texnologiyanın tənzimlənməsi üçün hüquqi və sosial siyasət çərçivələrinin yaradılmasını tövsiyə edə bilər.

Beləliklə, akademik yazının məntiqi strukturu sadəcə texniki forma deyil, eyni zamanda fikirlərin sistemli şəkildə qurulması və oxucunun mövzunu dərin şəkildə qavramasına imkan verən intellektual çərçivədir. Giriş oxucunu mövzuya hazırlayır və suallar doğurur, əsas hissə bu suallara cavab verir və nəticə həmin cavabları ümumiləşdirərək oxucuda tamamlanmış fikir formalaşdırır. Ədəbiyyatın təhlili, metodoloji yanaşma və analiz bölmələrinin uyğun yerlərdə yerləşdirilməsi isə yazının elmi etibarlılığını və analitik dəyərini artıran əsas komponentlərdir.

### 1.2.2. Dəqiqlik və Aydınlıq

Akademik yazının əsas keyfiyyət meyarlarından biri dəqiqlik və aydınlıqdır. Bu prinsiplərə riayət olunmayan mətnlər elmi dəyərini itirə, oxucuda anlaşılmazlıq yarada və müəllifin mövqeyini zəiflədə bilər. Dəqiqlik ilk növbədə faktların yanlışsız təqdim olunması, arqumentlərin əsaslandırılmış şəkildə ifadəsi və xüsusilə də istifadə olunan terminlərin düzgün seçimi və tətbiqi ilə bağlıdır. Akademik mətndə istifadə olunan hər bir termin konkret və sabit mənaya malik olmalı, kontekstdən

asılı olaraq fərqli şəkildə yozulmamalı və bir anlayış üçün bir termin prinsipinə uyğunluq saxlanmalıdır. Terminoloji dəqiqlik yazının elmi keyfiyyətinin mühüm göstəricilərindən biridir, çünki oxucu müəllifin hansı anlayışı ifadə etdiyini yalnız bu dəqiqlik sayəsində anlaya bilir (Bailey, 2018). Məsələn, "səmərəlilik" və "effektivlik" anlayışları bir çox tələbə tərəfindən sinonim kimi işlədilsə də, iqtisadi ədəbiyyatda bu terminlər fərqli məzmun daşıyır. Birincisi resurs istifadəsinin optimallığını, ikincisi isə nəticələrin məqsədə çatma səviyyəsini göstərir. Bu fərqi gözdən qaçırmaq tədqiqatın əsas tezisini zəiflədə və nəticələrin yanlış başa düşülməsinə səbəb ola bilər.

Aydınlıq isə fikirlərin sadə, məntiqli və izlənilə bilən şəkildə təqdim olunmasını tələb edir. Bu, nəinki yazının oxunaqlığını artırır, həm də müəllifin elmi üslubda öz fikrini sistemli ifadə edə bilmə bacarığını nümayiş etdirir. Bir çox hallarda tələbələr yazını "ağırlıqlı" göstərmək məqsədilə mürəkkəb cümlələr qurmağa və bir neçə ideyanı eyni cümlədə yerləşdirməyə çalışırlar. Bu isə əksinə, həm fikrin dumanlanmasına, həm də oxucuya çatdırılmasında çətinlik yaranmasına səbəb olur. Akademik yazı nə qədər ciddi məzmunlu olsa da, ifadə tərzi mümkün qədər konkret və aydın olmalıdır. Swales və Feak (2012) qeyd edirlər ki, akademik cəmiyyətlərdə fikrin mahiyyəti deyil, onun nə qədər dəqiq və aydın ifadə edildiyi daha tez qəbul olunur. Məsələn, "cəmiyyətin inkişaf meyilləri" ifadəsi əvəzinə "2020-ci ildən sonra inkişaf etmiş ölkələrdə orta gəlirli təbəqənin artması" kimi konkret nümunəyə əsaslanan fikir təqdim olunması daha təsirli və dəyərlidir.

Dəqiqliyin qorunması üçün faktlara istinad, statistik məlumatların düzgün təqdimatı və hər mənbənin elmi qaydalara uyğun göstərilməsi də vacibdir. Məsələn, "son illər iqtisadiyyat zəifləyib" ifadəsi qeyri-dəqiqdir. Bunun əvəzinə "ÜDM-in 2024-cü ildə 1.2% azalması (IMF, 2025)" kimi faktlara əsaslanan ifadələr yazının elmi əsasını gücləndirir. Aydınlıq üçün isə hər paraqrafda yalnız bir əsas fikir ifadə olunmalı, həmin fikir izah və sübutlarla inkişaf etdirilməlidir. Mətnin daxili strukturu da fikrin aydınlığını dəstəkləməlidir – giriş cümləsi, əsas fikir və onu tamamlayan nümunə və nəticə cümlələri şəklində qurulmalıdır (Murray, 2017). Terminlərin eyni mətn daxilində ardıcıl şəkildə işlədilməsi də bu struktura xidmət edir. Əgər bir anlayış üçün yazının əvvəlində "kapital axını" ifadəsi istifadə olunubsa, sonrakı hissədə onu "maliyyə dövriyyəsi" ilə əvəzləmək oxucuda çaşqınlıq yarada bilər.

Beləliklə, dəqiqlik və aydınlıq akademik yazının həm forma, həm də məzmun baxımından oxucu ilə effektiv elmi ünsiyyətini təmin edən əsas

prinsiplərdir. Bu prinsiplərə əməl edilməsi müəllifin mövzuya nə qədər dərindən bələd olduğunu və elmi düşüncə sisteminə uyğun fikir qurmaq bacarığını nümayiş etdirir. Yazının uğuru yalnız orijinal ideyalarla deyil, bu ideyaların necə və hansı anlayışlarla ifadə edildiyi ilə də ölçülür.

## 1.2.3. Obyektivlik və Tərəfsizlik

Akademik yazının fundamental prinsiplərindən biri obyektivlik və tərəfsizlikdir. Bu prinsiplər elmi tədqiqatın etibarlığını və neytrallığını qorumaq üçün vacibdir. Obyektivlik ondan ibarətdir ki, müəllif şəxsi münasibət və emosiyalardan uzaq duraraq məlumatları olduğu kimi təqdim etməli, əldə olunan nəticələri öncədən qəbul edilmiş fərziyyələrə deyil, faktlara əsasən şərh etməlidir. Tərəfsizlik isə müxtəlif baxış bucaqlarına bərabər məsafədə dayanmaq, qarşı mövqeləri də nəzərə almaq və yalnız elmi əsaslara söykənərək nəticəyə gəlmək deməkdir. Elmi yazının məqsədi hər hansı bir ideyanı müdafiə etməkdən çox, onun elmi əsaslı olub-olmadığını qiymətləndirmək və sübutlarla izah etməkdir (Booth, Colomb & Williams, 2016).

Obyektiv yazı müəllifin şəxsi fikirlərini təqdim etməsini qadağan etmir, lakin bu fikirlər sübuta və elmi əsaslara söykənməli, qeyri-müəyyən və emosional ifadələrlə deyil, neytral və dəqiq dil vasitəsilə qurulmalıdır. Məsələn, "bu siyasət çox pis nəticələrə səbəb oldu" kimi ifadələr subyektivdir və elmi mətn üçün uyğun deyil. Bunun əvəzinə "2021-ci ildə tətbiq olunan bu siyasət nəticəsində işsizlik səviyyəsi 2.8% artmışdır (UNDP, 2022)" şəklində faktlara əsaslanan obyektiv təqdimat daha doğrudur. Eyni zamanda, müəllif yalnız öz arqumentlərini deyil, mövzuya dair əks mövqeləri də təqdim etməli və bu yanaşmaları da elmi şəkildə şərh etməlidir. Qarşı arqumentlərin nəzərə alınmaması yazıya birtərəfli yanaşma təsiri bağışlayır və tədqiqatın etibarlılığına zərər vurur (Swales & Feak, 2012). Tərəfsizliyin qorunması üçün müəllif mənbələrin seçilməsində də diqqətli olmalı, yalnız öz mövqeyini dəstəkləyən deyil, fərqli yanaşmaları əks etdirən elmi mənbələrə də istinad etməlidir. Bu, həm akademik dürüstlüyün tələblərinə cavab verir, həm də tədqiqatın analitik səviyyəsini yüksəldir. Obyektiv və tərəfsiz yazılmış mətnlərdə dil də neytral olur – "haqlı", "yanlış", "mükəmməl", "faciəvi" kimi emosional yüklü sözlərdən çəkinmək tövsiyə olunur. Bunun əvəzinə "əhəmiyyətli təsir göstərdi", "istiqamət dəyişdi", "alternativ yanaşma təklif olunur" kimi ifadələr istifadə olunmalıdır (Murray, 2017).

Aşağıda obyektivlik və tərəfsizlik prinsiplərinin təhlilini əks etdirən

vizual cədvəl təqdim olunur. Cədvəldə bu anlayışların əsas xüsusiyyətləri sistemli şəkildə təsvir edilir, qeyri-akademik yanaşmalarla müqayisəsi aparılır və elmi üsluba uyğun ifadə nümunələri ilə dəstəklənir.

***Cədvəl 2.*** *Obyektivlik və tərəfsizliyin akademik yazıda tətbiq aspektləri*

| Prinsip | Tərifi | Akademik aazıda nə deməkdir? | Qeyri-akademik hal (səhv yanaşma) | Düzgün ifadə nümunəsi |
|---|---|---|---|---|
| Obyektivlik | Faktlara əsaslanan neytral təqdimat | Fikirlər və nəticələr şəxsi münasibətdən uzaq, sübutlara əsaslanaraq yazılır | "Bu qanun çox pisdir, çünki cəmiyyətə zərər verir." | "2024-ci ildə qəbul edilən qanun nəticəsində sosial xərclər 15% azaldılmışdır (UNDP, 2025)." |
| Tərəfsizlik | Əks mövqelərə ədalətli yanaşma | Müəllif yalnız öz baxışını deyil, alternativ yanaşmaları da nəzərə alır və obyektiv qiymətləndirir | Yalnız bir müəllifin və ya nəzəriyyənin müdafiə etmək, digərlərini isə inkar etmək | "Bəzi tədqiqatçılar süni intellektin iş yerlərini azaltmadığını iddia etsələr də (Autor, 2020), bu mövqe tam əks arqumentlərlə də qarşılanır." |

***Mənbə:*** *Swales, J. M., & Feak, C. B. (2012). Academic Writing for Graduate Students: Essential Tasks and Skills (3rd ed.). Ann Arbor: University of Michigan Press). Cədvəl müəllif tərəfindən göstərilən mənbə əsasında tərtib olunmuşdur.*

Beləliklə, obyektivlik və tərəfsizlik akademik yazının yalnız etik deyil, həm də metodoloji cəhətdən vacib komponentlərindəndir. Müəllif faktlara əsaslanan arqumentlər quraraq və fərqli mövqeləri nəzərə alaraq yazının elmi dəyərini və oxucu inamını təmin edir. Bu prinsiplərə əməl olunmayan yazılar yalnız subyektiv düşüncə ifadəsi kimi qəbul edilə bilər və elmi diskursda etibarlı mövqe qazana bilməz.

## 1.3. Akademik yazı modelləri

Akademik yazı yalnız məlumat ötürmək və ya fikir bildirmək deyil, eyni zamanda bu məlumat və fikirlərin müəyyən struktura və məqsədəuyğun yazı modelinə əsaslanaraq təqdim olunmasıdır. Yazının keyfiyyəti təkcə məzmunun elmi əsaslılığı ilə deyil, həm də onun oxucu üçün nə dərəcədə anlaşıqlı, məntiqi və məqsədəuyğun şəkildə qurulması ilə qiymətləndirilir. Bu baxımdan akademik yazılarda müxtəlif struktura malik modellərdən istifadə olunur. Yazı modeli müəllifin niyyətinə – informativ, analitik, arqumentativ və ya interpretativ olmasına – uyğun seçilməlidir. Hər bir modelin tətbiqi oxucuya təqdim olunan informasiyanın qəbul olunmasına, məntiqi axının və əsaslandırmanın effektivliyinə birbaşa təsir edir. Məsələn, empirik tədqiqat əsasında yazılan məqalələr üçün IMRaD modeli, problem yönümlü esse və təhlillər üçün isə problem–təhlil–həll strukturu daha məqsədəuyğundur. Eyni zamanda, yazının giriş hissəsini qurmaq üçün huni modeli, fikir inkişafını sistemləşdirmək üçün isə tematik və ya xronoloji modellərdən istifadə edilir. Yazının arqumentativ dəyərini artırmaq üçün arqument–əks arqument–sintez modeli, fikir paraqraflarının sadə quruluşu üçün isə hamburger modeli tətbiq olunur. Akademik yazının effektivliyini artırmaq üçün müəllif bu modellərdən məqsədəuyğun olanı seçməli və struktur prinsipinə ardıcıl şəkildə əməl etməlidir. Növbəti hissələrdə qeyd olunan bütün modellər ətraflı şəkildə izah ediləcək, onların funksional xüsusiyyətləri və tətbiq kontekstləri nəzəri və praktiki nümunələrlə təqdim olunacaq.

### 1.3.1. IMRaD Modeli: Akademik Yazıda Strukturlaşdırılmış Yanaşma

IMRaD modeli (Introduction–Method–Results–Discussion) akademik yazılarda, xüsusilə də empirik tədqiqatlara əsaslanan məqalə və hesabatlarda ən geniş istifadə olunan struktur modellərindən biridir. Bu model elmi məlumatların sistemli və oxucu üçün aydın şəkildə təqdim edilməsinə xidmət edir. IMRaD strukturunun məqsədi oxucunu tədqiqatın konteksti, necə aparıldığı, hansı nəticələrin əldə edildiyi və bu nəticələrin necə izah olunduğu barədə mərhələli şəkildə məlumatlandırmaqdır. Bu, təkcə akademik yazının standart forması deyil, həm də elmi cəmiyyətin nəticələrin şəffaf və təkrarlana bilən şəkildə paylaşılmasını təmin etmək üçün qəbul etdiyi universal bir çərçivədir (Swales & Feak, 2012).

Giriş (Introduction) hissəsində tədqiqatın məqsədi, aktuallığı və elmi problemi təqdim olunur. Müəllif bu bölmədə oxucuya nəyi və niyə araşdırdığını izah edir, mövcud ədəbiyyatda hansı boşluğu doldurduğunu və tədqiqat sualını və ya hipotezini aydın şəkildə formalaşdırır. Metod (Method) bölməsi tədqiqatın necə aparıldığını göstərir. Burada istifadə olunan metodologiya, məlumatların toplanması və emalı üsulları, nümunə seçimi, istifadə olunan alətlər və statistik analiz texnikaları izah olunur. Bu hissə tədqiqatın təkrarlana bilməsi və elmi obyektivliyinin təmin olunması üçün xüsusi əhəmiyyət daşıyır (Creswell & Creswell, 2018). Nəticələr (Results) bölməsində tədqiqatdan əldə edilən əsas tapıntılar təqdim olunur. Bu hissədə məlumatlar cədvəl, diaqram və ya qrafiklərlə dəstəklənə bilər. Vacib məqam odur ki, burada nəticələrin şərhi deyil, sadəcə faktiki məlumatlar verilir. Müzakirə (Discussion) hissəsi nəticələrin şərh olunduğu, onların mövcud ədəbiyyatla müqayisə edildiyi və tədqiqatın elmi əhəmiyyətinin vurğulandığı bölmədir. Burada müəllif həm nəticələrin mümkün səbəblərini, həm də məhdudiyyətləri və gələcək tədqiqat istiqamətlərini təqdim edir.

IMRaD modeli tədqiqat prosesinin məntiqi ardıcıllığını əks etdirir və oxucunun hər mərhələni ayrı-ayrılıqda qavramasına imkan yaradır. Xüsusilə beynəlxalq elmi jurnallar və konfrans materiallarında bu struktur formatı demək olar ki, standart hal almışdır. Beləliklə, IMRaD modeli akademik yazının elmi və texniki keyfiyyətini artırmaqla yanaşı, elmi nəticələrin başqaları tərəfindən təkrar araşdırılması və qiymətləndirilməsi üçün şəffaf çərçivə yaradır.

## 1.3.2. Huni modeli və fokuslanma prinsipi

Akademik yazının giriş hissəsinin təsirli və məntiqli qurulması, yazının ümumi keyfiyyətinə birbaşa təsir göstərir. Giriş nə qədər məqsədyönlü və ardıcıl olarsa, oxucunun mövzuya marağı və mətnə inamı da bir o qədər artır. Bu baxımdan, giriş hissəsində ən çox istifadə olunan yanaşmalardan biri Huni modelidir. Bu model adını məntiqi quruluşundan alır: yazı geniş və ümumi kontekstdən başlayaraq, tədricən fokuslanır və spesifik tədqiqat sualına doğru daralır – sanki bir huni kimi. Huni modeli müəllifə fikirlərini geniş çərçivədə təqdim etməyə, lakin eyni zamanda oxucunu ardıcıl şəkildə əsas sual və məqsədə istiqamətləndirməyə imkan verir.

Təsəvvür edək ki, bir müəllif iqlim dəyişikliyinin kənd təsərrüfatına təsirini araşdırmaq istəyir. Huni modelinə əsasən, o, əvvəlcə ümumi şəkildə iqlim dəyişikliyinin qlobal təsirləri barədə yazıya başlayır:

temperatur artımı, quraqlıqlar və məhsuldarlığın azalması kimi geniş təsvirlər təqdim olunur. Daha sonra, müəllif fokuslanaraq bu təsirlərin konkret region – məsələn, Cənubi Qafqazda – necə göründüyünü izah edir. Nəhayət, ən dar nöqtədə tədqiqatın dəqiq məqsədi və sualı təqdim olunur: məsələn, “Bu tədqiqat 2000–2020-ci illər arasında Azərbaycanda temperatur dəyişikliklərinin buğda istehsalına təsirini empirik olaraq qiymətləndirir.” Bu yanaşma oxucuya əvvəlcə ümumi mənzərəni göstərir, sonra onu tədricən spesifik problemə doğru aparır. Beləliklə, həm maraq formalaşdırır, həm də tədqiqatın niyə vacib və aktuallıqlı olduğunu əsaslandırır.
Huni modelinin gücü ondan ibarətdir ki, müəllif nəyi niyə araşdırdığını izah etmək üçün mövzuya tədricən yaxınlaşır. Bu isə oxucunun məntiqi axını izləməsinə və müəllifin mövqeyini anlamağına şərait yaradır. Eyni zamanda, tədqiqatın ədəbiyyat kontekstində hansı boşluğu doldurduğu və əvvəlki işlərdən nə ilə fərqləndiyi bu modelin daxilində aydın şəkildə təqdim edilə bilir. Məsələn, girişdə “mövcud tədqiqatların əksəriyyəti kənd təsərrüfatına təsiri ölkə səviyyəsində qiymətləndirmişdir, lakin lokal iqlim fərqlərinin məhsuldarlığa təsiri hələ də yetərincə araşdırılmamışdır” kimi ifadələr istifadə oluna bilər. Bu isə oxucuya göstərir ki, bu yazı yeni və fərqli bir aspekti işıqlandıracaq.
Huni modeli yazıya sistemlik və ardıcıllıq gətirsə də, bəzən oxucunun səbirlə son nöqtəyə çatmasını gözləyir. Bu isə daha sürətli informasiyaya ehtiyac duyan oxucular üçün çətinlik yarada bilər. Eyni zamanda, mövzuya dərhal daxil olmaq tələb olunan bəzi akademik yazılarda (məsələn, qısa esselərdə və ya reaksiya mətnlərində) bu model o qədər də səmərəli olmaya bilər.
Huni modeli akademik girişlərin qurulmasında geniş istifadə olunsa da, bu sahədə alternativ yanaşmalar da mövcuddur və onların hər biri fərqli məqsədlərə xidmət edir. Məsələn, tezis-öncəli giriş modeli müəllifin əsas arqument və ya məqsədini mətnin əvvəlində – girişin ilk və ya ikinci cümləsində – birbaşa ifadə edir. Bu struktur oxucuya dərhal müəllifin mövqeyini təqdim edir və daha sonra bu mövqenin əsaslandırılması məqsədilə kontekstual və nəzəri çərçivəyə keçid edilir. Bu yanaşma xüsusilə qısa esselərdə0 və mövqeyə əsaslanan arqumentativ yazılarda geniş istifadə olunur. Sual əsaslı giriş isə yazının əvvəlində tədqiqat sualını və ya problematik situasiyanı ön plana çıxarır və bu sual ətrafında müzakirənin qurulmasına şərait yaradır. Bu tip giriş oxucuda intellektual maraq oyatmaq və mövzuya dərhal fokuslanmaq məqsədi daşıyır. Halbuki huni modeli bu modellərdən fərqli olaraq, fikirlərin

təqdimatında mərhələli və tədrici yaxınlaşmanı əsas tutur. O, oxucunu əvvəlcə ümumi kontekstlə tanış edir, daha sonra tədricən spesifik problemə və tədqiqat məqsədinə doğru istiqamətləndirir. Bu baxımdan, huni modeli daha çox empirik tədqiqatlara və elmi əsaslandırma tələb edən yazı növlərinə uyğun gəlir. Beləliklə, giriş modelinin seçimi yazının məqsədindən və üslubundan asılı olaraq müəyyən edilməlidir.

Bu struktur yanaşmanı daha aydın anlamaq üçün huni modelinin mərhələli quruluşuna nəzər salmaq faydalı olar. Bu mərhələlər giriş mətnində fikrin necə tədricən fokuslandığını və tədqiqat məqsədinə doğru necə yönəldiyini sistemli şəkildə izah edir.

***Cədvəl 3.*** *Huni modelinin vizual sxemi və mərhələli təhlili*

| Mərhələ | Məzmun tipi | Məqsəd |
|---|---|---|
| Geniş kontekst | Mövzuya dair ümumi təsvir (qlobal səviyyə) | Oxucunun diqqətini çəkmək |
| Dar fokus | Problem sahəsinin konkretləşdirilməsi | Tədqiqat boşluğunu göstərmək |
| Spesifik sual/məqsəd | Tədqiqat sualı, hipotez və ya məqsədin ifadəsi | Yazının istiqamətini və elmi töhfəsini göstərmək |

***Mənbə:*** *Swales, J. M., & Feak, C. B. (2012). Academic Writing for Graduate Students: Essential Tasks and Skills (3rd ed.). Ann Arbor: University of Michigan Press. əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

Beləliklə, huni modeli yalnız strukturlaşdırma vasitəsi deyil, həm də oxucuda maraq yaratma və onu yazının əsas tezisinə hazırlama texnikasıdır. Akademik yazıda uğurlu tətbiq edildikdə bu model sadəcə informativ giriş deyil, həm də intellektual bir yola çıxış nöqtəsi rolunu oynayır. Hər bir tədqiqatçının bu yanaşmanı mənimsəməsi və tətbiq etməsi, yazının elmi və üslubi keyfiyyətini əhəmiyyətli dərəcədə artırır.

### 1.3.3. Problem yönümlü model: akademik yazıda problemdən həllə aparan strukturlaşdırma yanaşması

Problem yönümlü model (problem-solution structure) akademik yazının strukturlaşdırılmasında tez-tez istifadə olunan funksional yanaşmalardan biridir. Bu model əsasən real və ya nəzəri bir problemin müəyyənləşdirilməsi, onun analitik təhlili və mümkün həll yollarının əsaslandırılmış şəkildə təqdim edilməsini nəzərdə tutur. Əsas məqsəd təkcə bir məsələni göstərmək deyil, onu dərinliklə təhlil etmək və elmi arqumentlərlə dəstəklənmiş rasionallaşdırılmış həll təklifləri verməkdir. Bu model xüsusilə təhlil, siyasət tövsiyələri, ictimai məsələlər və idarəetmə problemlərinə dair yazılarda, eləcə də applied research (tətbiqi tədqiqatlar) kontekstində daha effektiv nəticə verir (Swales & Feak, 2012).

Problem yönümlü modeldə akademik mətn, adətən üç əsas mərhələyə bölünür: problemin təqdimatı, problemin səbəblərinin və nəticələrinin təhlili və mümkün həll yollarının və ya yanaşmaların əsaslandırılması. Giriş hissəsində problem ümumi kontekstdə təqdim olunur, oxucuya onun cəmiyyət, iqtisadiyyat, siyasət və ya elm üçün nə qədər vacib olduğu göstərilir. Daha sonra əsas hissədə bu problemin müxtəlif aspektləri – tarixi fonu, mövcud ədəbiyyatla əlaqəsi, statistik göstəricilər və metodoloji çərçivə daxilində – təhlil edilir. Sonda isə müəllif öz tövsiyələrini, alternativ yanaşmaları və ya təklif etdiyi həll yollarını təqdim edir. Bu yanaşma məlumatın passiv təqdimatından fərqli olaraq aktiv təhlil və təklif mexanizmi ilə oxucunu maarifləndirməyi və yönləndirməyi hədəfləyir.

Məsələn, bir tədqiqatçı “Azərbaycan regionlarında qeyri-bərabər iqtisadi inkişaf” mövzusunda yazı hazırlayırsa, problem yönümlü modeli tətbiq edərək əvvəlcə bu regional fərqlərin mövcudluğunu statistik faktlarla göstərir, sonra səbəbləri (infrastruktur fərqləri, investisiya paylanması, işsizlik səviyyələri və s.) təhlil edir və nəhayət, dövlət siyasətində hansı dəyişikliklərin bu uçurumu azalda biləcəyini əsaslandırılmış şəkildə irəli sürür. Belə struktur oxucunun problemi yalnız başa düşməsini deyil, onun həlli istiqamətində rasional təkliflərlə tanış olmasını da təmin edir.

Problem yönümlü modelin üstünlüyü ondadır ki, bu model təkcə informativ deyil, həm də tənqidi düşüncə və elmi arqumentasiya bacarıqlarını ön plana çıxarır. Müəllif bu strukturu tətbiq etməklə,

faktların arxasında duran səbəbləri, səbəb-nəticə əlaqələrini və onların mümkün sosial, iqtisadi və ya siyasi təsirlərini dərinliklə araşdıra bilir. Eyni zamanda, bu model elmi yazıya praktiki dəyər və tətbiq potensialı qazandırır, çünki oxucu yalnız mövcud vəziyyəti öyrənmir, həm də mümkün alternativlər üzərində düşünməyə təşviq olunur.

Problem yönümlü model akademik yazıda funksional struktur təqdim etsə də, onun tətbiqində müəyyən zəifliklərə yol verildiyi hallar müşahidə olunur. Ən çox rast gəlinən problemlərdən biri problemin səthi şəkildə, ümumi ifadələrlə təqdim olunmasıdır. Məsələn, "iqlim dəyişikliyi kənd təsərrüfatına təsir edir" kimi cümlələr konkret təsirləri və miqyası açıqlamadan problemin yalnız konturunu verir. Problemin empirik göstəricilərlə əsaslandırılması isə həm elmi dəyəri artırır, həm də oxucunun məsələni daha yaxşı qavramasına şərait yaradır. Digər geniş yayılmış zəiflik isə həll yollarının ümumi, əsaslandırılmamış formada təqdim edilməsidir. "Tədbirlər görülməlidir" kimi cümlələr konkret alternativlər təqdim etmədiyindən oxucuda qeyri-müəyyənlik yaradır. Halbuki funksional problem yönümlü yazıda həll təklifləri real, əsaslandırılmış və tətbiq baxımından əsaslı olmalıdır. Bəzən isə müəllif modelin strukturunu mexaniki şəkildə tətbiq edir, nəticədə yazı forma baxımından uyğun olsa da, məzmun və axıcılıq baxımından zəif qalır. Bu hallarda yazının elmi keyfiyyəti və oxunaqlılığı azalır. Problem yönümlü modelin uğurlu tətbiqi üçün müəllifin problemin dərinliyini anlamaqla yanaşı, onun həlli üçün arqumentləşdirilmiş yanaşma formalaşdırması vacibdir.

Bütün bu zəifliklərin qarşısını almaq üçün tədqiqatçı aşağıdakı suallarla yazısını yoxlaya bilər:

- Mən bu problemi konkret və əsaslandırılmış şəkildə təqdim etmişəmmi?
- Təhlil etdiyim səbəblər arasında məntiqi əlaqə və dərinlik varmı?
- Həll təkliflərim real, əsaslı və ölçülə biləndirmi?
- Oxucu bu yazını oxuduqdan sonra problemin nə olduğu və nə etmək lazım gəldiyi barədə aydın nəticəyə gələ bilərmi?

Beləliklə, problem yönümlü modelin uğurlu tətbiqi yalnız struktur deyil, həm də məntiqi ardıcıllıq, analitik dərinlik və funksional həll yanaşması tələb edir. Bu elementlər arasında tarazlıq qorunmadıqda, modelin potensial gücü azalır və yazı yalnız forma baxımından adekvat, məzmun baxımından zəif qalır. Bu səbəbdən müəllifin struktur modeli yaradıcı və məqsədyönlü şəkildə tətbiq etməsi akademik yazının əsas uğur şərtidir.

### 1.3.4. Arqument – Əks arqument – Sintez modeli: Akademik yazıda tənqidi düşüncə və balanslı mövqe quruluşu

Arqument–Əks arqument–Sintez modeli (Argument–Counterargument–Synthesis model) akademik yazının strukturlaşdırılmasında tənqidi düşüncə, birtərəfli fikirdən uzaq yanaşma və balanslı arqumentasiya yaratmaq üçün istifadə edilən effektiv modellərdən biridir. Bu struktur əsasən elmi müzakirə, esse, siyasət analizi və nəzəri debatların təhlilində tətbiq olunur. Modelin əsas məqsədi müəllifin əsas mövqeyini irəli sürmək, əks arqumentləri nəzərə almaq, və bunları sintez edərək nəticəyə gəlməkdir. Bu yanaşma yazıya həm elmi obyektivlik, həm də nəzəri dərinlik qatır (Graff & Birkenstein, 2016).

Modelin ilk mərhələsində müəllif öz arqumentini təqdim edir. Bu əsas mövqedir – tədqiqatın və ya yazının müdafiə etdiyi fikir. Burada müəllif öz fikrini əsaslandırır, dəlillər və mənbələr təqdim edir, mövqeyini mövcud ədəbiyyatla əlaqələndirir. İkinci mərhələdə isə əks arqumentlər yer alır. Bu, modelin fərqləndirici cəhətidir. Müəllif təkcə öz fikrini müdafiə etmir, ona qarşı səslənə biləcək fikir və arqumentləri də nəzərə alır. Bu mərhələdə oxucuya alternativ baxış bucaqları göstərilir və bu yanaşmalar tənqidi şəkildə qiymətləndirilir. Nəhayət, sintez mərhələsində müəllif hər iki mövqeni ümumiləşdirir, öz əsas mövqeyini gücləndirir və əks arqumentlərə cavab verərək onları ya inkar edir, ya da müəyyən şərtlərlə qəbul edib balanslaşdırır (Booth, Colomb & Williams, 2016).

Bu struktur oxucuda həm inandırıcılıq hissi, həm də etibarlılıq təəssüratı yaradır. Tədqiqatçının öz mövqeyini təqdim etməklə yanaşı, əks fikirlərə açıq yanaşması, onun mövqeyini daha obyektiv və əsaslı göstərir. Bu modelin tətbiqi tələbələrə və tədqiqatçılara yalnız fikirlərini sübut etməyi deyil, həm də başqa mövqeləri anlamağı və təhlil etməyi öyrədir ki, bu da tənqidi düşüncə qabiliyyətinin əsas göstəricisidir. Məsələn, bir müəllif “süni intellektin əmək bazarında iş yerlərinin azalmasına səbəb olduğunu” iddia edir. Əsas arqument texnologiyanın avtomatlaşdırma prosesini sürətləndirməsi və aşağı ixtisaslı işlərə tələbatın azalmasıdır. Əks arqument isə odur ki, süni intellekt yeni iş sahələri yaradır və əmək bazarını transformasiya edir. Sintez mərhələsində müəllif bu əks arqumenti nəzərə alaraq belə nəticəyə gəlir ki, süni intellektin təsiri iş növündən asılıdır: bəzi sektorlar zərər görə bilər, digərlərində isə yeni

imkanlar yarana bilər. Bu yanaşma mövqeyi həm əsaslandırır, həm də balanslı təqdim edir. Bu model eyni zamanda müəllifin mövqeyinin təkamül etməsinə də imkan verir. Əgər əks arqument kifayət qədər əsaslıdırsa, müəllif ilkin fikrini yumşalda və ya yeni perspektiv əlavə edə bilər. Bu isə yazının statik deyil, elmi cəhətdən dinamik və düşünülmüş şəkildə formalaşmasını təmin edir.

Arqument–Əks arqument–Sintez modeli akademik yazıda tənqidi yanaşmanı formalaşdırmaq üçün güclü vasitə olsa da, onun tətbiqində müəyyən metodoloji və üslubi səhvlərə yol verildiyi hallara tez-tez rast gəlinir. Bu modelin effektivliyi yalnız strukturun texniki tətbiqi ilə deyil, arqumentlərin keyfiyyəti, qarşı mövqelərə obyektiv yanaşma və sintez mərhələsində müəllifin analitik mövqe sərgiləməsi ilə müəyyən olunur. Təəssüf ki, bəzi hallarda müəlliflər əks arqumenti təqdim etsələr də, ona tənqidi cavab vermədən və ya şərh etmədən yazını davam etdirirlər. Bu isə əsas arqumentin zəif görünməsinə, oxucunun müəllifin mövqeyinə inamının azalmasına səbəb ola bilər. Qeyd olunduğu kimi, əks fikri sadəcə təqdim etmək tənqidi düşüncə deyil; onu analiz etmək, cavablandırmaq və əsas mövqe ilə necə əlaqələndiyini izah etmək yazının dəyərliliyini artırır (Graff & Birkenstein, 2018). Bundan başqa, müəlliflər bəzən arqument və əks arqument arasında süni tarazlıq yaratmağa çalışır, sanki hər iki mövqe bərabər gücdədir. Halbuki bu modelin məqsədi tərəfsiz qalmaq deyil, əsas mövqeyi gücləndirərək qarşı fikirləri təhlil etməkdir. Oxucu müəllifin hansı mövqedə olduğunu və hansı arqumentlərin daha əsaslı olduğunu aydın şəkildə görə bilməlidir.

Digər tərəfdən, Arqument–Əks arqument–Sintez modeli hər yazı növü üçün uyğun deyil. Bu struktur daha çox nəzəri, fəlsəfi, ictimai və arqumentativ yönümlü mətnlər üçün effektivdir. Empirik tədqiqatlara və statistik nəticələrə əsaslanan yazılarda, məsələn IMRaD modelinin tətbiq olunduğu elmi məqalələrdə, subyektiv mövqe bildirmək və arqument–əks arqument strukturu yaratmaq əsas tələblərdən biri deyil. IMRaD modelində tədqiqat nəticələri faktlara və ölçülə bilən göstəricilərə əsaslandığı üçün müəllifin şəxsi mövqeyi deyil, empirik sübutlar mərkəzdə dayanır. Bu fərqi izah edən tədqiqatçılar bildirirlər ki, arqumentasiya bir mövqeyin sübutlanmasına yönəlirsə, elmi məqalədə məqsəd yeni bilik yaratmaq və müşahidəyə əsaslanan nəticə çıxarmaqdır (Booth, Colomb, & Williams, 2016). Bu səbəbdən arqument–əks–sintez modeli daha çox siyasət təhlili, esse, sosial problemlər və etik mübahisələr kimi müzakirəyə açıq mövzularda məqsədəuyğundur. Buna görə də müəllif yazı tipini düzgün müəyyənləşdirməli, struktur

seçimində məqsəd, kontekst və oxucu auditoriyasını nəzərə almalıdır.

### 1.3.5. Tematik model: akademik yazının mövzuya əsaslanan strukturlaşdırılması

Tematik model (thematic structure) akademik yazıda məzmunun mərkəzi mövzu və ya ideyaya əsaslanaraq ardıcıl şəkildə təqdim olunmasını nəzərdə tutan struktur modelidir. Bu modeldə yazının quruluşu vaxt, problem, ya da səbəb-nəticə ardıcıllığına deyil, mövzuya görə bölünmüş əsas ideya bloklarına əsaslanır. Yazı bir əsas mövzu ətrafında inkişaf etdirilir və bu mövzu müxtəlif aspektlər, yanaşmalar və tətbiq sahələri ilə hissə-hissə işlənir (https://libguides.westminster.ac.uk/c.php?g=692395&p=4963013). Bu model əsasən nəzəri yazılar, ədəbiyyat icmalları, konseptual məqalələr, sosial və humanitar elmlər sahəsində geniş istifadə olunur. Yazı müəyyən bir mərkəzi anlayış ətrafında qurulur – məsələn, "dayanıqlı inkişaf" mövzusunda bir esse yazıldıqda, müəllif bu anlayışı ekologiya, iqtisadiyyat, enerji siyasəti və sosial ədalət baxımından ayrıca bölmələrdə təqdim edə bilər. Hər bölmə ayrıca bir alt-temanı təmsil edir və mətndə tematik davamlılıq təmin olunur (Caulfield, 2019).

Tematik modelin tətbiqi zamanı yazı adətən üç əsas mərhələdə qurulur:

1. Giriş – əsas mövzu təqdim olunur, niyə vacib olduğu izah edilir və hansı aspektlərdən analiz olunacağı oxucuya bildirilir;
2. Tematik hissələr – hər biri əsas mövzu ilə əlaqəli bir konkret aspektə həsr olunur;
3. Nəticə – bütün aspektlər birləşdirilir, ümumi nəticə çıxarılır və mövzuya dair müəllifin mövqeyi yekunlaşdırılır.

Bu modelin effektiv istifadəsi üçün paraqraflar arasında semantik əlaqə, konsepsiyaların məntiqi sıralanması və ümumidən xüsusi aspektlərə doğru fokuslanma xüsusilə vacibdir. Əgər bu struktur pozularsa, yazı mövzu baxımından parçalanmış və məqsədsiz görünə bilər (Fang, D., & Li, S., 2015). Məsələn, "rəqəmsal transformasiya" mövzusunda yazılmış akademik esse tematik modelə əsaslanaraq aşağıdakı aspektlər üzrə bölünə bilər: 1) Rəqəmsallaşmanın iqtisadi təsiri, 2) Əmək bazarına təsiri, 3) Təhsil sistemində rəqəmsallaşma, 4) Etik və hüquqi problemlər. Hər bölmədə bir aspekt təhlil olunur, lakin bütün bölmələr ümumi anlayış – "rəqəmsal transformasiya" – ətrafında birləşir və nəticədə vahid elmi mətn ortaya çıxır.

Tematik model müəllifə mülahizələrini strukturlaşdırmaq, müxtəlif

arqumentləri və məlumatları qarşılaşdırmaq, və mərkəzi ideya ətrafında fərqli yanaşmaları sistemlə göstərmək imkanı verir. Bu struktur tələbələrin və tədqiqatçıların kompleks mövzulara çoxşaxəli və balanslı şəkildə yanaşmasını təşviq edir. Lakin bu modelin uğurlu tətbiqi üçün tematik əlaqənin açıq saxlanılması, mətnin daxilində keçidlərin aydın verilməsi, və təkrarlanmadan yayınmaq xüsusilə vacibdir (https://libguides.westminster.ac.uk/c.php?g=692395&p=4963013).

Tematik modelin tətbiqi yazıya mövzuya əsaslanan struktur gətirsə də, onun yanlış və ya natamam istifadəsi nəticəsində yazının məqsədyönlülüyü və elmi dəyəri zəifləyə bilər. Bu modelin istifadəsində tez-tez rast gəlinən səhvlərdən biri tematik bölmələrin bir-biri ilə zəif əlaqələndirilməsidir. Bəzən müəlliflər müxtəlif aspektləri sadəcə ard-arda təqdim edir, lakin bu mövzular arasında məntiqi və ya semantik keçid yaratmırlar. Nəticədə, yazı ümumi təsir bağışlasa da, oxucuda əlaqəsiz və dağınıq strukturlu hisslər yarada bilər. Məsələn, müəllif rəqəmsal texnologiyalarla bağlı bir yazıda iqtisadi, sosial və hüquqi aspektlərə toxunur, lakin bu hissələr arasında keçid ifadələri və konseptual əlaqə zəif olduqda, ümumi məzmun inteqrasiyası pozulur (Fang, D., & Li, S., 2015). Başqa bir ümumi problem isə mövzu çərçivəsinin çox geniş tutulması və ya təkrara yol verilməsidir. Tematik yanaşmada müəllif müxtəlif aspektləri işlədikcə bəzən eyni ideyanı fərqli hissələrdə yenidən vurğulaya bilər. Bu isə mətnin məhsuldarlığını azaldır və oxucunun diqqətini yayındırır. Bu səbəbdən tematik modelin tətbiqi zamanı müəllif həm mövzu fokusunu konkret saxlamalı, həm də məzmunu planlı şəkildə bölüşdürməlidir (https://libguides.westminster.ac.uk/c.php?g=692395&p=4963013).

Digər tərəfdən, tematik modelin güclü cəhətləri onu bir çox akademik yazı növü üçün ideal edir. Bu model müəllifə kompleks mövzunu fərqli baxış bucaqlarından təqdim etməyə və analitik dərinlik yaratmağa imkan verir. Hər bölmədə bir aspektin sistemli şəkildə işlənməsi həm oxucuya geniş mənzərə təqdim edir, həm də müəllifin mövzuya olan nəzarətini göstərir. Eyni zamanda, bu model çoxşaxəli yanaşmanı təşviq etdiyi üçün ədəbiyyat icmallarında və nəzəri analizlərdə tez-tez istifadə olunur (Caulfield, 2019).

Lakin tematik modelin tətbiqində nəzarətsiz şaxələnmə və əlaqəsizlik riski də var. Əgər bölmələr arasında keçidlər zəifdirsə və ya müəllif mövzudan mövzuya keçərkən uyğun kontekst yaratmırsa, yazı vahid strukturunu itirə bilər. Bundan əlavə, bəzi hallarda tematik bölmələrin balanssız təqdimatı – məsələn, bir bölməyə həddən artıq yer ayırıb

digərini ötəri keçmək – oxucuda natamamlıq hissi yaradır. Bu risklərin qarşısını almaq üçün tematik plan əvvəlcədən düşünülməli, bölmələr arasında ardıcıllıq, bərabərlik və bağlantı təmin olunmalıdır.
Beləliklə, tematik model akademik yazıda çoxşaxəli və məzmun baxımından zəngin yanaşma imkanı yaratsa da, onun effektiv tətbiqi struktur ardıcıllıq, semantik keçidlər və balanslı təqdimat tələb edir. Modeldən düzgün istifadə edildikdə, həm oxucu üçün aydınlıq yaranır, həm də müəllifin mövzuya analitik yanaşması güclənir. Əks halda isə tematik parçalanma, təkrarlılıq və əlaqəsizlik kimi problemlər yazının elmi keyfiyyətinə mənfi təsir göstərə bilər.

### 1.3.6. Xronoloji model: zaman ardıcıllığına əsaslanan akademik yazı strukturu

Xronoloji model (chronological structure) akademik yazının ən qədim və intuitiv quruluş formalarından biridir. Bu modeldə məzmun zaman ardıcıllığına görə təşkil olunur və hadisə, inkişaf, dəyişiklik və ya təkamülün baş verdiyi tarixi və ya məntiqi ardıcıllıqla təqdim edilməsinə əsaslanır (Caulfield, 2020). Model əsasən hadisələrin gedişatını izləmək, tarixi prosesləri, inkişaf mərhələlərini və ya elmi nəzəriyyələrin təkamülünü izah etmək üçün istifadə olunur. Məqalə və ya esse bu model əsasında qurularkən, yazı başlanğıc nöqtədən başlayaraq, müəyyən mərhələlər və dönüş nöqtələri ilə irəliləyir və bugünkü vəziyyətlə tamamlanır.
Xronoloji struktur xüsusilə tarix, ədəbiyyat, siyasi elmlər, texnologiyanın inkişafı, biografik yazılar və metodoloji araşdırmalar sahəsində geniş tətbiq olunur. Məsələn, müəllif "Azərbaycan iqtisadiyyatında sənayeləşmənin mərhələləri" mövzusunda yazı hazırlayarkən, əvvəlcə Sovet dövrünü, sonra müstəqillik illərini, ardınca isə neft strategiyasından sonrakı mərhələni təsvir edə bilər. Bu yanaşma oxucunun prosesin zaman içində necə dəyişdiyini başa düşməsini asanlaşdırır və həm də müqayisə üçün əsas yaradır (Graff & Birkenstein, 2018).
Xronoloji model adətən aşağıdakı hissələrlə qurulur:

- Giriş: hadisə və ya proses təqdim olunur, əsas xronoloji ardıcıllığın konturları verilir;
- Əsas hissə: hadisələr zaman sırasına uyğun şəkildə təqdim olunur – hər bir mərhələnin başlanğıcı, gedişatı və nəticələri;
- Nəticə: zaman ardıcıllığı kontekstində ümumi qiymətləndirmə verilir, bugünkü vəziyyətlə bağlantı qurulur və gələcək üçün mümkün

proqnozlar irəli sürülür.

Bu modelin əsas üstünlükləri ondan ibarətdir ki, oxucu məlumatı ardıcıllıqla və səbəb-nəticə əlaqəsi içində qəbul edir. Zaman axarı mətnə axıcılıq, struktur və loji nizam qazandırır. Eyni zamanda, xronoloji model yazıda hadisə və proseslər arasındakı əlaqəni təbii şəkildə qurmağa imkan verir. Bununla belə, bəzi hallarda bu struktur fikirin dərin analizindən çox sadə təsvirə gətirib çıxara bilər. Əgər müəllif hər mərhələni yalnız nə baş verdiyi ilə təqdim edirsə və "nə üçün", "nəticəsi nə oldu" suallarını araşdırmırsa, yazı deskriptiv (təsviri) səviyyədə qala bilər (Booth, Colomb & Williams, 2016). Bu modelin daha effektiv tətbiqi üçün müəllif yalnız hadisələri sadalamaqla kifayətlənməməli, hər mərhələni konseptual baxımdan təhlil etməli, dəyişikliklərin səbəb və nəticələrini əsaslandırmalı və onların ümumi prosesə təsirini izah etməlidir. Belə olduqda xronoloji yanaşma sadə ardıcıllıqdan çıxaraq elmi məntiqə və analitik gücə sahib olur.

Xronoloji modelin tətbiqində ən çox rast gəlinən səhvlərdən biri müəllifin yalnız "nə baş verdi?" sualına cavab verməsi, lakin "niyə baş verdi?" və "nəticəsi nə oldu?" kimi analitik suallardan yayınmasıdır. Bu halda yazı sadəcə zaman xətti üzrə hadisələrin sıralanmasına çevrilir və elmi təhlil zəifləyir. Halbuki xronoloji yanaşma yalnız zaman ardıcıllığını izləmək üçün deyil, həm də hadisələrin səbəb-nəticə əlaqələrini aydınlaşdırmaq və inkişaf dinamikasını göstərmək üçün istifadə olunmalıdır (Caulfield, n.d.). Doğru qurulmuş xronoloji struktur oxucuya hadisələrin gedişatını izləmək üçün aydın və intuitiv bir çərçivə təqdim edir. Lakin bu strukturun təsvirə üstünlük verməsi və təhlili arxa plana keçirməsi onun əsas zəif cəhətlərindən biridir. Yazının yalnız tarixçəyə əsaslanması analitik dərinliyi azaldır və elmi mövqeyi zəiflədir. Bu riski aradan qaldırmaq üçün hər mərhələdə səbəb-nəticə əlaqələri ilə yanaşı, reflektiv suallar və əsaslandırılmış arqumentlər də təqdim edilməlidir (Booth, Colomb, & Williams, 2016).

Bundan əlavə, xronoloji modelin digər yazı strukturları ilə müqayisəsi onun funksional sərhədlərini daha yaxşı anlamağa kömək edir. Məsələn, xronoloji model hadisələri zaman ardıcıllığı ilə təqdim etdiyi halda, tematik model fikirləri və məlumatları məzmun aspektlərinə görə təşkil edir. Başqa sözlə, xronoloji model tarix və proses mərkəzli yanaşmanı əks etdirirsə, tematik model anlayış və ideya mərkəzlidir. Hər iki strukturun üstünlükləri və məhdudiyyətləri var və onların tətbiqi yazının məqsədindən, mövzusundan və hədəf auditoriyasından asılı olaraq dəyişir. Bu baxımdan, struktur seçimi yazının elmi keyfiyyətinə

və oxucu ilə ünsiyyətinə birbaşa təsir göstərən əsas meyar olaraq qalır (Graff & Birkenstein, 2018).

Beləliklə, xronoloji modelin əsas xüsusiyyətlərini, üstünlüklərini və potensial zəifliklərini ümumiləşdirən aşağıdakı cədvəl bu strukturun akademik yazıda necə tətbiq olunduğunu sistemli şəkildə əks etdirir.

***Cədvəl 4.*** *Xronoloji yanaşmanın struktur elementləri*

| Meyar | Xronoloji model |
|---|---|
| Struktur prinsipi | Hadisələrin və ya proseslərin zaman ardıcıllığı ilə təqdim olunması |
| Əsas suallar | Nə baş verdi? > Sonra nə oldu? > Nəticə nə idi? |
| Tətbiq sahələri | Tarix, siyasət, biografiyalar, proses analizi, texnologiya inkişafı |
| Üstünlükləri | Oxucu üçün aydın ardıcıllıq və məntiqi gedişat təqdim edir |
| Zəif cəhətləri | Təhlildən çox təsvirə yönələ bilər; səbəb-nəticə əlaqələri zəif qalarsa risklidir |
| Tipik səhvlər | Sadəcə nə baş verdiyini sadalamaq, reflektiv suallardan yayınmaq |
| Strukturun məqsədə uyğunluğu | Prosesin inkişafını və dəyişikliklərin ardıcıllığını izləmək üçün uyğundur |

***Mənbə:*** *Caulfield (2020), Booth, Colomb və Williams (2016), həmçinin Graff və Birkenstein (2016) əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

### 1.3.7. Hamburger modeli: akademik paraqraf strukturunun vizual və praktik yanaşması

Hamburger modeli (və ya hamburger paragraph model) akademik yazıda ən çox istifadə olunan strukturlardan biridir. Adını və formasını klassik hamburgerdən alan bu model, bir paraqrafın üç əsas hissəyə – giriş, əsas hissə və nəticə – bölünməsi ideyasına əsaslanır. Məqsəd müəllifin fikrini aydın, məntiqi və strukturlaşdırılmış şəkildə ifadə etməsini təmin etməkdir (Graff & Birkenstein, 2018; Reading Rockets. n.d.). Modelin adındakı metafora – yuxarı çörək, içlik və alt çörək – hər parça arasında əlaqənin və ümumi quruluşun saxlamaq üçün istifadəsini simvolizə edir. Bu modeldə "yuxarı çörək" (top bun) – mövzu cümləsidir, yəni paraqrafın əsas ideyasını təqdim edən ilk cümlə. Bu cümlə oxucuya paraqrafın nə haqqında olduğunu göstərir. Ardınca gələn "içlik" hissəsi – əsas məzmundur. Buraya dəstəkləyici cümlələr, misallar, faktlar, sitatlar, və analitik şərhlər daxil olur. Bu hissə mövzu cümləsinin əsaslandırılması və inkişaf etdirilməsi məqsədi daşıyır. Nəhayət, "alt çörək" – nəticə və ya bağlayıcı cümlədir. Bu cümlə paraqrafı ümumiləşdirir və çox zaman növbəti paraqrafa keçid üçün körpü funksiyası daşıyır (University of North Carolina, n.d.). Hamburger modeli xüsusilə orta məktəb və bakalavr səviyyəsində akademik yazı öyrədilərkən, tələbələrin fikir ardıcıllığı və strukturlaşdırılmış yazı vərdişi qazanmaları üçün çox effektivdir. Modelin vizual sadəliyi, didaktik uyğunluğu və məntiqi ardıcıllığı onu tədrisdə ideal hala gətirir. Eyni zamanda, daha irəliləmiş yazı səviyyələrində də bu modelin əsas prinsipləri qorunur, lakin daha kompleks strukturlarla zənginləşdirilir. Məsələn, tələbə "təhsildə texnologiyanın rolu" mövzusunda paraqraf yazdıqda, əvvəlcə texnologiyanın təhsildə əhəmiyyətindən bəhs edən bir mövzu cümləsi ilə başlayır. Daha sonra bu fikri dəstəkləyən statistik məlumat, elmi mənbələr və ya konkret tətbiq nümunəsi verir. Sonda isə bu ideyanı ümumiləşdirir və növbəti hissəyə keçid üçün bağlayıcı fikir irəli sürür. Bu struktur həm fikrin sabitliyini qoruyur, həm də yazının oxunaqlığını artırır (Reading Rockets. (n.d.)).

Hamburger modeli bəzən tənqidə də məruz qalır, çünki bəzi müəlliflər bu modeli şablonlaşmış yazıya səbəb olan məhdudlaşdırıcı forma kimi dəyərləndirirlər. Bu qədər sadə və effektiv görünən bir strukturun tətbiqində də tez-tez metodoloji və məzmun baxımından səhvlərə yol verilir. Bu səhvlər paraqrafın quruluşunu zəiflədir, fikrin aydın çatdırılmasına mane olur və ümumi yazı keyfiyyətini aşağı salır.

Ən çox rast gəlinən problemlərdən biri mövzu cümləsinin qeyri-dəqiq və ya çox ümumi olmasıdır. Paraqrafın əsas ideyasını ifadə etməli olan bu hissə bəzən “Təhsil vacibdir” kimi səthi və istiqamətsiz ifadələrlə yazılır. Bu cür cümlələr oxucuda paraqrafın əsas məğzini anlamaqda çətinlik yaradır. Eyni zamanda dəstəkləyici cümlələrdə sübut və izah balansı pozulur, yəni ya şəxsi fikir əsas sübut kimi təqdim olunur, ya da fakt təqdim edilir, lakin onun izahı verilmədən mətndə “asılı” qalır. Digər tərəfdən, nəticə cümləsi tez-tez mövzu cümləsinin təkrarına çevrilir və ya yeni bir fikri təqdim etməyə çalışaraq struktur pozuntusu yaradır. Bütün bu səhvlər paraqrafın daxili axıcılığını, məntiqini və oxucuya təsir gücünü zəiflədir. Bu səbəbdən müəllif yalnız forma ilə deyil, məzmunun məntiqi ardıcıllığı, keçidlər və arqumentlərin əsaslandırılması ilə də işləməlidir. Aşağıdakı cədvəldə hamburger modelinin tətbiqində rast gəlinən əsas səhvlər və onların aradan qaldırılması üçün tövsiyə olunan düzgün yanaşmalar strukturlaşdırılmış şəkildə təqdim olunmuşdur.

*Cədvəl 5. Hamburger modelinin tətbiqində yazı səhvləri və təkmilləşdirici təkliflər*

| Paraqraf Hissəsi | Funksiyası | Tez-tez rast gəlinən səhvlər | Tövsiyə və düzəliş |
|---|---|---|---|
| Mövzu cümləsi | Paraqrafın əsas ideyasını təqdim edir | - Çox ümumi və qeyri-dəqiq ifadə olunur - Fikir yönü aydın deyil | Konkret və fokuslanmış fikir ifadə edilməli, nə haqqında olduğu dərhal anlaşılmalıdır |
| Dəstəkləyici hissə | Fikri əsaslandırır: faktlar, misallar, sitatlar və təhlil | - Sadəcə şəxsi fikir verilir - Faktlar var, lakin izahsızdır - Sübutlarla əlaqə zəif qurulur | Fakt və nümunə ilə əsaslandırmalı, fikir və sübut arasında əlaqə izah olunmalıdır |
| Nəticə cümləsi | Paraqrafı ümumiləşdirir və ya növbətiyə keçid yaradır | - Mövzu cümləsinin eynisini təkrar edir - Yeni fikir gətirir və yazını uzadır | Yalnız ümumiləşdirmə funksiyası daşımalıdır, yeni informasiya verilməməlidir |

| | | | |
|---|---|---|---|
| Keçidlər və ardıcıllıq | Fikirlər arasında məntiqi əlaqə və axıcılıq təmin edir | - Cümlələr arasında kəskin keçidlər var - Keçid sözlərindən istifadə olunmur | Keçid frazaları istifadə olunmalı ("buna görə", "əlavə olaraq", "nəticə etibarilə" və s.) |
| Ümumi struktur | Modelin elementləri məntiqi ardıcıllıqla birləşir | - Mexaniki və şablon istifadə - Hissələr bərabər ölçüdə və ahəngdə deyil | Strukturu sərt şablon kimi deyil, yönləndirici çərçivə kimi qəbul etmək lazımdır |

***Mənbə:*** *Caulfield (2023), Graff & Birkenstein (2018), UNC Writing Center (n.d.), Reading Rockets. (n.d.) əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Nəticə olaraq, hamburger modeli akademik paraqraf yazısında fikir strukturunun qurulmasını asanlaşdıran praktik və vizual yanaşmadır. Lakin modelin effektivliyi yalnız formaya deyil, məzmunun əsaslandırılmış və məntiqi şəkildə təqdim edilməsinə bağlıdır. Bu strukturdan düzgün istifadə yazının aydınlığını və oxunaqlılığını artırır, tələbələrə isə sistemli düşünmə bacarığı qazandırır.

### 1.3.8. Akademik yazı modellərin yekunu və struktur müqayisəsi

Əvvəlki bölmələrdə təhlil edilən müxtəlif akademik yazı modellərinin hər biri konkret məqsədlərə, yazı janrlarına və struktur yanaşmalara əsaslanır. Bu modellərin funksional fərqlərini və tətbiq sahələrini daha aydın şəkildə ümumiləşdirmək məqsədilə aşağıdakı cədvəldə onların qısa təsviri, əsas məqsədləri, istifadə olunduqları sahələr və tipik struktur xüsusiyyətləri sistemli şəkildə təqdim olunur. Cədvəl, oxucuya modellər arasında müqayisə aparmaq və konkret yazı kontekstində hansı strukturun daha uyğun olduğunu müəyyənləşdirmək üçün vizual əsas verir. Hər bir model yazı prosesinə sistematik yanaşma gətirir və müəllifin fikirlərini ardıcıl şəkildə ifadə etməsinə imkan yaradır. Tədqiqatçılar bu modellər vasitəsilə həm məzmun, həm də forma baxımından strukturlaşdırılmış və oxunaqlı mətnlər hazırlamağı

öyrənirlər. Müxtəlif mövzu və məqsədlərə uyğun olaraq model seçimi yazının elmi keyfiyyətini və üslub uyğunluğunu müəyyən edirlər. Eyni zamanda, bu modellərin müqayisəli şəkildə təqdim olunması təlim prosesində yazı strategiyalarının daha effektiv mənimsənilməsinə kömək edir. Həm nəzəri, həm də tətbiqi baxımdan bu yanaşmalar akademik yazının formalaşmasında mühüm rol oynayır. Beləliklə, aşağıdakı cədvəl həm müəllim, həm də tələbə üçün yazı planlaşdırmasının praktiki aləti kimi istifadə oluna bilər.

***Cədvəl 6.*** *Müqayisəli yanaşma: akademik yazı strukturlarının təsnifi*

| Model | Qısa təsvir | Əsas məqsəd | Tətbiq sahəsi | Struktur xüsusiyyəti |
|---|---|---|---|---|
| IMRaD | Giriş, metod, nəticə və müzakirə ardıcıllığı ilə qurulur | Empirik tədqiqatın nəticələrini sistemləşdirmək | Elmi məqalələr, laboratoriya hesabatları | Giriş > Metod > Nəticə > Müzakirə |
| Huni modeli | Ümumi məlumatdan başlayaraq getdikcə spesifik mövzuya fokuslanır | Kontekstdən mövzuya keçidi sistemli təmin etmək | Giriş bölməsi, esse girişləri | Geniş > Dar > Konkret istiqamət |
| Problem yönümlü model | Problemin təqdimatı, təhlili və həll yolları ardıcıllığında qurulur | Praktik məsələlərə akademik yanaşma təqdim etmək | Analitik məqalələr, siyasət sənədləri | Problem > Təhlil > Həll |
| Arqument–Əks arqument –Sintez modeli | Müəllif mövqeyi, əks arqument və nəticə sintez olunur | Müzakirəyə əsaslanan arqumentasiya aparmaq | Esse, fəlsəfi və sosial analiz yazıları | Arqument > Əks arqument > Cavab > Yekun |

| | | | | |
|---|---|---|---|---|
| Tematik model | Mövzu alt-mövzülərə bölünərək sistemli şəkildə işlənir | Mövzunu çoxşaxəli təqdim etmək | Teorik yazılar, məqalələr, ədəbiyyat icmalı | Mövzu 1 > Mövzu 2 > Mövzu 3 və s. |
| Xronoloji model | Hadisələrin zaman ardıcıllığı ilə təqdim olunması | Tarixi inkişaf və ya prosesin mərhələlərini göstərmək | Tarix, inkişaf təhlili, hesabatlar | Başlanğıc > Orta mərhələ > Cari vəziyyət |
| Hamburger modeli | Giriş və nəticə arasında əsas fikir sistemli şəkildə qurulur | Aydın və strukturlaşdırılmış fikir inkişafı | Paraqraf strukturu, esselər | Giriş cümləsi > Əsas fikir > İzah/Nümunə > Nəticə cümləsi |

***Mənbə:*** *Cədvəl Graff və Birkenstein (2018), Swales və Feak (2012), Booth, Colomb və Williams (2016), Bailey (2018) və Caulfield (2023) əsasında müəllif tərəfindən ümumiləşdirilib tərtib edilmişdir.*

## 1.4. Akademik Yazıda Çətinliklər və Təkmilləşdirmə Yolları

Akademik yazı bacarığı tələbə və tədqiqatçılar üçün həm biliklərin sistemləşdirilmiş formada ifadəsi, həm də elmi ünsiyyətin əsas vasitəsidir. Lakin bu bacarığın formalaşması prosesində bir sıra çətinliklərə rast gəlinir. Ən çox müşahidə olunan problemlər arasında fikrin qeyri-məntiqi qurulması, struktur pozuntuları, terminlərin yanlış istifadəsi və arqumentasiya zəifliyi xüsusi yer tutur. Bu çətinliklər təkcə dil və yazı bacarığı ilə deyil, həm də metodoloji hazırlıq, analitik düşüncə və elmi yazı standartları ilə sıx bağlıdır. Akademik yazı keyfiyyətinin artırılması üçün təlim prosesində struktur modellərdən istifadə, yazının mərhələli planlaşdırılması, mütəmadi təhlil və geribildirim mexanizmləri, eləcə də nümunə əsasında öyrənmə kimi strategiyalar tətbiq olunmalıdır. Yazı bacarığının inkişafı yalnız texniki biliklərə deyil, eyni zamanda mövzuya tənqidi yanaşma, mənbələrdən düzgün istifadə və üslub sabitliyinin qorunmasına əsaslanmalıdır.

## 1.4.1 Akademik üsluba yiyələnmədə qarşılaşılan problemlər

Akademik yazının əsas xüsusiyyətlərindən biri təkcə informasiyanın ötürülməsi deyil, onun məntiqi, obyektiv və strukturlu şəkildə təqdim edilməsidir. Lakin bir çox tələbə və gənc tədqiqatçı bu üsluba yiyələnməkdə ciddi çətinliklərlə üzləşir. Bu çətinliklərin əsas səbəbləri arasında ümumi yazı bacarığının zəifliyi, akademik diskursun qaydalarının tam mənimsənilməməsi, mənbələrdən istifadə mədəniyyətinin olmaması və dil səviyyəsindəki uyğunsuzluqlar xüsusi yer tutur (Swales & Feak, 2012; Hyland, 2009).

Ən geniş yayılmış problemlərdən biri şəxsi və informativ üslubun akademik kontekstdə səhv tətbiq olunmasıdır. Akademik yazıda müəllifin mövqeyi birbaşa deyil, sübutlar və mənbələrlə dolayı şəkildə əsaslandırılır. Lakin bəzi hallarda tədqiqatçılar ya çox emosional və qeyri-rəsmi üslubdan istifadə edir, ya da rəsmi görünmək məqsədilə cümlələri həddindən artıq mürəkkəbləşdirərək mənanı aydınlaşdırmaqda çətinlik yaradırlar (Bailey, 2018). Bu isə yazının həm üslub, həm də oxunaqlılıq baxımından keyfiyyətini aşağı salır. Digər ciddi problem müvafiq terminologiyanın düzgün seçilməməsi və ya qarışıq şəkildə istifadəsidir. Akademik üslub dəqiq və konkret dil tələb edir. Terminlərin yerində və kontekstə uyğun istifadəsi təkcə mövzuya bələdliyi deyil, həm də elmi düşüncəni əks etdirir. Terminoloji uyğunsuzluq isə yazının peşəkarlıq səviyyəsini azaldır və oxucunun mətni düzgün başa düşməsinə əngəl yaradır (Graff & Birkenstein, 2018). Bundan əlavə, akademik cümlə quruluşunun pozulması, yəni fikirlərin natamam və ya çox mürəkkəb cümlələrlə ifadə olunması da mühüm problem sahəsidir. Bəzi tədqiqatçılar akademik tərzdə yazmaq üçün uzun və texniki cümlələrə üstünlük verirlər, lakin bu zaman məna dağılır, struktur pozulur və arqumentin məntiqi gedişi itir. Halbuki akademik üslub uzun və mürəkkəb cümlələrdən deyil, aydınlıq, məntiq və dəqiqlikdən ibarət bir balans tələb edir (Booth, Colomb & Williams, 2016). Eyni zamanda, plagiat riski və istinad mədəniyyətinin formalaşmaması da akademik üsluba yiyələnməni çətinləşdirən əsas amillərdəndir. Bəzi tədqiqatçılar mənbələrə düzgün istinad etmədən, ya da sitat və parafraz etmə qaydalarını bilmədən yazı hazırlayırlar. Bu isə təkcə akademik etikanın pozulması deyil, həm də müəllifin mövqeyini əsaslandıra bilməməsi anlamına gəlir (Pecorari, 2013).

Bu problemləri aradan qaldırmaq üçün struktur modellərlə işləmək, müntəzəm yazı təlimləri keçmək, mövzuya uyğun termin bankı

hazırlamaq, geribildirim əsaslı yazı tapşırıqları tətbiq etmək və akademik oxu ilə yazı bacarığını paralel inkişaf etdirmək tövsiyə olunur. Beləliklə, akademik üsluba yiyələnmək yalnız dil səviyyəsi deyil, düşüncə və ifadə mədəniyyətinin inkişafını da tələb edən mərhələli bir prosesdir.

### 1.4.2. Yazı bacarıqlarının inkişaf etdirilməsi üçün strategiyalar

Akademik yazı bacarığı yalnız dil biliklərinə deyil, eyni zamanda tənqidi düşünmə, strukturlaşdırılmış təqdimat və mənbələrlə işləmə vərdişlərinə əsaslanır. Bu bacarıqlar tələbələrə və tədqiqatçılara fikirlərini elmi əsaslarla ifadə etmək, arqument qurmaq və mövqeyini əsaslandırmaq imkanı verir. Lakin yazı bacarığı doğuşdan gələn bir istedad deyil, məqsədyönlü strategiyalar və təlim üsulları ilə mərhələli şəkildə inkişaf etdirilə bilən kompleks bir prosesdir (Swales & Feak, 2012; Hyland, 2019).

Yazı bacarığının inkişafı üçün ilk növbədə planlaşdırılmış və məqsədli yazı təliminə ehtiyac vardır. Bu məqsədlə strukturlaşdırılmış yazı modellərinin – məsələn, IMRaD, hamburger modeli, tematik və problem yönümlü strukturların – tədris proqramına inteqrasiyası tələbələrin fikirlərini sistemli şəkildə ifadə etməsinə kömək edir. Struktur əsaslı yazı strategiyası, yazının başlanğıc, inkişaf və nəticə hissələrinin məqsədli şəkildə qurulmasını təmin edərək məzmunun aydınlığını və ardıcıllığını artırır (Booth, Colomb & Williams, 2016). Digər vacib strategiya tənqidi oxu ilə yazının birgə tətbiqidir. Akademik yazı sadəcə ideya ötürmək deyil, həm də başqalarının fikrini analiz etmək, dəyərləndirmək və cavab verməkdir. Bu səbəbdən tələbələrin mövcud ədəbiyyatı oxuyaraq əsas və köməkçi ideyaları ayırd etməyi, müəllif mövqeyini müəyyənləşdirməyi və arqumentasiya strukturlarını təhlil etməyi öyrənməsi yazı bacarığını formalaşdırmaqda əvəzsiz rol oynayır (Graff & Birkenstein, 2018).

Geribildirim əsaslı yazı praktikasının tətbiqi də təsirli strategiyalardan biridir. Tələbələrə yazıdan sonra həm müəllim, həm də həmyaşıdlar tərəfindən verilən konstruktiv rəy, onların zəif və güclü tərəflərini anlamağa və yazılarını təkmilləşdirməyə şərait yaradır. Xüsusilə formativ qiymətləndirmə çərçivəsində verilən rəylər tələbənin yazı prosesini davamlı öyrənmə fürsətinə çevirir (Sadler, 2010). Bu yanaşma həm də yazıya qarşı özünəinamı və cavabdehliyi artırır. Yazı bacarığının inkişafı üçün müntəzəm yazı məşqləri və tapşırıqlarının verilməsi də əhəmiyyətlidir. Qısa esselər, strukturlaşdırılmış paraqraflar, reflektiv

yazılar və mənbə əsaslı arqumentativ yazılar tələbələrə fərqli janr və üslublarda təcrübə qazandırır. Bu prosesdə yalnız nəticəyə deyil, yazı prosesinə diqqət yetirilməsi, yəni mövzu seçimi, planlama, ilkin yazı, düzəliş və yenidən yazma mərhələlərinin aktiv şəkildə öyrədilməsi tövsiyə olunur (Flower & Hayes, 1981).

Bundan əlavə, akademik üslubun və terminologiyanın tədrisi, müstəqil yazı resurslarına çıxışın təmin olunması (məs., yazı mərkəzləri, onlayn platformalar), plagiatın qarşısının alınması və istinad qaydalarının öyrədilməsi də strateji baxımdan yazı keyfiyyətinin artırılmasına töhfə verir. Bu yanaşmalar tələbələrin yazı prosesinə daha şüurlu və etik yanaşmasını formalaşdırır (Pecorari, 2013).

Yuxarıda izah olunan yazı bacarıqlarını inkişaf etdirməyə yönəlik strategiyaları sistemli şəkildə ümumiləşdirmək üçün aşağıdakı cədvələ nəzər yetirmək məqsədəuyğundur.

***Cədvəl 7.*** *Yazı bacarıqlarını inkişaf etdirməyə yönəlik 6 effektiv strategiya*

| Strategiya | Necə işləyir? | Tətbiq nümunəsi |
|---|---|---|
| 1. Struktur modellərdən istifadə | Yazını planlaşdırılmış ardıcıllıqla təqdim etmək üçün IMRaD, hamburger və tematik modellər tətbiq olunur. | Esse yazarkən “Giriş > Təhlil > Nəticə” modelindən istifadə; paraqraf quruluşunda hamburger modeli. |
| 2. Tənqidi oxu ilə yazının inteqrasiyası | Mənbələrin təkcə xülasəsi deyil, onların təhlili və müəllif mövqeyinin müəyyən edilməsi vacibdir. | Mətni oxuyub əsas arqumenti yazılı formada şərh etmək: “Bu müəllif deyir ki...” strukturu ilə esse. |
| 3. Geribildirim əsaslı yazı | Müəllim və ya həmyaşıd rəyləri əsasında yazının zəif və güclü cəhətləri müəyyənləşdirilir. | Yazıdan sonra müəllimin qeyd etdiyi “ideya yaxşıdır, lakin dəstək zəifdir” rəyi əsasında düzəliş etmək. |
| 4. Müntəzəm yazı tapşırıqları | Qısa və müxtəlif yazı növlərində davamlı təcrübə yazı vərdişlərini möhkəmləndirir. | Həftəlik paraqraf tapşırığı: “Bir problem təsvir et və həllini təklif et.” |

| | | |
|---|---|---|
| 5. Yazı prosesinin mərhələli öyrədilməsi | Yazı tək mərhələli məhsul deyil, planlama > ilk versiya > düzəliş > yekun mərhələləri olan prosesdir. | Məsələn, tələbə əvvəl mövzu seçir, sonra kontur hazırlayır, sonra ilkin versiyanı yazır. |
| 6. Akademik üslub və istinad qaydalarının öyrədilməsi | Plagiatın qarşısı alınır, akademik dil və terminlər daha düzgün tətbiq olunur. | APA üslubunda istinad etmə məşqləri və “paraşüt sitat” əvəzinə kontekstual sitatlandırma. |

***Mənbə:*** *Cədvəl Swales və Feak (2012), Graff və Birkenstein (2018), Booth, Colomb və Williams (2016), və Hyland (2019) əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

**Akademik yazının bütövlüyünün qorunmasının əhəmiyyəti.** Akademik yazının bütövlüyü, təkcə mətnin struktur tamlığı və ideya ardıcıllığı ilə deyil, həm də onun etik, elmi və üslubi keyfiyyətləri ilə müəyyən olunur. Bütöv bir akademik mətn, müəllifin tədqiqat mövzusuna nə dərəcədə dərindən yanaşdığını, fikirlərini necə əsaslandırdığını və nəticələrini hansı səviyyədə elmi ictimaiyyətə təqdim etdiyini əks etdirir. Bu baxımdan yazının bütövlüyünün qorunması, onun yalnız texniki baxımdan düzgün olmasından deyil, ideya sabitliyi, arqumentin məntiqi inkişafı, dəqiq istinadlar və etik yanaşma kimi fundamental komponentlərdən asılıdır. Bütövlük pozulduqda – məsələn, fikirlər bir-biri ilə əlaqələndirilmədikdə, plagiata yol verildikdə, ya da elmi üslubdan uzaqlaşıldıqda – yazının elmi dəyəri və etibarlılığı ciddi şəkildə azalır. Bu isə həm müəllifin fərdi nüfuzuna, həm də təmsil etdiyi akademik qurumun reputasiyasına mənfi təsir göstərə bilər. Akademik mühitdə etimad və şəffaflıq əsas prinsiplərdən olduğuna görə, bütövlüyün qorunması elmi etikanın təmin edilməsi və biliklərə dayalı diskursun davamlılığı baxımından həlledici əhəmiyyət daşıyır. Bundan əlavə, akademik yazı bütövlüyü tələbənin və ya tədqiqatçının tənqidi düşünmə, analiz və sistemləşdirmə bacarıqlarının göstəricisidir. Bu bacarıqlar yalnız yazı mətnində deyil, eyni zamanda elmi fəaliyyətin bütün mərhələlərində – problem quruluşundan nəticələrin təqdiminə qədər – əks olunur. Beləliklə, akademik yazının bütövlüyünün qorunması, sadəcə texniki tələb deyil, elmi fəaliyyətin bütöv bir ideoloji və metodoloji çərçivə daxilində həyata keçirilməsini təmin edən əsas şərtdir.

Akademik yazının bütövlüyü, təkcə mətnin struktur tamlığı və ideya ardıcıllığı ilə deyil, həm də onun etik, elmi və üslubi keyfiyyətləri ilə müəyyən olunur. Bütöv bir akademik mətn, müəllifin tədqiqat mövzusuna nə dərəcədə dərindən yanaşdığını, fikirlərini necə əsaslandırdığını və nəticələrini hansı səviyyədə elmi ictimaiyyətə təqdim etdiyini əks etdirir. Bu baxımdan yazının bütövlüyünün qorunması, onun yalnız texniki baxımdan düzgün olmasından deyil, ideya sabitliyi, arqumentin məntiqi inkişafı, dəqiq istinadlar və etik yanaşma kimi fundamental komponentlərdən asılıdır. Bütövlük pozulduqda – məsələn, fikirlər bir-biri ilə əlaqələndirilmədikdə, plagiata yol verildikdə, ya da elmi üslubdan uzaqlaşıldıqda – yazının elmi dəyəri və etibarlılığı ciddi şəkildə azalır. Bu isə həm müəllifin fərdi nüfuzuna, həm də təmsil etdiyi akademik qurumun reputasiyasına mənfi təsir göstərə bilər. Akademik mühitdə etimad və şəffaflıq əsas prinsiplərdən olduğuna görə, bütövlüyün qorunması elmi etikanın təmin edilməsi və biliklərə dayalı diskursun davamlılığı baxımından həlledici əhəmiyyət daşıyır. Bundan əlavə, akademik yazı bütövlüyü tələbənin və ya tədqiqatçının tənqidi düşünmə, analiz və sistemləşdirmə bacarıqlarının göstəricisidir. Bu bacarıqlar yalnız yazı mətnində deyil, eyni zamanda elmi fəaliyyətin bütün mərhələlərində – problem quruluşundan nəticələrin təqdiminə qədər – əks olunur. Beləliklə, akademik yazının bütövlüyünün qorunması, sadəcə texniki tələb deyil, elmi fəaliyyətin bütöv bir ideoloji və metodoloji çərçivə daxilində həyata keçirilməsini təmin edən əsas şərtdir.
Bütövlüyü qorunan və elmi meyarlara uyğun şəkildə yazılmış akademik mətnlər yalnız fərdi nəticələrin deyil, ümumi elmi irəliləyişin bir parçasına çevrilir. Bu baxımdan, akademik yazının rolu təkcə müəllifin mövqeyini bildirmək deyil, həm də elmi cəmiyyətə intellektual töhfə verməkdir.
Elmi cəmiyyətə töhfə baxımından akademik yazının rolu. Akademik yazı elmi cəmiyyətin əsas kommunikasiya vasitələrindən biridir. O, tədqiqat nəticələrinin sistemləşdirilmiş şəkildə paylaşılmasına, elmi ideyaların yayılmasına və mövcud biliklərin inkişaf etdirilməsinə şərait yaradır. Akademik yazı vasitəsilə müəllif yalnız öz fərdi fikirlərini deyil, həm də elmi icmanın ortaq biliyinə əsaslanan nəticələri təqdim edir. Bu isə onu bilik istehsalının və paylaşımının mərkəzi vasitəsinə çevirir. Yaxşı qurulmuş bir akademik məqalə və ya tədqiqat işi yalnız konkret bir problemi əhatə etmir, eyni zamanda elmi diskursa yeni suallar, fərqli yanaşmalar və müzakirəyə açıq nəticələr təqdim etməklə sahənin inkişafına töhfə verir. Bu baxımdan akademik yazının funksiyası sadəcə

bilik ötürmək deyil, həm də bilik yaratmaq, elmi dialoqu genişləndirmək və tədqiqatçıları birləşdirən intellektual platforma formalaşdırmaqdır.

Müasir tələblərə uyğun yazı bacarıqlarının əhəmiyyəti. Qloballaşan elmi mühit və informasiya texnologiyalarının sürətli inkişafı akademik yazıya olan tələbləri də dəyişmişdir. Müasir akademik yazı yalnız klassik struktura uyğun olmaqla kifayətlənmir, həm də dil aydınlığı, elmi arqumentasiya gücü, beynəlxalq istinad standartlarına uyğunluq və plagiat təhlükəsinə qarşı dayanıqlılıq kimi meyarlara cavab verməlidir. Buna görə də tələbələrin və tədqiqatçıların yazı bacarığı müasir dövrün kompleks elmi və etik tələblərinə uyğunlaşdırılmalıdır. Bu gün yazı bacarıqları yalnız lokal akademik mühitdə deyil, beynəlxalq elmi ictimaiyyətə inteqrasiya baxımından da mühüm rol oynayır. Məzmunun tənqidi dəyərləndirilməsi, fikrin əsaslandırılması, müstəqil elmi mövqe formalaşdırılması və terminlərin dəqiq istifadəsi bu bacarıqların ayrılmaz tərkib hissələridir. Bundan əlavə, texnoloji vasitələrdən istifadə (məsələn, istinad menecerləri, antiplagiat proqramları, yazı platformaları) və rəqəmsal savadlılıq da müasir yazı mədəniyyətinin əsas komponentlərindəndir.

Akademik yazı bacarığının müasir tələblərə cavab verə bilməsi həm müəllifin fərdi elmi keyfiyyətlərini artırır, həm də onun elmi ictimaiyyətdə görünürlüğünü və qəbul olunma səviyyəsini yüksəldir. Bu isə yalnız akademik uğur deyil, həm də intellektual məsuliyyət və etik davranışın göstəricisidir. Beləliklə, müasir akademik mühitdə yazı bacarıqları yalnız bir ifadə forması deyil, fikir liderliyi və bilik istehsalının əsas aləti kimi çıxış edir.

## Ədəbiyyat siyahısı


1. American Psychological Association. (2020). Publication manual of the American Psychological Association (7th ed.). Washington, DC: American Psychological Association.
2. Bailey, S. (2018). Academic writing: A handbook for international students (5th ed.). London: Routledge.
Empirik və nəzəri səviyyələr tətbiq olunan yanaşma və metodlara əsasən bir-birindən fərqlənir. Empirik mərhələnin əsasını tədqiqat obyekti və elmi-praktiki fəaliyyət təşkil edir. Bu mərhələdə ilkin məlumatlar

toplanır və ümumiləşdirilərək təhlil olunur. Nəzəri mərhələdə isə abstrakt düşüncə və təhlilə əsaslanaraq ideal modellər və biliklər sistemi formalaşır. Elmi biliklər forma və məzmun baxımından iki əsas səviyyəyə bölünür: empirik səviyyədə obyektin yalnız müşahidə edilə bilən xüsusiyyətləri əks olunur və proseslərin səbəbləri tam şəkildə açıqlanmaya bilər; burada əsasən faktlara əsaslanan biliklər əldə edilir. Nəzəri səviyyədə isə biliklərin məntiqi təhlili əsasında hadisələrin daxili mahiyyəti və qanunauyğunluqları üzə çıxarılır.

Elmi tədqiqatların səviyyələrinin müəyyənləşdirilməsi onların qarşılıqlı əlaqəsi ilə əlaqədardır. Empirik araşdırmalar, nəzəri biliklər və prinsiplər olmadan müstəqil şəkildə həyata keçirilə bilməz. Bu nəzəri əsaslar, empirik tədqiqatların başlanğıc nöqtəsi və istiqamətverici çərçivəsi kimi çıxış edir. Eyni zamanda, nəzəri biliklər nə qədər ümumiləşmiş və abstrakt xarakter daşısa da, sonda praktikaya və empirik faktlara əsaslanaraq dəstəklənməlidir. Empirik və nəzəri tədqiqatların müqayisəsi isə metodoloji baxışın formalaşdırdığı abstrakt yanaşmalardan biridir. Bu yanaşma çərçivəsində konkret və ümumi anlayışlar, hadisələrin xarici görünüşü və daxili məzmunu, faktlar və onların elmi izahı arasında sıx əlaqələr nəzərə alınır. Bununla yanaşı, qeyd etmək lazımdır ki, empirik və nəzəri səviyyələrin abstraktlaşdırılması nisbidir və real biliyin struktural təşkili haqqında tam məlumat vermir.

Tədqiqatın hər bir mərhələsi fərqli bilik formaları və metodları ilə səciyyələnir. Lakin bəzi elm sahələrində biliyin nəzəri və empirik səviyyələrə bölünməsi mümkün deyil. Məsələn, məntiq və riyaziyyat əsasən nəzəriyyə səviyyəsində fəaliyyət göstərdiyi halda, təbiət və tarix elmləri daha çox empirik üsullara əsaslanır. Humanitar elmlərdə isə bu iki səviyyə arasında dəqiq fərq qoymaq bəzi hallarda çətinlik törədir. Bu sahələrdə yalnız biliyin formalaşdırılması və riyaziləşdirilməsi deyil, həmçinin obyektlərin ikili xarakter daşıması da çətinliklərə səbəb olur. Bu, dil fenomeni baxımından material və şərti göstəricilərin ayrılmasını mürəkkəbləşdirir.

İstənilən elmi tədqiqatın planlaşdırılması onun əsasını təşkil edən elmi metodlara əsaslanır. Elmi metod – yeni biliklərin əldə olunmasına və konkret elmi problemlərin həllinə yönəlmiş sistemli üsuldur. Bu metodlar tədqiqat obyektlərinin öyrənilməsi, əvvəlki və yenidən qazanılmış məlumatların sistemləşdirilməsi, eləcə də onların təhlili və dəqiqləşdirilməsini əhatə edir. Elmi metodun mühüm xüsusiyyətlərindən biri isə tədqiqatın obyektivliyini təmin etməkdir. Bu məqsədlə müşahidələr dəqiq şəkildə sənədləşdirilir və prosesə digər

tədqiqatçıların da cəlb olunması təmin edilir.

Elmin fəlsəfəsində dərketmənin iki əsas səviyyəsi – empirik və nəzəri mərhələləri fərqləndirilir. Bu təsnifat ondan irəli gəlir ki, tədqiqatçı bilikləri həm müşahidə və təcrübə yolu ilə (empirik), həm də mürəkkəb məntiqi təhlillərlə (nəzəri) əldə edə bilər.

Dərketmənin empirik səviyyəsinə aid əsas kateqoriyalar aşağıdakılardır:

Müşahidə

Faktların toplanması, seçilməsi və aralarındakı qarşılıqlı əlaqələrin müəyyənləşdirilməsini əhatə edir.

Nəzəri tədqiqatın təməlini isə empirik məlumatlaırın təhlli və işlənmə ilə bağlı olan əqli fəaliyyət təşkil edir.

Nəzəri mərhələdə:

Sistemlərin və hadisələrin daxili strukturu, onların inkişaf qanunauyğunluqları, eləcə də qarşılıqlı təsir mexanizmləri araşdırılır.

Elmi idrakın empirik və nəzəri mərhələlərində aşağıdakı tədqiqat metodlarından istifadə olunur (5-7):

Empirik əsaslı elmi yanaşmalar

Müşahidə – ətrafda baş verən hadisələrin insan tərəfindən məqsədyönlü şəkildə izlənilməsi və onların mahiyyətinin dərk olunmasına yönəlmiş bir idrak üsuludur. Bu metodda tədqiqat obyekti hər hansı xarici təsirə məruz qalmadan öyrənilir. Etibarlı nəticələr əldə etmək məqsədilə müşahidə prosesinin təkrarlanması vacib sayılır. Müşahidənin iki əsas forması mövcuddur: birbaşa (vizual) müşahidə – insanın öz fiziki duyğuları ilə həyata keçirdiyi; bilavasitə (texniki) müşahidə isə xüsusi cihaz və avadanlıqların köməyi ilə aparılan müşahidə növüdür.

Təsviretmə – müşahidə nəticəsində formalaşan hissi məlumatların faktlara əsaslanaraq yazılı şəkildə sənədləşdirilməsi prosesidir. Bu mərhələdə əldə olunan biliklər, fərdi idrak üçün ilkin material funksiyasını daşıyır. Təsviretmə, əsasən empirik səviyyədə həyata keçirilir və məlumatlar həm kəmiyyət, həm də keyfiyyət göstəricilərinə əsasən toplanır. Empirik təsvir zamanı obyekt və proseslər haqqında informasiyalar növbəti tədqiqat mərhələlərində istifadə üçün rəqəmlərlə, sxemlərlə və ya dil vasitələri ilə qeyd olunur.

Təsviretmə müşahidə prosesini tamamlayan bir mərhələ olub, hadisələrin mahiyyətinə dərindən nüfuz etmədən, daha çox onların xarici xüsusiyyətlərini əhatə edir. Əsas məqsəd tədqiq olunan obyektin mümkün qədər ətraflı və sistemli şəkildə sənədləşdirilməsidir. Burada keyfiyyət və kəmiyyət yanaşmaları mühüm rol oynayır. Tarixi təcrübə göstərir ki, bir çox hallarda elmi hadisələr əvvəlcə keyfiyyət baxımından

müəyyən olunmuş, daha sonra isə kəmiyyət göstəriciləri ilə ifadə olunmuşdur. Müasir elmdə bu iki yanaşma bir-birini tamamlayan və qarşılıqlı əlaqədə olan tədqiqat aspektləridir.

Keyfiyyət təsviri tez-tez “müşahidə protokolu” adlanan sənədlər vasitəsilə, o cümlədən cədvəllər, qrafiklər və matrisalar şəklində təqdim edilir. Müasir təsviretmə isə, adətən, ölçmə proseslərinin riyazi modellərlə dəstəkləndiyi metodlara əsaslanır.

Müqayisə – dərketmənin ən geniş tətbiq olunan üsullarından biridir. Hər şeyin müqayisə zamanı üzə çıxması təsadüfi deyil. Müqayisənin effektiv aparılması üçün iki əsas şərt yerinə yetirilməlidir:

• yalnız oxşar ümumi xüsusiyyətləri olan hadisələrin müqayisəsi məqsədəuyğundur,

• müqayisə obyektləri vacib göstəricilər əsasında həyata keçirilməlidir.

Ölçmə – tədqiqat obyektinin kəmiyyət göstəricilərinin müəyyənləşdirilməsi üçün xüsusi texniki qurğular və ölçmə vahidlərindən istifadə edilməsini təmin edir. Ölçmənin keyfiyyətini müəyyən edən əsas amil, həmçinin onun elmi dəyəri, tədqiqatçının bacarığından və istifadə olunan qurğuların dəqiqliyindən asılıdır.

Eksperiment – elmi tədqiqatlarda irəli sürülən hipotezin doğruluğunu yoxlamaq və ya hadisələr arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək məqsədilə həyata keçirilən planlı hərəkət və müşahidələr kompleksidir. Bu metodun əsas xüsusiyyətlərindən biri onun təkrarolunma imkanının olmasıdır ki, bu da əldə olunan nəticələrin etibarlılığını təmin edir.

Eksperiment müşahidə metodundan fərqli olaraq, tədqiqatçıya hadisəni xarici təsirlərdən mümkün qədər təcrid olunmuş şəkildə araşdırmaq imkanı verir. Bundan əlavə, bu metod vasitəsilə obyektin spesifik xüsusiyyətləri qeyri-adi və ya ekstremal şəraitdə də öyrənilə bilər. Eksperiment ya birbaşa obyektin üzərində, ya da həmin obyektin modeli üzərində həyata keçirilə bilər.

Material modelləşdirmə isə – reallıqda mövcud olan obyektlərin fiziki və funksional cəhətdən bənzər modellər vasitəsilə araşdırılmasına əsaslanan metoddur. Model – tədqiq edilən obyektin əsas xüsusiyyətlərini özündə əks etdirən və material şəkildə reallaşdırılan sistemdir. Belə modellər maket, funksional nüsxə və ya sınaq versiyası şəklində təqdim oluna bilər.

Nəzəri tədqiqat metodları:

Abstraktlaşdırma – araşdırılan obyektin yalnız əsas, elmi cəhətdən

əhəmiyyətli xüsusiyyətlərini seçərək, digər təsadüfi və ikinci dərəcəli xassələrdən məqsədyönlü şəkildə uzaqlaşma prosesidir. Abstraktlaşdırma və abstraksiya eyni anlayışlar deyil: birincisi – müəyyən düşüncə əməliyyatlarının məcmusunu, ikincisi isə həmin əməliyyatların nəticəsini ifadə edir. Abstraksiyaya ağac, ev, avtomobil kimi ümumiləşdirilmiş obrazlar misal göstərilə bilər. Bu proses məntiqi təhlilin əsas komponentlərindən olan analiz və sintezlə sıx bağlıdır.

Aksiomatik yanaşma – qədim dövrdə Evklid tərəfindən formalaşdırılmış və müasir elmi biliklərdə geniş tətbiq olunan metodlardan biridir. Bu yanaşmanın mahiyyəti, əvvəlcədən qəbul edilmiş və sübuta ehtiyac duymayan ilkin müddəaların – aksiomaların mövcudluğu üzərində qurulur. Aksiomalar və onlardan çıxarılan nəticələr birlikdə məntiqi baxımdan tutarlı nəzəriyyəni formalaşdırır.

Analiz – obyektin və ya hadisənin daha dərindən dərk olunması məqsədilə onun tərkib hissələrinə ayrılması prosesidir. Bu üsul tədqiqatçının obyektin müxtəlif komponentlərini ayrı-ayrılıqda öyrənməsinə imkan verir. Analiz vasitəsilə bir sinfə daxil olan fərqli obyektlərin ortaq xüsusiyyətləri müəyyən edilir və ümumi struktur qurulur. Bundan əlavə, analiz ümumi prinsipləri ayırd etməyə və daha geniş elmi nəticələr çıxarmağa xidmət edir.

Sintez – analiz nəticəsində əldə edilən biliklərin vahid və bütöv bir strukturda birləşdirilməsi prosesidir. Bu metod tədqiqat obyektinin müxtəlif cəhətlərinin qarşılıqlı əlaqədə öyrənilməsinə şərait yaradır. Analiz və sintez bir-birini tamamlayan üsullar kimi, elmi prosesin müxtəlif mərhələlərində tətbiq olunur. Səthi araşdırmalarda birbaşa analiz və sintez kifayət etsə də, dərin elmi araşdırmalarda struktur–genetik yanaşmalara üstünlük verilir.

İdeallaşdırma – reallıqda tam şəkildə mövcud olmayan, lakin elmi modelləşdirmədə istifadə olunan obyekt və ya proseslərə dair təxəyyülün yaradılmasıdır. Məsələn, "ideal qaz", "nöqtə" və "mükəmməl kristal" kimi anlayışlar bu metodla formalaşdırılır. İdeallaşdırma təbiət elmlərində geniş tətbiq olunur və elmi düşüncənin inkişafında mühüm rol oynayır, çünki bu metodla mürəkkəb proseslər sadələşdirilmiş modellər əsasında öyrənilə bilir.

Formallaşdırma – elmi biliklərin riyazi və ya məntiqi simvollarla dəqiq ifadə olunması prosesidir. Bu metod riyaziyyat və məntiqdə geniş şəkildə istifadə olunur və qeyri-müəyyən, intuitiv fikirlərin sistemləşdirilməsini təmin edir. Formallaşdırma sayəsində elmi mühakimələr daha aydın və təkrarolunan olur ki, bu da nəzəri əsasların möhkəmləndirilməsinə

şərait yaradır.
İnduksiya – fərdi müşahidə və faktlardan ümumi nəticələr çıxarmağa yönəlmiş mühakimə üsuludur. Bu yanaşma elmi tədqiqatlarda konkret halların təhlilinə əsaslanaraq ümumiləşdirmələr aparmağa imkan verir. İnduktiv yanaşma, xüsusilə eksperiment və müşahidələr nəticəsində əldə olunan məlumatlar əsasında hipotezlərin qurulmasında əhəmiyyətlidir. O, elmi biliyin empirik bazasını təşkil edir.
Deduksiya – ümumi nəzəri biliklərdən konkret nəticələr çıxarmağa yönəlmiş mühakimə prosesidir. Deduktiv yanaşma induktiv nəticələr əsasında formalaşan ümumi prinsipləri spesifik hallara tətbiq etməyə imkan verir. Elmi tədqiqatlarda deduksiya, mövcud nəzəriyyələrin genişləndirilməsi və yeni konsepsiyaların irəli sürülməsi baxımından vacib rol oynayır.
Nəzəri (əqli) modelləşdirmə – obyektin real və ya təxəyyüldə formalaşdırılmış əqli modeli əsasında onun xüsusiyyətlərinin araşdırılması prosesidir. Bu metod, obyektin fiziki reallıqda mövcud olmadığı və ya təcrübədə müşahidəsinin mümkün olmadığı hallarda tətbiq olunur. Nəzəri modelləşdirmə simvolik təsvirlər və ya riyazi düsturlar vasitəsilə həyata keçirilir və əqli eksperimentlərlə müşayiət olunur. Kompüter texnologiyalarının inkişafı bu sahədə yeni imkanlar açmışdır.
Riyazi modelləşdirmə – obyektin hal və davranış göstəricilərinin riyazi ifadələr vasitəsilə təsvir olunmasıdır. Bu metod formallaşdırılmış məlumatlar əsasında obyektlər arasındakı əlaqələri müəyyənləşdirməyə və müxtəlif ssenarilərin proqnozlaşdırılmasına imkan verir. Bu yanaşma müasir elmi araşdırmalarda geniş şəkildə istifadə olunur və analitik nəticələrin əldə edilməsində əhəmiyyətli vasitə hesab edilir.
Nəticə etibarilə, hər bir elmi sahə özünəməxsus metodoloji yanaşmalara malik olsa da, bu metodların bir çoxu müxtəlif elmi sahələrdə ortaq şəkildə tətbiq olunur. Məsələn, fiziki və kimyəvi üsulların biologiyada istifadəsi bu sahələrin bir-birini tamamlayan təbiətindən irəli gəlir. Bu isə metodların universallığını və elmi tədqiqatların çoxşaxəli xarakterini göstərir.
Elmi tədqiqatın əsas məqsədi — konkret obyekt və ya hadisənin struktur xüsusiyyətlərini, xarakterik cəhətlərini və qarşılıqlı əlaqələrini mövcud elmi prinsiplər və idrak metodları əsasında hərtərəfli və dəqiq şəkildə öyrənməkdir. Bu prosesin nəticəsində əldə edilən biliklərin insan fəaliyyəti sahəsində səmərəli şəkildə tətbiqi nəzərdə tutulur.
Tədqiqat işlərinin – istər kurs, layihə, buraxılış, istərsə də dissertasiya

işlərinin – hazırlanması zamanı aparılan ədəbiyyat təhlili məqsədin düzgün müəyyənləşdirilməsində və işin elmi əhəmiyyətinin artırılmasında mühüm rol oynayır. Mövzu və ixtisas istiqamətindən asılı olmayaraq, hər bir elmi iş konkret elmi məqsədin reallaşdırılmasına yönəlir. Bu məqsədin mərkəzində isə yeni elmi biliklərin əldə olunması dayanır.

Yeni biliklərin formalaşdırılması müxtəlif tədqiqat metodlarına əsaslanır və bu yanaşmalar aşağıdakı kimi qruplaşdırıla bilər:

- Nəzəri yanaşma (məsələn, modellər vasitəsilə),
- Empirik yanaşma (müşahidə və təcrübəyə əsaslanan),
- Metodoloji yanaşmalar (ətraflı məlumat üçün).

Bu üç əsas metodoloji istiqamət üzrə aparılan tədqiqatların hər biri öz növbəsində tədqiq olunan problemin elmi baxımdan əsaslandırılmış həllinə töhfə verir. Məsələn, nəzəri modellərin tətbiqi vasitəsilə real dünyada müşahidə olunan hadisə və proseslər arasında ümumi qanunauyğunluqların müəyyən edilməsi mümkündür. Elmi işin bu istiqamətdəki başlıca vəzifəsi isə həmin qanunauyğunluqları aşkar etməklə onların təkmilləşdirilməsini təmin etməkdir.

Tətbiq olunan təsvir üsullarına əsaslanaraq modelləri üç əsas kateqoriyada qruplaşdırmaq mümkündür:

- Təsviredici modellər — hadisələri ən sadə nəzəri şəkildə təsvir edən modellərdir. Bu modellər əsasən müşahidələrə əsaslanır və “nə baş verir?” sualına cavab tapmağa yönəlir.
- İzahedici modellər — mövcud biliklərin təhlili əsasında hadisələrin səbəblərini izah etməyə cəhd edir. Bu yanaşma vasitəsilə “niyə baş verir?” sualına cavab axtarılır.
- Qərarverici modellər — müəyyən problemlərin optimal həlli və qərar qəbul etmə proseslərinin əsaslandırılması məqsədilə istifadə edilir. Bu modellər adətən izahedici yanaşmaların nəticələri əsasında formalaşır.

Bir müəssisənin texniki avadanlıq alışı ilə bağlı qərar qəbul etmə prosesini nəzərdən keçirək. Bu mərhələdə yuxarıda sadalanan modellərin tətbiqi əyani şəkildə görünür. Müəssisənin sifariş etdiyi avadanlıqların ümumi dəyəri (Ksifariş) və onların anbarlarda saxlanılması ilə bağlı yaranan xərclər (Kanbar) qərar qəbuletmə üçün vacib iqtisadi göstəricilərdir. Sifariş xərcləri yalnız məhsulun qiymətini deyil, həm də onun çatdırılması ilə bağlı xərcləri əhatə edir. Bu xərcləri əks etdirən riyazi modelin əsas məqsədi — müəssisənin maliyyə baxımından daha optimal qərarlar qəbul etməsini təmin etmək və alınma ilə saxlama xərclərinin

minimuma endirilməsini təmin etməkdir.
Kümumi = Ksifariş +Kanbar > MIN
Empirik Yanaşma. Empirik tədqiqat, birbaşa müşahidə və praktik təcrübə əsasında məlumatların toplanmasına əsaslanır. Toplanan verilənlər, əsasən, mövcud fərziyyələrin doğruluğunu təsdiqləmək və ya onları rədd etmək məqsədilə istifadə olunur. Fərziyyə təsdiqləndikdə, bu əsasında yeni nəzəriyyə və ya modellərin qurulması və inkişaf etdirilməsi mümkündür. Bu yanaşma nəticəsində, real sektorda fəaliyyət göstərən mütəxəssislər üçün praktik tövsiyələrin hazırlanması təmin edilir.
Empirik yanaşmanın əsas xüsusiyyətlərindən biri onun özlüyündə məqsəd deyil, daha çox vasitə funksiyasını yerinə yetirməsidir. Elmi tədqiqatın orijinallığını qorumaq baxımından qeyd etmək lazımdır ki, mövcud olan bütün əlçatan məlumatlar diqqətlə nəzərdən keçirilməlidir. Empirik verilənlərin toplanması bir neçə üsuldan istifadə etməklə həyata keçirilə bilər. Bunlar arasında müşahidələr, müsahibələr, eksperimentlər və mövcud sənədlərin — məsələn, patentlər və müəssisə məlumat bazalarının — təhlili kimi metodlar yer alır.
Empirik məlumatların toplanması və təhlili tədqiqatın aparıldığı sahənin xüsusiyyətlərindən asılı olaraq dəyişir. Məsələn, texniki elmlərdə ölçmə nəticələri əsas götürülürsə, sosial elmlərdə empirik yanaşmalar sosial proseslərin məqsədyönlü şəkildə öyrənilməsini tələb edir.
Metodlar.Elmi biliklərin formalaşması və inkişafında metodların rolu xüsusilə önəmlidir və bu prosesin son mərhələsini təşkil edir. Empirik məlumatların toplanmasında qeyd və təhlil üsulları nə qədər əhəmiyyətlidirsə, əldə edilmiş elmi nəticələrin praktikaya tətbiqi üçün də müxtəlif metodlara ehtiyac duyulur. Bu baxımdan, metodlar təkcə məlumat toplama vasitəsi kimi deyil, həm də elmin nəticəyönlü tətbiq mexanizmi kimi çıxış edir.
Məsələn, təhsil sahəsində dərsliklərin hazırlanması və tədris metodlarının işlənməsi elmi nəticələrin praktik təhsil mühitinə inteqrasiya olunmasının bariz nümunəsidir. Bu zaman əldə edilən biliklər metodoloji yanaşmalar əsasında reallaşdırılır.
Yuxarıda sadalanan əsas istiqamətləri ümumiləşdirərək, elmi-tədqiqat işinin hazırlanmasında qarşıya qoyulan məqsədləri aşağıdakı kimi qruplaşdırmaq mümkündür:
Nəzəri yanaşma:

- Problemin tədqiqində mövcud nəzəriyyələrin toplanması və təhlili;
- Seçilmiş nəzəri baza əsasında tədqiqat obyektinin izahı;
- Yeni nəzəri modellərin hazırlanması və əsaslandırılması.

- Empirik yanaşma:
- Faktların və məlumatların toplanması ilə mövcud empirik bazanın genişləndirilməsi;
- Problemlə bağlı praktiki strukturların formalaşdırılması;
- Toplanan məlumatların elmi əsaslarla təhlili və nəticələrin çıxarılması.
- Metodoloji yanaşma:
- Mövcud metodlar haqqında elmi ədəbiyyatların öyrənilməsi və ümumiləşdirilməsi;
- Əldə olunmuş metodların konkret tədqiqat probleminə uyğunlaşdırılması və tətbiqi;
- Yeni metodların işlənib hazırlanması və sınaqdan keçirilməsi.

*Sxem 2: Tədqiqatın məqsədinin elmi kontekstdə qurulması və əsaslandırılması*




***Mənbə:*** *Əliyev Rezo 2016*

Elmi tədqiqatın başlanğıc mərhələsində müəyyənləşdirilən məqsəd, tədqiqatın davamı ərzində dəyişə və ya dəqiqləşdirilə bilər. Bu səbəbdən, elmi fəaliyyətin müxtəlif mərhələlərində tədqiqat məqsədinin yenidən nəzərdən keçirilməsi və istiqamətinin konkretləşdirilməsi zəruri hesab olunur (Kərimov, 2019). Sxem vasitəsilə elmi məqsədin formalaşma prosesi, onun əsas komponentləri və bu komponentlər arasındakı qarşılıqlı əlaqələr vizual olaraq təqdim edilir ki, bu da analitik düşünmənin inkişafına töhfə verir.

Sxemin ilkin hissəsində tədqiqatın əsas istiqamətləri – nəzəri, empirik və metodoloji yanaşmalar – qeyd olunur. Mərkəzdə bu yanaşmaların həyata keçirilməsinə xidmət edən sistemli və mərhələli fəaliyyətlər əks olunur. Son bölmədə isə əldə edilmiş nəticələr əsasında səbəb-nəticə əlaqələrinin analizi və gələcəyə dair elmi proqnozların verilməsi kimi mərhələlər təsvir edilir

Praktiki təcrübə göstərir ki, bir çox hallarda elmi araşdırmalar klassik nəzəriyyədən praktikaya deyil, əksinə, müşahidə olunan hadisələrin təhlili əsasında onların əsas səbəblərinə yönəlir. Bu yanaşma, elmi nəticələrin daha səmərəli şəkildə tətbiqinə və aktual problemlərin həllinə imkan yaradır.

Akademik yazı, yalnız məlumat təqdim etməkdən daha geniş bir məqsəd daşıyır və bu məqsəd, elmi cəmiyyətə yeni tapıntıları paylaşmaq və mövcud nəzəriyyələri müzakirə etməkdir. Onun əsas fərqi, strukturunun, dilinin və məqsədinin elmi sahələrə uyğun şəkildə qurulmasıdır. Akademik yazı digər yazı növlərindən, xüsusən də bədii yazı və jurnalistikadan fərqlənir, çünki onun məqsədi yalnız informativ olmaqla kifayətlənmir, həm də təhlil və müzakirə etməkdir. Bu yazı növündə şəxsi fikirlərdən və subyektiv yanaşmalardan uzaq durulmalı, məlumatlar faktlara əsaslanmalıdır.

Akademik yazının yazılması prosesi, bir neçə mərhələdən ibarət olub, hər bir mərhələ yazının keyfiyyətini və elmi dəyərini artırmağa yönəldir. Əvvəlcə mövzunun aydınlaşdırılması və məqsədin müəyyənləşdirilməsi vacibdir, çünki bu mərhələdə yazının əsas istiqaməti təyin olunur. Növbəti mərhələ mənbələrin toplanması və mövcud ədəbiyyatın nəzərdən keçirilməsidir. Bu mərhələ, mövzunun elmi əsaslarının qurulmasında və mövcud nəzəriyyələrin öyrənilməsində mühüm rol oynayır. Yazının strukturunun hazırlanması və ilkin layihənin yazılması mərhələsi, yazının ardıcıl və məntiqi şəkildə qurulmasını təmin edir. Nəhayət, redaktə və yekunlaşdırma mərhələsi, yazının son həddə çatdırılaraq, hərtərəfli və dəqiq olmasını təmin edir.

Tənqidi təhlil akademik yazının əvəzedilməz bir komponentidir. Bu yanaşma, mövzunun müxtəlif tərəflərini dərindən araşdırmağa, mövcud nəzəriyyələri qiymətləndirməyə və müəllifin öz mövqeyini başqalarının fikirləri ilə müqayisə edərək əsaslandırmağa imkan verir. Tənqidi təhlil həm də yazının elmi dəyərini artırır, çünki o, müvafiq ədəbiyyatın və metodologiyanın düzgün tətbiqinə zəmanət verir. Bununla yanaşı, oxucuda məlumatın doğruluğu barədə inam yaradır.
Akademik yazının obyektivlik prinsipi, yazının əsas xüsusiyyətlərindən biridir. Bu prinsip yazının subyektiv fikirlərdən azad olmasını təmin edir və müəllifin mövqeyini təqdim edərkən yalnız faktlara, statistikaya və elmi metodlara istinad etməsini tələb edir. Obyektivlik, yazının elmi qaydalara uyğun olmasını və oxucular tərəfindən etibarlı qəbul edilməsini təmin edir. Bu da yazının müasir elmi cəmiyyətdə qəbul olunmasını və dəyərləndirilməsini asanlaşdırır.
Nəticə etibarilə, akademik yazı özünün struktural və məntiqi mürəkkəbliyi ilə qeyri-akademik yazılardan fərqlənir və bununla yanaşı, yazının obyektivliyi və elmi müzakirə aparmaq bacarığı onun əsas özəlliklərindəndir. Effektiv akademik yazı, elmi obyektivlik və tənqidi təhlil prinsiplərinin düzgün tətbiqinə əsaslanır və elmi ictimaiyyətin inkişafına, həmçinin müasir biliklərin yayılmasına böyük töhfə verir. Bu yazı növü yalnız məlumatları çatdırmaqla kifayətlənmir, həm də elm dünyasında yeni fikir və təhlilləri meydana çıxarmağa yönəlir.

## Ədəbiyyat siyahısı


1. Əliyev R. Akademik yazı.
2. Azkurs.org. (2023). Akademik yazı qaydaları. https://azkurs.org/akademik-yaz-qaydalar.html
3. Bailey, S. (2011). Academic writing: A handbook for international students (3rd ed.). Routledge.
4. Bailey, S. (2018). Academic writing: A handbook for international students (5th ed.). Routledge.
5. Booth, W. C., Colomb, G. G., & Williams, J. M. (2008). The craft of research (3rd ed.). University of Chicago Press.
6. Bryman, A. (2016). Social research methods (5th ed.). Oxford University Press.
7. Craswell, G. (2005). Writing for academic success. SAGE Publications.
8. Craswell, G., & Poore, M. (2012). Writing for academic success (2nd ed.). SAGE Publications.
9. Creswell, J. W. (2014). Research design: Qualitative, quantitative, and mixed methods approaches (4th ed.). SAGE Publications.
10. Day, R. A., & Gastel, B. (2011). How to write and publish a scientific paper (7th ed.). Cambridge University Press.
11. Gregory, J., & Miller, S. (1998). Science in public: Communication, culture, and credibility. Plenum Press.
12. Greelane. (2023). What is academic writing? https://www.greelane.com/az/humanitar-elml%C9%99r/ingilis-dili/what-is-academic-writing-1689052
13. Hart, C. (1998). Doing a literature review: Releasing the social science research imagination. SAGE Publications.
14. Hartley, J. (2008). Academic writing and publishing: A practical guide. Routledge.
15. Hyland, K. (2004). Disciplinary discourses: Social interactions in academic writing. University of Michigan Press.
16. Hyland, K. (2009). Academic discourse: English in a global context. Continuum.
17. Lillis, T. (2001). Student writing: Access, regulation, desire. Routledge.
18. Murray, R. (2011). How to write a thesis (3rd ed.). Open University Press. https://staff.tiiame.uz/storage/users/469/books/tT6nUl9EmBXEROqsRy53mT24MJX83SL7NUkMixzL.pdf

19. Neuman, W. L. (2011). Social research methods: Qualitative and quantitative approaches (7th ed.). Pearson Education.
20. Paltridge, B., & Starfield, S. (2007). Thesis and dissertation writing in a second language: A handbook for supervisors. Routledge.
21. Phillips, E., & Pugh, D. S. (2015). How to get a PhD: A handbook for students and their supervisors (6th ed.). McGraw-Hill Education.
22. Plag.ai. (2023). Akademik yazının əsasları: Rəsmilik və üslub üçün bələdçi. https://blog.plag.ai/az/academic-writing-formality-style-guide
23. Scribd. (2022). Akademik yazının fərqli xüsusiyyətləri sunum. https://www.scribd.com/presentation/761019493/Akademik-yaz%C4%B1n%C4%B1n-f%C9%99rqli-xu-susiyy%C9%99tl%C9%99ri-sunum
24. Swales, J. M. (1990). Genre analysis: English in academic and research settings. Cambridge University Press.
25. Swales, J. M., & Feak, C. B. (2012). Academic writing for graduate students: Essential tasks and skills (3rd ed.). University of Michigan Press.

*i.ü.f.d., dos. Şamxalova Samirə Oqtay*

# III. AKADEMİK YAZIDA ARQUMENTASİYA VƏ TƏNQİDİ TƏFƏKKÜR

3.1. Akademik Arqumentin Əsasları: Tərif və Əsas Komponentlər
3.1.1. Akademik yazıda arqumentasiya ilə faktların və ya fikirlərin sadə ifadəsi arasındakı fərq
3.1.2. Akademik yazıda istifadə olunan arqumentlərin növləri
3.1.3. Akademik yazıda effektiv arqumentlərin qurulmasında məntiq və ritorikanın rolu
3.2. Tənqidi Təfəkkür və Onun Əsas Bacarıqlarının Müəyyənləşdirilməsi
3.2.1. Tənqidi təfəkkür və akademik yazı prosesi arasındakı əlaqə
3.2.2. Akademik yazıda məlumat mənbələrinin tənqidi qiymətləndirilməsi
3.2.3. Tənqidi təhlil əsasında şəxsi arqumentlərin formalaşdırılması
3.3. Aydın, Məqsədyönlü və Arqunetləşdirilmiş Tezisin Hazırlanması
3.3.1. Müvafiq və etibarlı sübutların seçilməsi: inandırıcı arqumentasiyanın əsası
3.3.2. Arqumentlərin və sübutların məntiqi təşkili: oxucu üçün aydın və cəlbedici bir yol xəritəsi
3.3.3. Arqumentasiyanı gücləndirmək üçün ritorik strategiyalardan istifadə
3.3.4. Kontrarqumentlərin uzaqgörənliyi və təkzib edilməsi: dialoq yolu ilə mövqeyin möhkəmləndirilməsi
3.4. Akademik Mətnlərdə Arqumentasiyanın Təhlili və Qiymətləndirilməsi
3.4.1. Müəllifin əsas arqumentlərini necə müəyyən etmək olar?
3.4.2. Arqumentlərin gücünü və inandırıcılığını qiymətləndirmək üçün meyarlar
3.4.3. Məntiqi səhvləri və yanlış əsaslandırmaları müəyyən etmək
3.4.4. Digər müəlliflərin arqumentlərinə konstruktiv rəyləri necə vermək olar?
3.5. Akademik Yazının Müxtəlif Növlərində Arqumentasiya və

Tənqidi Təfəkkürün Tətbiqi
3.5.1. Esse
3.5.2. Elmi məqalələr
3.5.3. Xülasə və ədəbiyyat icmalı
3.5.4. Dissertasiya
Ədəbiyyat siyahısı

## 3.1. Akademik Arqumentin Əsasları: Tərif və Əsas Komponentlər

İnformasiyanın sürətli artımı və böyük həcmli məlumatların emalı ehtiyacı ilə səciyyələnən müasir akademik mühitdə əsas rolu təkcə biliyin mənimsənilməsi deyil, həm də onun dərin təhlili, tənqidi qiymətləndirilməsi və əsaslandırılmış nəticələrin formalaşdırılması üçün istifadə bacarıqları oynayır. Məhz buna görə də akademik yazı elmi ünsiyyətin əsas vasitəsi olmaqla müəlliflərin qarşısında intellektual fəaliyyətin nəticələrini tutarlı və inandırıcı arqumentlər şəklində təqdim etməklə təkcə məlumatlandırmaq deyil, həm də inandırmaq vəzifəsi qoyur.

Akademik yazı sadəcə faktları ifadə etmək və ya başqasının fikirlərini təqdim etmək deyil. O,  müəllifdən inandırıcı arqumentlər qurmağı, onları sübutlarla dəstəkləməyi, məlumatları tənqidi qiymətləndirməyi və müxtəlif nöqteyi-nəzərləri diqqətə almağı bacarmağı tələb edir.

Akademik yazı elmi diskursun əsasını təşkil edir, alimlərin, tədqiqatçıların və tələbələrin fikir mübadiləsi aparmaları, əldə etdikləri nəticələri təqdim etmək və biliyin inkişafına töhfə vermək vasitəsidir. Digər yazı formalarından fərqli olaraq, akademik yazı sərtliyi, dəqiqliyi və hər şeydən əvvəl inandırıcılığı ilə xarakterizə olunur. O, bir-biri ilə sıx bağlı olan iki elementə əsaslanır: arqumentasiya və tənqidi təfəkkür.

Arqumentasiya akademik yazının ürəyidir. Bu, sadəcə olaraq faktların və ya fikirlərin təqdim edilməsindən deyil, aydın şəkildə ifadə olunmuş mövqenin (tezisinin) təqdim edilməsindən və onu etibarlı sübutlarla dəstəklənən məntiqi şəkildə qurulmuş arqumentlərlə dəstəkləməkdən ibarətdir. İstər eksperimentin nəticələrinin şərhi, istər ədəbi əsərin təhlili, istərsə də yeni nəzəri konsepsiyanın işlənməsində məhz arqumentasiya vasitəsilə müəllif oxucunu öz nöqteyi-nəzərinin doğruluğuna inandırmağa çalışır. Təcrübəli arqumentlər olmadan,

akademik mətn güc və təsirdən məhrum olan fərqli bəyanatlar toplusu olaraq qalmaq riskini daşıyır.

Lakin tənqidi təfəkkür olmadan effektiv arqumentasiya mümkün deyil. Bu, müşahidə, təcrübə, düşünmə və ya ünsiyyət yolu ilə əldə edilmiş və ya yaradılan məlumatın fəal və bacarıqla dərk edilməsi, tətbiqi, təhlili, sintezi və qiymətləndirilməsinin intellektual intizamlı bir prosesidir. Tənqidi təfəkkür akademik mətnin müəllifinə təkcə mövcud nəzəriyyələri və tədqiqatları diqqətlə öyrənməyə, onların güclü və zəif tərəflərini müəyyən etməyə deyil, həm də öz, əsaslı və innovativ ideyalarını formalaşdırmağa imkan verir. Bu, qərəzdən qaçmağa, yanlış nəticələri tanımağa və məntiqli və inandırıcı arqumentlər qurmağa kömək edir.

Bu kontekstdə iki fundamental səriştə və ya kompetensiya – arqumentasiya və tənqidi düşünmə – uğurlu elmi işin ayrılmaz elementlərinə çevrilir.

Bu bölüm akademik yazı kontekstində akademik arqumentasiyanın əsaslarının və tənqidi təfəkkürün inkişafının ətraflı araşdırılmasına həsr edilmişdir. İlk öncə akademik arqument həmçinin onun əsas komponentlərini müəyyənləşdirən və əsaslandırılmış təqdimatla faktların və ya subyektiv fikirlərin sadə siyahısı arasında fərqi izah olunur. Akademik yazıda istifadə olunan arqument növləri, eləcə də inandırıcı və təsirli arqumentlərin yaradılmasında məntiq və ritorikanın roluna xüsusi diqqət yetirilir. Daha sonra, tənqidi düşüncə anlayışına və onun əsas bacarıqlarının tərifi verilir. Tənqidi düşüncə ilə akademik yazı prosesi arasında qırılmaz əlaqə təhlil edilərək, müxtəlif məlumat mənbələrinin tənqidi qiymətləndirilməsinin vacibliyi vurğulanır və tənqidi təhlil əsasında şəxsi, müstəqil arqumentlərin necə formalaşdığı göstərilir. Əsas yeri bütün sonrakı işlərin qurulduğu təməl daşı olan - aydın, məqsədyönlü və əsaslandırılmış bir tezis hazırlamaq prosesi tutur. Bunlara inandırıcı arqument üçün əsas yaradan müvafiq və etibarlı sübutların seçilməsinin əsas aspektləri, həmçinin bu arqumentlərin və sübutların oxucu üçün başa düşülməsini asanlaşdıran ardıcıl və təqdimatda məntiqi şəkildə təşkili prinsipləri daxildir. Arqumentasiyanın təsirini artıran ritorik strategiyaların öyrənilməsi, habelə mümkün əks arqumentləri qabaqcadan görmək və onları effektiv şəkildə təkzib etmək bacarığı, bununla da elmi dialoqda öz mövqeyini gücləndirmək də eyni dərəcədə vacibdir.

Bundan əlavə, digər müəlliflər tərəfindən akademik mətnlərdə təqdim olunan arqumentasiyanın təhlili və qiymətləndirilməsi üsulları nəzərdən keçirilir. Müəllifin əsas arqumentlərinin müəyyən edilməsi

üsulları, bu arqumentlərin gücünü və inandırıcılığını qiymətləndirmək üçün meyarlar, o cümlədən məntiqi səhvlərin və düzgün olmayan əsaslandırmanın aşkarlanmasına yanaşmalar müəyyən edilir. Akademik ictimaiyyətin mühüm hissəsi olan həmkarların arqumentləri ilə bağlı konstruktiv rəy verilməsi məsələsinə də xüsusi diqqət yetirilir.
Yekun bölmə akademik yazının müxtəlif janrlarına, o cümlədən esselərə, dissertasiyalara, xülasə və ədəbiyyat icmallarına, tədqiqat məqalələrinə arqumentasiya və tənqidi təfəkkür prinsiplərinin tətbiqini araşdırır. Bu formatların hər birində arqumentasiya və tənqidi təfəkkürün xüsusi istifadəsini nümayiş etdirmək üçün konkret nümunələr təqdim olunur.
Beləliklə, bu bölüm akademik yazının əsas elementləri kimi arqumentasiya və tənqidi düşüncəni hərtərəfli araşdırmaq məqsədi daşıyır. Bu anlayışlar haqqında bilikləri dərinləşdirmək və müvafiq bacarıqları inkişaf etdirmək tələbələrə, tədqiqatçılara və müəllimlərə elmi biliklərin və intellektual tərəqqinin inkişafına töhfə verən yüksək keyfiyyətli, cəlbedici və mənalı tədqiqat işləri hazırlamağa imkan verəcək.

Akademik yazıda arqument oxucunu müəyyən bir nöqteyi-nəzər, şərh və ya fikrin etibarlılığına inandırmağa xidmət edən əsas elementdir. Bu, sadəcə faktların ifadəsi və ya subyektiv fikrin ifadəsi deyil, inandırıcı sübutlarla dəstəklənən diqqətlə qurulmuş arqumentdir. Akademik arqument oxucudan təqdim olunan mövqeyi nəzərdən keçirməyi və göstərilən səbəblərə əsasən onun etibarlılığını qiymətləndirməyi xahiş etməklə onu dialoqa cəlb edir.
Akademik arqumentin əsas məqsədi yeni biliklər və ya mövcud biliyi yenidən nəzərdən keçirməklə müəyyən bir elm sahəsində tədqiqatçıların davamlı müzakirəsi çərçivəsində təqdim etməkdir.
İstənilən akademik arqumentin strukturunu və inandırıcılığını təmin edən əsas komponentlər aşağıdakılardır:

**Tezis (Claim): Tezis, müəllifin mətn boyu sübut etməyə və ya dəstəkləməyə çalışdığı mərkəzi, ümumi ifadə və ya əsas fikirdir. Bu, tez-tez işin giriş hissəsində, adətən aydın və qısa şəkildə ifadə olunan arqumentin əsasını təşkil edir. Effektiv tezis sadəcə aşkar olanı ifadə etmir, lakin sübut tələb edən və başqaları tərəfindən etiraz edilə bilən mübahisəli və ya yeni perspektiv təklif edir. O, məqalənin qalan hissəsi üçün istiqaməti təyin edir və müəllifin əsas tədqiqat sualına cavab verir.** (Booth et al., 2016).

***Məsələn:*** *“Müasir dövrdə sosial şəbəkələrin gənclərin psixoloji vəziyyətinə təsiri ikili xarakter daşıyır: bir tərəfdən ünsiyyət imkanlarını genişləndirir, digər tərəfdən isə özünə inamsızlıq və müqayisə meyllərini artırır.”.* Bu tezis sosial şəbəkələrin gənclərin psixologiyasına olan təsirinin sadəcə müsbət və ya mənfi olmadığını, əksinə, hər iki tərəfi olduğunu vurğulayır. “Bir tərəfdən ünsiyyət imkanlarını genişləndirir” ifadəsi sosial şəbəkələrin gənclərə dostları, tanışları və hətta yeni insanlarla asanlıqla əlaqə qurmaq imkanı yaratdığını göstərir. Bu, xüsusilə coğrafi məhdudiyyətləri aradan qaldırır. “Digər tərəfdən isə özünə inamsızlıq və müqayisə meyllərini artırır” hissəsi isə sosial şəbəkələrdəki idealizə edilmiş həyat tərzlərinin, daimi müqayisənin və rəqabət mühitinin gənclərdə özünə inamsızlığa və başqaları ilə daim özlərini müqayisə etməyə səbəb ola biləcəyini bildirir. Qeyd olunan tezisin əsas məqsədi sosial şəbəkələrin gənclərin həyatında həm faydalı, həm də zərərli ola biləcəyini qeyd etməkdir. Bu mövzuda daha dərin araşdırmalar aparılmasının və gənclərin sosial şəbəkələrdən şüurlu istifadəsinin vacibliyini vurğulayır.

**Səbəblər (Reasons): Səbəblər mərkəzi tezisə birbaşa dəstək verən izahatlar, əsaslandırmalar və ya alt iddialardır. “Niyə?” sualına cavab verirlər. Müəllif əsas arqumenti daha kiçik, daha idarə oluna bilən hissələrə bölməklə öz ifadə etdiyi nöqteyi-nəzərini qoruyur. Hər bir arqument məntiqi olaraq tezisə bağlanmalı və oxucunu əsas fikri qəbul etməyə sövq edən ayrıca əsaslandırma xətti rolunu oynamalıdır. Arqumentlər öz növbəsində dəstək tələb edən iddialardır.** (Monash University, n.d.).

***Məsələn:***
***Tezis:*** *Bu tədqiqatın əsas məqsədi, sosial medianın tələbələrin akademik göstəricilərinə mənfi təsir etməsinin səbəblərini araşdırmaqdır.*

***Nəticələr:*** *Tədqiqat nəticələri göstərdi ki, sosial mediadan həddindən artıq istifadə tələbələrin diqqətini dağıdır (səbəb 1), dərslərə ayırdıqları vaxtı azaldır (səbəb 2) və yuxu keyfiyyətini pisləşdirir (səbəb 3). Bu amillər birlikdə tələbələrin imtahan nəticələrinin aşağı düşməsinə səbəb olur.*

Bu nümunədə tədqiqatın məqsədi sosial medianın akademik göstəricilərə mənfi təsirinin səbəblərini araşdırmaqdır. “Nəticələr” bölməsində isə tədqiqatın aşkar etdiyi üç əsas səbəb sadalanır: diqqətin dağılması, dərsə az vaxt ayrılması və yuxu keyfiyyətinin pisləşməsi. Bu səbəblər tədqiqat vasitəsilə əldə edilmiş dəlillərlə dəstəklənir (tədqiqatın özü bu dəlilləri təqdim edir).

**Sübut (Evidence): Sübut sizin arqumentlərinizin hər birini və əlavə olaraq tezisinizi dəstəkləmək üçün istifadə olunan xüsusi, yoxlanıla bilən məlumatdır. Sübutlara faktlar, statistik məlumatlar, empirik tədqiqat nəticələri, mötəbər mənbələrdən sitatlar, misallar, ekspert rəyləri, tarixi sənədlər və ya müşahidə nəticələri daxil ola bilər. Sübut növünün seçimi intizamdan və araşdırılan problemin xarakterindən asılıdır. Sübutların müvafiq, etibarlı, oxucunu inandırmaq üçün kifayət qədər olması və müvafiq arqumentlə və bütövlükdə tezislə əlaqəsinin aydın izahı ilə mətnə düzgün inteqrasiyası vacibdir. Sübutlar "özü özlüyündə danışmır" – müəllif onun iddialarını necə dəstəklədiyini nümayiş etdirməlidir.** (Graff & Birkenstein, 2018)

***Məsələn:***

***İddia:*** *İnnovativ tədris metodları tələbələrin motivasiyasını və öyrənmə nəticələrini yaxşılaşdırır.*

***Sübut:*** *Finlandiya təhsil sistemi, layihə əsaslı öyrənmə və əməkdaşlıq kimi innovativ metodlardan geniş istifadə edərək, beynəlxalq qiymətləndirmələrdə davamlı olaraq yüksək nəticələr göstərir. Finlandiyalı tələbələrin oxuma, riyaziyyat və təbiət elmləri üzrə göstərdiyi uğurlar bu yanaşmanın effektivliyinin bariz nümunəsidir.*

Bu nümunədə iddia, innovativ tədrisin faydalarıdır. Sübut kimi isə konkret bir ölkənin (Finlandiya) təhsil sistemi və onun beynəlxalq arenada əldə etdiyi uğurlar (hadisə araşdırması və nəticə) təqdim edilir. Bu real dünya nümunəsi iddianın praktiki tətbiqini və müsbət nəticələrini göstərir.
Beləliklə, effektiv akademik arqument mürəkkəb, lakin məntiqi cəhətdən ardıcıl konstruksiyadır, burada tezis səbəblərlə dəstəklənir, onların hər biri öz növbəsində inandırıcı və müvafiq dəlillərə əsaslanır. Bu komponentləri başa düşmək və məharətlə istifadə etmək uğurlu akademik yazı üçün əsas bacarıqdır.

### 3.1.1. Akademik yazıda arqumentasiya ilə faktların və ya sadə fikirlərin ifadəsi arasındakı fərq

Akademik mühitdə arqumentasiya ilə sadə faktların izahı və ya şəxsi fikirlərin ifadəsi arasında fərq qoymaq vacibdir. Faktlar yoxlanıla bilən, obyektiv məlumatlar olsa da, rəylər subyektiv baxış nöqtələri və ya inanclardır. Akademik arqument isə daha mürəkkəb və əsaslandırılmış

diskurs formasıdır. Bu, yalnız məlumatın təqdim edilməsini deyil, həm də müəyyən bir iddianı dəstəkləmək üçün onun şərhini, təhlilini və məntiqi əlaqəsini tələb edir.

Faktların sadə ifadəsi akademik işin əsası olsa da, özlüyündə arqument təşkil etmir. Məsələn, "Yer kürəsində orta temperatur yüksəlir" ifadəsi elmi məlumatlarla dəstəklənən bir həqiqətdir. Lakin bu faktı akademik arqumentin bir hissəsinə çevirmək üçün sadə bir ifadədən kənara çıxmaq lazımdır. Arqument bu artımın səbəblərini, nəticələrini, təklif olunan həlləri araşdıra və ya məlumatların müxtəlif şərhlərini tənqidi qiymətləndirə bilər. Akademik yazı yazıçıdan faktların daha geniş problem və ya məsələ ilə necə əlaqəli olduğunu və nə üçün vacib olduğunu başa düşməsini tələb edir. (University of Westminster, n.d.).

Akademik yazı həddindən artıq emosionallıq və ya qərəzdən qaçaraq obyektivlik və qərəzsizliyə çalışır. Məqsəd oxucunu şəxsi inanc və ya emosiyalarla deyil, məntiq və sübutun gücü ilə inandırmaqdır. (San Jose State University, n.d.).Beləliklə, əsas fərq aşağıdakılardır:

- Faktlar: Obyektiv, yoxlanıla bilən məlumat.
- Məsələn: Yer kürəsində orta temperatur yüksəlir" ifadəsi elmi məlumatlarla dəstəklənən bir həqiqətdir.
- Rəylər: Subyektiv baxışlar və ya inanclar.
- Məsələn: "Akademik yazı yazıçıdan faktların daha geniş problem və ya məsələ ilə necə əlaqəli olduğunu və nə üçün vacib olduğunu başa düşməsini tələb edir." (Burada "vacib olduğunu başa düşməsi tələb edir" müəyyən bir baxış bucağını ifadə edir).
- Akademik arqument: Oxucunu rasional əsaslandırma vasitəsilə inandırmaq məqsədi ilə təqdim edilən, məntiqi ardıcıl səbəblərlə dəstəklənən və müvafiq, mötəbər sübutlarla dəstəklənən tutarlı iddia (tezis) (QuillBot, n.d.; ServiceScape, 2022).

***Məsələn:*** *"Akademik arqument daha mürəkkəb və əsaslandırılmış diskurs formasıdır. Bu, yalnız məlumatın təqdim edilməsini deyil, həm də müəyyən bir iddianı dəstəkləmək üçün onun şərhini, təhlilini və məntiqi əlaqəsini tələb edir."*

Akademik yazı müəllifdən sadəcə olaraq məlumatı təkrar istehsal etməyi və ya şəxsi fikirlərini ifadə etməyi deyil, əsaslandırılmış şərh və ya bu sahədə başqaları tərəfindən tənqidi qiymətləndirilə və müzakirə oluna bilən yeni perspektiv təklif etməklə fəal şəkildə "elmi söhbətə" (scholarly conversation) qoşulmağı tələb edir. İnandırıcı akademik arqumentin qurulması müəllifə biliyin inkişafına töhfə verməyə imkan verən mərkəzi bacarıqdır.

### 3.1.2. Akademik yazıda istifadə olunan arqumentlərin növləri

Akademik yazı arqumentasiya üçün müxtəlif yanaşmalardan istifadə edir, onların hər biri ilkin və nəticə arasında məntiqi əlaqə qurmağın öz yolunu ehtiva edir. Bu cür arqumentləri başa düşmək yazıçılara daha inandırıcı arqumentlər qurmağa və başqalarının arqumentlərini dəqiq şərh etməyə kömək edir. Ən çox yayılmış növlər deduktiv, induktiv və abduktiv arqumentlərdir. (Mind the Graph, 2024).

**Deduktiv arqumentlər:** Bu cür arqumentasiya ümumi mülahizələrdən və ya əsaslardan müəyyən nəticə çıxarmaq prinsipinə əsaslanır. Əgər deduktiv arqumentin müddəaları doğrudursa və arqumentin məntiqi strukturu düzgündürsə (etibarlıdır), onda nəticə mütləq doğrudur. Deduksiya ümumidən xüsusiyə keçir. Deduktiv arqumentlər tez-tez riyaziyyatda, fəlsəfədə və qanun və ya qaydaları konkret hallara tətbiq edərkən istifadə olunur. Deduktiv arqumentin etibarlılığı onun müddəalarının faktiki həqiqətindən deyil, yalnız onun məntiqi formasından asılıdır; Arqument yalançı əsaslarla belə məntiqi cəhətdən etibarlı ola bilər, baxmayaraq ki, akademik yazıda inandırıcı olmaq üçün həm etibarlı, həm də həqiqi əsaslara (sağlamlıq adlanan xüsusiyyət) malik olmalıdır.

***Nümunə 1:*** *Marketinq strategiyası*
***Müşahidə 1:*** *Effektiv bir bazar seqmentasiyası, müxtəlif istehlakçı qruplarının ehtiyaclarına uyğunlaşdırılmış marketinq mesajlarının yaradılmasını tələb edir.*
***Müşahisə 2:*** *X Şirkəti öz bazarını iki əsas seqmentə ayırmışdır: gənclər və yaşlılar.*
***Nəticə:*** *Deməli, X şirkəti hər bir seqment üçün xüsusi olaraq hazırlanmış fərqli marketinq mesajları hazırlamalıdır.*
***İzah:*** *Bu arqument marketinq strategiyasının əsas prinsiplərindən birini (seqmentasiya və hədəfləmə) konkret bir şirkətin bazar seqmentlərinə tətbiq edir.*
***Nümunə 2:*** *SWOT analizi*
***Müşahidə 1:*** *Bütün güclü tərəflər şirkətin daxili müsbət xüsusiyyətləridir ki, bu da rəqabət üstünlüyü yarada bilər.*
***Müşahidə 2:*** *Y şirkətinin güclü tərəflərindən biri onun unikal patentləşdirilmiş texnologiyasıdır.*
***Nəticə:*** *Deməli, Y şirkətinin unikal patentləşdirilmiş texnologiyası ona bazarda rəqabət üstünlüyü təmin edə bilər.*

***İzah:*** *Bu arqument SWOT analizinin tərkib hissələrindən birinin (güclü tərəflər) ümumi tərifini konkret bir şirkətin xüsusiyyətinə tətbiq edir.*

**İnduktiv arqumentlər:** Deduksiyadan fərqli olaraq, induksiya xüsusi hallar və ya nümunələr üzrə müşahidələrdən ümumi nəticələr çıxarmağı əhatə edir. İnduktiv arqumentlər xüsusidən ümumiyə keçir. İnduktiv arqumentdə nəticə mütləq zərurətlə əsaslardan irəli gəlmir, ancaq ehtimal olunur. İnduktiv arqumentin dəyəri onun nəticəsinin gücü və ya ehtimalı ilə müəyyən edilir ki, bu da baxılan işlərin sayından və təmsilçiliyindən asılıdır. İnduktiv arqumentlər təbiət və sosial elmlərdə empirik məlumatlar əsasında fərziyyələr, nəzəriyyələr və ümumiləşdirmələr formalaşdırmaq üçün geniş istifadə olunur. Bununla belə, yadda saxlamaq lazımdır ki, hətta çoxlu sayda dəstəkləyici nümunələr induktiv nəticənin mütləq həqiqətinə zəmanət verə bilməz, çünki gələcək müşahidələr onu təkzib edə bilər.

***Nümunə 1:*** *İşçi məmnunluğu*
***Müşahidə 1:*** *Son sorğuda iştirak edən komanda üzvlərinin 75%-i işlərindən məmnun olduqlarını bildiriblər.*
***Müşahidə 2:*** *Eyni zamanda, rəhbərləri ilə mütəmadi görüşən işçilərin məmnunluq səviyyəsi daha yüksəkdir.*
***Nəticə:*** *Güman ki, mütəmadi rəhbər-işçi görüşləri işçi məmnunluğunu artırmaqda əhəmiyyətli rol oynayır.*
***İzah:*** *Bu arqument işçi məmnunluğu sorğusunun nəticələri əsasında bir əlaqə haqqında fərziyyə irəli sürür. Xüsusi müşahidələr (məmnunluq səviyyəsi və rəhbərlərlə görüşmə tezliyi) arasında potensial bir əlaqənin mövcudluğu ehtimal olunur.*
***Nümunə 2:*** *Reklam kampaniyası*
***Müşahidə 1:*** *Yeni reklam kampaniyasının ilk həftəsində vebsayt trafikində 20% artım qeydə alınıb.*
***Müşahidə 2:*** *Eyni dövrdə sosial media hesablarındakı aktivlik də əhəmiyyətli dərəcədə yüksəlib.*
***Nəticə:*** *Ehtimal ki, yeni reklam kampaniyası brendin onlayn görünürlüyünü artırmaqda uğurludur.*
***İzah:*** *Bu arqument reklam kampaniyasının ilkin nəticələri əsasında onun effektivliyi haqqında ehtimallı bir nəticəyə gəlir. Vebsayt trafiki və sosial media aktivliyindəki artım kampaniyanın müvəffəqiyyəti üçün bir göstərici kimi qəbul edilir.*

**Abduktiv arqumentlər:** Bu cür arqumentasiya tez-tez "ən yaxşı izahata çıxarış" adlanır. Abduksuya bir və ya bir neçə faktın müşahidəsi ilə

başlayır və bu faktlar üçün ən mümkün və ya inandırıcı izahat tapmaq məqsədi daşıyır. Abduktiv arqumentin strukturu təxminən aşağıdakı kimidir: Q fenomeni müşahidə olunur; P Q-nın ən yaxşı izahıdır; buna görə də P yəqin ki, doğrudur. Bir həkimin xəstənin simptomlarına əsaslanaraq diaqnoz qoyması və ya dəlillərə əsaslanaraq cinayət nəzəriyyəsini inkişaf etdirən bir detektivin əsaslandırması buna misal ola bilər. Abduksiya, sonradan deduksiya və ya induksiyadan istifadə etməklə sınaqdan keçirilə bilən fərziyyələri formalaşdırmaq üçün istifadə olunur Abduktiv nəticələr də ehtimal xarakterli olsa da, onların dəyəri mövcud sübutlar üçün ən sadə və məntiqli izahat vermək bacarığındadır/ Abduksiya tədqiqat prosesində, xüsusən müşahidə olunan hadisələrin səbəbləri və ya əlaqələri haqqında fərziyyələr irəli sürmək lazım olan ilkin mərhələlərdə mühüm rol oynayır (Hurley & Watson, 2018).

***Nümunə 1:*** *Yüksək İşçi İştirakı*
***Müşahidə:*** *Komanda A layihə müddətində digər komandalara nisbətən daha yüksək işçi iştirakı və motivasiya səviyyəsi göstərib.*
***Mümkün İzah:*** *Komanda A-nın rəhbəri işçiləri müstəqil qərar qəbul etməyə təşviq edən və onların nailiyyətlərini müntəzəm olaraq qeyd edən effektiv liderlik üslubuna malikdir.*
***Nəticə:*** *Güman ki, Komanda A-nın yüksək işçi iştirakının səbəbi rəhbərin tətbiq etdiyi dəstəkləyici və səlahiyyət verən liderlik üslubudur. Bu fərziyyəni dəstəkləmək üçün komanda üzvləri ilə müsahibələr aparıla bilər.*
***İzah:*** *Müşahidə yüksək işçi iştirakıdır. Abduktiv arqument bu müşahidə üçün ən məntiqli izahatı (effektiv liderlik) təklif edir. Digər amillər də rol oynaya bilər, lakin bu izahat mövcud məlumatlara əsaslanaraq ən inandırıcı görünür.*
***Nümunə 2:*** *Azalan Müştəri Loyallığı*
***Müşahidə:*** *Son bir neçə ayda şirkət B-nin müştəri loyallığı göstəriciləri (təkrar alış nisbəti, müştəri gəlirliliyi və s.) davamlı olaraq aşağı düşür.*
***Mümkün İzah:*** *Şirkət B-nin məhsul və ya xidmət keyfiyyətində azalma baş verib və ya rəqibləri daha cəlbedici təkliflər irəli sürüblər.*
***Nəticə:*** *Ehtimal ki, müştəri loyallığının azalmasının əsas səbəbi ya keyfiyyət problemləri, ya da rəqabət təzyiqinin artmasıdır. Bu fərziyyələri araşdırmaq üçün müştəri rəylərini təhlil etmək və rəqiblərin strategiyalarını öyrənmək lazımdır.*
***İzah:*** *Müşahidə azalan müştəri loyallığıdır. Abduktiv arqument bu problemi izah etmək üçün ən ağlabatan iki ssenarini (keyfiyyət azalması və rəqabət artımı) təklif edir. Bu izahlar mövcud məlumatlar üçün ən sadə*

*və məntiqli cavablar kimi görünür.*

Akademik yazıda bu cür arqumentlər arasında seçim bir sıra amillərdən, o cümlədən araşdırılan problemin xarakterindən, mövcud məlumatlardan və müəllifin məqsədindən asılıdır. Çox vaxt bir akademik məqalə daxilində mövzunu hərtərəfli təhlil etmək və inandırıcı bir iş qurmaq üçün müxtəlif növ arqumentasiyaların birləşməsindən istifadə olunur.

### 3.1.3. Akademik Yazıda Effektiv Arqumentlərin Yaradılmasında Məntiq və Ritorikanın Rolu

“Mövzunun aktuallığı və öyrənilmə səviyyəsi” adlı abzas seçilmiş mövzunun mahiyyəti, elmi-tətbiqi baxımdan fərqləndirici xüsusiyyətləri və əhəmiyyəti əks etdirilməlidir. Mövzunun öyrənilməsi səviyyəsinin müəyyən edilməsi hər bir tədqqiat üçün ən mühüm və zaman aparan mərhələlərdən biri olmaqla yanaşı, tədqiqat prosesinin başlanğıc mərhələsi kimi də qəbul olunur. Bu mərhələ tədqiqat mövzusunun seçilməsi üçün də böyük əhəmiyyət daşıyır və mövzunun tədqiqatçının fərdi bacarıqları və elmi maraq dairəsi, nəzəri və metodolji əsaslarının səviyyəsi, informasiya bazasının əlçatanlığı və ya formalaşdırılması imkanlarının mövcudluğu baxımından qiymətləndirilməsinə imkan verir.
Bu abzası yazmaq üçün aşağıdakı işlərin yerinə yetirilməsi zəruridir:

- mövzu üzrə ədəbiyyat siyahısının tərtibi (bu siyahıda iqtisad elminin yaranma dövründən bu günə qədərki müddət ərzində nəşr edilmiş və seçdiyimiz mövzuya dair fikirləri əks etdirən mənbələrin qeyd edilməsi tövsiyə ounur. Sosial elmlər üzrə tədqiqatlar üçün tərtib edilən ədəbiyyat siyahısında son 5-10 ildə nüfuzlu nəşriyyatlarda və elmi dərgilərdə (jurnallar, elmi konfranslar və  simpoziumlar, beynəlxalq təşkilatların hesabatları və s.) nəşr olunmuş əsərlərin payının 60-70%-dən az olmaması tövsiyə olunur.
- əhatəli ədəbiyyat icmalının aparılması;
- mövzu üzrə nəzəri fikirlərin təkamülü prosesinin təhlili və bu prosesə təsir göstərən amillərin mümkün qədər izahlı təqdimatı. Bu işi yerinə yetirmək üçün aparılmış tədqiqatların zaman və məkan baxımından qruplaşdırılması vacibdir. Belə qruplaşdırmadan sonra tədqiqatları əsas və nümunə kütləsi, aparılma metodları üzrə qruplaşdırılmaq azımdır. Müvafiq ədəbiyyat təsnifatını apardıqdan sonra onların nəticələrinin təkamülünə baxmaq olar. Bu prosesin əyaniliyini və oxucular üçün asanlığını təmin etmək üçün müxtəlif təsvir vasitələrindən – cədvəl, qrafik və sxemlər formasında ümumiləşdirmələrdən də istifadə etmək olar. Empirik və nəzəri tədqiqatlar üzrə ümumiləşdirmələrin ayrılıqda aparılması tövsiyə olunur.

*Emprik tədqiqatların nəticələrin ümumiləşdirilməsi cədvəli*

| s/s | Müəlliflər | Əsərin rekvizitləri | Tədqiqatın əhatə etdiyi dövr | Tədqiqatın əsas və ya nümunə kütləsi | İstifadə edilmiş metodlar | Təhlil edilən göstəricilər və onların mənbələri | Alınmış nəticələr | Qeyd |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | | | | | | | | |
| 2 | | | | | | | | |
| .. | | | | | | | | |

*Nəzəri tədqiqatların nəticələrin ümumiləşdirilməsi cədvəli*

| s/s | Müəlliflər | Əsərin rekvizitləri | tın əhatə etdiyi dövr | Tədqiqatın aparıldığı məkan | Əsas nəzəri müddəalar | Qeyd |
|---|---|---|---|---|---|---|
| 1 | | | | | | |
| 2 | | | | | | |
| ... | | | | | | |

- mövzu üzrə aşkarladığımız nəzəri müddəaların qruplaşdırılması və ümumiləşdirilməsi
- empirik və nəzəri tədqiqatların nəticələrinin tənqidi araşdırılması,
- nəzəri müddəaların real həyatda baş verən hadisələrin izahında boşluqların müəyyən edilməsi;
- tədqiqat metodlarının zəif və üstün cəhətlərinin aşkarlanması;

Girişin “Tədqiqatın obyekti və predmeti”adlı abzasında tədqiqatın obyekti və predmeti ayrı-ayrılıqda, hər biri bir və ya bir neçə cümlə ilə ifadə edilməlidir.
Tədqiqat obyektini ifadə edən cümlə  oxucuda bu suallar barədə aydın və dəqiq təsəvvür yaratmağa imkan verməlidir:

- Tədqiqat nəyi öyrənir (mövzunun həsr edildiyi proses, hadisə, bilik sahəsi və s.)?
- Tədqiqat harada aparılır (məkan – coğrafi yerləşmə, dünya, region, ölkə, ölkənin regionu və s.)?

- Tədqiqatın əsas və ya nümunə kütləsi nədən ibarətdir (nəyin üzərində aparılır – mezo, makro və mikro iqtisadi səviyyələr, sahələr, iqtisadi fəaliyyət növləri, müəssisə, cəmiyyət, sosial-demoqrafik qruplar, bazar seqmentləri, fərdlər və s.)?

Tədqiqatın predmeti tədqiqat obyekti çərçivəsində müəyyən edilir. Onun ifadə edilməsi zamanı mövzu ilə əlaqələndirilmə təmin olunmaqla, aşağıdakı məsələlərdən birini və ya bir neçəsini seçmək olar:

- tədqiqat obyektinin xarakteristika və xüsusiyyətləri;
- tədqqiqat obyektinə təsir edən amilin və ya amillər qrupunun (amillərinin adlarının qeyd edilməsi tövsiyə olunur) mahiyyəti, məzmunu və qarşılıqlı əlaqəsi və s.

Tədqiqatın məqsəd və vəzifələri. Tədqiqatın məqsədi mövzunun aktuallığı və öyrənilmə səviyyəsi, obyekt və predmeti ilə əlaqəli şəkildə müəyyən edilməli, bu anlayışlar arasında sıx məntiqi bağlılıq olmalıdır. Mövzunun aktuallığı və öyrənilmə səviyyəsi tədqiqatın məqsədinın nəzəri əsaslandırılmasının təməli funksiyasını daşıyır. Tədqiqatın obyekti və predmeti isə məqsədin məkan, zaman, öyrənilən xüsusiyyət, proses və ya hadisə ilə əlaqəsini müəyyən etməyə imkan verir.

Tədqiqatın məqsədinin ifadə edilməsi zamanı mümkün qədər qısa, aydın və dəqiq məna daşıyan bir cümlədən istifadə edilir. Tədqiqatın məqsədinin aşağıdakı göstərilən cümlələrdən istifadə edilməklə ifadə edilməsi tövsiyə olunur:

- mövcud nəzəri müddəanın (adı göstəriləmklə) real faktları izah etmək qabiliyyətini tədqiq etmək;
- real proseslərdə (proses, hadisələr, göstəricilər dəqiq göstəriməlidir) səbəb-şərait-nəticə əlaqələrini tədqiq etmək;
- real proseslərə və hadisələrə təsir edən amilləri tədqiq etmək;
- elmi və ya tətbiqi problemin (adı göstərilməklə) həll edilməsi üçün metodları, üsulları və ya yanaşmaları hazırlamaq və ya təkmilləşdirmək;
- nəzəri müddəanın və yaxud metodun əsaslandığı şərti və ya şərtlərin mövcud reallığa uyğunluğunu yoxlamaq;
- real prosesləri və hadisələri qiymətləndirmək üçün göstəriciləri müəyyən etmək, və yaxud, istifadə edilən göstəricilərin adekvatlığını tədqiq etmək və s.;

Tədqiqatın vəzifələri tədqiqat prosesində məqsədə çatmaq üçün atılmalı olan addımları müəyyən edir. Bu addımların ardıcıllığı tədqiqat prosesinin məntiqinə və ardıcıllığına uyğun olmalı, biri-birilə

əlaqəli xarakter daşımalıdır. Müəllifin seçdiyi vəzifələr dissertasiyanın məndəricatını (tədqiqat planını) müəyyən edən məqamdır. Həmin vəzifələrin icrası dissertasiyanın planında və məzmununda mütləq öz əksini tapmalı və qoyulmuş məqsədə nail omağa imkan verməlidir. İqtisad elmi üzrə dissertasiyalarda vəzifələrin müəyyən edilməsi zamanı adətən aşağıdakı ardıcıllığa riayət olunur:

1. Mövzunun nəzəri-metodoloji əsaslarının müəyyən edilməsi (ədəbiyyat icmalı);
2. Tədqiqat strategiyasının və metodlarının seçilməsi;
3. Tədqiqatın obyekti və predmeti üzrə informasiya bazasının formalaşdırılması;
4. Tədqiqat obyekti və predmeti üzrə təhlilin və ya qiymətləndirmənin aparılması;
5. Tədqiqat obyekti və predmeti üzrə problemlərin, məhdudyyətlərin, çatışmazlıqların üzə çıxarılması;
6. Həmin problemlərin aradan qaldırılması yolları, metod və ya üsularının göstərilməsi
7. Tədqiqatın nəticələri üzrə sintezin (ümumiləşdirmənin) aparılması.

Mövzudan asılı olaraq mütərəqqi təcrübənin öyrənilməsi və tədqiqat obyektində tətbiqi məsələləri də tədqiqatın vəzifələri sırasında yer ala bilər.

Tədqiqat metodları. Dissertasiyanın giriş hissəsində tədqiqatın aparılması metodları barədə oxucuya məlumat verilməlidir. Nəzərə almaq lazımdır ki, elmi tədqiqat işlərinin oxucuları adətən müəyyən biliklərə sahib olan şəxslər və yaxud peşəkar mütəxəssislərdir. Müasir tədqiqatlarda konkret adları olan statistik, ekonometrik və digər metodlar kifayət qədər çoxdur. İşdə sintez, analiz, induksiya, deduksiya, abstraksiya kimi anlayışların əvəzinə həmin metodologiyalar çərçivəsində tətbiq edilən metodların adlarının yazılması daha yaxşı qəbul edilir. Tədqiqat metodunun müasirliyi, elmi potensialı, tətbiq sahələri, zəif və üsün cəhətləri, tələb etdiyi informasiya bazası peşəkar oxuculara yaxşı məlumdur. Diqqətli oxucu seçilmiş tədqiqat metodunun tədqiqatın məqsəd və vəzifələrinə adekvatlıq səviyyəsini asanlıqla müəyyən edə bilər. Unutmaq olmaz ki, metodun adekvatlıq səviyyəsi alınacaq nəticələrin elmi və praktiki əhəmiyyətinə təsir göstərən mühüm faktorlardan biridir.

Tədqiqatın informasiya bazası. Dissertasiyada metodların tətbiqi üçün məlumatlar tələb olunur. Məlumatların etibarlığı, müasirliyi, istifadə edilən metod üçün yetərliyi alınan nəticələrin də etibarlğına və elmi səviyyəsinə təsir göstərir. Buna görə də, “Giriş” hissəsində

təqdim edilən informasiya bazası dissertasiyanın məzmununda geniş formada əks olunmalı və məlumatın adekvatlığını nümayiş etdirməyə imkan verməlidir. Məlumat mənbələri kimi adətən dövlət orqanlarının, beynəlxalq maliyyə qurumlarının (Dünya Bankı, Beynəlxalq Valyuta Fondu və başqaları), nüfuzlu tədqiqat mərkəzləri və qurumlarının nəşr edilmiş hesabatları və ya rəqəmsal məlumat bazaları, nüfuzlu nəşrlərdə təqdim edilmiş məlumatlar, sorğular, müsahibələr və müşahidələr vasitəsilə toplanmış məlumatlar toplusu göstərilir.
Müdafiəyə çıxarılan müddəalar. "Giriş" hissəsinin bu abzasında müəllifin əldə etdiyi elmi və tətbiqi nəticələr ayrı-ayrılıqda və sıralanma ilə yığcam və dəqiq cümlələrlə ifadə edilməklə göstərilir. Burada qeyd edilən nəticələrin əsaslandırılması dissertasiyanın mətnində mütləq öz əksini tapmalıdır. Ədəbiyyatın tənqidi icmalı və tədqiqat metodlarının tətbiqi ilə əldə edilməyən mülahizələrin bu abzasda yerləşdirilməsi qətiyyən yolverilməzdir. Digər tərəfdən, müdafiəyə çıxarılan müddəaların məzmununun dissertasiyanın sonunda qeyd edilən nəticələrlə uyğunluq təşkil etməsi, onların ifadə formasının isə fərqli və daha yığcam olması tövsiyə edilir.
Tədqiqatın elmi yeniliyi. Bu abzasda müdafiəyə çıxarılan müddəalardan elmi yeniliyi olanlar fərqli ifadələrlə qeyd edilir. O nəticələr elmi yeniliyə malik olur ki, onların eyni mövzu üzrə digər tədqiqatların nəticələri ilə müqayisədə fərqi olsun. Həmin fərq nəticənin elmi yeniliyini müəyyən edir. Tədqiqatın elmi yeniliyini ifadə edərkən "Giriş"in "Mövzunun öyrənilmə səviyyəsi" adlı abzasında göstərilən mülahizələrlə məntiqi bağlılığı da qorumaq lazımdır. Dissertasiyanın məzmununda elmi yeniliklər tədqiqat prosesi ilə əsaslandırılmalı və onların digər tədqiqatlarla müqayisəsinə yer verilməlidir. Belə tədqiqat prosesi ilə əsaslandırılmayan və müqayisəsi aparılmayan mülahizə və nəticələrin elmi yenilik kimi təqdim edilməsi yolverilməzdir.
Tədqiqatın nəticələrinin nəzəri və praktiki əhəmiyyəti. Bu hissədə dissertasiyanın elmə verdiyi töfhə dəqiq göstərilməli, onun nəticələrinin mövcud nəzəriyyələr üçün əhəmiyyəti qeyd edilməlidir. Nəticələrin nəzəri əhəmiyyətini ifadə edərkən mövzunun öyrənilmə səviyyəsi ilə bağlı hissədə qeyd edilmiş fikirlərlə əlaqə və bağlılığa xüsusi diqqət yetirmək lazımdır.
Nəticələrin praktiki əhəmiyyətinin ifadə edilməsi zamanı isə onların praktikada mövcud olan hansı problemin həllində istifadəsinin mümüknülüyü izah edilməsinə, bu nəticələrdən kimlərin (müvafiq sahə üzrə dövlət və biznes qurumları, tədqiqat və təhsil müəssisələri,

müstəqil tədqiqatçılar, ictimai qurumlar və s.) necə faydalana biləcyi barədə fikirlərə yer verilməsi lazımdır.
Nəticələrin nəzəri və tətbiqi əhəmiyyəti "mövzunun aktuallığı" hissəsində yazılmış fikirlərlə ahəngdar olmalıdır.

### 5.2.2. Dissertasiyanın nəticə hissəsinin yazılması

Bu hissənin məzmununda tədqiqatın məqsədinə nail olunması və bu məqsədə çatmaq üçün müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə əldə edilən nəticələr əksini tapmalıdır.
Tədqiqat vasitəsilə əldə edilmiş nəticə və arqumentlərdən istifadə etməklə sintezin aparılması, qoyulmuş problemin həlli istiqamətində üzə çıxarılmış problemlərin aradan qaldırılması və aşkarlanmış imkanlardan istifadə istiqamətində əsaslandırılmış təklif və mülahizələrin irəli sürülməsi dissertasiyanın "Nəticə" hissəsində verilir.
Bu hissədə tədqiqat nəticəsində əldə edilmiş nəzəri-metodoloji və praktiki nəticələr ümumiləşdirilərək yığcam şəkildə təqdim edilir (2-3 səhifə həcmində).
Dissertasiyanın "Nəticə" hissəsində iddiaçının təklif etdiyi elmi yeniliklərin əsaslandırılma səviyyəsi, onların mövcud faktlarla və elmi baxışlarla müqayisədə tənqidi qiymətləndirilmə səviyyəsi üzə çıxır.
Dissertasiyanın hər bir hissəsinin sonunda onun ayrı-ayrı hissələri üzrə əldə edilmiş nəticələr konkret cümlələrlə, səlis və aydın şəkildə iffadə edilsə yaxşı olar.
"Nəticə" hissəsində isə dissertasiyanın əsas elmi yeniliklərinin xüsusi vurğulanması, bu yeniliklərin əvvəlki tədqiqatların nəticələri ilə müqayisəli şəkildə göstərilməsi yaxşı olar.
Bu hissədə əldə edilmiş elmi nəticələrin istifadəsinə və tətbiqinə dair tövsiyələrə də yer verilməlidir.
Tətbiqi əhəmiyyəti olan dissertasiyada iddiaçının aldığı elmi nəticələrin praktikada tətbiqi barədə məlumat, nəzəri əhəmiyyəti olan dissertasiyada isə elmi nəticələrin tətbiqi ilə əlaqədar tövsiyələrin mövcudluğu vacibdir.
Tədqiqatın nəticələrinin ifadə edilməsində aşağıdakı şərtlərə riayət olunması çox vacibdir:

- səlis, dəqiq və aydın ifadə ;
- nəticələrin mövcud nəzəri müddəalara uyğunluğu və ya uyğunsuzluğunun göstərilməsi;
- nəticələrin digər tədqiqatların nəticələrindən fərqinin ümumiləşdirilmiş formada ifadə edilməsi;

- nəticələrin mövcud nəzəriyyələrə və ya tətbiqi işləmələrə verdiyi töfhənin göstərilməsi.

### 5.2.3. Maistr dissertasiyaları üçün xülasənin yazılması

Xülasə - magistr dissertasiyasının qısa məzmununu əks etdirməklə 12 ölçülü Times New Roman şrifti və 1,0 sətir aralığı ilə yazılır. Xülasə Azərbaycan dilində təhsil alan şəxslər üçün azərbaycan və ingilis dilində, digər dillərdə təhsil alan şəxslər üçün isə dissertsiyanın yazıldığı dildə və Azərbaycan dilində tərtib edilir. Xülasə ixtisarlardan istifadə edilməməklə 200-250 sözdən ibarət olmalıdır. Xülasənin məzmununda mövzunun aktuallığı, tədqqiatın obyekti və əhatə etdiyi dövr, işin məqsədi, istifadə olunmuş tədqiqat metodları, tədqiqatın informasiya bazası, tədqiqatın məhdudiyyətləri, tədqiqatın elmi yeniliyi və praktiki nəticələri, bu nəticələrin tətbiq sahələri əksini tapmalıdır.
Xülasənin sonunda 3-5 sözdən ibarət açar sözlər verilməlidir.

### Xülasənin məzmunu

Tədqiqatın aktuallığı:_______________________________________________
_____________________________________________________________________
_____________________________________________________________________
_____________________________________________________________________
________________

Tədqiqatın obyekti və əhatə etdiyi dövr:_______________________________

Tədqiqatın məqsədi: ______________________________________________ ___
_____________________________________________________________________
_____________________________________________________________________
_____________________________________________________________________
________

Tədqiqat metodları:____________________________________________ __
_________________________________________________________________
________________________________________________________________
______________

Tədqiqatın informasiya bazası:_______________________________________

______________________________________________________________
______________________________________________________________
_______________

Tədqiqatın məhdudiyyətləri: ____________________________________

______________________________________________________________
______________________________________________________________
______________________

Tədqiqatın elmi yeniliyi və nəticələrin tətbiqi əhəmiyyə-
ti:_________________

______________________________________________________________
______________________________________________________________
______________________________________________________________
_________________________________

Nəticələrin istifadə oluna biləcəyi sahələr:________________________

______________________________________________________________
______________________________________________________________
______________________

Açar sözlər: __________________________(5-10 sözdən ibarət olmalıdır)

## İstifadə edilmiş ədəbiyyat


1. Wales, J. M., & Feak, C. B. (2012). Academic Writing for Graduate Students: Essential Tasks and Skills (3rd ed.). University of Michigan Press.
2. Graff, G., & Birkenstein, C. (2021). They Say / I Say: The Moves That Matter in Academic Writing (5th ed.). W. W. Norton & Company.
3. Booth, W. C., Colomb, G. G., & Williams, J. M. (2016). The Craft of Research (4th ed.). University of Chicago Press.
4. Bailey, S. (2017). Academic Writing: A Handbook for International Students (5th ed.). Routledge. London and New York.
5. Murray, R. (2017). Writing for Academic Journals (4th ed.). Open University Press.
6. Especially useful for researchers aiming to publish in peer-reviewed journals.
7. Wallwork, A. (2016).English for Writing Research Papers (2nd ed.). Springer.
8. Sword, H. (2012). Stylish Academic Writing.Harvard University Press.
9. Turabian, K. L. (2018). A Manual for Writers of Research Papers, Theses, and Dissertations (9th ed.). University of Chicago Press.

*i.ü.f.d., dos. Hüseynli Aytən Təyyar*
*Yaşar Əsli Yaşar*

## VI. ELMİ MƏQALƏNİN YAZILMASI QAYDASI

6.1. Elmi dəyərə malik məqalə necə olmalıdır?
6.2 Elmi məqalənin yazılması prosesi, yaranan çətinliklər və dəstək alətləri.
6.3. Elmi məqalə növləri
6.4. Elmi Məqalənin Strukturu
6.5. Elmi məqalənin tərtibinə dair format qaydaları
6.6. Nəticələrinin tətbiqi
Ədəbiyyat siyahısı

## 6.1. Elmi dəyərə malik məqalə necə olmalıdır?

Elmi məqalə – tədqiqat nəticələrinin sistemli, obyektiv və elmi standartlara uyğun şəkildə təqdim olunmasına xidmət edən yazı formasıdır. Akademik cəmiyyətdə biliklərin yayılması, nəzəriyyələrin inkişaf etdirilməsi və yeni elmi yanaşmaların irəli sürülməsi baxımından elmi məqalələr mühüm əhəmiyyət kəsb edir. Bu yazı növü, həmçinin tədqiqatçının elmi fəaliyyəti və akademik nüfuzunun göstəricilərindən biri hesab olunur. Ənənəvi mənada məqalə müxtəlif mövzularda yazılmış, məlumatlandırıcı və şərhverici xarakter daşıyan yazıdır. Lakin elmi məqalə bu ümumi çərçivədən kənara çıxaraq daha konkret məqsədləri əhatə edir: tədqiqat suallarına cavab vermək, metodoloji yanaşmaları əsaslandırmaq, nəticələri elmi kontekstdə şərh etmək və mövcud ədəbiyyatla müqayisəli təhlil aparmaq. Bu baxımdan, elmi məqalələrdə obyektivlik, dəqiqlik və elmi əsaslandırma əsas prinsiplər kimi ön plana çıxır.
Müasir dövrdə texnologiyanın sürətlə inkişaf etməsi və rəqəmsal platformaların geniş yayılması elmi məqalələrin yayım formatlarına

da təsir etmişdir. Əgər əvvəllər elmi yazılar yalnız çap jurnallarında dərc olunurdusa, bu gün açıq elmi resurslar, e-jurnallar və verilənlər bazaları vasitəsilə tədqiqatlar daha geniş auditoriyaya təqdim olunur. Bu dəyişiklik elmi yazıların həm forma baxımından əlçatanlığını artırmış, həm də məzmun baxımından daha geniş yayılmasına şərait yaratmışdır. Beləliklə, elmi məqalənin məqsədi yalnız məlumat təqdim etmək deyil, həm də bu məlumatları elmi baxımdan əsaslandırmaq, mövcud yanaşmaları qiymətləndirmək və yeni tədqiqat istiqamətləri üçün zəmin yaratmaqdır. Bütün bunlar müəllifdən strukturlaşdırılmış, məntiqi və elmi üslubda yazılmış məqalə təqdim etməyi tələb edir. Parlaq və emosional ifadələr əvəzinə, faktlara, statistik göstəricilərə və istinadlara əsaslanan yazı üslubu üstünlük təşkil edir. Bu kontekstdə, elmi məqalənin əsas tərkib hissələri – başlıq, xülasə, açar sözlər, giriş, ədəbiyyat icmalı, metodologiya, nəticələr, müzakirə və nəticə bölməsi – öz funksiyalarına uyğun şəkildə qurulmalıdır. Hər bir hissə arasında məntiqi əlaqə yaradılmalı, paragraflar bir-birini tamamlamalıdır ki, oxucu məqaləni axıcı və anlaşılır şəkildə izləyə bilsin.
Bu yazıda elmi məqalə yazma prosesinin əsas mərhələləri, struktur prinsipləri, yazı zamanı diqqət yetirilməli olan məqamlar və yayılmış texniki səhvlər barədə ətraflı məlumat veriləcək. Məqsəd – tədqiqatçılar, magistrantlar və doktorantlara praktik bələdçilik etmək və elmi yazı mədəniyyətini təşviq etməkdir.
Nəticə olaraq, elmi məqalə sadəcə akademik fəaliyyətin nəticəsi deyil, elmi ictimaiyyətə töhfə verən, yeni bilikləri təşviq edən və cəmiyyətin intellektual inkişafına xidmət edən bir yazı formasıdır. Bu baxımdan, elmi məqalə yazmaq həm elmi məsuliyyət, həm də yaradıcı yanaşma tələb edən prosesdir.

Elmi dəyərə malik bir məqalə, sadəcə məlumatların təqdimatı və ya mövcud biliklərin təkrarı deyil, yeni elmi yanaşmaların irəli sürüldüyü, mövcud nəzəri biliklərə töhfə verən və oxucuya düşünmək üçün əsaslı arqumentlər təqdim edən ciddi elmi sənəddir. Belə bir məqalənin hazırlanması isə sistemli, məqsədyönlü və əsaslandırılmış tədqiqat prosesi tələb edir. Tədqiqatçı ilk növbədə öz qarşısına aydın məqsəd qoymalı və bu məqsədə çatmaq üçün mövzunu diqqətlə seçməlidir. Mövzu aktuallığı ilə seçilməli, cəmiyyətin və elmi ictimaiyyətin diqqətini cəlb edəcək, real problemlərə toxunacaq və eyni zamanda nəzəri əsaslara söykənəcək şəkildə müəyyən olunmalıdır. Eyni zamanda, mövzuya dair ədəbiyyat təhlili aparılmalı, sahədəki mövcud yanaşmalar, tədqiqat boşluqları və

qarşıya çıxan problemlər sistemləşdirilməlidir. Əgər mövzu tamamilə yeni deyilsə, onun hansı aspektlərinin daha az işlənildiyi, hansı sualların hələ də cavabsız qaldığı müəyyənləşdirilməli, müəllif öz tədqiqatında məhz bu sahələrə fokuslanmalıdır. Mövzuya veriləcək fərqli yanaşma və orijinal baxış bucağı, məqalənin elmi dəyərini və jurnal tərəfindən qəbul olunma ehtimalını artıran əsas amillərdən biridir.

Məqalənin əsas strukturu formalaşarkən, giriş, əsas hissə və nəticə kimi bölmələr arasında məntiqi və məzmun əlaqəsi qorunmalıdır. Giriş hissəsində tədqiqatın məqsədi, əhəmiyyəti, əsas sualları və istifadə olunacaq metodoloji yanaşmalar aydın şəkildə təqdim olunmalı, tədqiqatın hansı ehtiyacdan doğduğu və elmi ədəbiyyata hansı töhfəni verəcəyi izah edilməlidir. Giriş, oxucunun diqqətini cəlb etməli və onu əsas hissəni oxumağa sövq etməlidir. Məqalənin əsas hissəsində müəllifin apardığı tədqiqatın mərhələləri, istifadə etdiyi metodlar, əldə etdiyi nəticələr və bu nəticələrin elmi əsaslandırması geniş və analitik şəkildə təqdim olunmalıdır. Bu hissədə yalnız faktlar sadalanmamalı, onların səbəb-nəticə əlaqəsi qurulmalı, mövcud nəzəriyyələrlə müqayisələr aparılmalı və müəllifin elmi mövqeyi aydın şəkildə ortaya qoyulmalıdır. Tədqiqatın nəticələrinin praktik və nəzəri əhəmiyyəti göstərilməli, həm də onların elmi ədəbiyyatda hansı boşluqları doldurduğu əsaslandırılmalıdır. Nəticə hissəsində isə müəllif ümumi qənaətləri təqdim etməli, ilkin məqsədlə uyğunluq baxımından nəticələri qiymətləndirməli, gələcək tədqiqatlar üçün mümkün istiqamətləri göstərməli və oxucuya elmi mənzərəni ümumiləşdirməlidir.

Elmi məqalə yazılarkən istifadə olunan dil və üslub da xüsusi əhəmiyyət kəsb edir. Yazı dili elmi və obyektiv olmalı, emosional və bədii ifadələrdən uzaq durulmalıdır. Fikirlər aydın, qısa, lakin dolğun ifadə olunmalı, artıq və qeyri-dəqiq cümlələrdən qaçınılmalıdır. Elmi üslubda ifadə edilən fikirlər konkret mənbələrə əsaslanmalı, hər bir iddia elmi sübutlarla dəstəklənməlidir. Terminlər sahəyə uyğun şəkildə işlədilməli, onların istifadəsində ardıcıllıq və məntiqilik qorunmalıdır. Həddindən artıq texniki və ya nadir istifadə olunan terminlərin izahı verilməli, oxucunun anlama səviyyəsi nəzərə alınmalıdır. Əgər məqalə müxtəlif səviyyəli auditoriyaya ünvanlanıbsa, onun dili daha sadə və izahlı şəkildə tərtib olunmalı, mürəkkəb fikirlər mümkün qədər açıq şəkildə ifadə edilməlidir. Bu zaman yazı həm akademik səviyyəyə cavab verir, həm də daha geniş oxucu kütləsinə əlçatan olur.

Mənbələrlə işləmək, elmi məqalənin əsas sütunlarından biridir. Yaxşı yazılmış bir elmi məqalə, təkcə müəllifin deyil, ondan əvvəlki

tədqiqatçıların da fikirlərinə söykənir və onlarla elmi dialoq qurur. Bu baxımdan, məqalədə istifadə olunan ədəbiyyat geniş, aktual və etibarlı olmalı, seçilən mənbələr sahənin ən nüfuzlu nəşrlərindən götürülməlidir. Ədəbi mənbələrin təkcə sadalanması deyil, onların analitik təhlili və tənqidi baxımdan qiymətləndirilməsi daha məqsədəuyğundur. Məqalədə yalnız fikrimizi dəstəkləyən deyil, alternativ yanaşmaları da əhatə edən mənbələrə yer verilməlidir. Bu, tədqiqatın obyektivliyini artırır və elmi mübahisələrin qurulmasına zəmin yaradır. Sitatların və istinadların verilməsində isə seçilən jurnalın tələblərinə uyğun vahid format saxlanmalı, mənbələrin düzgün qeyd olunmasına xüsusi diqqət yetirilməlidir. APA, MLA və ya digər beynəlxalq istinad sistemlərindən istifadə olunması elmi ciddiyyəti və intellektual dürüstlüyü təmin edən mühüm amillərdəndir.

Məqalənin texniki hazırlanması mərhələsində vaxtın düzgün idarə olunması mühüm rol oynayır. Yazı prosesi tələsik olmamalı, əksinə, tədricən və mərhələli şəkildə aparılmalıdır. Tədqiqatın aparılması, ədəbiyyatın təhlili, nəticələrin sistemləşdirilməsi, ilkin mətnin yazılması və sonda redaktə və korrektə mərhələləri bir-birini izləməli və hər mərhələyə kifayət qədər vaxt ayrılmalıdır. Yazının tamamlanmasından sonra onun bir neçə dəfə oxunması, məzmun və forma baxımından təhlil olunması, məntiqi boşluqların, təkrarların, sintaktik və orfoqrafik səhvlərin aradan qaldırılması vacibdir. İmkan daxilində, yazı neytral və peşəkar bir şəxs tərəfindən də nəzərdən keçirilməlidir. Bu prosesdə həmçinin paraqraflar arasında keçidlərin məntiqi axıcılığı təmin olunmalı, yazının bütövlüyü pozulmamalıdır.

Vizual materialların – cədvəllərin, qrafiklərin, diaqramların istifadəsi tədqiqatın nəticələrini daha aydın şəkildə təqdim etməyə yardım edir. Lakin bu vasitələr yalnız məlumat ötürülməsinə xidmət etməli, estetik və dekorativ məqsədlərlə istifadə olunmamalıdır. Vizual elementlərin başlıqları, mənbələri və onlara istinadlar da texniki baxımdan tam şəkildə tərtib olunmalıdır.

Elmi məqalənin dərc olunacağı jurnalı düzgün seçmək də tədqiqatın uğurlu təqdimatı üçün əhəmiyyətlidir. Jurnalın mövzu profili, indekslənmə statusu, təsir faktoru və qəbul faizi nəzərə alınmalı, məqalə həmin jurnalın yazı qaydalarına uyğun şəkildə tərtib edilməlidir. Bu, həm məqalənin elmi nüfuzunu artırır, həm də onun oxucu auditoriyasına daha effektiv şəkildə çatmasını təmin edir.

Bütün bu prinsiplərə riayət edilməsi yalnız bir məqalənin hazırlanmasına deyil, həm də müəllifin akademik nüfuzunun formalaşmasına xidmət

edir. Elmi fəaliyyətin əsas sütunlarından biri olan dürüstlük və etik prinsiplər heç zaman unudulmamalıdır. Plagiat – başqasının fikrini, nəticəsini və ya mətnini istinad etmədən təqdim etmək – elmi ictimaiyyət tərəfindən qəbul olunmayan, etibarsızlıq doğuran ciddi pozuntudur. Elmi dürüstlük, hər bir elmi məqalənin təməlini təşkil edən və müəllifin intellektual mədəniyyətini əks etdirən əsas prinsiplərdəndir.

Elmi məqalə intellektual yaradıcılıq məhsulu kimi, müxtəlif nəzəriyyə və yanaşmaların sintezindən ibarət olmaqla, konkret faktlar və statistik məlumatlar əsasında yeni elmi qənaətlərin formalaşdırılmasına xidmət edir. Elmi məqalənin əsas məqsədi yalnız mövcud bilikləri təqdim etmək deyil, həm də yeni elmi yanaşmalar və perspektivlər irəli sürməkdir. Bu səbəbdən də elmi məqalələrin yazılması tədqiqatçılardan dəqiqlik, obyektivlik, elmi düşüncə və analitik təhlil bacarıqları tələb edir. Məqalə yazarkən əsas tələblərdən biri mövzunun dərin şəkildə araşdırılması, nəzəri əsaslandırmanın aparılması və araşdırma nəticələrinin elmi cəhətdən əsaslandırılmasıdır. Bu baxımdan elmi məqalələr, xüsusilə magistrant və doktorant səviyyəsində olan tədqiqatçılar üçün mühüm əhəmiyyət kəsb edir.

Məqalə struktur baxımından adətən üç əsas hissədən – giriş, əsas hissə və nəticə bölmələrindən ibarət olur. Giriş hissəsində tədqiqatın aktuallığı və məqsədi izah olunur, tədqiqat sualları və qarşıya qoyulan vəzifələr qeyd edilir. Bu hissədə həmçinin mövcud ədəbiyyatın qısa xülasəsi verilir, istifadə olunacaq metodlar və elmi yanaşmalar göstərilir. Tədqiqatın niyə vacib olduğu və mövzu üzrə hansı elmi boşluqları doldurmaq məqsədi güddüyü də bu hissədə açıqlanmalıdır. Əsas hissə məqalənin analitik və empirik təhlilinin təqdim olunduğu bölmədir. Burada tədqiqatın nəticələri sistemli şəkildə təqdim olunur, hipotezlər irəli sürülür və onların mövcud nəzəriyyələrlə əlaqəsi qurulur. Müəllif yalnız faktların sadalanması ilə kifayətlənməməli, onları şərh etməli, müqayisə etməli və əsaslandırmalıdır. Bu hissədə elmi arqumentlər, qrafiklər, cədvəllər və digər statistik vasitələrdən istifadə edərək elmi mövqe ortaya qoyulur. Əsas hissə, eyni zamanda, tədqiqatın elmi yeniliyini və praktik əhəmiyyətini sübut edən əsas bölmə hesab olunur. Nəticə hissəsi isə araşdırmanın yekun qənaətlərini ümumiləşdirən və gələcək tədqiqat istiqamətlərini göstərən bölmədir. Burada müəllif tədqiqat suallarına cavab verir, əldə edilən nəticələrin tətbiq imkanlarını vurğulayır və yeni tədqiqat perspektivləri təqdim edir. Əldə olunan nəticələrin praktik və nəzəri əhəmiyyəti də məhz bu hissədə vurğulanmalıdır.

Elmi məqalədə istinadlar xüsusi əhəmiyyət daşıyır. İstifadə edilən ədəbiyyat düzgün şəkildə, beynəlxalq standartlara uyğun olaraq tərtib olunmalı və məqalədəki bütün məlumatların mənbəyi dəqiq şəkildə göstərilməlidir. Bu, məqalənin elmi etibarlılığını və müəllifin intellektual dürüstlüyünü təmin edən əsas şərtlərdən biridir.
Nəticə etibarilə, elmi məqalə yalnız mövcud məlumatların toplusu deyil, yeni ideyaların, elmi nəticələrin və metodların paylaşılması üçün mühüm vasitədir. Elmi məqalə yazarkən məntiqi ardıcıllığa, dilin aydın və elmi üslubda olmasına, arqumentlərin əsaslandırılmasına və obyektivliyə xüsusi diqqət yetirilməlidir. Bu qaydalara əməl olunması məqalənin keyfiyyətini artırmaqla yanaşı, onun elmi ictimaiyyət tərəfindən qəbul olunmasını da asanlaşdırır. (Elmi məqalələrin yazılma metodikası. Metodiki vəsait, 2015)

## 6.2 Elmi məqalənin yazılması prosesi, qarşılaşılan çətinliklər və dəstək alətləri

Elmi məqalə yazmaq prosesi hər bir tədqiqatçının elmi inkişaf yolunda mühüm mərhələdir. Bu, sadəcə nəzəri biliklərin təqdimatı deyil, eyni zamanda müəllifin elmi mövqeyini, təhlil bacarığını və analitik düşüncə səviyyəsini ortaya qoyduğu bir intellektual fəaliyyət növüdür. Tədqiqatçı öz elmi nəticələrini sistemli şəkildə ümumiləşdirərək yazılı formada akademik ictimaiyyətə təqdim etməklə yalnız bilik paylaşımı həyata keçirmir, həm də elmi biliklərin yayılmasına, yeni tədqiqatların əsaslarının formalaşmasına və mövcud elmi diskursun zənginləşməsinə töhfə verir. Bu baxımdan, elmi məqalə həm müəllifin elmi biliklərini nümayiş etdirdiyi, həm də gələcək tədqiqatçılar üçün etibarlı bir istinad mənbəyi yaratdığı fundamental vasitə kimi çıxış edir.
Elmi məqalə yazmaq prosesinə başlanmazdan əvvəl, müəllif öz qarşısında bir sıra sualları aydınlaşdırmalıdır: bu tədqiqat hansı problemi araşdırır, hansı elmi boşluğu doldurur, mövcud ədəbiyyata hansı töhfəni verir və bu tədqiqatın nəticələrinin tətbiqi və nəzəri əhəmiyyəti nədir? Bu suallar yazının strukturunu müəyyənləşdirir və müəllifin fokuslanmasına yardım edir. Elmi məqalənin yazılması sadəcə texniki prosedur deyil, planlı və mərhələli şəkildə aparılan düşüncə və analiz prosesidir. Buraya tədqiqatın məqsəd və vəzifələrinin dəqiq müəyyənləşdirilməsi, metodoloji çərçivənin qurulması, empirik nəticələrin əldə edilməsi və onların təhlili, nəticələrin elmi əsaslandırılması və elmi üslubda təqdim

olunması daxildir. Bu prosesin əhəmiyyəti təkcə müəllifin şəxsi elmi inkişafı ilə məhdudlaşmır. Elmi məqalə, həmçinin cəmiyyətin elmi səviyyəsinin yüksəlməsində, universitet və tədqiqat institutlarının nüfuzunun artmasında, elmi siyasətin formalaşmasında və innovasiya əsaslı inkişafın təmin olunmasında strateji rol oynayır. Akademik yazı, eyni zamanda, elmi biliklərin strukturlaşdırılmış şəkildə ötürülməsi vasitəsidir. Yazı prosesi vasitəsilə tədqiqatçı öz fikirlərini aydınlaşdırır, onları əsaslandırır, arqumentləşdirir və başqaları ilə paylaşır. Bu, elmi irsə mühüm töhfə verən və gələcək tədqiqatlara yol açan vacib intellektual fəaliyyətdir. Lakin bu proses hər zaman asan və problemsiz keçmir.

Elmi məqalə yazmaq zamanı müəlliflər müxtəlif çətinliklərlə qarşılaşa bilərlər. Ən geniş yayılmış problemlərdən biri giriş hissəsinin düzgün və məntiqli şəkildə formalaşdırılmasıdır. Tədqiqatın məqsəd və aktuallığını qısa və konkret şəkildə təqdim etmək çox vaxt müəllif üçün çətin olur. Digər çətinliklərə isə elmi üslubun qorunması, əsas anlayış və terminlərin düzgün istifadəsi, arqumentasiyanın sistemli qurulması və mənbələrin dəqiq qeyd olunması aiddir. Əlavə olaraq, mövzu üzrə müvafiq ədəbiyyatın toplanması, elmi məntiqin qurulması, metodologiyanın təsviri və nəticələrin interpretasiyası da xüsusi diqqət tələb edir. Bəzən isə tədqiqatçının yazıya haradan və necə başlamalı olduğunu müəyyən etməsi belə əlavə vaxt və səy tələb edir. Məhz bu mərhələlərdə texnologiyanın və rəqəmsal alətlərin verdiyi imkanlar xüsusi aktuallıq kəsb edir. Müasir dövrdə süni intellekt əsaslı müxtəlif yazı platformaları və akademik proqramlar yazı prosesini asanlaşdırmaq üçün mühüm dəstək rolunu oynayır. Grammarly, Quillbot və ChatGPT kimi yazı alətləri mətnin üslub baxımından təkmilləşdirilməsi, qrammatik və leksik səhvlərin aradan qaldırılması, fikir axınının aydınlaşdırılması və ifadələrin elmi səviyyədə formalaşdırılması üçün geniş imkanlar təqdim edir. Zotero və Mendeley kimi proqramlar isə istinadların avtomatlaşdırılması, mənbələrin sistemləşdirilməsi və APA, MLA, Chicago kimi standart formatlara uyğun şəkildə yerləşdirilməsi baxımından əvəzsizdir. Bu alətlər, xüsusilə təcrübəsiz və yazı vərdişləri formalaşmamış gənc tədqiqatçılar üçün yazı prosesini daha effektiv və sistematik edir. Eyni zamanda, bu alətlərin köməyi ilə plagiat riski minimuma endirilir, çünki onlar orijinallıq səviyyəsini yoxlamaq və təkrar istifadənin qarşısını almaq üçün nəzərdə tutulmuş funksiyalarla təchiz olunmuşdur.

Yekun olaraq qeyd etmək olar ki, elmi məqalə yazmaq — təkcə bir yazı işi

deyil, həm də metodoloji düşüncə və analitik yanaşmanın tətbiqi, nəzəri biliklərlə praktiki təhlilin uzlaşdırılması və elmi cəmiyyətlə səmərəli ünsiyyət qurmağın əsas vasitəsidir. Yaxşı yazılmış bir məqalə yalnız redaksiya heyəti tərəfindən qəbul olunmaqla deyil, həm də sonradan elmi mənbələrdə geniş şəkildə istinad olunmaqla ölçülür. Yazı prosesində intizamlı olmaq, texniki dəstək alətlərindən istifadəni öyrənmək, dəqiq və obyektiv yanaşmaq, elmi etikaya sadiq qalmaq — uğurlu və elmi dəyərə malik məqalənin əsas meyarlarındandır. Elmi yazı bacarıqları təkmilləşdikcə tədqiqatçının özünü ifadəetmə imkanları da artır və o, getdikcə daha peşəkar və nüfuzlu elmi şəxsiyyətə çevrilir.

## 6.3. Elmi məqalə növləri

Elmi məqalələr funksiyasına, strukturuna və üslubuna görə müxtəlif növlərə bölünür. Hər bir məqalə növü özünəməxsus məqsəd daşıyır və müəyyən bir elmi və ya ictimai ehtiyacın ödənilməsinə xidmət edir. Onların formalaşması və inkişafı həm elmi düşüncənin, həm də akademik ənənələrin təkmilləşməsi ilə sıx bağlıdır. Ən geniş yayılmış və praktikada tez-tez qarşılaşılan məqalə növləri aşağıdakılardır:

Ən çox rast gəlinən növ — elmi tədqiqat məqaləsidir. Bu məqalələr bir tədqiqatın nəticələrini sistemli şəkildə təqdim edərək elmi cəmiyyətə yeni məlumat verir. Onlar adətən ciddi struktur çərçivəsində yazılır: başlıq, xülasə (abstrakt), açar sözlər, giriş, metodologiya, nəticələr, müzakirə və istifadə olunan mənbələr. Bu tip yazılar obyektivlik, elmi əsaslandırma və nəticələrin təkrarlanabilirlik prinsipləri üzərində qurulur. Elmi məqalələrin məqsədi — konkret tədqiqat sualına cavab tapmaq, yeni hipotez irəli sürmək və ya mövcud nəzəriyyələri dəstəkləmək və ya tənqid etməkdir. Bu səbəbdən onlar adətən impakt faktoru olan nüfuzlu elmi jurnallarda dərc edilir və istinad olunma tezliyi onların elmi dəyərini müəyyən edir.

Digər bir vacib növ tərtib məqalələri — icmal və ya ədəbiyyat təhlili məqalələridir. Bu məqalələr konkret sahədə aparılmış əvvəlki tədqiqatların nəticələrini sistemli şəkildə ümumiləşdirərək təqdim edir. Tərtib məqalələr vasitəsilə mövzu üzrə mövcud biliklər dərin və analitik şəkildə təhlil olunur, oxucuya həmin sahənin inkişaf trayektoriyası və hələ cavablandırılmamış suallar barədə məlumat verilir. Sistematik icmal və meta-analiz məqalələri elmi əsaslandırmaların gücləndirilməsi və metodoloji şəffaflığın təmin olunması baxımından mühüm rol oynayır. Onlar adətən doktorant və postdoktor səviyyəsində yazılan elmi

işlərin əsasını təşkil edir və gələcək tədqiqatlar üçün istiqamətverici materiallar sayılır.

Ədəbi məqalələr isə daha çox humanitar sahələrdə — ədəbiyyat, incəsənət, dil və mədəniyyət araşdırmaları sahələrində yazılır. Bu yazılar elmi standartları qorumaqla yanaşı, daha sərbəst və estetik bir üsluba malik ola bilər. Burada müəllif öz subyektiv baxış bucağını ifadə edə bilər, lakin bu ifadə tədqiqatın elmi əsaslarını və məntiqini pozmamalıdır. Ədəbi məqalələrdə tez-tez müəllifin şəxsi düşüncələri, mədəni dəyərlərə münasibəti və analoji paralellər aparmaq qabiliyyəti ön plana çıxır. Bu səbəbdən belə yazılar oxucuda həm informasiya, həm də estetik zövq doğurur.

Qəzet məqalələri isə daha çox publisistik xarakter daşıyır və geniş ictimaiyyətə ünvanlanır. Onların əsas məqsədi ictimai hadisələrə münasibət bildirmək, gündəmdəki mövzulara dair fikirlər təqdim etmək və cəmiyyətdə diskussiyalara səbəb olmaqdır. Bu yazılar rəsmi və ya elmi dil tələblərindən kənar ola bilər, lakin əsas ideya və arqumentlər aydın və məntiqi şəkildə qurulmalıdır. Qəzet məqalələrində ədəbi ifadələr, atalar sözləri, deyimlər və emosional üslub daha çox istifadə olunsa da, bu elementlər əsas ideyanın çatdırılmasına kömək etməlidir, maneə yaratmamalıdır.

Bu kontekstdə, müxtəlif məqalə növlərinin məqsədləri, strukturları və istifadə sahələri baxımından fərqləndiyini qeyd etmək zəruridir. Elmi yazı praktikasında daha səmərəli yanaşma formalaşdırmaq üçün bu məqalə tiplərinin müqayisəli təhlili vacib əhəmiyyət kəsb edir. Aşağıdakı cədvəldə geniş istifadə olunan əsas məqalə növləri funksional və struktur xüsusiyyətlərinə görə sistemli şəkildə təqdim olunmuşdur.

*Cədvəl 1. Elmi və qeyri-elmi məqalə növlərinin müqayisəli təhlili*

| Məqalə Növü | Məqsədi | Əsas Xüsusiyyətləri | Struktur | İstifadə Sahəsi və Auditoriyası |
|---|---|---|---|---|
| Elmi tədqiqat məqaləsi | Yeni elmi nəticələrin təqdim edilməsi və yayımlanması | Sistemli tədqiqat əsasında faktlara əsaslanır; obyektivlik və təkrar ediləbilənlik əsasdır | Başlıq, xülasə, giriş, metodologiya, nəticələr, müzakirə, mənbələr | Elmi ictimaiyyət, tədqiqatçılar, ali məktəb müəllimləri və magistrantlar |
| Tərtib məqaləsi (icmal) | Mövcud tədqiqatların ümumiləşdirilməsi və təhlili | Daha əvvəl aparılmış araşdırmaların sistemli şəkildə təhlili; boşluqlar və gələcək istiqamətlər müəyyən edilir | Başlıq, xülasə, giriş, ədəbiyyat təhlili, müzakirə, nəticə, mənbələr | Alimlər, doktorantlar, mövzu üzrə yeni başlayan tədqiqatçılar |
| Ədəbi məqalə | Ədəbi əsərlərin, dil və mədəniyyət nümunələrinin təhlili və şərhi | Mövzuya şəxsi yanaşma mümkündür; bədii və estetik ifadələrə üstünlük verilir | Giriş, əsas fikirin inkişafı, nəticə (struktur daha sərbəstdir) | Humanitar sahə üzrə mütəxəssislər, tələbələr, ədəbiyyatsevərlər |
| Qəzet məqaləsi | Cəmiyyətə məlumat vermək və ictimai rəyə təsir göstərmək | Emosional və bədii üslubdan istifadə oluna bilər; sadə və anlaşıqlı dildə yazılır | Giriş, əsas hissə, nəticə və çağırış (formal struktur məcburi deyil) | Geniş oxucu auditoriyası, ictimaiyyət, jurnalistlər, ictimai fəallar |

*Mənbə: Mərdanov M., Həsənova A. (2018). Nüfuzlu elmi jurnallara məqalə hazırlamağın yolları. Bakı: Təhsil*

Beləliklə, məqalə növlərinin müxtəlifliyi onların funksional məqsədindən irəli gəlir və hər bir növün yazılma texnikası, üslubu və təqdimat forması fərqlidir. Tədqiqatçılar bu növlərdən öz elmi məqsədlərinə uyğun olanı

seçərək, mövzuya və hədəf auditoriyaya uyğun şəkildə yazı prosesini həyata keçirməlidirlər.

## 6.4. Elmi Məqalənin Strukturu

Elmi məqalə — müəyyən bir mövzunun sistemli şəkildə araşdırıldığı, tədqiqatçının orijinal baxışları və elmi yanaşmaları ilə zənginləşdirilmiş müstəqil akademik yazı nümunəsidir. Belə məqalələr adətən adyunktlar, magistrantlar, doktorantlar və digər tədqiqatçılar tərəfindən hazırlanır və elmi ictimaiyyətə yeni bilik, fikir və nəticələr təqdim etmək məqsədi daşıyır. Elmi məqalənin yazılması prosesində müəllif yalnız mövcud mənbələrdən əldə olunan məlumatları sadalamaqla kifayətlənmir, həm də həmin məlumatları analitik və tənqidi yanaşma əsasında təhlil edərək müəyyən ümumiləşdirmələr aparır və yeni elmi nəticələr ortaya qoyur. Bu, həm mövcud nəzəriyyələrin dərinləşdirilməsi, həm də praktik problemlərin həllinə elmi əsaslarla töhfə verilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

***Mənbə:** Burrows, T.(2011) Writing Research Articles for Publication.*

Elmi məqalə yazarkən əsas məqsəd tədqiqat obyektinin spesifik cəhətlərini üzə çıxarmaq, mövcud bilik fonduna əlavə dəyər qatmaq və oxucuya müəyyən bir problemin elmi kontekstdə necə başa düşülə biləcəyini göstərməkdir. Belə məqalələrdə fikir ardıcıllığı, strukturun məntiqi düzülüşü, ədəbi dil və elmi üslub mühüm rol oynayır. Məqalədə qoyulan sualların cavablandırılması, mövzu üzrə ədəbiyyatın təhlili, istifadə olunan metodologiyanın əsaslandırılması, empirik və ya nəzəri nəticələrin sistemli şəkildə təqdim olunması, nəticələrin elmi əsaslarla ümumiləşdirilməsi və gələcək tədqiqatlar üçün tövsiyələrin verilməsi bu yazı növünün başlıca xüsusiyyətləridir.

Bu baxımdan elmi məqalə təkcə informasiya ötürən bir vasitə deyil, eyni zamanda elmi biliklərin sistemləşdirilməsi, yeni ideyaların formalaşdırılması və elmi ictimaiyyətlə dialoqun qurulması üçün zəruri olan intellektual bir platformadır. Məqalənin hazırlanmasında istifadə olunan yanaşmalar və metodlar, mövzunun aktuallığı və əldə olunan nəticələrin yeniliyi onun elmi dəyərini müəyyən edir. Nəticə etibarilə, elmi məqalələr akademik biliklərin inkişaf etdirilməsi və cəmiyyətin elmi tərəqqisinə töhfə verməsi baxımından əhəmiyyətli bir rol oynayır.

**Başlıq (Title)**

Elmi məqalənin başlığı, tədqiqatın ümumi məzmununu, istiqamətini və məqsədini qısa, aydın və informativ şəkildə əks etdirməlidir. Başlıq elə formalaşdırılmalıdır ki, oxucu yalnız bu cümləyə əsaslanaraq məqalənin hansı mövzunu əhatə etdiyini və tədqiqatın əsas predmetinin nə olduğunu ilkin mərhələdə dərk edə bilsin. Başlıq tədqiqatın nəticəsi və ya hökmü deyil, daha çox onun mövzusu və məqsədi haqqında ümumi təsəvvür yaradan neytral və deskriptiv (təsviri) bir ifadə olmalıdır.
Effektiv elmi başlıq adətən 10–12 sözdən artıq olmur və lazımsız detallardan uzaq, konkret və məqsədəuyğun ifadələrlə qurulur. Burada uzun və mürəkkəb cümlələrdən, emosional və publisistik ifadələrdən, çoxsaylı ixtisarlardan, qeyri-standart qısaltmalardan və təxmin xarakterli sözlərdən istifadə edilməməlidir. Başlıq akademik üsluba uyğun, obyektiv və neytral şəkildə yazılmalı, əmr formasında və ya şüar xarakterli olmamalıdır. Məsələn, "Sosial rifahın artırılması yolları" əvəzinə "Sosial rifah siyasətinin iqtisadi və institusional əsasları" kimi ifadələr daha uyğundur.

***Mənbə:** Kerim Sarigul tərəfindən tərcümə edilərək hazırlanıb.*
*https://kerimsarigul.com/*

Eyni zamanda, başlıq təkcə elmi dəqiqliklə deyil, həm də oxucunun diqqətini cəlb edəcək dərəcədə maraqlı və aktual mövzunu əhatə etməlidir. Xüsusilə beynəlxalq jurnallarda çap olunmaq məqsədi ilə yazılmış məqalələrdə başlıq həm də qlobal elmi auditoriyanın maraq dairəsinə uyğunlaşdırılmalıdır. Bu baxımdan, başlıqda istifadə olunan terminologiya, sahəyə dair açar anlayışlar və konseptual çərçivə konkret və aydın şəkildə seçilməlidir. Bundan əlavə, başlıqdan sonra bir neçə açar söz (keywords) verilməlidir. Bu açar sözlər məqalənin əsas anlayışlarını, mövzuya dair əsas terminləri və tədqiqatın məzmununu əks etdirən ifadələri əhatə edir. Onlar oxucuya və akademik axtarış sistemlərinə məqalənin hansı kontekstdə yazıldığını göstərmək baxımından mühüm rol oynayır. Açar sözlərin düzgün seçilməsi, məqalənin indeksləşdirilməsi və digər tədqiqatçılar tərəfindən asanlıqla tapılması üçün olduqca vacibdir.
Nəticə olaraq, elmi məqalənin başlığı tədqiqatın elmi dəyərini ilk baxışdan nümayiş etdirməli, eyni zamanda oxucuda maraq oyatmalı və məqalənin əsas istiqaməti haqqında aydın fikir verməlidir. Bu səbəbdən başlıq müəllif tərəfindən xüsusi diqqətlə, tədqiqatın məqsədinə və

auditoriyasına uyğun şəkildə hazırlanmalıdır.

***Cədvəl 3.*** *Cədvəl: Elmi Məqalələr üçün Zəif və Yaxşı Başlıq Nümunələrinin Müqayisəsi*

| Nümunə № | Zəif Başlıq | Yaxşı Başlıq | İzah |
|---|---|---|---|
| 1 | İnkişaf və təhsil | Azərbaycan ali təhsil sistemində rəqəmsal texnologiyaların tətbiqinin effektivliyi | Zəif başlıq çox ümumidir və məqalənin konkret məzmunu aydın deyil. Yaxşı başlıq isə mövzunu dəqiq şəkildə ifadə edir. |
| 2 | İqtisadi artım | Davamlı iqtisadi artımın sosial rifah göstəricilərinə təsiri: Azərbaycan nümunəsində | "İqtisadi artım" ifadəsi qeyri-müəyyəndir. Yaxşı nümunədə tədqiqatın coğrafi çərçivəsi və analitik baxış qeyd olunub. |
| 3 | Sosial siyasət | Azərbaycanda sosial siyasətin formalaşmasında dövlət müdaxiləsinin rolu | Zəif başlıq konkret aspekt göstərmir. Yaxşı başlıq spesifik aspekti və konteksti əhatə edir. |
| 4 | Gender məsələləri | Ali təhsildə gender bərabərliyinin təmin olunması yolları: empirik yanaşma | "Gender məsələləri" çox geniş mövzudur. Yaxşı başlıq isə mövzuya fokuslanır və tədqiqat metodu haqqında fikir verir. |
| 5 | Kənd təsərrüfatı problemləri | Azərbaycanda kənd təsərrüfatında iqlim dəyişikliklərinin məhsuldarlığa təsiri | Zəif başlıq ümumi və qeyri-spesifikdir. Yaxşı başlıq isə mövzu və problematik yönü konkretləşdirir. |

***Mənbə:*** *APA Publication Manual (7th Edition), American Psychological Association əsasında müəllif tərəfindən tərtib edilmişdir*

**Xülasə (Abstract)**

Xülasə (abstrakt) elmi məqalənin ən vacib və ilk oxunan hissələrindən biridir və tədqiqatın mahiyyəti haqqında qısa, lakin dolğun məlumat təqdim etməyi məqsəd qoyur. O, məqalənin struktur elementlərini – məqsədini, istifadə olunmuş metodologiyanı, əsas nəticələri və əldə olunan elmi qənaətləri bir-birindən aydın şəkildə ayıraraq ardıcıllıqla əks etdirməlidir. Yaxşı yazılmış xülasə təkcə informativ yox, həm də təşviqedici olmalı, oxucuda məqalənin tam mətni ilə tanış olmaq arzusu yaratmalıdır.




Elmi xülasədə təqdim edilən məlumat tam, dəqiq və obyektiv olmalı, əsas ideyalar qısa, aydın və texniki baxımdan düzgün cümlələrlə ifadə edilməlidir. Xülasə elə yazılmalıdır ki, oxucu məqalənin digər hissələrini oxumadan da tədqiqatın hansı problemin həllinə yönəldiyini, hansı üsullardan istifadə olunduğunu, nə kimi elmi nəticələrin əldə edildiyini və bu nəticələrin elmi və ya praktiki əhəmiyyətinin nədən ibarət olduğunu anlaya bilsin. Xülasədə digər bölmələrdəki cümlələrin təkrarı və ya mətndən kopyalanması məqsədəuyğun deyil. Eyni zamanda, burada qısaltmalardan, istinadlardan, ədəbiyyat siyahısından, sitatlardan, qrafik və cədvəllərə istinaddan istifadə edilməməlidir. Çünki xülasə müstəqil mətn kimi oxunur və tam başa düşülməsi üçün əlavə izaha ehtiyac qalmamalıdır. Ənənəvi olaraq xülasənin həcmi 150–300 söz arasında dəyişir və bu çərçivədə “nə tədqiq olunub?”, “tədqiqat necə aparılıb?”, “nə əldə olunub?” və “bu nəticələrin nəzəri və ya praktiki

baxımdan əhəmiyyəti nədir?” suallarına cavab verilməlidir. Xülasə müəllifin özünün apardığı tədqiqatı digər elmi işlərdən fərqləndirən əsas məqamları ön plana çəkməli və nəzəri-tətbiqi əhəmiyyətini vurğulamalıdır.

Yaxşı yazılmış bir xülasə təkcə elmi məqalənin təqdimatı deyil, eyni zamanda onun ilk təəssürat vasitəsidir. Bu səbəbdən də xülasə hazırlanan zaman maksimum elmi dəqiqlik, struktur ardıcıllığı və təqdimat mədəniyyəti qorunmalıdır.

***Cədvəl 4.*** *Xülasə yazılışında səhv və düzgün yanaşmanın müqayisəsi*

| Yanaşma tipi | Nümunə mətni | Təhlil və səbəb |
|---|---|---|
| Səhv yanaşma | Bu məqalədə təhsillə bağlı bəzi məsələlərdən danışılır. Texnologiya da araşdırılıb. Müxtəlif nəticələr əldə olunub və bəzi tövsiyələr verilib. | - Konkretlik yoxdur- Məqsəd, metod və nəticələr dəqiq ifadə olunmayıb- Elmi üslub və terminlər yoxdur |
| Doğru yanaşma | Bu məqalənin məqsədi Azərbaycan ali təhsil sistemində rəqəmsal texnologiyaların tətbiqinin effektivliyini araşdırmaqdır. Tədqiqat zamanı kəmiyyət metodu ilə 250 tələbə arasında sorğu keçirilmişdir. Nəticələr göstərdi ki, tələbələrin 78%-i rəqəmsal alətlərin dərsə marağı artırdığını bildirmişdir. Nəticələr əsasında təhsildə rəqəmsal yanaşmaların genişləndirilməsi tövsiyə olunur. | - Məqsəd, metodologiya, nəticə və tövsiyələr aydın şəkildə təqdim olunub- Rəqəmlərlə dəstəklənmişdir- Akademik və elmi dildə yazılıb |

**Mənbə:** *Nümunə müəllif tərəfindən tərtib olunmuşdur*

**Açar Sözlər (Keywords)**

Açar Sözlər (Keywords) bölməsi elmi məqalənin sistemləşdirilməsində və elmi dövriyyəyə daxil edilməsində mühüm rol oynayır. Bu bölmədə təqdim olunan ifadələr məqalənin əsas məzmununu, mövzunun əsas istiqamətlərini və tədqiqatın fokuslandığı sahələri əks etdirməlidir. Açar sözlər həm elmi məlumat bazalarında məqalənin indeksləşdirilməsi, həm də tədqiqatçılar tərəfindən axtarış zamanı daha asan tapılması üçün istifadə olunur.
Açar sözlər 3-dən 6-ya qədər konkret və spesifik terminlərdən ibarət olmalı, ümumi və çox geniş anlayışlardan (məsələn, "təhsil", "iqtisadiyyat") mümkün qədər qaçınılmalıdır. Eyni zamanda, bu terminlər məqalənin elmi istiqamətinə uyğun olaraq terminoloji dəqiqliklə seçilməli və məqalədə tez-tez rast gəlinən əsas anlayışları əhatə etməlidir.
Açar sözlərdə qısa ifadələr, yalnız kiçik hərflərlə (əgər xüsusi ad deyilsə), vergüllə ayrılmış şəkildə təqdim olunur və nöqtə ilə bitirilmir.

***Cədvəl 5.*** *Açar sözlərin seçilməsində doğru və yanlış yanaşmalar*

| Yanaşma | Açar Sözlər | Qiymətləndirmə |
|---|---|---|
| Səhv yanaşma | təhsil, texnologiya, tələbələr, məktəb, dərs | - Çox ümumidir - Mövzunu dəqiq ifadə etmir - Elmi-tədqiqat bazaları üçün yararsızdır |
| Doğru yanaşma | rəqəmsal təhsil, ali məktəb, texnoloji inteqrasiya, tələbə motivasiyası, onlayn öyrənmə | - Mövzunun əsas məğzini əhatə edir - Axtarış sistemlərində spesifik nəticə verir - Elmi və aktualdır |

***Mənbə:*** *Swales, J. M., & Feak, C. B. (2012). Academic Writing for Graduate Students: Essential Tasks and Skills. University of Michigan Press əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

**Giriş (Introduction)**

Elmi tədqiqatların uğurlu başlanğıcı onun giriş bölməsində qoyulur. Giriş hissəsi tədqiqatın mövzusunu təqdim etməklə yanaşı, həmin mövzunun niyə aktual olduğunu, mövcud elmi diskursda hansı problemlərin və

ya boşluqların olduğunu izah etməlidir. Bu bölmə oxucunu tədqiqatın mahiyyəti ilə tanış edir və niyə bu tədqiqatın aparılmasının zəruri olduğunu əsaslandırır. Girişin ilk cümləsi cəlbedici və düşündürücü olmalıdır. Oxucunun diqqətini çəkmək üçün aktual bir statistik fakt, qlobal və ya yerli problemə istinad, və ya sahədə mövcud olan fikir ayrılığı təqdim edilə bilər. Ardınca isə tədqiqat sahəsində aparılmış əvvəlki əsas elmi işlərə qısa nəzər salınmalı və bu işlərin hansı aspektləri əhatə etdiyi göstərilməlidir. Bu zaman sistematik bir yanaşma ilə əvvəlki tədqiqatların mövzuya necə töhfə verdiyi, lakin hansı suallara cavab vermədiyi vurğulanmalıdır. Daha sonra mövzu çərçivəsi daraldılaraq konkret tədqiqat obyektinə yönəlinməlidir. Ədəbiyyatın təhlili nəticəsində müəyyən edilmiş boşluqlar açıq şəkildə ortaya qoyulmalı və bu tədqiqatın məqsədi həmin boşluqları doldurmaqla elmi biliklərə necə töhfə verəcəyi izah olunmalıdır. Bununla yanaşı, tədqiqatın əsas məqsədi, qoyulan tədqiqat sualları və ya hipotezlər, eləcə də nəzəri çərçivə haqqında qısa məlumat verilməlidir. Əgər tədqiqat müəyyən nəzəri modellərə və ya yanaşmalara əsaslanırsa, bunların adı çəkilməli və uyğun şəkildə əsaslandırılmalıdır. Beləliklə, giriş hissəsi bütövlükdə oxucuya tədqiqatın mənasını, əhatə dairəsini və elmi kontekstdə yerini başa düşməyə imkan verir.

***Cədvəl 6.*** *Giriş bölməsində səhv və düzgün ifadə nümunələri*

| Yanaşma | Giriş Cümləsi Nümunəsi | Qiymətləndirmə |
|---|---|---|
| Səhv yanaşma | "Bu gün dünyada çox şey dəyişir və elmi işlər yazılır..." | - Ümumi və qeyri-dəqiq ifadədir - Mövzunun elmi əsaslandırılması yoxdur - Oxucuda maraq yaratmır |
| Doğru yanaşma | "Son onillikdə texnologiyanın sürətli inkişafı təhsil sahəsində elmi tədqiqatların artmasına və yeni metodoloji yanaşmaların formalaşmasına səbəb olmuşdur." | - Aktual və spesifik faktlarla başlayır - Mövzunu elmi kontekstdə təqdim edir - Oxucunun marağını artırır |

***Mənbə:*** *Murray, R. (2017). How to Write a Thesis (4th ed.). Open University Press. əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

**Metodologiya (Methodology)**

Metodologiya bölməsi tədqiqatın elmi əsaslarla necə aparıldığını sistematik şəkildə izah edən ən vacib hissələrdən biridir. Bu bölmədə istifadə olunan tədqiqat yanaşması (müəyyənləşdirici, izahlı, sorğulayıcı və s.), metodlar, məlumat toplama üsulları, nümunə seçimi, tədqiqatın zaman və məkan çərçivəsi və məlumatların təhlili prosedurları dəqiq və əsaslandırılmış şəkildə təqdim olunmalıdır.

Metodoloji şəffaflıq – yəni istifadə olunan metodların aydın şəkildə təsvir olunması – əldə edilən nəticələrin təkrar istehsal edilə bilməsi və etibarlılığı baxımından mühüm əhəmiyyət daşıyır. Tədqiqat sualına cavab vermək üçün seçilən metod tədqiqatın məqsədinə uyğun olmalı və bu seçim əsaslandırılmalıdır. Əgər tədqiqat keyfiyyət və ya kəmiyyət metodlarına əsaslanırsa, bunun səbəbləri izah edilməli, eyni zamanda istifadə olunan konkret metodlar (məsələn, anket sorğusu, müsahibə, müşahidə, eksperiment, regresiya analizi və s.) detallı şəkildə açıqlanmalıdır. Hər bir metodun niyə seçildiyi, necə tətbiq edildiyi və hansı nəticələrin gözlənildiyi izah olunmalıdır. Məlumat toplama mərhələsində istifadə edilən anket və ya sorğu sualları, müsahibə strukturu və ya eksperimental dizayn haqqında ətraflı məlumat verilməlidir. Suallar neytral, qərəzsiz və elmi obyektivliyə əsaslanan şəkildə formalaşdırılmalıdır. Sorğu və ya müsahibələr hansı respondent qrupundan götürülüb, hansı üsulla həyata keçirilib (şəxsi, telefon, onlayn və s.) – bunlar da daxil edilməlidir. Bununla yanaşı, nümunə seçim meyarları (sample criteria), nümunənin ölçüsü (sample size) və seçim üsulu (təsadüfi seçim, məqsədli seçim və s.) barədə məlumat verilməli, bu yanaşmanın tədqiqat nəticələrinə təsiri izah edilməlidir. Əgər tədqiqat məkan və zaman baxımından məhdudlaşdırılıbsa (məsələn, “2023-cü ilin yanvar-mart aylarında Bakı şəhərində 300 nəfər arasında sorğu aparılmışdır”), bu da qeyd edilməlidir.

Son olaraq, məlumatların təhlil üsulu (statistik analiz, tematik analiz, SPSS, EViews, NVivo və s. proqramların tətbiqi) və bu analizlərin necə aparıldığı (deskriptiv statistika, korrelyasiya, faktor analizi, məzmun analizi və s.) metodoloji hissənin mühüm tərkib hissəsi kimi təqdim olunmalıdır.

*__Cədvəl 7.__ Metodologiya bölməsində düzgün və qeyri-düzgün yanaşmalar*

| Tətbiq Edilməsi Tələb Olunan Yanaşmalar | Tətbiq Edilməsi Tələb Olunmayan Yanaşmalar |
|---|---|
| Keçmiş zaman formasından istifadə edilməlidir. Metodoloji prosedurlar artıq baş vermiş hadisə kimi təqdim olunmalıdır. | Metodla nəticəni qarışdırılmamalıdır. Metod hissəsində nəticələrə və onların təhlilinə yer verilməməlidir. |
| Yalnız tədqiqata təsir edən əsas mərhələləri daxil edib, əhəmiyyətsiz detallar metodoloji izahatdan çıxarılmalıdır. | Konseptual izah və şərhləri daxil etməyib, geniş izah və nəzəri əsaslandırmalar “Müzakirə” bölməsinə aid edilməlidir. |
| Təcrübənin təkrarını təmin edəcək bütün zəruri məlumatları verərək, istifadə olunan cihazlar, şərait və alətlər konkret və tam şəkildə təqdim edilməlidir. | Təkrar üçün zəruri olan detalları ixtisar edilməməli, əgər bir məlumatın çıxarılması nəticələrin təhrifinə səbəb ola bilərsə, həmin informasiya mütləq əlavə edilməlidir. |
| Ölçmələr dəqiq və ölçü vahidləri ilə birlikdə göstərilməlidir. Məsələn: “50 ml distillə olunmuş su”, “37 °C temperaturda inkubasiya”. | Əvvəllər yayımlanmış metodları təkrar izah etmədən, yalnız istinad verib və tətbiq etdiyiniz dəyişikliklər izah edilməlidir. |
| Əvvəlki metodlara istinadla yanaşı dəyişiklikləri qeyd edilməli, əgər mövcud metodologiyada yenilik etmisinizsə, bu fərqlər də aydın şəkildə göstərilməlidir. | Oxucunun proseduru eynilə təkrar etməsinə mane olacaq hər hansı mühüm detalı buraxmamalı, detalların tamlığına xüsusi diqqət yetirilməlidir. |

*__Mənbə:__ https://ulakbim.tubitak.gov.tr/sites/images/Ulakbim/bsahin_nitelikli_ileri_tekn.pdf istinad edilməklə müəllif tərəfindən hazırlanıb.*

### Nəticələr (Results)

Tədqiqat nəticələrinin obyektiv təqdimatı bu bölmədə yer alır. Burada tapıntılar əsasən statistik göstəricilər, qrafiklər, cədvəllər və digər vizual vasitələrlə göstərilə bilər. Hər hansı bir analiz və ya interpretasiyadan yayınaraq, faktlar konkret şəkildə verilməlidir. Şərhlərdən çox faktların təqdimatı üstünlük təşkil edir. Tədqiqat nəticələri həm gözlənilən, həm də gözlənilməyən formada təqdim edilməlidir. Tədqiqat sualına

konkret cavab verən nəticələr ortaya qoyulmalıdır. Nəticələr bölməsini hazırlamadan əvvəl toplanmış məlumatları nəzərdən keçirmək və hansı nəticələrin təqdim ediləcəyini müəyyənləşdirmək lazımdır. Bu mərhələdə, Giriş bölməsində irəli sürülmüş suallar və məqsədlərlə əlaqəli olan nəticələr seçilməlidir. Hər nə qədər əldə edilən bütün nəticələr bu bölmədə yer almasa da, Metodologiya bölməsində qeyd olunan hər bir təcrübə və üsul üçün uyğun nəticələr Nəticələr bölməsində təqdim edilməlidir. Bu hissə yalnız tədqiqatçının özünün apardığı araşdırmaların nəticələrini əhatə etdiyi üçün burada digər mənbələrə istinad etmək lazım deyil. Bundan əlavə, nəticələrin təqdim olunma üsulu (mətn, qrafik, cədvəl və ya şəkil şəklində) də bu mərhələdə dəqiqləşdirilməlidir. Məqalənin təqdim ediləcəyi jurnalın tələblərinə uyğun olaraq cədvəl və şəkillərin sayı müəyyən olunmalıdır.

***Cədvəl 8.*** *Tədqiqat nəticələrinin ifadə olunmasında doğru və yanlış yanaşmalar*

| Yanaşma | İfadə Nümunəsi | Qiymətləndirmə |
|---|---|---|
| Səhv yanaşma | Çox tələbə razı qalmışdır  | - Qeyri-müəyyəndir - Ölçülə bilməz - Elmi əsas yoxdur - Subyektiv və statistik dəstəkdən uzaqdır |
| Doğru yanaşma | Respondentlərin 80%-i onlayn dərslərin effektiv olduğunu bildirmişdir   | - Konkret faiz təqdim olunub - Ölçülə bilər və təkrarlanandır - Elmi araşdırma üçün uyğundur |

*Mənbə: Abdullayeva Ə. Məqalə strukturu quran zaman nələrə diqqət yetirilməli?, 2018*

**Nəticələr Bölməsində Cədvəllərdən İstifadə Qaydaları**

Elmi məqalənin nəticələr bölməsində cədvəllərdən istifadə, məlumatların daha aydın, sistemli və müqayisəli şəkildə təqdim olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Əgər təqdim ediləcək məlumatlar çox sadə, iki sütunu keçməyən və həcmcə kiçik məlumatlardırsa, onların mətn daxilində verilməsi daha məqsədəuyğundur. Lakin çoxsaylı rəqəmlərin, bir neçə dəyişənin müqayisəsi və oxşar və fərqli xüsusiyyətlərin qarşılaşdırılması tələb olunursa, bu zaman cədvəllərdən istifadə edilməlidir. Hər bir cədvəl ardıcıl nömrələnməli və məzmuna uyğun, qısa və dəqiq başlıqla təqdim olunmalıdır. Jurnal redaktorları və elmi rəyçilər çox zaman məqalənin tam mətnini oxumadan əvvəl birbaşa cədvəllərə nəzər yetirirlər. Buna görə də cədvəllər müstəqil şəkildə oxuna biləcək qədər aydın, strukturlaşdırılmış və mətnlə uyğunlaşdırılmış formada olmalıdır. Oxucu yalnız cədvələ baxmaqla nəticələr haqqında ümumi fikir əldə edə bilməlidir.

Cədvəldə verilmiş məlumatlar mətn hissəsində təqdim olunan statistik göstəricilərlə tam uyğun olmalı və sətir-sütun üzrə faizlər düzgün hesablanmalıdır. Hər bir göstərici üzrə nümunə ölçüsü (n) göstərilməli, məlumatlar ortalama ± standart sapma, min–maks interval və ya 95% etibarlılıq intervalları ilə birlikdə verilməlidir. Bundan əlavə, istifadə olunmuş statistik analiz metodları cədvəlin altında dipnot şəklində qeyd edilməlidir. Əgər cədvəl daxilində qısaltmalardan istifadə olunubsa, bu qısaltmaların açıqlamaları da dipnotda mütləq şəkildə izah edilməlidir. Beləliklə, metodoloji dəqiqlik təmin olunur və oxucu məlumatları səhv başa düşmədən analiz edə bilir.

Bütün bu qaydalara uyğun şəkildə hazırlanmış cədvəllər məqalənin elmi keyfiyyətini yüksəltmək, açıq və anlaşılan təqdimat təmin etmək və oxucunun tədqiqat nəticələrini rahatlıqla mənimsəməsi baxımından əhəmiyyətlidir ((https://www.scribd.com/document/700165887/elmi-m%C9%99qal%C9%99nin-yaz%C4%B1lmas%C4%B1-%C4%B0MRAD-qaydas%C4%B1).

**Müzakirə (Discussion)**

Müzakirə bölməsi tədqiqatın elmi mahiyyətini və əldə edilən nəticələrin ümumi kontekstdə əhəmiyyətini şərh edən əsas hissələrdən biridir. Bu bölmə tədqiqatın elmi yenilik təqdim etdiyini ifadə edən aydın və diqqətçəkən cümlə ilə başlamalıdır. Məsələn: "Bu tədqiqatın nəticələri göstərir ki,..." və ya "Tədqiqat mövcud ədəbiyyatda rast gəlinməyən

yeni empirik sübutlar təqdim edir…" kimi başlanğıc cümlələr mövzunun yeniliyini və əhəmiyyətini vurğulamalıdır. Əldə edilən nəticələr burada dərin təhlil olunur, nəzəri və praktik baxımdan izah edilir, mövcud ədəbiyyatla müqayisə aparılır və əldə olunan uyğunluq və fərqliliklər elmi şəkildə şərh olunur. Əvvəlki tədqiqatlarla paralellər və ya ziddiyyətlər qeyd edilməli, bu fərqlərin səbəbləri aydınlaşdırılmalıdır. Müzakirə zamanı nəticələrin spesifik kontekstdə necə başa düşülməsi, hansı faktorların bu nəticələrə təsir etdiyi və onların praktik tətbiq sahələri ətraflı şəkildə təqdim edilməlidir.

Bu bölmədə Nəticələr bölməsində qeyd olunmayan yeni məlumatların verilməsi yolverilməzdir. Müzakirə yalnız artıq təqdim olunmuş və statistik olaraq təsdiqlənmiş tapıntıların elmi və praktik interpretasiyası üzərində qurulmalıdır. Qeyri-müəyyən ifadələrdən ("mümkündür", "ola bilər", "çox güman ki") və təkrarlanan fikirlərdən qaçmaq lazımdır. Əvəzində dəqiq, əsaslandırılmış və nəticələrlə uyğunluq təşkil edən qənaətlər formalaşdırılmalıdır. Tədqiqatın məhdudiyyətləri də bu bölmədə açıq şəkildə etiraf edilməli və bu məhdudiyyətlərin nəticələrin ümumiləşdirilməsinə təsiri qiymətləndirilməlidir. Məhdudiyyətlərin göstərilməsi tədqiqatın zəifliyi deyil, əksinə elmi etibarlılığın və metodoloji şəffaflığın göstəricisidir.

Nəhayət, gələcək tədqiqat istiqamətləri üçün təkliflər verilməlidir. Bu təkliflər mövcud tədqiqatın davamı ola biləcək sahələri, dərinləşdirilməsi lazım olan aspektləri və ya fərqli metodlarla aparıla biləcək araşdırmaları əhatə edə bilər. Bu yanaşma həm elmi icma, həm də praktik müstəvidə əlavə tədqiqatların aparılması üçün yol xəritəsi rolunu oynayır.

***Cədvəl 9.*** *Müzakirə bölməsində nəticələrin təqdimində doğru və yanlış yanaşmalar*

| Yanaşma | İfadə Nümunəsi | Qiymətləndirmə |
|---|---|---|
| Səhv yanaşma | "Aparılan sorğuların nəticələri maraqlı oldu. Çox tələbə texnologiyanı sevirdi. Bu nəticə vacib ola bilər." | - Qeyri-akademik dil - Konkret statistik dəyərlər yoxdur - Elmi istinadlar verilməyib - Subyektiv və təhlilsiz ümumiləşdirmə |
| Doğru yanaşma | "Tədqiqatın nəticələri göstərdi ki, respondentlərin 80%-i rəqəmsal texnologiyaların dərs motivasiyasını artırdığını hesab edir. Bu tapıntılar əvvəlki tədqiqatlarla üst-üstə düşür (Həsənov, 2020; Məmmədli, 2022). Bununla belə, bəzi iştirakçılar texnoloji platformalardan istifadə zamanı çətinliklərlə qarşılaşdıqlarını bildirmişlər. Bu nəticə göstərir ki, rəqəmsal resursların effektiv tətbiqi üçün əlavə metodik dəstək və təlimlərin təşkili zəruridir." | - Dəqiq və statistik əsaslı ifadə - Əvvəlki tədqiqatlarla müqayisə aparılıb - Elmi istinadlarla dəstəklənib - Praktik təkliflə yekunlaşdırılıb |

***Mənbə:*** *Creswell, J. W. (2014). Research Design: Qualitative, Quantitative, and Mixed Methods Approaches (4th ed.). SAGE Publications. əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

**Nəticə və Təkliflər (Conclusion)**

“Nəticə və Təkliflər” bölməsi elmi tədqiqatın yekun mərhələsini təşkil edir və əldə edilən nəticələrin praktik və nəzəri əhəmiyyətini vurğulamaqla yanaşı, gələcək tədqiqatlar üçün istiqamətverici tövsiyələr təqdim edir. Bu hissənin əsas məqsədi yalnız qısa xülasə vermək deyil, tədqiqatın elmi məqsədlərinə çatılıb-çatılmadığını qiymətləndirmək və onun tətbiq sahəsindəki dəyərini önə çəkməkdir. Nəticə bölməsi əvvəlcə tədqiqatın ümumi məqsədinə istinad etməli və araşdırma nəticələrinin bu məqsədə necə cavab verdiyini izah etməlidir. Girişdə qeyd olunan problem, suallar və məqsədlərlə uyğunluq burada açıq şəkildə göstərilməlidir. Bu yanaşma məqalənin daxili məntiqini və elmi tutarlılığını təmin edir.

Tədqiqat nəticələrinin praktik tətbiq sahələri, məsələn, siyasət tövsiyələri, təhsil proqramlarının inkişafı, idarəetmə təkmilləşdirilməsi və ya ictimai xidmətlərin keyfiyyətinin artırılması ilə bağlı mümkün istiqamətləri əhatə etməsi vacibdir. Eyni zamanda, əldə olunan tapıntıların nəzəri çərçivəyə hansı töhfəni verdiyi, mövcud ədəbiyyata necə əlavə dəyər yaratdığı da qeyd olunmalıdır. Bu bölmədə həmçinin tədqiqatın məhdudiyyətləri nəzərə alınaraq, gələcək araşdırmalar üçün təklif edilə biləcək mövzu və metodoloji yanaşmalar da vurğulanmalıdır. Məsələn, daha geniş nümunə üzərində təkrar araşdırma, fərqli coğrafi bölgələrdə tətbiq, ya da keyfiyyət və kəmiyyət metodlarının birgə istifadəsi kimi imkanlar göstərilə bilər.

Nəticə olaraq, bu bölmə yalnız bir yekun deyil, elmi və praktik cəhətdən faydalı nəticələrin ümumiləşdirildiyi, tədqiqatın dəyərinin vurğulandığı və oxucuda aydın və sistemli təsəvvür formalaşdıran əsas hissədir. Burada təqdim edilən tövsiyələr real həyata keçməsi mümkün və tətbiq oluna bilən şəkildə ifadə edilməlidir.

*Cədvəl 10. Nəticə və Təkliflər bölməsində doğru və yanlış ifadə formaları*

| Yanaşma | İfadə Nümunəsi | Qiymətləndirmə |
|---|---|---|
| Səhv yanaşma | "Tədqiqatın nəticələri göstərdi ki, texnologiya yaxşıdır. Ona görə də ondan istifadə etmək lazımdır. Daha yaxşı təhsil üçün bu vacibdir." | - Qeyri-elmi və ümumi ifadələr - Tövsiyələr əsaslandırılmayıb - Konkret statistika və sübut yoxdur - Elmi üslubdan uzaqdır |
| Doğru yanaşma | "Bu tədqiqat göstərdi ki, rəqəmsal texnologiyalar ali təhsil müəssisələrində tələbə motivasiyasına müsbət təsir göstərir. Tələbələrin böyük əksəriyyəti dərs materiallarına onlayn şəkildə çıxış imkanını yüksək qiymətləndirir. Təklif olunur ki, ali məktəblərdə müəllimlər üçün rəqəmsal pedaqogika təlimləri keçirilsin və onlayn resurs bazası genişləndirilsin." | - Elmi əsaslandırılmış ifadələr - Nəticələr konkret və praktik təkliflərlə tamamlanıb - Oxucuya aydın mesaj ötürür - Nəzəri və praktiki uyğunluq var |

***Mənbə:** Swales, J. M., & Feak, C. B. (2012). Academic Writing for Graduate Students: Essential Tasks and Skills. University of Michigan Press.*

**Təşəkkür (Acknowledgements)** (əgər varsa)

Bu hissədə tədqiqatın həyata keçirilməsinə maddi və ya mənəvi dəstək göstərmiş şəxslərə, qurumlara və fondlara təşəkkür edilir.

**Əlavələr (Appendices)** (əgər varsa)

Əsas mətnə daxil edilməyən, lakin tədqiqat üçün əhəmiyyət daşıyan əlavə məlumatlar – məsələn, sorğu nümunələri, əlavə qrafiklər və geniş hesablama cədvəlləri burada təqdim edilir. Bu struktur akademik yazıların beynəlxalq standartlarına uyğun olmaqla yanaşı, tədqiqatın

məzmununun səmərəli şəkildə təqdim olunmasına xidmət edir. Qeyd olunmalıdır ki, müxtəlif elmi jurnallar və konfranslar bu struktura dair öz spesifik tələblərini irəli sürə bilər. Bu səbəbdən, məqalə təqdim etməzdən əvvəl müvafiq qaydalarla tanış olmaq mütləqdir.

## 6.5. Elmi məqalənin tərtibinə dair format qaydaları

Elmi məqalələrin strukturlaşdırılması və texniki tərtibatı onların qəbul olunması və elmi cəmiyyət tərəfindən tanınması baxımından mühüm rol oynayır. Bu səbəbdən elmi məqalə yazılarkən müəyyən ümumi tələblərə və format standartlarına ciddi şəkildə əməl olunmalıdır.

Məqalənin ilk səhifəsində müəllifin və ya müəlliflərin tam adı qeyd olunmalı, altbilgi (footnote) ilə onların elmi dərəcəsi, vəzifəsi, işlədiyi qurum və elektron poçt ünvanı göstərilməlidir. Məqalədə həm Azərbaycan və ya Türk dilində, həm də İngilis dilində başlıq yer almalı, bu başlıqların altında müvafiq dillərdə xülasələr təqdim edilməlidir. Hər iki xülasə qısa və konkret olmalı, 200 sözü keçməməlidir (əgər jurnal tərəfindən başqa tələb qoyulmayıbsa). Xülasələrin sonunda ən azı 3 açar söz əlifba sırasına uyğun şəkildə göstərilməlidir.

Məqalədə "Giriş" və "Nəticə" bölmələri mütləq şəkildə yer almalıdır. Giriş hissəsində mövzunun aktuallığı, tədqiqatın məqsədi və əsas araşdırma sualları qeyd olunmalıdır. Nəticə hissəsində isə əldə edilən əsas nəticələr və elmi-praktiki qənaətlər aydın və məntiqli şəkildə təqdim edilməlidir. Mənbələrə istinad beynəlxalq elmi standartlara uyğun şəkildə aparılmalıdır. APA, MLA, Chicago, IEEE və s. kimi istinad sistemlərindən biri seçilməli və istifadə edilən ədəbiyyat həmin sistemə uyğun tərtib olunmalıdır. Məqalənin sonunda yerləşdirilən istinad siyahısında mənbələr əlifba sırasına görə düzülməlidir. Plagiatdan qorunmaq üçün istifadə edilən hər bir fikrə düzgün və şəffaf istinad verilməli, müəllif hüquqlarına hörmət edilməlidir. Elmi məqalələrdə əsasən 20–40 arasında istinad göstərilməsi tövsiyə olunur, lakin bu say çox zaman 25-i keçməməlidir. Ən yeni və mövzu ilə birbaşa bağlı olan elmi mənbələrə üstünlük verilməlidir.

Məqalənin dili qrammatik və semantik baxımdan düzgün olmalı, fikirlər aydın və elmi üsluba uyğun formada təqdim edilməlidir. Məqalə iki tərəfə düzülmüş formatda tərtib olunmalı, sətirlərarası məsafə isə təqdim olunacaq jurnalın texniki tələblərinə əsasən 1.15 və ya 1.5 olaraq seçilməlidir. Səhifə kənar boşluqları da müvafiq formata uyğun tənzimlənməlidir. Məsələn, Azərbaycan Dövlət İqtisad Universiteti

üçün bu ölçülər yuxarı və aşağı 2 sm, sol 2.5 sm və sağ 1.5 sm-dir. Buna görə də yazıya başlamazdan əvvəl mütləq təqdim ediləcək jurnal və ya universitetin rəsmi tələbləri nəzərdən keçirilməlidir.

Yazı prosesində bir neçə praktik tövsiyəyə əməl edilməsi faydalı ola bilər. Məqaləni sadəcə yazmaq məqsədilə deyil, təqdimat üçün hazırlanacaq şəkildə qurmaq onun daha sistemli və anlaşılan olmasına kömək edəcək. Yazını tamamladıqdan sonra bir müddət gözləyib təkrar oxumaq və redaktə etmək səhvlərin aşkarlanmasını asanlaşdırır. Əgər yazıda vizual materiallara (cədvəl, qrafik, şəkil və s.) ehtiyac varsa, onlar elmi standartlara uyğun şəkildə yerləşdirilməlidir. İngilis dilində xülasə yazarkən dil bilikləri yetərli deyilsə, ilkin mətnin düzgün və qrammatik baxımdan işlənmiş Azərbaycan və ya Türk dilində hazırlanması, daha sonra isə avtomatik tərcümə proqramları vasitəsilə (məsələn, Word Translator, Google Translate, DeepL və s.) tərcümə edilməsi tövsiyə olunur.

Bu tövsiyələrə əməl etməklə elmi məqalənin həm məzmun baxımından, həm də texniki baxımdan standartlara uyğun hazırlanması təmin olunur və onun elmi jurnallarda qəbul olunma ehtimalı əhəmiyyətli dərəcədə artır.

**Dil və Üslubun Tələbləri**

Elmi məqalənin keyfiyyəti yalnız məzmunun elmi dəyəri ilə deyil, eyni zamanda dilin və üslubun düzgün seçilməsi ilə müəyyən edilir. Dəqiq, obyektiv və aydın üslubla yazılmış elmi məqalə oxucuya daha asan çatır, fikirləri məntiqli şəkildə ötürür və elmi ictimaiyyət tərəfindən qəbul edilmə şansını artırır. Bu baxımdan, elmi yazı prosesində müəllif müəyyən əsas dil və üslub prinsiplərinə ciddi şəkildə əməl etməlidir.

Elmi üslubda ilk növbədə aydınlıq və dəqiqlik ön plandadır. Cümlələr qısa, sadə və konkret olmalı, hər bir fikir əsaslandırılmış şəkildə təqdim edilməlidir. Oxucunun əlavə izahata ehtiyac duymadan məzmunu anlaması vacibdir. Qeyri-müəyyən, çoxmənalı və emosional ifadələrdən uzaq durmaq lazımdır. Elmi yazının əsas xüsusiyyətlərindən biri də obyektiv yanaşmadır. Şəxsi fikirlər və subyektiv yanaşmalar ("məncə", "düşünürəm ki", "inanıram") elmi mətnə daxil edilməməli, bunun əvəzində statistik göstəricilər, istinad edilmiş məlumatlar və sübutlara əsaslanan nəticələr təqdim olunmalıdır. Həmçinin, yazının rəsmi və neytral tonda olması vacibdir. Slang ifadələrdən, gündəlik danışıq üslubundan və emosional vurğulardan istifadə olunmamalıdır.

Elmi terminlərin istifadəsi sahənin peşəkar dilini əks etdirməli, texniki

anlayışlar kontekstdən kənarlaşdırılmadan, aydın şəkildə təqdim olunmalıdır. Terminlər çoxaldıqca onların izahı ya dipnotlarda, ya da kontekstə uyğun şəkildə verilməlidir. Məqalənin üslubu sadə və axıcı, yazı dili isə səlis və məntiqli olmalıdır. Qarmaqarışıq cümlə quruluşlarından və artıq sözlərdən istifadə etmək oxucunun diqqətini yayındırır və elmi mətnin təsir gücünü azaldır. Elmi məqalələrdə passiv struktur daha çox istifadə edilir, çünki bu, tədqiqatın obyektiv aparıldığını və müəllifin emosional iştirakının minimum olduğunu göstərir. Məsələn, "nəticələr təhlil edilmişdir" ifadəsi "mən nəticələri təhlil etdim" formasına nisbətən daha rəsmi və qəbulolunandır. Hər fikir və nəticə etibarlı elmi mənbələrə əsaslanmalı və konkret istinadlarla dəstəklənməlidir. "Tədqiqatlar göstərir ki..." kimi ümumi ifadələr əvəzinə "Quliyev (2021) tərəfindən aparılan araşdırmaya əsasən..." kimi spesifik istinadlarla ifadə olunmalıdır. Cümlələr və paraqraflar arasında keçidlər aydın və məntiqi şəkildə qurulmalı, yazının strukturu bütövlük təşkil etməlidir. Eyni fikrin təkrar ifadəsindən uzaq durmaq, əvəzində hər yeni fikrin əvvəlkini tamamlamasını təmin etmək lazımdır. Nəhayət, qrammatik dəqiqlik və istinad qaydalarına əməl edilməlidir. İmla səhvləri, durğu işarələrinin yanlış istifadəsi və istinad formatının pozulması məqalənin keyfiyyətini zəiflədir və redaktorlar tərəfindən ciddi qüsur kimi qiymətləndirilə bilər.

Bu qaydaların hər biri elmi məqalənin oxunaqlığını və akademik dəyərini artırmaqla yanaşı, müəllifin elmi etikasını və peşəkarlığını da nümayiş etdirir.

***Cədvəl 13.** Elmi Məqalədə Dil və Üslub Tələbləri*

| Prinsip | Təsviri | Nümunə / Qeydlər |
|---|---|---|
| Aydınlıq və dəqiqlik | Fikirlər konkret, sadə və anlaşılır şəkildə yazılmalıdır. | Qeyri-müəyyən ifadələrdən (“belə hesab olunur”) uzaq durulmalı, sübutlara əsaslanmış cümlələr işlədilməlidir. |
| Obyektiv yanaşma | Şəxsi düşüncələrdən istifadə olunmamalı, nəticələr elmi əsaslarla təqdim edilməlidir. | “Məncə” əvəzinə “nəticələr göstərdi ki…” ifadəsi istifadə olunmalıdır. |
| Rəsmi və ciddi ton | Emosional və gündəlik danışıqdan uzaq durulmalı, neytral yazı tonu seçilməlidir. | Slang və ifadə tərzləri qadağandır (“çox cool nəticə alındı” □ uyğun deyil). |
| Elmi terminlər və texniki dil | Terminlər elmi sahəyə uyğun seçilməli və kontekstdə aydın şəkildə işlədilməlidir. | Əgər termin ilk dəfə təqdim olunursa, onun mənası ya izah edilməli, ya da mənbəyə istinadla açıqlanmalıdır. |
| Sadə və axıcı yazı | Artıq və dolaşıq cümlələrdən qaçınmalı, informasiya səlis şəkildə verilməlidir. | Hər fikir bir cümlədə aydın ifadə olunmalı, təkrarlara yol verilməməlidir. |
| Passiv cümlə quruluşu | Yazıda passiv forma daha çox istifadə olunmalıdır. | “Təcrübə aparılmışdır” daha uyğundur, nəinki “Mən təcrübə apardım.” |
| Elmi əsaslandırma | Fikirlər və nəticələr konkret mənbələrə istinadla verilməlidir. | “Quliyev (2021) göstərmişdir ki…” kimi ifadələr tələb olunur. |
| Struktur və bütövlük | Paraqraflar arasında məntiqi keçid olmalı, hissələr bir-biri ilə əlaqəli olmalıdır. | “Bundan əlavə…”, “Eyni zamanda…” kimi keçid ifadələri istifadə oluna bilər. |

| | | |
|---|---|---|
| Qrammatik dəqiqlik | İmla, qrammatika və durğu qaydalarına ciddi əməl edilməlidir. | Nöqtə, vergül, nöqtəli vergül kimi işarələr yerində və doğru istifadə olunmalıdır. |
| İstinadların dəqiqliyi | Hər rəqəm, fikir və ya sitat düzgün istinadla verilməli, uyğun formatda yazılmalıdır. | APA, MLA, Chicago və s. sistemlərə uyğunluq yoxlanmalıdır. |
| Təkrarlardan uzaq durmaq | Eyni fikrin müxtəlif formalarda təkrarlanmasından qaçınmaq və yazını yığcam saxlamaq vacibdir. | Hər fikir yalnız bir dəfə, aydın şəkildə ifadə olunmalıdır. |

***Mənbə:*** *Макеева, Е. Ю., & Максимчик, О. А. (2014). Оценка влиятельности научных журналов в международных системах научных публикаций. Известия Самарского научного центра Российской академии наук, 16(2(3)).*

## 6.6. Nəticələrin Tətbiqi

Elmi tədqiqatın dəyəri yalnız nəticələrin sadəcə təqdim olunması ilə məhdudlaşmır; bu nəticələrin nəzəri və praktiki sahələrdə necə istifadə oluna biləcəyi də bir o qədər önəmlidir. Tədqiqat nəticələrinin konkret sahədə tətbiq oluna bilməsi həmin işin həm elmi, həm də praktik əhəmiyyətini artırır. Bu baxımdan, elmi məqalələrdə təkcə əldə olunan nəticələrin deyil, onların gələcək tədqiqatlara necə istiqamət verə biləcəyinin və hansı problemlərin həllinə töhfə verəcəyinin qısa, lakin konkret şəkildə izah edilməsi tövsiyə olunur. Məqalənin elmi jurnalda nəşrə təqdim olunması isə yalnız onun elmi keyfiyyətindən deyil, həm də düzgün jurnal seçimi və həmin jurnalın tələblərinə uyğun texniki təqdimatdan asılıdır. Bu mərhələdə məqalənin həm məzmun, həm də forma baxımından dəqiq hazırlanması və tədqiqatın elmi yeniliyinin vurğulanması mühüm rol oynayır.

Ənənəvi olaraq, təqdimat prosesi "qoşma məktub" adlanan qısa, lakin məzmunlu bir yazı ilə başlayır. Bu məktub redaktorlar üçün ilk təəssüratı

formalaşdırır və məqalənin əsas ideyasını, aktuallığını və elmi yeniliyini vurğulamalıdır. Məqalənin adı, növü, tədqiqatın məqsədi, istifadə olunan metodlar və əldə edilən nəticələrin ümumi elmi töhfəsi bu məktubda aydın şəkildə ifadə olunmalıdır. Jurnal redaksiyası tərəfindən aparılan ilkin qiymətləndirmədə məqalənin tematik uyğunluğu və elmi səviyyəsi nəzərdən keçirilir. Əgər məqalə jurnalın elmi istiqamətinə uyğun deyilsə və ya təqdimat texniki baxımdan natamamdırsa, müəllifə başqa jurnala təqdimat və ya format dəyişikliyi tövsiyə oluna bilər. Uyğunluq təsdiqləndikdən sonra məqalə elmi yenilik baxımından qiymətləndirilir, tədqiqatın əvvəlki işlərdən fərqliliyi və sahəyə əlavə etdiyi dəyər nəzərdən keçirilir. Bu mərhələdə məqalənin strukturu, xülasəsi, açar sözləri, istinadların keyfiyyəti və vizual təqdimat vasitələrinin funksionallığı da ciddi şəkildə nəzərə alınır.

Jurnallar məqalələri müxtəlif formatlarda qəbul edir: tam tədqiqat nəticələrini əhatə edən orijinal elmi məqalələr, qısa, lakin əhəmiyyətli nəticələri təqdim edən qısa məqalələr və geniş ədəbiyyatın təhlilini verən icmal yazılar. Hər bir məqalə növünün struktur və istinad tələbləri fərqlidir və müəlliflər bu qaydalara diqqətlə riayət etməlidirlər. Elmi məqalənin qəbul olunmasında rəy prosesi əsas mərhələlərdən biridir. Bu mərhələdə məqalə müstəqil rəyçilər tərəfindən qiymətləndirilir və əldə olunan nəticələrin elmi cəhətdən etibarlılığı, tədqiqatın metodoloji düzgünlüyü və təqdimatın aydınlığı araşdırılır. Rəyçilərin tövsiyələri əsasında ediləcək düzəlişlər məqalənin nəşrə qəbul şansını artırır. Əgər məqalə rədd olunursa, müəllif bu qərarı obyektiv analiz etməli, iradları nəzərə alaraq məqaləni təkmilləşdirməli və yenidən təqdim etməlidir. Rədd edilmə, çox vaxt tədqiqatın zəifliyindən deyil, uyğun jurnal strategiyasının düzgün müəyyənləşdirilməməsindən qaynaqlanır. Bununla yanaşı, müəllif hüquqları və etik məsələlər də elmi nəşrin mühüm tərkib hissəsidir.

Müəlliflik hüquqlarının qorunması, tədqiqat iştirakçılarından alınan razılıqlar, etik icazələr və plagiatdan uzaq durmaq – bütün bunlar elmi nəşrin beynəlxalq standartlara uyğun şəkildə həyata keçirilməsini təmin edir. Xüsusilə insan və heyvanlarla aparılan tədqiqatlarda etik çərçivəyə əməl olunması jurnal redaksiyaları tərəfindən ciddi şəkildə tələb edilir. Beləliklə, elmi məqalənin uğurla dərc olunması yalnız keyfiyyətli tədqiqat aparmaqla deyil, həm də onun strategiyasını düzgün qurmaq, təqdimatını peşəkar şəkildə həyata keçirmək və elmi-etik prinsiplərə riayət etməklə mümkündür. Bu baxımdan, jurnal seçimi, təqdimat prosesi, rəy mərhələsi və hüquqi tələblər, elmi fəaliyyətin ayrılmaz və

bir-biri ilə qarşılıqlı əlaqədə olan mərhələləridir (Akgül, A., Birinci, T., & Sayın, İ. (Eds.). (2023, Aralık). Nitelikli bilimsel araştırma makalesi nasıl yazılır? İstanbul Üniversitesi-Cerrahpaşa Yayınları).

Elmi məqalənin yazılması prosesi sadəcə məlumatın ötürülməsi deyil, həm də elmi fikrin sistemli şəkildə ifadəsi, sübutlara əsaslanan yanaşmanın qurulması və bu fikirlərin beynəlxalq elmi ictimaiyyətə etibarlı formada təqdim edilməsi bacarığıdır. Bu tədqiqatda aparılan təhlillər göstərdi ki, yüksək keyfiyyətli elmi yazının formalaşmasında bir sıra fundamental elementlərin rolu xüsusi əhəmiyyət kəsb edir. Bunlara struktur tamlığı, elmi üslubun qorunması, terminoloji dəqiqlik, istinad sistemlərinə düzgün riayət və akademik etikaya sadiqlik daxildir. Məhz bu komponentlər bir yerdə elmi yazının məzmun və forma baxımından bütövlüyünü təmin edir.

İlk olaraq, elmi məqalənin strukturu – giriş, problem qoyuluşu, tədqiqatın məqsədi və vəzifələri, metodologiya, nəticələr, müzakirə və yekun nəticə hissələri – arasında məntiqi və funksional əlaqə mövcud olmalıdır. Giriş hissəsində tədqiqatın aktuallığı, araşdırma boşluğu və əsas məqsədi aydın və əsaslandırılmış şəkildə təqdim edilməli, metodologiya isə istifadə olunan elmi yanaşmaların izahlı təsviri ilə oxucuda şəffaflıq və təkrarolunma prinsipini təmin etməlidir. Bu struktur, elmi məqalənin həm məzmun baxımından oxunaqlı, həm də akademik standartlara uyğun olmasına zəmin yaradır. İkinci mühüm element isə elmi üslubun qorunmasıdır. Tədqiqat nəticələrinin subyektiv dəyərləndirmədən uzaq, obyektiv və analitik üslubla təqdim edilməsi, məqalənin elmi səviyyəsini müəyyən edən əsas göstəricilərdən biridir. Emosional ifadələr, fərdi fikirlər və qeyri-dəqiq yanaşmalar elmi məqalənin dəyərini azaldır və onun qəbul olunma ehtimalını zəiflədir. Bu baxımdan, elmi yazıda obyektivlik, rasionallıq və məntiqi əsaslandırma prinsiplərinə ciddi riayət olunmalıdır. Bundan əlavə, məqalədə plagiat riskinə qarşı tədbirlərin görülməsi – istinadların düzgün verilməsi, parafraz texnikalarının tətbiqi və istifadə olunan fikirlərin orijinal mənbələrlə dəstəklənməsi – akademik dürüstlüyün qorunması baxımından zəruridir. Üçüncü olaraq, istinad sistemlərinə riayət olunması, məqalənin beynəlxalq elmi dövriyyəyə daxil olmasını asanlaşdırır. APA, MLA, Chicago, IEEE və digər istinad üslublarının texniki tələblərinə uyğun şəkildə istifadə olunması yalnız texniki forma deyil, eyni zamanda elmi məsuliyyətin bir göstəricisidir. Bu, həm müəllifin öz tədqiqatını mövcud elmi ənənə içində düzgün yerləşdirməsinə, həm də oxucunun istinad olunan mənbələrə rahat şəkildə çıxış əldə etməsinə imkan yaradır. Nəhayət, bütün bu

şərtlər daxilində, elmi məqalənin uğuru onun ideya dəyərindən başqa, təqdimat keyfiyyəti, dil və üslub baxımından akademik səviyyəyə cavab verməsi ilə sıx bağlıdır. Elmi yazı yalnız elmi biliklərin paylaşılması deyil, həm də bu biliklərin məqsədyönlü şəkildə strukturlaşdırılması və müasir elmi cəmiyyətin tələblərinə uyğun şəkildə təqdim edilməsidir. Bu baxımdan, bu məqalədə verilən tövsiyə və izahlar, yalnız nəzəri bilik vermək məqsədi daşımır, eyni zamanda praktiki istiqamətverici funksiyanı da yerinə yetirir.

Bütün bunlar onu göstərir ki, elmi yazı prosesi öyrənilə bilən və təkmilləşdirilə bilən bir bacarıqdır. Hər bir tədqiqatçı bu qaydalara və prinsiplərə əməl etməklə, öz elmi ideyalarını daha effektiv və peşəkar şəkildə təqdim edə bilər. Elmi yazı ilk baxışda çətin və mürəkkəb görünə bilər, lakin davamlı məşq, diqqətli oxu və sistematik yanaşma sayəsində bu bacarıq zamanla təkmilləşir və dərinləşir. Əsas odur ki, tədqiqatçı prosesdən çəkinməsin, qaydalara əməl etsin və daim öyrənməyə açıq olsun. Beləliklə, elmi məqalə yazmaq təkcə bir sənəd hazırlamaq deyil, həm də elmi düşüncə mədəniyyətinin formalaşması və beynəlxalq elmi dialoqa qatılmaq yolunda vacib bir addımdır.

**Elmi Məqalə Yazarkən Edilməli və Edilməməli Yanaşmalar**

Aşağıdakı cədvəl elmi məqalə yazısı zamanı mütləq riayət edilməli əsas prinsipləri və yayınmaq lazım olan tipik səhvləri əhatə edir. Bu vizual struktur müəlliflərə nə etməli və nədən çəkinməli olduqlarını sistemli şəkildə təqdim edir.

***Cədvəl 14.*** *Elmi Məqalə Yazısında Edilməli Yanaşmalar*

| | Qayda | İzah |
|---|---|---|
| 1 | Mövzuya uyğunluq | Mövzu seçimi aktual, spesifik və tədqiqat baxımından dəyərli olmalıdır. Elmi boşluqları doldurmaq məqsədi güdülməlidir. |
| 2 | Aydın və konkret tezis | Məqalənin əsas iddiası (tezisi) giriş hissəsində aydın şəkildə ifadə olunmalıdır. |
| 3 | Ədəbiyyat icmalı | Mavzuya dair əvvəlki tədqiqatlar nəzərdən keçirilməli və müvafiq istinadlarla təqdim edilməlidir. |
| 4 | Metodoloji əsaslandır-ma | Tədqiqatın metodu dəqiq, əsaslandırılmış və təkrarlana biləcək şəkildə izah olunmalıdır. |
| 5 | Akademik dil və üslub | Elmi terminlərə yer verilməli, emosional ifa-dələrdən uzaq durulmalı, obyektiv və neytral dil istifadə olunmalıdır. |
| 6 | Sitat və istinadlar | Müvafiq istinad standartlarına (APA, MLA, Chicago və s.) uyğun şəkildə bütün mənbələrə düzgün istinad edilməlidir. |
| 7 | Strukturlaşdırılmış quruluş | Giriş, metodologiya, nəticələr, müzakirə və nəticə hissələri açıq şəkildə ayrılmalıdır. |
| 8 | Orijinallıq və yenilik | Məqalə təkrar və plagiat olmamalı, yeni nəti-cələr və fərqli yanaşmalar təqdim etməlidir. |
| 9 | Redaktə və korrektura | Məqalə dərc olunmadan öncə texniki və dil baxımından mütləq redaktə edilməlidir. |
| 10 | Etik prinsiplərə riayət | Tədqiqat zamanı iştirakçılarla bağlı etik məsələlər, müəlliflik hüquqları və elmi dürüst-lük qorunmalıdır. |

*Cədvəl 15. Elmi Məqalə Yazısında Edilməməli Yanaşmalar*

| | Qayda | İzah |
|---|---|---|
| 1 | Plagiat | Başqa müəlliflərin fikirlərini istinad etmədən istifadə etmək qətiyyən yolverilməzdir. |
| 2 | Qeyri-elmi dil | Söhbətvari, emosional və ya qeyri-akademik ifadələrdən istifadə edilməməlidir. |
| 3 | Məlumatın təhrif edilməsi | Nəticələri şişirtmək və ya təhrif etmək elmi etikaya ziddir. |
| 4 | Uyğunsuz istinadlar | Tədqiqatla əlaqəsi olmayan və ya etibarsız mənbələrə istinad edilməməlidir. |
| 5 | Təkrarlanan məzmun | Eyni məlumatın və ya arqumentin müxtəlif formalarda təkrar verilməsi məqalənin keyfiyyətini azaldır. |
| 6 | Qeyri-dəqiq statistika və metod | Metodoloji qüsurlar və səhv analizlər oxucunu yanıltmaqla yanaşı, elmi nüfuza da xələl gətirə bilər. |
| 7 | Struktur pozuntusu | Giriş, inkişaf və nəticə hissələrinin qarışıq və ardıcılsız verilməsi oxucunun məzmunu anlamasını çətinləşdirir. |
| 8 | Həddindən artıq subyektivlik | Müəllifin şəxsi münasibəti və təəssüratları əsas elmi dəlillərin yerini ala bilməz. |
| 9 | Texniki səhvlər | Yazım və orfoqrafik səhvlər məqalənin elmi dəyərini azalda bilər. |
| 10 | Qeyri-etik məlumatların istifadəsi | Mənbəsi şübhəli və ya etik cəhətdən problemli məlumatlar elmi baxımdan yolverilməzdir. |

## Ədəbiyyat siyahisi


1. Akgül, A., Birinci, T., & Sayın, İ. (Eds.). (2023, Aralık). Nitelikli bilimsel araştırma makalesi nasıl yazılır? İstanbul Üniversitesi-Cerrahpaşa Yayınları.
2. Александрова И.А. Ресурсы Springer Nature. Как подобрать журнал по профилю исследований. 2018. http://docplayer.ru/79791153-Resursyspringer-nature-kak-podobrat-zhurnal-po-pr ofilyu-issledovaniy-irina-aleksandrova.html 5. Кириллова О.В., Парфенова С.Л. и др.
3. Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2018). Ali təhsil müəssisələri üçün elmi yazı və istinad qaydaları haqqında metodik vəsait. Bakı: Təhsil Nəşriyyatı.
4. Burrows, T.(2011) Writing Research Articles for Publication.
5. Əliyev F.Ə., Ağayev Ş.S. Azərbaycanda elmin problemləri və inkişaf perspektivləri. "Elm" nəşriyyatı, Bakı, 2011, 151 s
6. (Əzizə Abdullayeva Məqalə strukturu quran zaman nələrə diqqət yetirilməli? Noyabr 2018¬
7. Elmi məqalələrin yazılma metodikası. Metodiki vəsait. 2015
8. ELMİ-TƏDQİQAT MƏQALƏLƏRİNİN EFFEKTİV OXUNMASI METODOLOGİYASI VÜSAL HÜSEYNOV Atatürk Universitetinin doktorantı, Ərzurum, Türkiyə. İqtisadiyyat və idarəetmə fakültəsinin müəllimi, Naxçıvan Dövlət Universiteti.
9. Həsənova R.Ş., Əsgərov F.Ş. "Yırtıcı" jurnalları xarakterizə edən xüsusiyyətlərin identifikasiyası. İnformasiya cəmiyyəti problemləri, 2018, № 2, s. 97–106.
10. Həsənova R.Ş., Əsgərov F.Ş. "Yırtıcı" jurnalları xarakterizə edən xüsusiyyətlərin identifikasiyası. İnformasiya cəmiyyəti problemləri, 2018, № 2, s. 97–106.
11. Giray Ş. Springer Nature. Yazar Çalıştayı. 2018. http://mek.az/documents/Baku%20 Springer%20Nature%20Workshop%204%20Aralik%202018.pdf
12. İsmət. S. Əhmədov. Elmi məqaləni necə yazmalı? 2017
13. Misir Mərdanov , Aynur Həsənova, Nüfuzlu elmi jurnallara məqalə hazırlamağın yolları. 2018
14. Макеева, Е. Ю. Максимчик О.А. Оценка влиятельности научных журналов в международных системах научных публикаций. Известия Самарского научного центра Российской академии наук, т. 16, № 2(3), 2014.

15. Qasımov, Ş. (2021). Akademik yazı: Elmi üslub və tərtibat məsələləri. Azərbaycan Elmi Araşdırmalar Jurnalı, 8(2), 45–56.
16. Quliyev, F. S. (2020). Elmi məqalələrin strukturu və yazılma prinsipləri. Elmi-Nəzəri Araşdırmalar Jurnalı, 5(1), 22–30.
17. Scopus Journal. https://www.scopus.com/ sources.uri?DGCID=Scopus_blog...
18. Yıldırım, A., & Şimşek, H. (2021). Sosyal bilimlerde nitel araştırma yöntemleri (12. baskı). Ankara: Seçkin Yayıncılık.
19. https://clarivate.com/academia-government/scientific-and-academic-research/research-discovery-and-referencing/web-of-science/
20. https://unec.edu.az/application/uploads/2015/03/jurnal1_muallif.pdf
21. https://progro.az/yazi/elmi-meqaleleri-asanliqla-elde-edebileceyiniz-8-websayt/2380
22. https://ulakbim.tubitak.gov.tr/sites/images/Ulakbim/bsahin_nitelikli_ileri_tekn.pdf
23. http://www.anl.az/down/meqale/ses/2012/mart/238599.htm
24. https://www.edebiyyatveincesenet.az/gundem/item/893-bu-zhun-azaerbaydzanch-l-g-maefkuraesini-formalashd-ran-fuyuzat-zhurnal-n-n-115-illiyidir
25. https://respublika-news.az/news/ekinci-qezeti-ve-onun-davamcilari
26. https://as-journal.edu.az/gallery
27. https://www.scribd.com/document/700165887/elmi-m%C9%99qal%C9%99nin-yaz%C4%B1lmas%C4%B1-%C4%B0MRAD-qaydas%C4%B1
28. https://kerimsarigul.com/program-uygulama-site/tipik-bir-ara%C5%9Ft%C4%B1rma-makalesinin-yap%C4%B1s%C4%B1
29. Wiley Online Library | Scientific research articles, journals, books, and ... https://onlinelibrary.wiley.com
30. https://spubl.az/az/blog
31. https://medeniyyetdunyasi.az/meqale-tertibine-dair-telebler/
32. https://www.publisist.az/mezmun/elmi-meqaleler-tedqiqatin-deqiq-strukturlasdirilmasi-ve-funksiyalari/890

*i.e.n., dos. Seyfullayev İlqar Zülfüqar*

# VII. ELMİ ƏSƏRLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

7.1. Elmi əsərin qiymətləndirilməsinə proses yanaşma
7.2. Akademik yazıların mətninin ilkin qiymətləndirilməsi
7.3. Elmi əsərlərin məzmununun əsas meyarları
7.4. Azərbaycanda dissertasiyaların məzmununa qoyulan tələblər
Ədəbiyyat siyahısı

## 7.1. Elmi əsərin qiymətləndirilməsinə proses yanaşma

Bu mövzuda mətnin elmi səviyyəsinin necə və hansı meyarlarla qiymətləndirildiyi, belə qiymətləndirmənin mətnin və müəllifin akademik yazı bacarıqlarının inkişafına necə təsir etməsi müzakirə olunacaq.

Elmi əsərin mətninin qiymətləndirilməsində müxtəlif yanaşmalar və meyarlar istifadə olunur. Mətnin elmi səviyyəsinin təhlili müəlliflərin yazı bacarıqlarının təkamülünü izləməyə kömək edir. Akademik mətnlərin qiymətləndirilməsində müxtəlif metod və yanaşmalardan, fərqli meyarlardan istifadə olunsa da, onların hamısı təxminən eyni məzmunu daşıyır.

Biz elə düşünməyə adət etmişik ki, mətnin qiymətləndirilməsi yalnız bir dəfə, mətn tam hazır olduqdan sonra aparılır. Halbuki, elmi əsərlərin qiymətləndirilməsi prosesi onların hissələri üzrə aparılmalı, hər bir hissə üzrə ayrılıqda müzakirələr təşkil edilməlidir. Yekun qiymətləndirmə isə əsərin tamamlanmış variantı (bütün hissələrin əlaqələndirilmiş forması) hazır olduqda həyata keçirilir.

Nəticə etibarilə, elmi əsərlərin qiymətləndirilməsi diskret və fasiləli xarakter daşıyır. Elmi mətnlər vaxtaşırı inkişaf etdirilməli və düzəlişlərdən keçməlidir. Bu proses elmi məqalələrin resenziyalı jurnallar tərəfindən qiymətləndirilməsi prosesində daha əyani görünür. Müəlliflər belə juranllara məqalə göndərdikdən sonra adətən aşağıdakı

məzmunda cavab alırlar:
1. Məqalə nəşr üçün qəbul edilir;
2. Məqalə rəyçilər tərəfindən müəyyən edilmiş məqamlar üzrə müəyyən düzəlişlərdən sonra qəbul edilə bilər;
3. Məqalə rəyçilərin ciddi irad və tövsiyələrinə uyğun olaraq əsaslı şəkildə yenidən işləndikdən sonra baxılması üçün təqdim edilə bilər;
4. Rəyçilər tərəfindən müəyyən edilmiş ciddi uyğunsuzluqlara görə məqalə qəbul edilmir və onun nəşrindən imtina edilir;
5. Məqalə jurnalın mövzusuna və ya onun tələblərinə uyğun olmadığı üçün redaktor tərəfindən qəbul edilmir və rəyə göndərilmir (bu halda məqalə başqa jurnala göndərilə bilər).

1-ci hal məqalənin jurnalın rəyçiləri tərəfindən çox yüksək qiymətləndirilməsindən xəbər verir. 2 və 3-cü hallarda müəlliflər rəyçiərin iradları və tövsiyələri ilə tanış olur, iradların aradan qaldırılması və tövsiyələrin nəzərə alınması üçün məqalənin mətnində zəruri dəyişiklikər edirlər. 4-cü halda isə tədqiqatçı ruhdan düşməməli, nəşrdən imtinanın səbəblərini diqqətlə araşdırmalı və akademik yazı prosesində nələrə xüsusi diqqətin yetirilməsinin lazım olduğunu öyrənməlidir. 5-ci hal isə tədqiqatçıya jurnal seçimində diqqətli olmağı, hazırladığı məqalə ilə jurnalın ixtisaslaşma istiqamətləri arasında uyğunluğu nəzərə almağı öyrədir.

Beləliklə, nüfuzlu elmi jurnallarda məqalə nəşri tədqiqatçıların öyrənmə prosesinə çevrilir, onların tədqiqat və akademik yazı bacarıqlarının inkişafına təkan verir. Yüksək keyfiyyətli resenziya prosesi olan jurnallarda məqalə nəşri gənc tədqiqatçılar üçün əsl tədqiqat məktəbidir. Nisbətən kiçik həcmli tədqiqatın nəticəi kimi yazılan elmi məqalələrə dissertasiyaların hazırlanması prosesinin mərhələləri kimi də baxa bilərik. Təcrübəli rəyçiərin irad və tövsiyələri müəlliflərin həm akademik yazı, həm də tədqiqatçı bacarıqlarının yüksəlməsində misilsiz rol oynayır.

Gənc tədqiqatçılar bu prosesdə elmi əsərin hansı auditoriya üçün maraqlı olması, tədqiqatın kifayət qədər hərtərəfli keçirilməsi, nəzəri bazanın dərindən öyrənilməsi, tədqiqat metodunun seçilməsi, seçilmiş metoda uyğun informasiya bazasının müəyyən edilməsi, nəticələrin müzakirəsi və sintezi, mətnin necə tərtib edilməsi və hansı üslubda yazılması barədə ətraflı düşünməli olurlar. Hətta məqalənin nəşr edilməsindən imtina edildiyi halda belə, rəyçilərin verdiyi tövsiyələr mətndə tam olaraq nəyin səhv olduğunu ətraflı şəkildə görməyə imkan verir. Bu hal üzücü olsa da, səbrli və dözümlü tədqiqatçı üçün inkişaf stimuludur.

Son dövrlərdə elmi əsərlərin hazırlanmasında komanda yanaşmasından daha çox istifadə edilir. Təkmüəllifli möhtəşəm əsərlərin meydana gəldiyi XVI-XX əsrlərin ənənəsi artıq tarixə qovuşur. Müasir dövrdə elmi və tətbiqi problemlərin həllində bir neçə elm sahəsinin nəzəri əsaslarından istifadə adi hala çevrilmişdir. Nümunə üçün, müasir iqtisadi problemlərin həllində riyaziyat, fizika, kimya və biologiya kimi fundamental elm sahələri ilə yanaşı, fəlsəfə, psixologiya, sosiologiya, politologiya, tarix, mədəniyyətşünaslıq kimi humanitar elm sahələrinə aid olan biliklərdən də geniş istifadə edilir. Beləliklə:

1. Son dövrlərdə akademik yazılar adətən bir qrup mütəxəssisin əməkdaşlığı ilə hazırlanır.
2. Akademik yazılar müəlliflər arasında, kafedralarda, komissiya və elmi iclaslarda müzakirə edilir. Bu müzakirələrdə qızğın mübahisələr də olur. Əsərin müəllifləri yekun nəticəyə çatmaq üçün fərqli yollar təklif edir və hər biri öz mövqeyini sübut etmək üçün arqumentlər təqdim edir.

Belə mübahiəslərdə qalib gələn ideya adətən aşağıdakı xüsusiyyətlərə malik olur:

- elmi baxımdan cəlbedicilik;
- elmi arqumentlərlə düzgün əsaslandırılma;
- səlis, dəqiq və aydın ifadə.

Elmi müzakirələrdə qarşı tərəfi inandırmaq üçün onun fikirlərini və mövqeyini nəzərə almaq vacibdir. Elmi əsərin hazırlanması prosesində mütəxəssislərlə müzakirə müasir akademik yazı bacarıqlarının inkişaf etdirilməsi üçün ən mühüm amillərdən biridir. Elmi əsərin tələbə yoldaşları ilə, həmkarlarla, elmi rəhbərlə, rəyçilərlə və daha geniş akademik mühitdə müzakirə edilməsi mətnin təkmilləşdirilməsi üçün vacib şərtlərdir.

Elmi əsərin hazırlanmasına proses yanaşmasınn əsas tələblərindən biri də odur ki, tədqiqat prosesi mərhələlərə bölünməli və hər mərhələ üzrə hazırlanmış mətn ciddi müzakirələrdən keçməklə bir neçə dəfə qiymətləndirilməlidir.

## 7.2. Akademik yazıların mətninin ikin qiymətləndirilməsi

Mətnin qiymətləndirilməsi zamanı onun fərqli cəhətləri nəzərə alınır. Bunun üçün mətnin hansı spesifik xüsusiyyətlərinin, cəhətlərinin və

komponentlərinin nəzərə alındığını anlamaq lazımdır. Rəyçi, redaktor, elmi rəhbər və ya istənilən diqqətli oxucu qiymətləndirmə zamanı mətnin bütün xüsusiyyətlərini nəzərə aldıqda daha yaxşı və öyrədici rəy hazırlaya bilir.

Elmi əsərlərin qiymətləndirilməsini rəyçilər üçün çətinləşdirən amillərə aşağıdakıları aid etmək olar:

- tədqiqatda bir neçə elm sahəsinə aid olan metod və biliklərdən istifadə edilməsi (bir sahə üzrə ixtisaslaşmış mütəxəssis belə işlərin tam və əhatəli qiymətləndirilməsində çətinlik çəkir. Buna görə də, qiymətləndirməyə tədqiqatın aid olduğu hər elm sahəsi üzrə ixtisaslaşmış bir neçə mütəxəssisin cəlb olunmasına ehtiyac yaranır);
- mətnin strukturunun düzgün tərtib edilməməsi (mətnin strukturunda ardıcıllıq və hissələr arasında bağlılıq pozulduğu halda əsərin məntiqinin və qayəsinin, metodoloji adekvatlığının, nəticələrin dürüstlüyünün və elmi səviyyəsinin müəyyən edilməsi xeyli çətinləşir);
- yazı üslubunun düzgün seçilməməsi və ya dilin qrammatik, leksik, morfoloji və sintaksis tələblərinə riayət edilməməsi (bu halda müəllifin fikirlərinin aydın və səlis ifadə tərzi pozulur, oxucu tərəfdən təhrif olunmuş formada qavranılması üçün şərait yaranır).

Elmi əsərin ilkin qiymətləndirilməsi prosesi adətən mətnin formasının tələblərə uyğunluğunu müəyyən etməyə imkan verir və aşağıdakı mərhələlər üzrə aparılır:

- mövzunun iddia edilən elm sahəsinə aidliyinin müəyyən edilməsi;
- mətnin strukturunun tədqiqat məntiqinə və müəyyən edilmiş tələblərə uyğunluğu;
- mətnin yazıldığı dilin üslub, qrammatik və leksik tələblərinə uyğunluğu;
- mətndə elm etikasına riayət olunması və istinadların dürüstlüyü.

Müəlliflər öz əsərlərini oxucuya (elmi rəhbərə, müzakirəyə, jurnala, nəşriyyata və s.) təqdim etməzdən əvvəl mətni diqqətə oxumalı və göstərilən meyarlara riayət olunma səviyyəsini müəyyən etməli, aşkarlanan qüsurları aradan qaldırmalıdırlar. Mətnin müəllifər tərəfindən ilkin qiymətləndirilməsi öz səhvlərinin özləri tərəfindən aşakarlanması vərdişlərini və qabiliyyətlərini inkişaf etdirir. Müəlliflərin bu mərhələni icra etmə səviyyəsinin keyfiyyəti onların elmi səviyyəsi ilə yanaşı, elmi etikaya və akademik yazı qaydalarına riayət edilməsi məsələsinə nə dərəcədə ciddi yanaşdıqlarının göstəricisidir. Elmi əsərin

ilkin qiymətləndirmə aparmadan elmi rəhəbrə və rəyçiyə təqdim edilməsi təqdir edilməyən hal hesab olunur və qeyri-etik hal kimi dəyərləndirilir.
Baxılması üçün təqdim edilən akademik mətnlərin ilkin qiymətləndirilməsi adətən jurnalın redaktorları (jurnal məqalələri üçün) və elmi rəhbərlər tərəfindən aparılır.
Qeyd edilən ikimərhələli ilkin qiymətləndirmə zamanı nöqsan və çatışmalıqların aşkarlanması mətnin təkmiiləşdirilməsi ilə yanaşı, tədqqiatçıların akademik yazı baxımından zəif tərəflərini müəyyən etməyə imkan verir və inkişaf etdirilməli olan qabiliyyət və vərdişlərin müəyyən edilməsində əhəmiyyət daşıyır. İlkin qiymətləndirmə süzgəcindən keçən mətnlər məzmun qiymətləndirilməsi üçün peşəkar rəyçilərə təqdim edilir.
Akdemik yazıların ilkin qiymətləndirilməsi müəlliflərin yazı qabiliyyətlərinin müqayisəsi və mətnlərin akademik səviyyəsi barədə hökmün çıxarılması üsulu kimi deyil, mətnin aşkarlanmış göstəricilər əsasında təkmiləşdirilməsi və fərdi yazı bacarıqlarının artırılması üçün bir alət kimi qəbul olunur.

## 7.3. Elmi əsərlərin məzmununun əsas meyarları

Elmi əsərlərin məzmununun qiymətləndirilməsi adətən üç meyar əsasında aparılır:

1. **Mətnin forması** - mətnin təşkilini, yəni onun fiziki reallaşmasını əhatə edir. Bu meyar mətnin strukturunun tədqiqatın məqsədinə çatması üçün yetərliliyi, mətnin hissələri, abzas və cümlələri arasında elmi ardıcıllığın və əlaqələndirmənin səviyyəsini özündə birləşdirir. Başqa sözlə, bu meyar müəllifin elmi mətni yaratmaq texnologiyalarına nə qədər hakim olduğunu göstərir.
2. **Elm etikasına uyğunluq** - tədqiqatın aparılması və mətnin hazırlanması prosesində elm etikasının tələblərinə riyaət olunması, mövzunun bilik və müzakirə olunan məsələlər kontekstində qavranılması, yazı üslubunun tədqiqatın məqsədinə və ünvanlandığı oxucu auditoriyasına uyğunluğunu əks etdirir.
3. **Tənqid** - müəllifin mətndə irəli sürdüyü, əsaslandırdığı və sübut etdiyi mülahizələrin, nəticələrin, elmi yeniliklərin səviyyəsini və əsaslandırılma dərəcəsini əks etdirir, hipotezlərdən nəticəyə qədər olan isbatlama prosesinin ardıcılığını izləməyə imkan verir. Tənqidi ölçü müəllifi yazmağa vadar edən və başqalarını müzakirəyə dəvət

edən ideyasının elmi əhəmiyyətini, bu ideyanın mətndə işlənmə dərəcəsini, tədqiqat prosesinin mətntiqi ardıcıllığını, nəticələrin elmi əsaslandırılma dərəcəsini, onların müqayisəsinin, müzakirəsinin və ümumiləşdirilməsinin (sintezin) keyfiyyətini müəyyən edir.

Mətnin strukturu üzrə qiymətləndirmə zamanı aşağıdakı məsələlərə diqqət yetirilir:

1. Mətndə xülasə, giriş, əsas hissə, nəticə, ədəbiyyat siyahısı, əlavələr kimi hissələrin mövcudluğu;
2. "Xülasə" və "Giriş" hissəsinin məzmununun qoyulmuş tələblərə uyğunluğu

Bu hissələrin qiymətləndiriməsi zamanı qoyulmuş tələblərə riyaət olunma ilə yanaşı xüsusi diqqət yetirilən məsələlər də vardır:

- oxucunun diqqətini çəkən cümlə (intriga);
- əsərdə həll edilən problemin dəqiq və aydın göstərilməsi;
- səlis formada ifadə edilmiş əsas hipotezin (nəyi sübut edəcəyik, qiymətləndirəcəyik və s.) mövcudluğu;
- mətnin əhatə edəcəyi cəhətlər (tədqiqatın əhatəsi).

3. Əsas hissənin hər bölməsində aşağıdakıların mövcudluğu müəyyən edilir:

- başlanğıc cümlələr bölmənin həsr olunduğu məsələni müəyyən etməlidir;
- bölmənin mətni qoyulmuş məsələyə aid olmalı və onu dəstəkləyən faktiki məlumatlardan ibarət olmalıdır;
- bölmənin sonunda aparılan araşdırmanın nəticələri ifadə edilməli və növbəti hissəyə keçidi təmin edən fikirlər olmalıdır.

4 Nəticə hissəsində olmalıdır:

- əsas hissədə əldə edilmiş tədqiqat nəticələrinin qısa şəkildə sıralanması;
- həmin nəticələrin tədqqiatın məqsədi ilə əlaqələndirilməsi;
- tədqiqatın hipotezilə bağlı olan əsas nəticələr;
- təklif və tövsiyələr

Elm etikasına uyğunluğun qiymətləndirilməsi zamanı əsasən aşağıdakı məqamlara diqqət yetirilir:

1. Akademik yazıda elm etikasına tam riayət edilməsi

- tədqiqat prosesində milli, etnik, irqi, cinsi diskriminasiyaya yol verilməməsi;
- tədqiqat obyekti kimi istifadə edilən fərdlərin və ya qrupların

hüquqlarının pozulmaması;

- ədəbiyyat siyahısında qeyd edilən mənbələrə mətndə istinadların verilməsi və bu istinadların düzgünlüyü;
- elmi plagiat hallarının yoxluğu və s.

2. Mətnin yazı üslubunun uyğunluğu:

- mətnin oxucu üçün anlaşılan olması;
- istifadə edilən mənbələrin mövzu ilə elmi baxımdan uyğunluğu, əhatəliliyi, nüfuzu və etibarlığı;
- mövzu üzrə elmi biliklərin əhatə olunması, xüsusi biliklərin istifadəsi.

3. Ünvanlılıq:

- mətnin kimə ünvanlandığıninn göstərilməsi;
- oxucuya yaxşı yazı üslubu və elm etikası ilə hörmətin ifadə edilməsi;
- mövzu üzrə müxtəlif mövqelərin, fərqli yanaşmalarını nəzərə alınması, tədqiqatın məhdudiyyətlərinin göstərilməsi.

4. Yazı üslubu:

- düşüncələrin aydın, konkret, ardıcıl və əlaqəli ifadəsi;
- emosional yüklü cümlələrdən istifadə edilməməsi;
- rəsmi ünsiyyətə xas olmayan ifadə tərzindən istifadə edilməməsi.

Elmi əsərin tənqidi qiymətləndiriməsi zamanı aşağıdakı məsələlərə diqqət yetirilir:

1. Müəlliflərin tədqiqatçı mövqeyinin izahı:

- tədqiqatda həl edilən problem və ya tədqiqatın hipotezi aydın şəkildə ifadə edilməli;
- tədqiqatın məqsədi əsas hissədə ardıcıl şəkildə yerinə yetirilməli;
- nəticə hissəsində tədqiqatla əldə edilmiş arqumentlər göstərilməli, onların tədqqiatın məqsədi ilə əlaqəsi qeyd edilməli, qoyulmuş problemə münasibət bildirilməli, onların həll yolları təklif edilməli.

2. Məntiq və arqumentasiya:

- tədqiqat metodları tədqiqatın məqsədinə uyğun və müasir olmalı;
- informasiya bazası seçilmiş metoda adekvat olmalı;
- tədqiqatçının mövqeyi məqsədyönlü şəkildə sübuta yetirilməli və elmi məntiqə əsaslanmalı;
- tədqiqat vasitəsilə alınmış inandırıcı arqumentlərlə dəstəklənməlidir;

3. Obyektivliyin qorunması:
- mətndə müəlliflərin tərəfsizliyi qorunmalı;
- qərəz, sübut olunmamış və isbatsız nəticələr olmamalı;
- ümumi ifadələr və hamıya bəlli olan həqiqətlər nəticə kimi təqdim edilməməlidir.

Aydın şəkildə tərtib edilmiş bu meyarların əhəmiyyəti təkcə elmi əsərlərin qiymətləndirilməsi ilə bağlı deyil. Hər bir tədqiatçı öz əsərini bu meyarlarla qiymətləndirməklə özünün bacarıq və vərdişlərini inkişaf etdirə bilər. Daha tacrübəli tədqiqatçıları bu meyarlar üzrə irad və təklifləri isə gənc tədqiqatçılar üçün yeni inkişaf istiqamətlərini müəyyən edə bilər.

## 7.4. Azərbaycanda dissertasiyaların məzmununa qoyulan tələblər

Dissertasiyalarının qiymətləndirilməsi onun məzmununun keyfiyyətinə və strukturuna qoyulan tələblərə uyğunluq səviyyəsinin müəyyən edilməsi ilə də aparılır. Azərbaycanda fəlsəfə doktoru dissertasiyalarının məzmununa tələblər “Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə” ilə müəyyən edilmişdir (https://e-qanun.az/framework/42605):

1. Dissertasiyanın məzmununda aid olduğu elm sahəsində böyük əhəmiyyət kəsb edən problemin yeni həlli təklif olunmalı və yaxud böyük tətbiqi əhəmiyyəti olan iqtisadi, texniki və texnoloji işləmələrin təkmilləşdirilmiş elmi şərhi verilməlidir.
Dissertasiyanın yazılması zamanı bu tələbə uyğunluğun təmin edilməsi iki yoldan birinin seçilməsi və yaxud hər ikisinin əhatə olunması ilə təmin edilə bilər:
- elm sahəsi üçün böyük əhəmiyyət kəsb edən problemin müəyyən edilməsi və dissertasiyada onun həll edilməsi;
- böyük tətbiqi əhəmiyyəti olan işləmələrin təkmilləşdirilmiş elmi şərhinin verilməsi.

Bu tələbin mahiyyətini bir qədər izah edək. Burada qeyd edilən “elm sahəsi” anlayışı “İqtisad elmləri”, “Riyaziyyat və Mexanika”, “Fizika və Astronomiya”, “Kimya”, “Texnika elmləri”, “Yer elmləri və Coğrafiya”, “Tibb və Əczaçılıq”, “Biologiya elmləri və Aqrar elmləri”, “Hüquq elmləri”, “Fəlsəfə və Sosiologiya elmləri”, “Siyasi elmlər”, “Psixologiya”, “Tarix və

Antropologiya”, “Filologiya elmləri”, “Pedaqogika” və “Sənətşünaslıq və Memarlıq” kimi elm sahələrini əhatə edir (https://aak.gov.az/single/334). Tədqiqat birinci istiqamət üzrə aparıldığı halda, müəllif dissertasiyanın məzmununda aid olduğu elm sahəsi üzrə elmi problemi müəyyən etməli, onun böyük əhəmiyyətini açıqlamalı  və həlli yolunu göstərməlidir.
Dissertasiya ikinci istiqamətə həsr edildiyi halda isə işin məzmununda böyük tətbiqi əhəmiyyəti olan işləmələr (nəzəri konsepsiyalar, yanaşmalar, metodologiyalar, metod və üsullar, qiymətləndirmələr üçün istifadə edilən göstəricilər (və ya onların qrupu) və s.) müəyyən edilməli və onların (biri və yaxud bir neçəsinin) təkmilləşdirilmiş elmi şərhi verilməlidir.
Qeyd edilən iki tədqiqat istiqmətindən birinin seçilməsi tədqiqatın məqsədinin və ona müvafiq olaraq vəzifələrinin müəyyən edilməsi üçün əsasdır. Yəni, tədqqiatın məqsədi seçilmiş tədqiqat istiqmətlərindən birinə - ya böyük elmi əhəmiyyəti olan problemin (problemin adı və ya məzmunu ifadə edilməklə)həlli ilə, ya da böyük tətbiqi əhəmiyyəti olan işləmələrin elmi şərhinin təkmilləşdirilməsi ilə bağlı olmalıdır.

2. Dissertasiya müdafiə üçün irəli sürülən elmi müddəaların və nəticələrin məcmusunu əhatə etməli və tamamlanmış elmi-tədqiqat işi olmalıdır.
İşin bu tələbə uyğunluğunun yoxlanılması üçün Giriş” hissəsinin “müdafiəyə çıxarılan müddəalar” abzasında və “Nəticə” hissəsində qeyd edilən arqumentlərlə dissertasiyanın mətni arasında bağlılıq öyrənilir, mətnin həmin müddaə və nəticələrin əsaslandırılması üçün adekvatlıq səviyyəsi qiymətləndirilir.

3. Dissertasiyanın daxili vəhdəti olmalı, iddiaçının elmə verdiyi töhfəni əks etdirməlidir.
Dissertasiyanın daxili vəhdəti dedikdə, onun struktur hissələri (Giriş, fəsillər, Nəticə) arasında sıx əlaqənin və məntiqi ardıcıllığın mövcudluğu nəzərdə tutulur. “Elmə verilən töfhənin əks etdirilməsi” ifadəsi isə dissertasiyanın mətninin  elmə verilən töfhənin əsaslandırılmasına xidmət etməsi tələbini müəyyən edir.

4. Dissertasiyanın məzmununda tədqiqatın aktuallığı, predmeti, obyekti, məqsəd və vəzifələrinin müəyyən olunduğu elmi məsələnin (problemin) əsaslandırılmış qoyuluşu verilməlidir.
Kitabın “Elmi əsərlərin “Giriş”, “Nəticə” və “Xülasə” hissələrinin

yazılması" adlı fəslində bu tələbə riayət edilməsi üçün dissertasiyanın mətnində nələrin olmasına dair ətraflı məlumat verilir.

5. Tədqiqat mövzusu üzrə elmi ədəbiyyatın, o cümlədən xarici elmi informasiya mənbələrinin analitik icmalı verilməlidir.
İşin məzmununda elmi ədəbiyyatın anailitik, yəni müəllifin tənqidi və ümumiləşdirici yanaşması ilə icmalının aparılması həm mövzunun aktuallığının və öyrənilmə səviyyəsinin müəyyən edilməsində, həm də aparılan tədqiqatın nəticələrinin digər tədqiqatçılarının nəticələri ilə müqayisəsinin aparılmasına imkan verir. Bu baxımdan, işin qiymətləndirilməsində yaxşı ədəbiyyat icmalının mövcudluğuna xüsusi diqqət yetirilir.

6. Müdafiəyə çıxarılan elmi müddəalar dəqiq göstərilməlidir.
Dissertasiyanın giriş hissəsində "müdafiəyə çıxarılan elmi müddəalar"adlı abzasın olması əsas tələblərdən biridir. Bu müddaların ifadə edilməsində dəqiq, aydın və birmənalı ifadələrdən istifadə edilməsi müəllifin əldə etdiyi nəticələrin konkretliyini təmin edir və hamı tərəfindən eyni mənada qavranılmasına şərait yaradır, həmin müddəaların dissertasiyada əsaslandırılması səviyyəsini yoxlamağa imkan verir.

7. İşin elmi yenilikləri ciddi əsaslandırılmalı, mövcud faktlarla və elmi baxışlarla müqayisədə tənqidi qiymətləndirilməlidir.
İşin elmi yenilikləri aparılmış tədqiqat prosesinin nəticəsi olmalı, həmin nəticələrin elmi yeniliyi onların mövcud nəzəriyyələrlə uyğunluğunun və ya uyğunsuzluğunun səviyyəsi və digər tədqiqatçıların nəticələrindən fərqləri ilə əsaslandırılmalıdır. İşdə müəllifin öz elmi yeniliklərinə də təqnidi yanaşması olmalı, elmi yeniliklərin alınmasında tədqiqatın məhdudiyyətləri göstərilməlidir.

8. İşin ayrı-ayrı hissələri üzrə əldə edilmiş nəticələrin izahlı təqdimatı verilməlidir.
Dissertasiyanın hər bölməsinin və ya fəslinin sonunda həmin hissənin məzmunu üzrə ümumiləşdirmələr olmalıdır.

9. Əsas elmi yenilikləri göstərməklə və onların əhəmiyyətini əsaslandırmaqla dissertasiyanın yekun nəticələri təqdim edilməlidir.
Kitabın "Elmi əsərlərin "Giriş", "Nəticə" və "Xülasə" hissələrinin

yazılması” adlı fəslində bu tələbə riayət edilməsi üçün dissertasiyanın “Nəticə” hissəsinin mətninin məzmunu barədə ətraflı məlumat verilir.

10. Əldə edilmiş elmi nəticələrin istifadəsinə və tətbiqinə dair tövsiyələr verilməlidir.
Dissertasiyanın “Giriş”hissəsində “Tədqiqatın nəticələrinin nəzəri və praktiki əhəmiyyəti” adlı abzas olmalıdır. Həmin abzasda dissertasiyanın elmi nəticələrinin nəzəriyyəyə verdiyi töfhə ilə yanaşı, praktiki məsələlərin həllində tətbiq edilməsi istiqamətləri də yığcam formada qeyd olunur. İşin məzmunund isə bu məsələlərin geniş izahına yer verilməlidir.

11. İstifadə edilmiş ədəbiyyat siyahısı.
Ədəbiyyat siyahsında yer alan mənbələrin nüfuzu və müasirliyi tədqiqatın nəzəri və praktiki informasiya bazasının etibarlılığını göstərmək və tədqiqatın söykəndiyi nəzəri-metodoloji əsasların mötəbərliyi barədə fikir bildirmək üçün istifadə edilən meyarlardan biridir. Həmin mənbələrə istinadların dürüstlüyü və müəllif yanaşmasının keyfiyyəti isə işin elm etikası tələblərinə riayət olunması və müəllifin elmə verdiyi töfhənin səviyyəsi barədə təsəvvür yaratmaq üçün istifadə edilə bilər.

Bu tələblər magistr dissertasiyalarının keyfiyyətinin qiymətləndirilməsində də müəyyən dərəcədə, magistratura və doktorantura təhsili arasında fərqlər nəzərə alınmaqla tətbiq edilə bilər.

## İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Ə.Əliyev, F.Rəhmanov. Dissertasiya yazılması və müdafiəsi. İddiaçılar üçün vəsait; Bakı: “MSV NƏŞR”, 2025, 224 s.
2. S.Məmmədova, V.Qasımova. V.Əyyub. Akademik yazı üzrə Bələdçi. Mühazirə mətnləri, Bakı-2014, 72.s.
3. Колесникова Н.И. От конспекта к диссертации: Учебное пособие по развитию навыков письменной речи, 11-е. - М.: ФЛИНТА, 2019, 978-5-89349-162-3
4. И. Б. Короткина Академическое письмо: процесс, продукт и практика Учебное пособие для вузов Москва: Юрайт, 2015
5. Wales, J. M., & Feak, C. B. (2012). Academic Writing for Graduate Students: Essential Tasks and Skills (3rd ed.). University of Michigan Press.
6. Graff, G., & Birkenstein, C. (2021). They Say / I Say: The Moves That Matter in Academic Writing (5th ed.). W. W. Norton & Company.
7. Booth, W. C., Colomb, G. G., & Williams, J. M. (2016). The Craft of Research (4th ed.). University of Chicago Press.
8. Bailey, S. (2017). Academic Writing: A Handbook for International Students (5th ed.). Routledge. London and New York.
9. Murray, R. (2017). Writing for Academic Journals (4th ed.). Open University Press.
10. Especially useful for researchers aiming to publish in peer-reviewed journals.
11. Wallwork, A. (2016).English for Writing Research Papers (2nd ed.). Springer.
12. Sword, H. (2012). Stylish Academic Writing.Harvard University Press.
13. Turabian, K. L. (2018). A Manual for Writers of Research Papers, Theses, and Dissertations (9th ed.). University of Chicago Press.

*i.e.n., dos. Seyfullayev İlqar Zülfüqar*

# VIII. AKADEMİK YAZIDA ETİK DƏYƏRLƏR


8.1. Akademik yazıda dürüstlük və etik yazı tələbləri
8.2. Akademik yazıda plagiat və müəlliflik hüquqları
8.3. İstinadların əhəmiyyəti və göstərilmə formaları
8.4. Akademik yazıda mənbələrin siyahısının tərtibi
Ədəbiyyat siyahısı


## 8.1. Akademik yazıda dürüstlük və etik yazı tələbləri

Hər bir elmi əsər müəlliflərin öz sözləri ilə ifadə olunmuş düşüncələrindən ibarət olur. Ancaq müəlliflər elmi məsələlər barədə fikirlərini və əldə etdikləri nəticələri başqa tədqiqatçıların nəticələri və mövcud nəzəri müddəalarla müqayisəli şəkildə əsaslandırmalıdırlar. Bunun üçün elmi əsərdə başqa müəlliflərə istinad etməyə, onların qənaətlərinə parafrazlarla müraciət edilməsinə ehtiyac yaranır. Elmi əsərdə istinadların və parafrazların həcmi elm sahələrinin xüsusiyyətlərindən asılı olaraq fərqlənir. İstinad və parafrazlardan istifadə edərkən bəzi prinsiplərə riayət edilməsi tövsiyə olunur:

- istinad edilən fikir tədqiqat üçün mühüm əhəmiyyət kəsb etmədiyi halda onu ümumiləşdirmək olar (nümunə üçün, "bir sıra tədqiqatçılar hesab edir ki, bank kreditlərinin əlçatanlığı, həcmi və  artımı emal sektorunun dəstəklənməsi üçün əhəmiyyət daşımır (Əliyev, 2025; Məmmədov, 2025; Əhmədov, 2024)
- mənbədə qeyd edilən fikri daha aydın və ya qısa şəkildə ifadə edə bildiyiniz zaman onu öz sözlərinizlə ifadə etməyiniz (istinad göstərməklə) daha yaxşıdır.
- tədqiqatla əldə etdiyiniz nəticənin sübuta yetirilməsi və ya əsaslandırılması  istinad etdiyiniz mənbədəki təfərrüatlardan asılı olduqda, həmin təfərrüatları mümkün qədər ümumilşdirməklə və istinad göstərməklə istifadə etmək olar.

Bu zaman əsas nəticələrinizi cəlbedici şəkildə ifadə edə bilən orijinal

sözlərdən istifadə etmək lazımdır.
“Akademik dürüstlük, elmi fəaliyyətin əsasında duran əsas prinsiplərdən biridir. Bu anlayış müəlliflərin tədqiqat və yazı prosesində doğruluq, şəffaflıq və məsuliyyət prinsiplərinə sadiq qalmasını tələb edir. Akademik dürüstlük, yalnız elmi nəticələrin obyektiv təqdim olunması deyil, həm də məlumat mənbələrinin düzgün göstərilməsi və başqalarının fikirlərinə hörmətlə yanaşmaq deməkdir (Pecorari, 2015).
Akademik etikanın əsas məqsədlərinə aşağıdakıları aid etmək olar:

- dürüstlüyün təmin edilməsi;
- şəffaflıq və etibarlılığın təmin edilməsi;
- məhdud tədqiqat resurslarından elmi cəhətdən əsassız tədqiqatlar üçün istifadənin qarşısının alınması;
- faydaların ədalətli bölüşdürülməsinin təmin edilməsi.

Akademik etikanın əsas prinsiplərinə aşağıdakılar aid olunur:

- Etibarlılıq;
- Təhlükəsizlik;
- Ləyaqət.

Etibarlılıq prinsipinə görə tədqiqat real araşdırma olmalı, cavabı məlum olmayan elmi sualın həllinə yönəlməli, mötəbərliyi şübhə doğurmayan tədqiqat metoduna və informasiya bazasına malik olmalı, əhatə olunan sahələr üzrə ixtisaslaşmış mütəxəssislər tərəfindən aparılmalıdır. Tədqiqat prosesində sübutetmə üçün təsdiqləyici arqumentlər oxucuda şübhə oyatmamlıdır.
Təhlükəsizlik prinsipi tədqiqat prosesində avadanlıqlardan, cihazlardan, metod və üsullardan istifadə prosedurlarının düzgün şəkildə icra olunması, tədqiqat risklərin minimuma endirilməsi, tədqiqat obyektinin (iqtisadi tədqiqatlarda müəssisələr, iqtisadi fəaliyyətin subyektləri, sahibkarlar, cəmiyyət, sosial qruplar, fərdlər və s.) iqtisadi, maliyyə, texniki, texnoloji, hüquqi və mənəvi təhlükəsizliyinin təmin edilməsi ilə əlaqələndirilir.
Ləyaqət prinsipi isə tədqiqat obyekti kimi öyrənilən iştirakçıların ehtiyaclarına və hüquqlarına hörmətlə yanaşmanı, onların tədqiqatda iştirak etmələri barədə məlumatlandırılmasını və razılıqları olduğu təqdirdə tədqiqata cəlb edilmələrini, kommersiya sirrinin və məxfiliyin qorunmasını tələb edir.
Adi insan tərəfindən asanlıqla başa düşülməyən terminlərdən, ixtisarlardan və emi anlayışlardan ifadələrdən istifadə edilməsi etik pozuntulara gətirə bilər. Tədqiqat prosesinə cəlb edilən iştirakçılardan

razılıq alınan zaman onların yaşı və təhsil səviyyəsinin nəzərə alınması, məlumatların əlçatan və iştirakçı üçün anlamlı formada formada təqdim olunması, onların dəqiq əlaqə məlumatlarının saxlanmaı tövsiyə olunur. Bəzən elə hallar ola bilər ki, obyektivliyi təmin etmək üçün tədqiqatın gizli formada (iştirakçılar tədqiq edildiklərini bilmirlər) aparılmasına ehtiyac yarana bilər. Bu zaman, tədqiqat obyektinin məxfi saxlanması xüsusi önəm daşımağa başlayır.  Tədqiqat mövzusunun seçilməsində tədqiqat iştirakçılarının və ya tədqiqatdan təsirlənə biləcək digər şəxslərin, sosial qrupların mənəvi dəyərlərinin də nəzərə alınması vacibdir.
Akademik etikada məlumatların toplanması, emalı, sistemlədirilməsi və nəticələrin istifadəsində tez-tez yol verilən nöqsanlar da var:

- məlumatların düzgün şəkildə anonimləşdirilməməsi;
- saxtalaşdırma;
- təhrif;
- nəticələrin yanlış müsbət təfsiri, mənfi nəticələrin gizlədilməsi və ya qüsurlu şərh edilməsi;
- nəticələrin yanlış məqsədlər üçün istifadəsi;
- şəffaflığın olmaması.

**Könüllülük riskləri.** Tədqiqatda könüllü iştirak manipulyasiya və ya məcburiyyət olmadan verilmiş qərar əsasında baş verməlidir. Ailə üzvləri, iş yoldaşları, müəllim-tələbə, işəgötürən-işçi münasibətləri könüllülüyə təsir edə biləcək amillərdir. Bu problemin qarşısını almaq üçün uyğun və obyektiv iştirakçı qrupu seçilməli, tanışlar və ya rahat seçimlərdən çəkinmək lazımdır. Maddi və ya digər mükafatlar könüllü iştirak qərarlarıa təsir göstərə bilər.
Akademik dürüstlüyün əsas tələblərindən biri də plagiatın qarşısının alınmasıdır. Plagiat - başqasının fikirlərini, məlumatlarını və ya tədqiqat nəticələrini mənbə göstərmədən öz əsəri kimi təqdim etmək — ciddi akademik pozuntu hesab edilir. Bu cür halların qarşısını almaq üçün istifadə olunan hər bir fikir və məlumat mətndə düzgün şəkildə istinad edilməklə göstərilməlidir (American Psychological Association, 2020). Bir araşdırıcı başqa bir müəllifin araşdırmasını parafraz edirsə, belə hallarda da mütləq şəkildə həmin mənbəyə istinad etməlidir. İstinadın bilərəkdən olmasa da unudulması plagiat kimi qiymətləndirilə bilər. Bununla yanaşı, akademik yazıda aşağdakılara riayət olunması vacibdir (Council of Writing Program Administrators, 2019):

- ədəblilik və obyektivlik qorunmalı;

- yazı dili qərəzsiz, hörmətli və neytral olmalı;
- ayrı-seçkiliyə, şəxsi hücumlara və ya stereotiplərə əsaslanan ifadələrdən istifadə edilməməlidir.

Məsələn, tədqiqat nəticələrinin şərhində cinsə, dini və irqi mənsubiyyətə və ya digər fərdi xüsusiyyətlərə qarşı qərəz ifadə edən cümlələrdən istifadəyə yol vermək olmaz. Elmi faktlara əsaslanan obyektiv təsvirlərdən istifadə daha doğru yanaşmadır. Beləliklə, akademik yazı həm etik normalara cavab verir, həm də elmi cəmiyyətin inklüziv və qərəzsiz inkişafına töfhə verir.

Akademik dürüstlüyün digər vacib tələbi fikrin və ideyanın düzgün mənimsənilməsi və təqdimi ilə bağlıdır. Başqa bir tədqiqatçının ideyası istinad göstərilərək istifadə edildikdə, bu fikir orijinal kontekstdən çıxarılmadan və təhrif edilmədən təqdim edilməlidir (Swales & Feak, 2012). Məsələn, bir araşdırmadan çıxarılan nəticə, müəllifin məqsədini dəyişdirmədən və ya kontekstini təhrif etmədən istifadə edilməli və dəqiq istinadla müşayiət olunmalıdır. Bu, yalnız etik yazı qaydalarına uyğunluq yaratmır, həm də oxucunun doğru informasiya əldə etməsinə imkan verir.

Nəticə etibarilə, plagiatın qarşısının alınması, ədəbli və obyektiv dil istifadəsi və fikirlərin düzgün mənimsənilməsi akademik yazının ayrılmaz tərkib hissəsi kimi qəbul olunur. Bu tələblərə əməl etmək tədqiqatçının elmi nüfuzunu artırır, elmi biliklərin davamlı və etibarlı şəkildə inkişafına xidmət edir.

Elmi tədqiqat prosesində tədqiqatçı uğur əldə etmək üçün elmi etikanın qaydalarına ciddi riayət etməlidir. Elmdə ideal hal üçün belə bir prinsip irəli sürülür ki, bütün tədqiqatçılar həqiqət qarşısında eynidirlər. Burada elmi sübutlardan söhbət getdikdə heç bir keçmiş xidmətlər nəzərə alınmır. Elm adamlarının digər bir tələbatı da ondan ibarətdir ki, işin nəticələrinin təqdimatı zamanı düzgünlük birinci yerdə durmalıdır. Tədqiqatçı səhv edə bilər, amma elmi nəticələrə istədiyi kimi düzəliş edə bilməz. Tədqiqatçı mövcud olan kəşfi təkrar edə bilər, amma plagiatla məşğul ola bilməz. Elmi işlərin və məqalələrin tərtibi zamanı bu və ya digər elmi ideyaların müəlliflərinin dəqiq göstərilməsi və elmə məlum olan informasiyaların işdə dəqiq seleksiyasına şərait yaradılmalıdır.

Elmdə etik normaların pozulması tədqiqatçının elmi cəmiyyətdə reputasiyasının itirilməsi, onun elmi fəaliyyət səmərəliliyinin aşağı düşməsi, hətta elmi məktəbdə malik olduğu işini itirməsi ilə nəticələnə bilər. Elmi etika prinsiplərinin pozulması təsadüfən də baş verə bilər. Elmi metodların bilmədən düzgün tətbiq olunmaması, verilənlərin emal

üçün hazırlanmasında yol verilən diqqətsizlikər belə hallara səbəb ola bilər. Lakin baş vermə səbəbi belə pozuntulara görə məsuliyəti azaltmır.
Bəzən tədqiqatçılar əvvəlcədən gözlədikləri və müxtəlif səbəblərdən sərfəli ola biləcək nəticələri almaq üçün bilərəkdən verilənlərin saxtalaşdırır və yaxud onları təhrif edirlər. Verilənlərin saxtalaşdırılması, cizgi və diaqramların manipulyasiya olunması, arzu olunmayan verilənlərin bilərəkdən gizlədilməsi belə hallardandır.
Elmi tədqiqatlarda "qonaq müəlliflik" anlayışı da geniş yayılıb. Bəzi hallarda magistrant və ya doktorantlar öz məqalələrinin nüfuzunu yüksəltmək üçün elmi rəhbərinin və yaxud tanıdığı nüfuzlu alimin adını həmmüəllif kimi göstərməyə meyl edirlər. Elm etikasında belə hallara da müsbət baxılmır.
Etik problemlər işin nəticələrinin təqdimatı zamanı da baş verə bilər. Tədqiqatçı təqdim olunan elmi nəticələrin düzgünlüyünə tam cavabdehdir. İşdə nəticələri sual altına alan məlumatlar və yanaşmalar mövcud olmamalıdır. Səhvlərə yol verməmək üçün digər mənbələrdən götürülən biliklər ehtiyatla, analiz edilərək müqayisəli qiymətləndirmə ilə istifadə edilməlidir. Hər bir tədqiqatın nəticələrinin isbatı üçün araşdırılan mövzuya aid kifayət qədər mənbələrin öyrənilməsinə ehtiyac yaranır. Bu mənbələrin təhlilində əlverişli olmayan, şəxsi tədqiqat nəticələrini inkar edən işlərdən yan keçmək və ya gizlətmək də elm etikasının pozulmasıdır.

## 8.2. Akademik yazıda plagiat və müəlliflik hüquqları

Plagiat digərlərinin ideyalarını, verilənlərini, cizgi və ya fərziyyələrini, elmi nəticələrini mənbələrinə istinad göstərmədən mənimsənilməsidir. Burada mənbə dedikdə ap olunmuş və olunmamış materiallar, internet səhifələri və həmçinin şifahi mülahizələrdən gedə bilər. Bir sözlə plagiat hər dəfə mətn və ya ideyalardan istifadə zamanı ilkin müəllifi düzgün göstərmədikə baş verir.
Plagiatın aşağıdakı əsas formalarına rast gəlinir:
- başqa müəlliflərə məxsus olan mətnlərin mənbəyini göstərməməklə birbaşa köçürülməsi;
- başqa müəlliflərə məxsus olan mətn fraqmentlərinin mənbəyini göstərməklə, ancaq yanlış formada istifadə edilməsi;
- başqa müəlliflərə məxsus olan mətn fraqmentlərinin bir neçə sözünü dəyişməklə qeyri adekvat təsviri (parafraz).

Kənar mətnlərin qeyri adekvat təsvirinə yol verməmək üçün yad mətnləri öz sözləri ilə danışmaq və yenidən strukturlamaq, mətndə əsas ideyanı tapıb üzə çıxarmaq, ikinci dərəcəli olanların atılmasını məşq etmək lazımdır.

Ancaq plagiat təkcə digərlərinin ideyalarını, cizgilərini və s. mənimsəməkdən ibarət deyil, burada həm də söhbət ümumilikdə başqalarının ideya və nəticələrini mənimsəməkdən gedir. Ciddi mütəxəssislər elmi nəticəni əldə etmək üçün böyük əmək və zaman sərf edirlər. Tədqiqatçının istifadə etdiyi mənbələrin sayına görə onun yazıya sərf etdiyi əməyi də qiymətləndirmək mümkündür. Bəzi plagiatorlar zaman sərf etmədən digərinin apardığı ədəbiyyat icmalını öz işinə daxil edir və mənbələri göstərir (əmək və zaman tutumlu iş olan ədəbiyyat icmalının özü tərəfindən aparıldığını nümayiş etdirmək üçün). Plagiator başqasının nəticələrini öz sözləri ilə yeni formada izah edə və nəticələri öz fikirləşdiyi kimi təqdim edə bilər. Bu yanaşma da digərlərinin əməyini mənimsəməkdir.

Plagiat hallarına ədəbiyyat mənbələrinin axtarıb tapılmasında, yəni biblioqrafik araşdırmada da rast gəlinir. Bəzi hallarda tədqiqatçılar öz işlərində çoxlu sayda mənbələr göstərir və onların hamısına baxmasa da, araşdırmada istifadə etdiyini göstərir. Məlumdur ki, xüsusi sürətli oxuma texnikasına malik olmayan şəxs üçün bir il ərzində 100-dən çox kitabı oxuyub analiz etmək real görünmür. Əslində ədəbiyyat araşdırılan mövzuya yaxın olarsa, onu dərindən öyrənmək lazımdır.

Hər hansı bir alimin rəhbərliyi altında görülmüş elmi işdə plagiata yol verilərsə, işlə bağlı pozuntunun yaratdığı məsuliyyət rəhbərin də üzərinə düşür. O, işin yoxlanılması zamanı digər mənbələrdən götürülmüş biliklərin üzə çıxarılmasına bir mütəxəssis kimi məsuliyyət daşıyır.

Hüquqları qanunla qorunan başqa bir müəllifin işindən onun icazəsi olmadan sui-istifadə müəlliflik hüququnun pozulması sayılır. Belə işlərə elmi kəşflər, ixtiralar, hipotezlər, yeni tədqiqat metodları, müəlliflik ideyaları, yaradıcılıq işləri (foto, musiqi, mətn və s.) aid edilir. Müəlliflik hüquqlarının əsas pozuntusu kimi elmi işlərin qeyri-qanuni köçürülməsi, bu və ya digər formada şəxsi məqsədlər üçün istifadə eidlməsini göstərmək olar. Müəlliflik hüququnun pozulmasında aşağıdakı hallar baş verə bilər:

- Plagiat – müəlliflik mətnlərinin və digər yaradıcılıq məhsullarının qanunsuz istifadəsi;
- Tədqiqat metodları və ideyaların mənimsənilməsi;
- Elmi müəllifliyin uzurpasiyası;

- Hər hansı bir mətnin və ya sənədin saxtalaşdırılması;
- Buraxılmamış nəşrin və ya hələ çap olunmamış işlərin kənar şəxsə verilməsi.

Müəlliflik hüququnun pozulmasında iştirak edən müəllif və ya müəllifər baş verənlərə görə birlikdə məsuliyyət daşıyırlar. Hansı müəllifin hüquqlarının pozulmasından asılı olmayaraq, məsuliyyət elmi işin bütün müəllifləri üzərinə düşür.
Parafraz başqasına məxsus olan və müəyyən fikri ifadə edən mətnin əsas mənası saxlanmaqla başqa sözlərlə ifadə edilməsidir.
Mətndə istifadə edilən hər bir ümumiləşdirmə, parafraz və ya sitat müvafiq qaydada, müraciət edilən mənbənin biblioqrafik məlumatlarına istinad edilməsi vacibdir. Heç bir halda başqalarına məxsus olan ifadələri özünüzə aid bir neçə cümlə ilə birləşdirməyə cəhd etməyin.
İşin mətnində başqalarına məxsus olan ifadələri birbaşa istinadları göstərməklə istifadə etmək olar. Bu zaman istinad edilən fikirin əvvəlində "Müəllif deyir", "Müəllifə görə", "Müəllifin dediyi kimi" ifadələrindən istifadə etmək olar.  Bununla yanaşı, istinad edilən ifadəni izah edici və ya istiqmətləndirici ifadə ilə əlaqələndirmək də olar.

*Nümunə üçün,  Porter rəqabət mühitinin amillərini tədqiq edərək deyir ki, "ölkənin rəqabət mühiti dörd determinantın təsiri altında formalaşır" (Porter, 2014: s.48)*

Plagiatdan qorunmağın effektiv yollarından biri də elmi araşdırma prosesində mənbələrin düzgün qeyd edilməsidir. İstifadə olunan hər bir qaynağın müəllifi, əsərin tam başlığı, nəşr ili və səhifə nömrəsi diqqətlə qeydə alınmalıdır. Bu məqsədlə EndNote, Zotero və Mendeley kimi istinad idarəetmə proqramlarından istifadə etmək tövsiyə olunur. Belə alətlər tədqiqatçının mənbələrə istinad etməsini sistemləşdirir və texniki səhvlərin qarşısını alır. Məqalə təqdim olunmazdan əvvəl plagiat yoxlama proqramları vasitəsilə mətnin orijinallığının yoxlanması vacibdir. Turnitin, StrikePlagiarism və digər belə alətlər müəllifə istər bilərəkdən, istərsə də bilməyərəkdən yol verilmiş plagiat hallarını əvvəlcədən aşkar etməyə kömək edir. Bu, elmi yazının keyfiyyətini və nəşr üçün qəbul olunma şansını artıran mühüm addımdır.
Mənbələrin istinad formatı da xüsusi əhəmiyyət daşıyır. Məqalə göndəriləcək jurnalın qəbul etdiyi format (məsələn, APA, MLA, Chicago, IEEE və s.) və yaxud dissertasiyanın müdafiə ediləcəyi təşkilatın tələbləri əvvəlcədən araşdırılmalı və istinadlar həmin formata uyğun şəkildə

hazırlanmalıdır. Yalnız etibarlı və elmi mənbələrə – akademik jurnallar, elmi kitablar, konfrans materialları və rəsmi hesabatlara – istinad edilməlidir. Ensiklopedik yazılar, şəxsi bloqlar və qeyri-elmi internet mənbələri elmi işlərdə istinad üçün yararlı hesab olunmur.
Ümumiyyətlə, istifadə olunan mənbələrin mümkün qədər son 5 il ərzində nəşr olunmuş aktual və müasir tədqiqatlara aid olması daha məqsədəuyğundur. İşdə müəyyən klassik nəzəriyyələrə əsaslanan fundamental işlərə də istinadların verilməsi mümkündür.
Nəticə etibarilə, plagiata yol verməmək yalnız texniki tələb deyil, elmi vicdanın və tədqiqatçı mədəniyyətinin əsas göstəricisidir. Düzgün istinad, dəqiq qeydiyyat və şəffaf istifadə prinsiplərinə əməl olunması hər bir elmi əsərin etibarlılığını və akademik dəyərini artırır.

***Cədvəl 1.*** *İstinad formalarının müqayisəsi*

| Yanaşma | İfadə nümunəsi | Qiymətləndirmə |
|---|---|---|
| Plagiat riski olan ifadə | “Bankların rəqəmsal texnologiyalara çıxışı onların səmərəliliyini artırır” | - Mənbəyə istinad yoxdur, başqasının fikri müəllifin öz nəticəsi kimi təqdim olunur, plagiat riski yüksəkdir. |
| Etik ifadə | “Əhmədov (2025) qeyd edir ki, bankların rəqəmsal texnologiyalara çıxışı onların səmərəliliyini artırır.” | - Müvafiq istinad verilib, elmi etikaya riayət olunur, plagiat riski yoxdur və müəlliflik hüququna hörmətlə yanaşılır |

Bəzi tədqiqatçılar akademik yazının incəliklərini öyrənmək əvəzinə internet mənbələrindən hazır mətnlərin əldə edilməsinə üstünlük verir, istinadların göstərilməsi və ədəbiyyat siyahısının tərtibinə laqeyd yanaşaraq özlərini hansı risklərlə üz-üzə qoyduqlarının fərqində olmurlar.
Aşağıda qeyd edilən hallar hər bir tədqiqatçı üçün plagiatda ittiahm riskini daşıyır:

- mənbədən sitat gətirilir, parafraz edilir və ya ümumiləşdirmə aparılır, amma ona tələb olunan formada istinad edilmir və adı ədəbiyyat

siyahısında müvafiq qaydada qeyd edilmir.
- mənbədən gələn ideya və ya üsullardan istifadə edilir, lakin ona istinad edilmir.
- mətndə mənbənin müəyyən hissəsindən olduğu kimi istifadə edilir, lakin bu hissədə mənbəyə birbaşa istinad (dırnaq içində və ya tələb olunan başqa formada) verilmir.
- mənbədəki fikri və ya ideyanın parafrazı zamanı oxşar sözlərdən çox istifadə olunur və istinad göstərilmir.

Beləliklə, akademik yazıda istifadə edilən hər bir mənbə istifadə formasından (parafraz, ümumiləşdirmə, birbaşa istifadə) asılı olmayaraq istinadını tapmalıdır. Mətndə istifadə edilən və başqa müəllifə məxsus olan istənilən fikir, ideya, nəzəri müddəa və baqşa arqumentlər istinadla göstərilməlidir. Parafraz və ya ümumilşdirmə bir neçə abzasdan ibarət olduğu halda hər abzasın sonunda istinadın göstərilməsi tövsiyə olunur. Müəllif mətndə öz şərhlərini, təhlillərini, əldə etdiyi qənaətləri mənbədən götürülən fikirlərdən ayırmağı və istinadı düzgün yerdə göstərməyi bacarmalıdır.

Elm etikası tədqqiatçının təcrübəli və ya təcrübəsiz olmasına görə fərqləndirilə bilməz. Onun prinsipləri hamı üçün eynidir.

## 8.3. İstinadların əhəmiyyəti və göstərilmə formaları

İstinadların göstərilməsi müəllifi plagiat ittihamından qorumaqla yanaşı, əldə edilmiş nəticələrin dürüstülüyünü, etibarlığını və əsaslandırılma səviyyəsinin nümayiş etdirməyə imkan verir. İstinad edilən mənbələrin ədəbiyyat siyahısında düzgün qeyd edilməsi, onun elektron ünvanının göstərilməsi diqqətli oxucuya mətndə təqdim edilən müqayisələrin, əsaslandırmaların və ümumiləşdirmələrin doğruluğunu yoxlamağa imkan verir. Belə imkanları təqdim edən mətnlər müəlliflərin akademik nüfuzunu artırır  və oxucular tərəfindən daha böyük rəğbətlə qarşılanır. Digər tərəfdən, istinadların qeyri-peşəkar şəkildə göstərilməsi tədqiqatçının təcrübəsizliyinin əlaməti kimi qəbul olunur.

Peşəkar oxucular istənilən tədqiqat əsəri ilə tanış olarkən mətndə verilmiş istinadlara və istifadə edilən ədəbiyyat siyahısına diqqətlə baxır, istifadə edilmiş mənbələrin mövzuya uyğunluq dərəcəsini qiymətləndirirlər. Nümunə üçün, institusional iqtisadiyyata aid olan mövzuda aparılmış tədqiqatda bu sahə üzrə Nobel mükafatları almış alımlərin müasir əsərlərinə istinadlar yoxdur. Bu halda oxucunun tədqiqatın keyifyyətinə, əldə edilən nəticələrin dürüstülünə və etibarlığına inamı azalır.

Nüfuzlu almilərin əsərlərinə, mötəbər beynəlxalq təşkilatların, nüfuzlu universitetlərin və tanınmış tədqiqat mərkəzlərinin hesabatlarına istinadlar isə müəllif tərəfindən aparılmış ədəbiyyat icmalının əhatə dairəsinin və dərinliyin lazımi səviyyədə olduğunu göstərir. Səviyyəli elmi əsərin ədəbiyyat siyahısı gənc tədqiqatçılara ədəbiyyat axtarışında da kömək edir.

İstinadların mühüm faydalarından biri də elm etikasının ən vacib məqamlarından biri olan akademik ehtiramla bağlıdır. Bu gün tədqiqat prosesində istifadə edilən nəzəri-metodoloji əsaslar, konsepsiyalar, tədqiqat metodları, informasiya bazaları fədakar elm adamlarının misilsiz zəhməti hesabına yaranıb. Elmi əsərin yazılması zamanı həmin nəzəri əsasları, metodları, informasiya bazalarını yaradan və ya təkmilləşdirən alimlərin əsərlərinə istinadların verilməsi minnətdarlığın bildirilməsinin ən yaxşı formalarından biridir. Buna görə də, elmi əsərdə istinadlar göstərilməklə aparılan ədəbiyyat icmalının əhatəliliyi, dəriniyi və müasirliyi müəlliflərin yüksək etik dəyərlərə riayət etməsinin əlamətlərindən biri kimi də qəbul olunur.

İstinadların verilməsi forması elmi əsərin təqdim edildiyi jurnal, təşkilat, universitet və başqa qurumlar tərəfindən müəyyən edilir. Bu gün mətnlərin hazırlanmasında sitatları avtomatik yaradan proqram təminatları mövcuddur. Süni intellekt proqramları istənilən mövzuda ədəbiyyat icmalını istinadlar göstərilməklə hazırlaya bilir.

Belə vasitələr elmi tədqiqatda vaxtdan səmərəli istifadə üçün çox yaxşı olsalar da, onların çox ciddi mənfi tərəfi də var. Hər bir müəllif oxucusu ilə öz əsəri vasitəsilə ünsiyyət qurur. Oxucu və müəllif arasında vasitəçi (süni intellekt) yarandıqda isə birbaşa ünsiyyət aradan qalxır və elmi əsərlərdə mövcud olan və tədqiqat üçün çox böyük fayda verə biləcək təfərrüatlar diqqətdən kənarda qalır. Süni intellektin cəbedici imkanları gənc tədqiqatçıları mütaliədən uzaqlaşdırmaqla onarın elmi təfəkkürünün məşq prosesini də məhudlaşdırır.

Akademik yazıda istinadların rolu yalnız istifadə olunan mənbənin qeyd edilməsi ilə məhdudlaşmır. Bu, eyni zamanda yazının elmi etibarlılığının və müəllifin akademik məsuliyyətinin göstəricisidir. Hər bir istinad edilmiş fikir, arqument və ya məlumat, oxucuya həmin informasiyanın hansı elmi və ya praktiki əsaslara söykəndiyini nümayiş etdirir. Bu da tədqiqatın şəffaflığını və isbatetmə gücünü artırır. Etibarlı istinad sistemi olmayan yazı oxucu üçün qeyri-müəyyənlik doğurur və mənbələrin doğruluğunu yoxlamaq imkanını məhdudlaşdırır. Bu baxımdan istinadlar həm yazının strukturu, həm də məzmunu üçün

funksional əhəmiyyət daşıyır.
Akademik yazılarda fikrin yalnız müəllif tərəfindən irəli sürülməsi kifayət deyil. Həmin fikrin elmi ədəbiyyatda dəstəklənməsi, əvvəlki tədqiqatlarla əlaqələndirilməsi və bu kontekstdə əsaslandırılması tələb olunur. Məhz bu məqsədlə istinad sistemi işlədilir. Müasir elmi ədəbiyyatda istinadların yazıya daxil edilməsinin ən mühüm funksiyalarından biri də plagiatın qarşısını almaq və müəllif hüquqlarını qorumaqdır (Pecorari, 2015). Eyni zamanda, istinadlar elmi diskussiyaya daxil olmağın və mövcud biliklər bazasına yeni qatqı verməyin əsas yoludur. Etibarlı istinadlar tədqiqatın elmi mənbələrə əsaslandığını göstərməklə yanaşı, həm də onların aktual, müasir və orijinal olmasını nümayiş etdirir. Bu səbəbdən nüfuzlu akademik jurnallarda və beynəlxalq nəşrlərdə çap olunmuş əsərlərə istinad daha yüksək qiymətləndirilir (American Psychological Association, 2020). Həmçinin, yazıda istifadə olunan istinadların uyğun seçilməsi – yəni tədqiqatın məqsədinə, mövzuya və istiqamətinə uyğun şəkildə qurulması – yazının analitik səviyyəsini və dərinliyini artırır. Təsdiq olunmamış, ümumi və qeyri-elmi mənbələrə əsaslanaraq arqument qurmaq həm yazının keyfiyyətini, həm də oxucu etimadını zəiflədir. Nəticə etibarilə, istinadların düzgün və məqsədyönlü şəkildə təqdim edilməsi tədqiqatın etibarlılığını və müəllifin elmi obyektivliyini gücləndirən əsas amillərdəndir
Akademik yazının əsas şərtlərindən biri istifadə olunan mənbələrin düzgün və sistemli şəkildə qeyd olunmasıdır. Mənbələrə istinad, yalnız etik öhdəlik deyil, həm də elmi biliklərin şəffaf şəkildə ötürülməsini təmin edən mühüm prinsiplərdəndir (American Psychological Association, 2020). Fərqli sahələrdə müxtəlif sitat üslubları tətbiq olunur və bu üslubların hər birinin məqsədi elmi informasiyanı dəqiq və ardıcıl şəkildə təqdim etməkdir.
Ən geniş istifadə olunan sitat sistemlərindən biri APA (American Psychological Association) üslubudur. Xüsusilə psixologiya, sosial elmlər, təhsil və biznes sahələrində istifadə olunan APA formatı mənbə haqqında əsas informasiyanı qısa və aydın şəkildə mətnin içində göstərməyi tələb edir. Bu üslubda müəllifin soyadı və nəşr ili verilir və birbaşa istinadlarda səhifə nömrəsi əlavə edilir.

*Məsələn, (Pecorari, 2015). Ədəbiyyat siyahısında isə tam istinad belə təqdim olunur: Pecorari, D. (2015). Academic Writing and Plagiarism: A Linguistic Analysis. London: Bloomsbury Academic.*

***Cədvəl 1.*** *APA formatında düzgün və səhv istinad nümunələri*

| Yanaşma | İstinad Nümunəsi | Qiymətləndirmə |
|---|---|---|
| Səhv yanaşma | Həsənov, T. kitab texnologiyalar 2020 Mammadli, Z. təhsil haqqında fikir, 2022 | -APA standartına uyğun deyil, başlıq, il, nəşriyyat ayrılmayıb, orfoqrafik və qrammatik səhvlər var |
| Doğru yanaşma | Həsənov, T. (2020). Təhsildə rəqəmsal texnologiyaların rolu. Bakı: Elm Nəşriyyatı. Məmmədli, Z. (2022). Ali məktəblərdə texnologiyaların tətbiqi. Gəncə: Təhsil Press. | APA formatına tam uyğundur, əsərin adı kursivlə verilib, müəllif, il, əsərin adı və nəşriyyat ardıcıllığı qorunub |

***Mənbə:*** *Scribbr (2024). APA Citation Guidelines. https://apastyle.apa.org/style-grammar-guidelines/references/examples*

APA formatı oxucuya istinad olunan mənbənin aktuallığını və vaxt kontekstini dərhal anlamağa imkan verir, çünki tarix çox önəmlidir (Bailey, 2018). APA üslubunda bütün mənbələr əlifba sırası ilə düzülür və ədəbiyyat siyahısının ayrıca bir səhifədə “References” başlığı altında təqdim edilməsi tələb olunur. Əgər birbaşa sitat verilir və ya konkret səhifəyə istinad olunursa, səhifə nömrəsi belə əlavə edilir: (Pecorari, 2015, p. 67).

**MLA (Modern Language Association) üslubu** əsasən humanitar sahələrdə, xüsusilə dilçilik, ədəbiyyat, mədəniyyət araşdırmaları sahələrində geniş tətbiq olunur. MLA üslubunda mənbəyə istinad zamanı yalnız müəllifin soyadı və səhifə nömrəsi göstərilir, nəşr ili qeyd olunmur. Bu yanaşma humanitar sahələrin uzun müddətli mənbə istifadəsi xüsusiyyətindən irəli gəlir; burada tarixi kontekst deyil, mətnin mövqeyi daha önəmlidir (Modern Language Association, 2021).

Mətn içi istinad nümunəsi: (Pecorari 45). Ədəbiyyat siyahısında

göstərilməsi:
Pecorari, Diane. Academic Writing and Plagiarism: A Linguistic Analysis. Bloomsbury Academic, 2015.

MLA üslubunda istinad edilən mənbələr "Works Cited" siyahısında toplanır və əlifba sırası ilə düzülür. Sitatlar əsasən qısa olur və oxucu mənbənin tam detalını sonunda əldə edir.

**Chicago Manual of Style** üslubu daha çevikdir və iki əsas variantı təklif edir: biri "Footnotes and Bibliography" sistemi, digəri "Author-Date" sistemidir. Tarix, fəlsəfə və bəzi sosial elmlərdə daha çox istifadə olunan Chicago üslubu mənbə haqqında geniş informasiya təqdim etməyə imkan verir (University of Chicago Press, 2025, https://www.chicagomanualofstyle.org/tools_citationguide/citation-guide-2.html)

*"Author-Date" variantında mətn içi istinad nümunəsi: (Pecorari 2015, 67). Ədəbiyyat siyahısında göstərilməsi: Pecorari, Diane. 2015. Academic Writing and Plagiarism: A Linguistic Analysis. London: Bloomsbury Academic.*

Əgər "Footnotes and Bibliography" variantı istifadə edilirsə, hər istinad üçün səhifənin aşağısında dipnot qeyd edilir və sonunda ayrıca bir biblioqrafiya təqdim olunur. Bu yanaşma tədqiqatlarda, xüsusilə tarixi araşdırmalarda mənbənin tam kontekstini izah etmək üçün geniş imkan yaradır.

**Harvard istinad üslubu** daha çox iqtisadiyyat, biznes və bəzi təbiət elmlərində istifadə olunur. Harvard sistemi sadə və praktik yanaşması ilə fərqlənir və çox zaman universitetlərin tələb etdiyi standart formatlardan biri kimi tətbiq olunur. Bu sistemdə müəllifin soyadı, nəşr ili və səhifə nömrəsi mətn içində verilir (Taylor, 2019).

*Mətn içi istinad nümunəsi: (Pecorari, 2015, p. 67). Ədəbiyyat siyahısında göstərilməsi:Pecorari, D. (2015) Academic Writing and Plagiarism: A Linguistic Analysis. London: Bloomsbury Academic.*

Harvard formatı APA-ya bənzəsə də, bəzi təqdimat detallarında fərqlənir. Məsələn, ədəbiyyat siyahısı "References" başlığı altında verilir və çox vaxt səhifə nömrələri mətn daxilində göstərilir.
Bu üslubların hər biri sahənin tələblərinə və təqdimat tərzinə görə

formalaşıb. Məsələn, sosial elmlərdə aktual tarixlər vacib olduğu üçün APA üstünlük təşkil edir, humanitar sahələrdə isə mətnin öz konteksti daha önəmli olduğu üçün MLA daha uyğundur. Tarixi və fəlsəfi tədqiqatlarda geniş izah tələb olunduğundan Chicago formatı üstünlük qazanır, praktiklik və çeviklik tələb edən sahələrdə isə Harvard formatı seçilir. Hər bir akademik yazar çalışdığı sahənin tələblərinə uyğun istinad sistemini seçməli və bütöv mətn boyu ardıcıl olaraq həmin qaydalara riayət etməlidir (Pecorari, 2015). İstinad sisteminə uyğunluq yalnız akademik dürüstlük üçün deyil, həm də oxucunun mənbəyə çıxışını asanlaşdırmaq və mətnin etibarlılığını təmin etmək üçün vacibdir.

Hər bir istinad stilindən istifadə zamanı ən kiçik detallara diqqət yetirilməli, vergül, nöqtə, boşluq və böyük hərf, kursiv yazı kimi şərtlərə ciddi riayət edilməlidir. Burada yol verilən hər-hansı diqqətsizlik və səhv oxucuda əsərlə bağlı yanlış istinadvermə rəyini yarada bilər. Bu hal plagiat ittihamı üçün də əsas verə bilər. İstinadların göstərilməsi və ədədbiyyat siyahısının tərtibində uyğusuzluq müəlliflərin akademik reputasiyasını ciddi şəkildə zədələnməsi, tələbələrin isə müdafiə prosesində uğursuzluğu ilə nəticələnə bilər.

İri həcmli mətnlərin tərtibi zamanı istinadların dərhal göstərilməməsi və təxirə salınması  istinadın verilməli olduğu yerin unudulması ilə nəticələnə bilər. Buna görə də, istinadları mətnin hazırlandığı anda qeyd edilməsində fayda var.

Mətndə hamıya məlum olan ümumi nəzəri müddəaların və reallıqların ifadəsində istinadların göstərilməsinə ehtiyac yoxdur. Lakin müəllifə aid olmayan aşağıdakı fikirlərin ifadəsində istinadların göstərilməsi zəruridir:

- ideyanın müəllifi dəqiq məlum olduqda;
- ideya elm sahəsinin ümumi məlumatının bir hissəsi olmayacaq qədər yeni olduqda.

Nümunə üçün, əgər biz mətndə tələb qanununun işləmə mexanizmini öz fikirlərimizlə  izah ediriksə, o zaman tələb qanununu ilk dəfə ifadə edən və onun izahını verən digər müəlliflərə istinadın göstərilməsinə ehtiyac yoxdur. Tələb qanununun bütün iqtisadçılara məlum olna işləmə mexanizminin müəllif tərəfindən özünəmxsus formada izahı zamanı oxucular tərəfindən istinad gözləntisi yaranmır.  Lakin tələb qanununun işləmə mexanizminin pozulamsı halları ilə bağlı ideyaları ifadə edərkən həmin ideyaların başqa müəlliflərə məxsus olmasına xüsis diqqət yetirmək lazımdır.

Bəzi gənc tədqiqatçılar inernet resurslarında hamı üçün əlçatan olan

məlumatlardan istifadə edərkən istinada ehtiyacın olmadığını düşünür. Unutmaq olmaz ki, həmin məlumatlar internet resurslarında öz-özünə yaranmayıb və onların müəllifi var. Digər tərəfdən, həmin materialların açıq istifadədə olması onların elmi mətnlərdə müəllifə məxsus olan hissələr kimi göstərilməsi üçün hüquqi əsas yaratmır.

## 8.4. Akademik yazıda mənbələrin siyahısının tərtibi

Aşağıda ədəbiyyatın yazılmasının xüsusi halları üçün müəyyən edilmiş qaydalara dair nümunələr göstərilmişdir:

1. Ədəbiyyat elmi jurnaldan götürülmüş məqalə oduqda - müəllifin və ya müəlliflərin soyadı və adı, dırnaq işarəsi içində məqalənin adı, elmi jurnalın adı, nömrəsi, il və məqalənin jurnalda yerləşdiyi səhifələr qeyd olunur – Nümunə: Tom Baum və Vjollca Bakiu "Tourism in Albania: Competing in the Mediterranean Region", Anatolia: An International Journal of Tourism And Hospitality Research, Vol.10, 1999, s. 5.
2. Tək müəllifli kitab – soyad, adın baş hərfi, (dərc olunma tarixi), kitabın adı, nəşr yeri, nəşriyyat, kitabın həcmi (səhifə) – Щумпеттер Й. (1981), Теория экономического развития, Москва. «Прогресс», 401 стр.
3. Çox müəllifli kitab – müəlliflərin soyadı və adlarının baş hərfləri, (nəşr olunduğu il), kitabın adı, nəşr yeri, həcmi – nümunə: Allahverdiyev H.B., Qafarov K.S. və Əhmədov Ə.M. (2002), İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı, "Nasir" - 446 səh.
4. Əlyazma - müəllifin soyadı və adı, əsərin adı, olduğu kitabxana, fəsil nömrəsi.
5. Tərcümə olunmuş əsər – müəllifin və ya müəlliflərin soyadı və adı, (dərc olunma tarixi), əsərin adı, tərcüməçinin adı / redaktorun adı, nəşr yeri, nəşriyyat, həcm (səhifə)
6. Redaktorluqla yazılmış kitabda bölmə - müəllifin soyadı və adı, (dərc olunma tarixi), "bölmənin adı", (redaktorun soyadı və adı), kitabın adı, nəşr yeri, nəşriyyat, bölmənin kitabda yerləşdiyi səhifələr.
7. Redaktorluqla yazılmış kitab – redaktorun soyadı və adı (redaktor), (nəşr olunduğu il), kitabın adı, nəşr yeri, nəşriyyat, həcm (səh.).
8. Magistr dissertasiyası – soyad və ad, (il), magistr dissertasiyasının adı, universitetin adı, yerləşdiyi yer, həcm (səhifə).
9. Lüğət – soyad və ad, (nəşr olunduğu il), lüğətin adı, nəşr yeri, nəşriyyat.
10. Məruzə - soyad və ad (nəşr olunduğu il), "Məruzənin adı", Məruzənin edildiyi tədbirin adı, tarixi və yeri, nəşr yeri, nəşriyyat, dərgidə yerləşdiyi

səhifə.
11. Televizor və ya radio proqramı - programın adı (növ) və yayımçı şirkət, (yayıldığı tarix).
12. Sənədli film (yerli) – müəllifin soyadı və adı (çəkildiyi il), sənədli filmin adı, yayımçı firma/distribütor şirkəti, çəkildiyi yer.
13. Sənədli film (əcnəbi) - müəllifin soyadı və adı (çəkildiyi il), sənədli film / filmin Azərbaycanca adı (sənədli filmin orijinal adı), istehsalçı firma/distribütor şirkət, çəkildiyi yer.
14. Qəzet məqaləsi – müəllifin soyadı və adı, (qəzetin çıxdığı gün, ay, il). "Məqalənin adı". Qəzetin adı, səhifə nömrəsi.
15. Çap edilmiş kitabın elektron variantı, soyadı və ad (nəşr ili). Kitabın elektron ünvanı, nəşr yeri, nəşriyyat.
16. Verilənlər bazasında məqalə - soyad və ad, (dərc olunma tarixi). Məqalənin adı. Jurnal adı, nömrəsi: yerəşdiyi səhifələri, elektron ünvanın tam adı.

## Ədəbiyyat siyahısı

24. American Psychological Association. (2020). Publication manual of the American Psychological Association (7th ed.). Washington, DC: American Psychological Association.
25. Bailey, S. (2018). Academic writing: A handbook for international students (5th ed.). London: Routledge.
26. Booth, W. C., Colomb, G. G., & Williams, J. M. (2016). The craft of research (4th ed.). University of Chicago Press.
27. Flower, L., & Hayes, J. R. (1981). A cognitive process theory of writing. College Composition and Communication, 32(4), 365–387.
28. Graff, G., & Birkenstein, C. (2016). They say / I say: The moves that matter in academic writing (3rd ed.). W. W. Norton & Company.
29. Graff, G., & Birkenstein, C. (2018). They say / I say: The moves that matter in academic writing (4th ed.). New York: W. W. Norton & Company.
30. Hart, C. (2018). Doing a literature review: Releasing the research imagination (2nd ed.). London: Sage Publications.
31. Hyland, K. (2019). Second language writing. Cambridge: Cambridge University Press.
32. Macfarlane, B. (2009). Researching with integrity: The ethics of academic enquiry. London: Routledge.
33. Pecorari, D. (2015). Academic writing and plagiarism: A linguistic analysis. London: Bloomsbury Academic.

*f.ü.f.d., müəl. Quliyev Hüseynqulu İmran*

# IX. BEYNƏLXALQ ELMİ JURNALLARDA (WOS, SCOPUS, ELSEVİER VƏ S.) MƏQALƏ NƏŞR ETDİRMƏNİN ƏSAS ŞƏRTLƏRİ

9.1. Beynəlxalq elmi jurnalların rolu
9.2. Beynəlxalq Elmi Nəşriyyat Sistemi və İndeksləri
9.2.1. Beynəlxalq Elmi Məlumat Bazaları
9.2.1.1. Web of Science
9.2.1.2. Scopus
9.2.1.3. Google Scholar
9.2.1.4. Beynəlxalq Elmi Məlumat Baza və Platformalarının müqayisəsi
9.2.2. Beynəlxalq Elmi Nəşriyyatlar
9.2.2.1. Elsevier
9.2.2.2. Springer Nature
9.2.2.3. Taylor & Francis
9.2.2.4. SAGE Publications
9.2.2.5. Oxford University Press
9.2.2.6. Cambridge University Press
9.3.2.7. IEEE (Institute of Electrical and Electronics Engineers)
9.3.2.8. MDPI (Multidisciplinary Digital Publishing Institute)
9.2.3. Elmi Jurnalların Reytinq Sistemi və İndeksləmə
9.3. Düzgün jurnal seçimi və mövzu uyğunluğu
9.4. Məqalənin təqdim olunması və nəşr prosesi
9.4.1. Məqalənin jurnal sisteminə təqdim olunması prosesi
9.4.2. Redaktor tərəfindən ilkin qiymətləndirmə prosesi
9.4.3. Rəyçilərə göndərilmə və rəy prosesi
9.4.4. Məqalənin Qəbulu
9.5. Elmi jurnalların nəşr modelləri və müəllif hüquqları
9.5.1. Ənənəvi nəşr modeli (Subscription-based model)
9.5.2. Açıq Mənbə modeli (Open Access model)
9.5.3. Hibrid Model

9.5.4. Nəşr modellerinin qarşılaşdırılması
9.6. Elmi Nəşrlərdə Müəllif Hüquqları
9.7. Uğurlu nəşr üçün tövsiyələr və tez-tez buraxılan səhvlər
Ədəbiyyat siyahısı

**Elmi məqalə nədir?**
Müasir dövrdə elm və texnologiyanın sürətli inkişafı cəmiyyətlərin tərəqqisi ilə birbaşa əlaqəlidir. Bu inkişafın əsas mənbəyi isə elmi tədqiqatlardır. Elmi tədqiqatların nəticələri isə sadəcə laboratoriya və ya tədqiqat otaqlarında saxlanılmır - bu biliklərin ictimaiyyətə, elmi ictimaiyyətə və praktik sahələrə ötürülməsi elmi məqalələr vasitəsilə həyata keçirilir. Elmi məqalə, müəyyən bir sahədə aparılmış tədqiqatın nəticələrini sistematik, məntiqi və sübutlara əsaslanan şəkildə təqdim edən rəsmi sənəd formatıdır. Elmi məqalələr həm fundamental, həm də tətbiqi sahələrdə yeni biliklərin əldə olunması, mövcud nəzəriyyələrin təkmilləşdirilməsi və ya yeni nəzəri modellərin təklif olunması baxımından böyük əhəmiyyət daşıyır.

Elmi məqalə dedikdə, tədqiqatçının müəyyən bir problemin həlli istiqamətində apardığı araşdırmanın məqsəd, metod, nəticə və müzakirə hissələri ilə strukturlaşdırılmış, akademik normalara uyğun və elmi cəmiyyətə təqdim olunan yazılı iş başa düşülür. Elmi məqalə yeni məlumat təqdim etməli, əvvəlki tədqiqatlara əsaslanmalı və elmi yanaşmalarla dəstəklənməlidir. O, həmçinin təkrar edilə bilən və obyektiv olmalıdır ki, digər tədqiqatçılar həmin nəticələri yoxlaya və üzərində yeni tədqiqatlar qura bilsinlər.
Elmi nəşrlərin uğurla qəbul olunması üçün onların yalnız məzmun baxımından deyil, həm də forma baxımından beynəlxalq standartlara uyğun olması zəruridir. Struktur (məsələn, IMRAD — Introduction, Methods, Results, and Discussion), istinad üslubu (APA, IEEE, Chicago və s.), dil səviyyəsi, cədvəl və qrafiklərin istifadəsi kimi texniki meyarlar bu baxımdan xüsusi əhəmiyyət daşıyır.

**Elmi məqalələrin nəşrinin əhəmiyyəti**
Elmi məqalələrin nəşri sadəcə tədqiqatçının şəxsi uğuru deyil, eyni zamanda elmin özü üçün fundamental bir ehtiyacdır. Hər hansı bir elmi təcrübənin və ya nəzəri tədqiqatın nəticələri nə qədər mühüm və gözqamaşdırıcı olsa da bu nəticələr dərc olunmadıqca elmi ictimaiyyət üçün əlçatan deyil və elmin inkişafına real töhfə vermiş sayılmır. Bu

baxımdan, nəşr olunmayan tədqiqat — nə qədər dəyərli olsa belə — elm adına tamamlanmamış hesab edilir. ABŞ-lı elm jurnalisti Gerard Piel bu həqiqəti çox təsirli şəkildə belə ifadə edir: “Çap edilməyən elm ölüdür”(Piel, G., 2001).

Bu ifadə təkcə nəşrin əhəmiyyətini vurğulamır, həm də elmin canlılığının və inkişafının onun paylaşılması ilə mümkün olduğunu açıq şəkildə ortaya qoyur. Nəşr olunmuş məqalə elmi biliklər zəncirinin bir halqasına çevrilir və digər tədqiqatlara təkan verən baza rolunu oynayır.
Elmi məqalələrin nəşri aşağıdakı məqsədlərə xidmət edir:

- **Yeni biliklərin yayılması:** Tədqiqat nəticələrinin paylaşılması gələcək araşdırmalar üçün dayaq rolunu oynayır.
- **Elmi biliklər toplanır və sistemləşdirilir:** Fərdi nəticələr ümumi elmi irsin bir hissəsinə çevrilir.
- **Akademik nüfuz artır:** Tədqiqatçının beynəlxalq səviyyədə tanınması məqalələrinin keyfiyyəti və yayımlandığı jurnalların nüfuzu ilə birbaşa əlaqəlidir.
- **Tədqiqat qrantları üçün baza formalaşır:** Beynəlxalq elmi nəşrlər tədqiqatçının potensialını qiymətləndirmək üçün əsas meyardır.
- **Təhsil və siyasətə təsir göstərir:** Elmi nəticələr ali təhsil proqramlarında, dövlət və özəl siyasətlərin formalaşmasında əsas informasiya mənbəyidir.

## 9.1. Beynəlxalq elmi jurnalların rolu

Beynəlxalq elmi jurnallarda məqalə dərc etdirmək, elmi biliklərin qlobal səviyyədə paylaşılması, tədqiqat nəticələrinin beynəlxalq elmi ictimaiyyət tərəfindən tanınması və gələcək əməkdaşlıqlar üçün yeni imkanların yaranması baxımından mühüm əhəmiyyət daşıyır. Belə nəşrlər yalnız bir tədqiqatçının fərdi elmi nüfuzunu artırmaqla kifayətlənmir, həm də onun çalışdığı müəssisənin beynəlxalq elmi arenada mövqeyinin möhkəmlənməsinə töhfə verir. Elmi məqalənin nüfuzlu jurnalda dərc olunması, həmin tədqiqatın etibarlılığının və aktuallığının təsdiqi kimi qiymətləndirilir.
Beynəlxalq elmi jurnallar (xüsusilə Web of Science (WOS), Scopus, Elsevier, Springer Nature, IEEE, Taylor & Francis və MDPI kimi platformalarda indekslənmiş jurnallar) tədqiqatların qlobal elmi cəmiyyət tərəfindən qəbul olunmasını və yayılmasını təmin edir. Bu jurnalların nəşr

siyasəti yüksək keyfiyyətli, orijinal və ciddi elmi əsaslandırmaya malik məqalələri seçməklə elmin inkişafına xidmət edir. Bu jurnallarda dərc olunmaq üçün müəyyən qiymətləndirmə meyarlarına əməl olunmalıdır. Bunlar arasında:

- Tədqiqatın orijinallığı,
- Metodologiyanın düzgünlüyü,
- Nəticələrin elmi cəmiyyət üçün əhəmiyyəti,
- İstinadların aktuallığı və düzgünlüyü,
- Elmi və texniki yazı bacarıqları xüsusi yer tutur.

Elmi nəşrlərin sayı və keyfiyyəti yalnız fərdi tədqiqatçıların deyil, eyni zamanda universitetlərin və tədqiqat institutlarının da beynəlxalq reytinqlərdə mövqeyini müəyyən edir. Bu səbəbdən bir çox ölkələrdə elmi nəşr fəaliyyəti dövlət tərəfindən stimullaşdırılır, bəzi hallarda isə ali təhsil müəssisələri tərəfindən maddi və akademik təşviqlərlə dəstəklənir.

## 9.2. Beynəlxalq Elmi Nəşriyyat Sistemi və İndeksləri

Beynəlxalq elmi nəşriyyat sistemi, tədqiqatçıların nəticələrini geniş auditoriyaya çatdıran və bu məlumatları müxtəlif akademik məlumat bazalarında indeksləyən bir struktura malikdir. Bu sistemdə hər bir jurnalın nəşr olunduğu nəşriyyat, həmin jurnalların akademik keyfiyyətini təsdiq edən beynəlxalq məlumat bazaları və həmin jurnalların elmi qiymətini əks etdirən reytinq və indeksləmə prosesləri əhəmiyyətli rol oynayır. Elmi jurnalların və nəşriyyatların beynəlxalq sistemdəki yeri, onların müasir elm dünyasında nə qədər təsirli olduğunu və elmi araşdırmaların keyfiyyətini necə artırdığını müəyyən edir.

Elmi tədqiqatların və akademik nəşrlərin beynəlxalq aləmdə yayılması, elmi biliklərin paylaşılması və tədqiqatçıların nəticələrinin geniş auditoriyaya çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə, iki əsas struktur – elmi baza və elmi nəşriyyat – elmi fəaliyyətin yayımlanmasında və tədqiqatçıların işlərinin qiymətləndirilməsində mühüm rol oynayır. Hər iki quruluş bir-birini tamamlayır, lakin onların funksiyaları fərqlidir.

Elmi baza, elmi məqalələrin, jurnalların və digər tədqiqat materiallarının sistematik şəkildə toplanmasını və indekslənməsini təmin edən elektron platformadır. Bu bazalar, jurnalların elmi keyfiyyətini qiymətləndirərək onları müxtəlif indekslərdə yerləşdirir və bu cür məlumatlar tədqiqatçılara elmi dünyada nə qədər tanındıqlarını göstərir. Məsələn,

Web of Science (Clarivate Analytics, 2025a) və Scopus (Scopus, 2025) kimi məlumat bazaları, jurnalları və məqalələri indeksləyərək elmi cəmiyyətlərdə tanınmasını təmin edir. Bu bazalar vasitəsilə, elmi məqalələr geniş auditoriyaya çatdırılır və tədqiqatçılar daha çox iş birliyi və əlaqə qurmaq imkanı əldə edirlər.

Elmi nəşriyyat isə, elmi məqalələrin nəşrini həyata keçirən qurumlardır. Nəşriyyatlar, tədqiqatçılardan gələn məqalələri qəbul edir, onların keyfiyyətini qiymətləndirir, rəy prosesindən keçirir və ən yaxşılarını müxtəlif jurnallarda çap edir. Elmi nəşriyyatlar tədqiqatçıların işlərini geniş auditoriyaya təqdim edir və elmi sahələrdəki ən son nailiyyətləri yayır. Bu nəşriyyatlar, Elsevier, Springer Nature və IEEE kimi nüfuzlu şirkətlər tərəfindən idarə olunur və elmi məqalələrin nəşrində yüksək etik və elmi standartlara riayət edirlər.

Bu iki strukturu bir-birindən ayıran əsas fərq, elmi bazanın məlumatların indekslənməsini və toplanmasını təmin etməsi, elmi nəşriyyatın isə məqalələrin nəşrini təşkil etməsidir. Elmi bazalar, nəşriyyatlarda yayımlanan məqalələrin tanınmasına və daha çox oxunmasına kömək edərək, elmi cəmiyyətin inkişafını dəstəkləyir. Nəşriyyatlar isə, yalnız yüksək keyfiyyətli məqalələri seçməklə yanaşı, onların elmi və akademik dünyada etibarlı şəkildə çap edilməsini təmin edir.

Bu bölmədə beynəlxalq elmi nəşriyyat sisteminin əsas aspektləri və bu sistemdəki müxtəlif indekslər və reytinqlər nəzərdən keçiriləcək. Xüsusilə, bu mövzu üç əsas alt başlıq üzrə ətraflı şəkildə incələnəcək:

- Beynəlxalq Elmi Məlumat Bazaları – Bu alt başlıqda elmi jurnalların indeksləndiyi əsas məlumat bazaları və onların jurnalların elmi keyfiyyətinə təsiri izah olunacaq.
- Beynəlxalq Elmi Nəşriyyatlar – Beynəlxalq elmi nəşriyyatların strukturu, nüfuzu və onların müxtəlif sahələrdəki rolundan bəhs ediləcək.
- Elmi Jurnalların Reytinq Sistemi və İndekslənmə – Jurnalların elmi keyfiyyətini ölçmək üçün istifadə olunan reytinq və indeksləmə metodları barədə ətraflı məlumat veriləcək.

## 9.2.1. Beynəlxalq Elmi Məlumat Bazaları

Elmi tədqiqatların və akademik nəşrlərin keyfiyyətini qiymətləndirmək və onların elmi cəmiyyətdə tanınmasını təmin etmək üçün beynəlxalq məlumat bazaları mühüm rol oynayır. Bu bazalar, müxtəlif elmi jurnalları və məqalələri sistematik şəkildə toplayaraq, onlara indeksləmə və

qiymətləndirmə funksiyalarını yerinə yetirir. Beynəlxalq elmi məlumat bazalarına daxil olan jurnallar, onların elmi keyfiyyətinə və etibarlılığına görə geniş elmi ictimaiyyətin diqqətini cəlb edir və tədqiqatçılara yüksək akademik status qazandırır.

Beynəlxalq elmi məlumat bazalarının əsas məqsədi, elmi jurnalların keyfiyyətini obyektiv şəkildə qiymətləndirməkdir. Bu bazalar, məqalələrin və jurnalların elmi təsirini ölçmək üçün müxtəlif indekslərdən istifadə edir. Məsələn, Impact Factor (IF) və h-index kimi göstəricilər, jurnalların nə qədər sitat alındığını və bu jurnallarda yayımlanan məqalələrin elmi aləmdə nə qədər təsirli olduğunu göstərir. Həmçinin, bu bazalar, elmi jurnalların tədqiqatçılar üçün əlçatan olmasını təmin edir və geniş elmi əlaqələr qurulmasına imkan yaradır.

Beynəlxalq məlumat bazaları arasında ən məşhurları Web of Science, Scopus və Google Scholar kimi platformalardır. Web of Science (Clarivate Analytics, 2025a) və Scopus (Scopus, 2025) kimi məlumat bazaları jurnalların indekslənməsini və onların elmi təsirini qiymətləndirən ən geniş istifadə olunan platformalardır. Bu bazalar, elmi jurnalları bir çox fərqli kriteriya ilə qiymətləndirərək, onların elmi əhəmiyyətini və səlahiyyətini göstərir.

Beynəlxalq elmi məlumat bazalarına daxil olmaq, yalnız bir jurnalın akademik nüfuzunu artırmaqla qalmır, həm də həmin jurnalda yayımlanan məqalələrin elmi ictimaiyyət tərəfindən daha çox tanınmasına və sitat alınmasına səbəb olur. Bu isə, tədqiqatçılar üçün daha geniş əməkdaşlıq imkanları, elmi müzakirələrdə iştirak və tədqiqatların tanınması baxımından çox mühüm əhəmiyyət kəsb edir.

### 9.2.1.1. Web of Science

Web of Science, Clarivate Analytics tərəfindən idarə olunan və dünyada elmi tədqiqatların qiymətləndirilməsində ən nüfuzlu istinad platformalarından biri hesab olunur. Bu platforma, elmi jurnalların keyfiyyətini və etibarlılığını qiymətləndirən, geniş çeşiddə indekslərlə təmin edilmişdir. Web of Science müxtəlif elmi sahələrdəki nəşrləri indeksləyir və tədqiqatçıların işlərinin dünya səviyyəsində tanınmasını təmin edir. Web of Science-da indekslənmək, elmi jurnal üçün böyük bir etibarlılıq və nüfuz qazandırır, çünki yalnız ciddi elmi, metodoloji və etik kriteriyalara cavab verən jurnallar bu bazaya daxil olur.

Web of Science müxtəlif indekslərdən ibarətdir ki, bu indekslər müxtəlif elmi sahələrdə nəşrlərin keyfiyyətini və elmi təsirini qiymətləndirir.

Ən əhəmiyyətli və geniş istifadə olunan indekslər bunlardır (Clarivate Analytics, 2025a):

- **Science Citation Index Expanded (SCI-Expanded):** Bu indeks, təbiət elmləri və mühəndislik sahələrində yayımlanan ən nüfuzlu və yüksək təsirli jurnalları əhatə edir. SCI-Expanded, fizikadan kimyaya, mühəndislikdən biotexnologiyaya qədər müxtəlif sahələrdəki jurnalların nəşrini qiymətləndirir və bu sahələrin inkişafına mühüm təsir göstərir.
- **Social Sciences Citation Index (SSCI):** SSCI, sosial elmlər sahəsində yayımlanan jurnalların indekslənməsi üçün nəzərdə tutulmuşdur. Sosial elmlər, iqtisadiyyat, sosiologiya, psixologiya, təhsil və digər əlaqəli sahələrdəki jurnallar bu indeksdə yer alır. Bu indeksin jurnalları sosial elmlərin inkişafına dair mühüm töhfələr verir.
- **Arts & Humanities Citation Index (AHCI):** AHCI, incəsənət və humanitar elmlər sahəsindəki jurnalları əhatə edir. Ədəbiyyat, fəlsəfə, tarix, dilçilik və digər humanitar sahələrdəki jurnalların indeksi olan AHCI, bu sahələrdəki elmi müzakirələrin və inkişafların izlənməsi üçün vacib bir resursdur.

Web of Science daxilindəki jurnallar, ciddi seçmə və qiymətləndirmə proseslərindən keçir. Bu proseslər, yalnız ən yüksək elmi standartlara cavab verən jurnalların indekslənməsini təmin edir. Beləliklə, Web of Science -da indekslənmək jurnallar üçün çox əhəmiyyətli bir göstəricidir, çünki bu, jurnalların akademik aləmdəki nüfuzunun və etibarlılığının güclü olduğunu göstərir.

Bununla yanaşı, Web of Science platforması, tədqiqatçılara və akademik müəssisələrə öz işlərini izləmək, yeni tədqiqat sahələrini kəşf etmək və elmi əlaqələr qurmaq üçün geniş imkanlar təqdim edir. Tədqiqatçıların məqalələrini bu bazada tapmaq və yayımlamaq, onlara beynəlxalq aləmdə tanınma və yüksək qiymət almaq şansı verir.

## 9.2.1.2. Scopus

Scopus, Elsevier tərəfindən idarə olunan və dünyanın ən geniş elmi məlumat bazalarından biri hesab olunan platformadır. Bu baza elmi jurnalların, konfrans materiallarının, kitabların və digər akademik nəşrlərin indeksləşdirilməsi üçün istifadə olunur. Scopus müxtəlif elmi sahələrdə yüksək keyfiyyətli tədqiqatları bir araya gətirir və dünya üzrə tədqiqatçılar, akademik müəssisələr və elmi təşkilatlar üçün əhəmiyyətli

bir resurs rolunu oynayır (Scopus, 2025).
Scopus yalnız elmi nəşrlərin tapılması üçün deyil, həm də onların sitat göstəriciləri, CiteScore, h-indeksi haqqında detallı məlumatların əldə olunması üçün də effektiv vasitədir. Bu xüsusiyyətlər tədqiqatçıların öz elmi fəaliyyətlərini izləmələri, müqayisə etmələri və beynəlxalq səviyyədə tanınmaları üçün mühüm imkanlar yaradır.
Scopus platformasının əsas xüsusiyyətləri aşağıdakı kimi ümumiləşdirilə bilər (Elsevier, 2025a):

- **İndeks sahələrinin genişliyi:** Platforma təbiət elmləri, mühəndislik, tibb, sosial və humanitar elmlər daxil olmaqla müxtəlif sahələri əhatə edir. Jurnalların keyfiyyəti və elmi təsiri CiteScore, h-index və digər göstəricilər əsasında qiymətləndirilir.
- **CiteScore və h-index ölçmələri:** CiteScore, bir jurnalda dərc olunmuş məqalələrin orta sitat sayını, h-index isə bir müəllifin və ya jurnalın həm məhsuldarlığını, həm də sitat təsirini göstərən göstəricidir. Bu göstəricilər elmi fəaliyyətin obyektiv dəyərləndirilməsi üçün geniş istifadə olunur.
- **Tədqiqatçılar üçün dəstək alətləri:** Scopus müəlliflərə öz elmi profillərini izləmək, nəşrlərini təşkil etmək, əlaqəli məqalələr tapmaq və akademik əməkdaşlıq imkanlarını genişləndirmək üçün müxtəlif alətlər təklif edir.
- **Süni intellekt əsaslı analitik imkanlar:** Son illərdə süni intellekt (AI) texnologiyalarının tətbiqi ilə Scopus platforması daha da təkmilləşdirilmişdir. AI alqoritmləri Scopus-un axtarış sistemini və məlumatların təhlilini daha effektiv edir. Bu texnologiyalar vasitəsilə istifadəçilər üçün fərdiləşdirilmiş tövsiyələr, məzmun əlaqələndirilməsi, tədqiqat trendlərinin proqnozlaşdırılması, avtomatik mənbə tanıma və məlumatların analizi kimi imkanlar təqdim olunur. Məsələn, süni intellektə əsaslanan sistemlər tədqiqatçıların maraq dairəsinə uyğun jurnalları və məqalələri tövsiyə edir və elmi şəbəkələr arasında əlaqələri aşkar edərək tədqiqat əməkdaşlıqlarını təşviq edir.

Scopus platforması beynəlxalq elmi mühitin inkişafı və tədqiqatların qlobal səviyyədə paylaşılması baxımından əhəmiyyətli rola malikdir. Tədqiqatçıların öz işlərini daha geniş auditoriyaya çatdırmaq və dünya səviyyəsində akademik əlaqələr qurmaq baxımından bu baza mühüm və effektiv vasitə sayılır.

### 9.2.1.3. Google Scholar

Google Scholar, Google tərəfindən təqdim olunan və elmi məqalələrə, kitablar, konfrans məqalələri, patentlər və digər elmi nəşrlərə daxil olmağı təmin edən geniş miqyaslı bir açıq mənbə platformasıdır. Bu məlumat bazası, istifadəçilərə müxtəlif elmi sahələrdən və müxtəlif nəşriyyatlardan gələn yüksək keyfiyyətli resurslara asan və sürətli şəkildə daxil olmağa imkan verir. Google Scholar platforması, tədqiqatçıların və alimlərin elmi işlərini tapmaq, izləmək və qiymətləndirmək üçün etibarlı bir qaynaq təqdim edir.

Google Scholar aşağıdakı əsas xüsusiyyətlərə və üstünlüklərə malikdir (Google, 2025):

- **Açıq və Pulsuz Qəbul:** Google Scholar istifadəyə pulsuz və açıq şəkildə təqdim edilir. İstifadəçilər, qeydiyyatdan keçmədən platformadan istifadə edə bilərlər. Bu xüsusiyyət, inkişaf etməkdə olan ölkələrdə və resursları məhdud olan tədqiqatçılar üçün xüsusilə faydalıdır, çünki elmi məlumatlara rahat və pulsuz şəkildə daxil olmaq imkanı yaradır.
- **İndeksin Təqdimat Forması:** Google Scholarda indekslənmiş məqalələrə, kitab və digər nəşrlərə daxil olmaq mümkündür. Bu məqalələr, adətən, elmi və akademik nəşriyyatlardan gələn, müəyyən bir elmi səviyyəyə uyğun olaraq qiymətləndirilmiş işlərdir. Bu platformada məqalələr əsasən açıq mənbələrdən və müəlliflər tərəfindən təqdim edilmiş nəşrlərdən ibarət olur. Bu, Google Scholar-ı geniş tədqiqatçı və alim cəmiyyəti üçün əlçatan edir.
- **Sitat və Təsir Göstəriciləri:** Google Scholar məqalələrin sitat alma göstəricilərini təqdim edir. Məqalələrin sitat sayı, tədqiqatçıların elmi təsirini ölçmək üçün əhəmiyyətli bir göstərici rolunu oynayır. Bu funksiyadan istifadə edərək, istifadəçilər məqalələrin hansı ölçüdə tanındığını və nə qədər tədqiqatçı tərəfindən sitatlandığını görə bilərlər. Bununla yanaşı, Google Scholar istifadəçilərə h-index, i10-index kimi əlavə alətlər təqdim edir ki, bu da müəllifin və ya jurnalların elmi təsirini və keyfiyyətini ölçməyə kömək edir.
- **Müəllif Profilləri və Elmi İzləmə:** Google Scholar-da tədqiqatçılar öz şəxsi profillərini yarada bilərlər. Bu profillər müəlliflərin nəşrlərini, sitatlarını, və digər akademik fəaliyyətlərini izləməyə imkan verir. Həmçinin, Google Scholar müəlliflərə yeni nəşrlərini və sitatlarını izləmək üçün bildirişlər göndərə bilir. Bu funksiyalar, tədqiqatçılara

elmi işlərini və tədqiqat nəticələrini izləmək, həmçinin digər alimlərin müvafiq işləri ilə əlaqə qurmaq üçün imkanlar təqdim edir.

- **Axtarış Alətləri və Təkmilləşdirilmiş Filtrlər:** Google Scholar platforması, istifadəçilərə geniş axtarış imkanları təklif edir. İstifadəçilər, elmi məqalələri mövzu, müəllif, nəşriyyat və ya il üzrə filtrləyərək daha dəqiq və müvafiq nəticələr əldə edə bilərlər. Bu platformada həmçinin istifadəçilərin axtarış nəticələrini daha da daraltmasına və öz tədqiqat sahələrinə uyğun məqalələri tapmasına kömək edən təkmilləşdirilmiş axtarış alətləri mövcuddur.
- **Təhlükəsizlik və Etibarlılıq:** Google Scholar, elmi məqalələri çoxsaylı nüfuzlu nəşriyyatlardan və elmi platformalardan idxal edir. Lakin, bəzi məqalələr açıq mənbələrdən alındığı üçün, istifadəçilər bəzən qeyri-rəsmi və aşağı keyfiyyətli məlumatlarla qarşılaşa bilərlər. Bu səbəbdən, istifadəçilər məqalələri taparkən mənbənin etibarlılığını qiymətləndirməlidirlər. Bununla yanaşı, Google Scholar-da indekslənən məqalələrin çoxu akademik nəşriyyatlardan gəlsə də, bu bazada elmi dəyəri tam olaraq sübut olunmamış bəzi resurslar da mövcud ola bilər.
- **Global Əhatə:** Google Scholar, dünya üzrə ən müxtəlif elmi nəşrləri əhatə edir. Tədqiqatçılar müxtəlif dillərdə və müxtəlif elmi sahələrdə nəşr olunan məqalələrə, kitablarına və digər elmi resurslara daxil ola bilərlər. Bu da beynəlxalq elmi mühitdə informasiya axınını asanlaşdırır və tədqiqatçıların müxtəlif ölkələrdə nəşr olunan işləri tapmasına imkan verir.

### 9.2.1.4. Beynəlxalq Elmi Məlumat Baza və Platformaların Qarşılaşdırılması

Elmi tədqiqatların yayılmasında və beynəlxalq elmi ictimaiyyətə çatdırılmasında elmi məlumat bazalarının rolu əvəzsizdir. Bu bazalar tədqiqatçıların elmi məqalələrə çıxışını təmin etməklə yanaşı, jurnalların nüfuz və keyfiyyət göstəricilərinin ölçülməsində də əsas vasitə hesab olunur. Ən çox istifadə edilən və nüfuzlu məlumat bazalarının (Web of Science, Scopus və Google Scholar) əsas xüsusiyyətləri 1 saylı cədvəldə təqdim edilmişdir:

*Cədvəl 1. Web of Science, Scopus və Google Scholar bazalarının əsas xüsusiyyətləri*

| Xüsusiyyətlər | Web of Science | Scopus | Google Scholar |
|---|---|---|---|
| İdarə edən qurum | Clarivate Analytics | Elsevier | Google Inc. |
| Yaranma ili | 1964 | 2004 | 2004 |
| Əhatə etdiyi sahələr | Təbiət elmləri, sosial elmlər, humanitar elmlər | Bütün elmi sahələr | Bütün sahələr (akademik və qeyri-akademik) |
| İstinad izləmə | var | var | var |
| İndeksləmə meyarları | Yüksək elmi və etik standartlar | Redaksiya prosesi və davamlılıq meyarları əsasında | Avtomatlaşdırılmış, daha geniş əhatəlilik |
| Məzmun növləri | Məqalə, konfrans materialları, kitablar | Məqalə, konfrans materialları, patentlər, kitablar | Məqalələr, tezlət, kitablar, prezentasiyalar və s. |
| Sitat analiz imkanları | Impact Factor, H-index və s. | CiteScore, SNIP, SJR, H-index | H-index, sitat sayı (məhdud analitik imkanlar) |
| Açıq mənbə (open access) dəstəyi | var | var | var |
| Platforma interfeysi | Peşəkar və filtrlənmiş axtarış sistemləri | İstifadəçi dostu interfeys və geniş axtarış imkanları | Sadə interfeys, sürətli və geniş axtarış imkanları |
| Abunə tələb olunur | Bəli | Bəli | Xeyr |

Bu cədvəl göstərir ki, hər üç məlumat bazasının özünəməxsus üstünlükləri mövcuddur. Web of Science və Scopus daha çox akademik nəzarət və keyfiyyət göstəriciləri ilə seçilərkən, Google Scholar geniş əhatəliliyi və əlçatanlığı ilə fərqlənir. Tədqiqatçılar elmi fəaliyyətlərini

effektiv şəkildə yaymaq üçün bu platformalardan bir və ya bir neçəsini eyni vaxtda istifadə edə bilərlər. Hər birinin öz üstünlükləri olsa da, elmi keyfiyyət, etibarlılıq və prestij baxımından Scopus və Wef of Science daha elit və seçici platformalar hesab olunur

## 9.2.2. Beynəlxalq Elmi Nəşriyyatlar

Elmi jurnalların əksəriyyəti müxtəlif beynəlxalq elmi nəşriyyatlar tərəfindən nəşr olunur və bu nəşriyyatlar qlobal elmi kommunikasiya sistemində mühüm rol oynayır. Onların əsas funksiyası yalnız jurnal məqalələrinin nəşri ilə məhdudlaşmır, eyni zamanda bu məqalələrin yüksək keyfiyyətli redaktə prosesindən keçməsini təmin etmək, elmi və etik standartlara uyğunluğunu yoxlamaq və həmin jurnalların beynəlxalq elmi məlumat bazalarına indekslənməsi üçün şərait yaratmaqdır.
Beynəlxalq elmi nəşriyyatlar tədqiqatçıların işlərini geniş auditoriyaya çatdırmaqla yanaşı, elmi etibarlılığı və akademik nüfuzu da formalaşdırırlar. Onlar tez-tez öz jurnallarını Web of Science, Scopus, Google Scholar və digər nüfuzlu bazalarda yerləşdirərək, tədqiqat nəticələrinin daha çox sitat almasına və tanınmasına imkan yaradırlar. Bu nəşriyyatlar eyni zamanda müxtəlif sahələr üzrə ixtisaslaşmış elmi jurnalları idarə edir və dünyanın dörd bir yanından minlərlə tədqiqatçının elmi ictimaiyyətlə əlaqəsini təmin edir.
Hazırda dünyada tanınan və nüfuzlu elmi nəşriyyatlara Springer Nature, Elsevier, Wiley-Blackwell, Taylor & Francis, SAGE Publications, Oxford University Press, Cambridge University Press, IEEE (Institute of Electrical and Electronics Engineers), Instute of Physics (IOP) və MDPI (Multidisciplinary Digital Publishing Institute) kimi qurumlar daxildir. Bu nəşriyyatlar müxtəlif elmi sahələri əhatə edən minlərlə jurnal yayımlayır və açıq mənbə siyasəti ilə də diqqət çəkir.
Beynəlxalq elmi nəşriyyatlar təkcə məqalə nəşri ilə deyil, həm də beynəlxalq elmi konfransların təşkili, elmi kitabların nəşri, redaksiya heyətinin formalaşdırılması, peer-review prosesinin təşkili və akademik təlimlər vasitəsilə qlobal elmi cəmiyyətin inkişafına töhfə verirlər.

### 9.2.2.1. Elsevier

**Elsevier** dünyanın ən iri və nüfuzlu elmi nəşriyyatlarından biri olaraq, akademik biliklərin istehsalı və yayılmasında aparıcı rol oynayır. 1880-ci

ildə Niderlandda təsis edilmiş bu nəşriyyat hazırda 180-dən çox ölkədə fəaliyyət göstərir və müxtəlif sahələr üzrə minlərlə jurnal, kitab və məlumat platformasını idarə edir (Elsevier, 2025a).
Elsevier, xüsusilə tibb, biotibb, mühəndislik, təbiət elmləri, ictimai və humanitar elmlər sahəsində ixtisaslaşmış yüksək impakt faktorlu jurnallarla tanınır. Nəşriyyatın nəşr etdiyi nüfuzlu jurnallar arasında The Lancet, Cell, Journal of Cleaner Production, Applied Energy, Renewable Energy və Computers in Human Behavior kimi dünyaca məşhur jurnallar yer alır.
Elsevier-in mühüm xüsusiyyətlərindən biri də onun Scopus adlı elmi istinad və indeksləşdirmə bazasına sahib olmasıdır. Scopus hazırda dünyanın ən geniş elmi istinad bazalarından biridir və bu sistem vasitəsilə elmi məqalələrin sitat səviyyələri, müəlliflərin elmi fəaliyyəti (h-indeks kimi göstəricilərlə) və jurnalların reytinqi qiymətləndirilir.
Bundan əlavə, Elsevier, ScienceDirect adlı platforma vasitəsilə istifadəçilərə milyonlarla elmi məqaləyə və texniki sənədə onlayn çıxış imkanı təqdim edir. Bu platforma həm elmi tədqiqatçılar, həm də ali təhsil müəssisələri üçün mühüm bir resurs sayılır. Nəşriyyat həmçinin Mendeley adlı istinad vermə proqramı və akademik şəbəkə platformasını da idarə edir ki, bu da tədqiqatçıların əməkdaşlıq imkanlarını genişləndirir.
Elsevier, həmçinin açıq mənbə (Open Access) dəstəkləyən jurnallarla da fəaliyyət göstərir və elmə açıq çıxışı təşviq edir. Bununla belə, bəzi tədqiqatçılar tərəfindən məqalələrin nəşr haqları (APC – Article Processing Charges) ilə bağlı tənqidlər də mövcuddur. Ümumilikdə, Elsevier həm elmi biliklərin istehsalına, həm də onların dünya üzrə yayılmasına töhfə verən əsas beynəlxalq elmi nəşriyyatlardan biridir.

## 9.2.2.2. Springer Nature

**Springer Nature,** 2015-ci ildə Springer Science+Business Media ilə Nature Publishing Group, Palgrave Macmillan və Macmillan Education nəşriyyatlarının birləşməsi nəticəsində formalaşmış və bu gün dünyanın ən böyük və nüfuzlu akademik nəşriyyatlarından birinə çevrilmişdir (Springer Nature, 2025). Bu birləşmə nəticəsində yaradılan qurum elmi araşdırmaların yayımlanması, elmin populyarlaşdırılması və akademik təhsilin dəstəklənməsi sahələrində qlobal liderlərdən biridir.
Springer Nature təbiət elmləri, texnologiya, tibb, mühəndislik, sosial elmlər və humanitar sahələrdə fəaliyyət göstərən 3000-dən çox elmi

jurnal və 300 000-dən artıq akademik kitab nəşr edir. Bu nəşrlər həm çap, həm də rəqəmsal formada tədqiqatçılara və ali təhsil müəssisələrinə təqdim olunur. Ən tanınmış jurnallarından biri olan Nature jurnalı, yüksək impakt faktoru və elmi yeniliklərə dair dəqiq və fundamental yanaşması ilə dünya elmi ictimaiyyətində xüsusi yer tutur.

Springer Nature nəşriyyatı açıq mənbə təşviq edən əsas beynəlxalq nəşriyyatlardan biridir. “SpringerOpen” və “Nature Portfolio Open Access” platformaları vasitəsilə tədqiqatçılara məqalələrini elçatan rejimdə nəşr etdirmək və geniş auditoriyaya çatdırmaq imkanı yaradır. Bu, həm elmi biliklərin geniş kütlələr üçün əlçatan olması, həm də inkişaf etməkdə olan ölkələrdə elmi biliklərə çıxış baxımından mühüm əhəmiyyətə malikdir.

Nəşriyyat həmçinin SpringerLink rəqəmsal platforması vasitəsilə istifadəçilərə milyonlarla elmi məqaləyə və elektron kitaba çıxış imkanı təqdim edir. Bu platforma akademik mühitdə geniş istifadə olunur və elmi tədqiqatların aparılmasında əsas mənbələrdən biri kimi qiymətləndirilir.

Springer Nature yüksək etik standartlara və ciddi elmi qiymətləndirmə (peer review) mexanizmlərinə əsaslanaraq elmi məqalələrin seçimini və nəşrini həyata keçirir. Nəşriyyat, həmçinin tədqiqatçıların işlərinin beynəlxalq səviyyədə görünməsini və sitat almasını təmin edən məlumat bazalarında jurnallarının indekslənməsi ilə də seçilir.

## 9.2.2.3. Taylor & Francis

1852-ci ildə Böyük Britaniyada yaradılmış Taylor & Francis, dünyanın ən nüfuzlu elmi nəşriyyatlarından biri kimi tanınır. Nəşriyyat Routledge və CRC Press daxil olmaqla müxtəlif markalar altında fəaliyyət göstərir. Sosial elmlər, təhsil, səhiyyə və texnologiya sahələrində geniş jurnal və kitab kolleksiyasına malikdir. Taylor & Francis həm çap, həm də onlayn nəşrlər üzrə fəaliyyət göstərir və “Taylor & Francis Online” platforması vasitəsilə on minlərlə elmi məqaləyə çıxış imkanı təqdim edir. Açıq mənbə təşviq edən bu nəşriyyat həm də “F1000Research” platformasını dəstəkləyir. (Taylor & Francis, 2025).

### 9.2.2.4. SAGE Publications

SAGE Publications 1965-ci ildə Kaliforniyada yaradılmış və əsasən sosial elmlər, davranış elmləri, tibb və təhsil sahələrinə fokuslanan nüfuzlu akademik nəşriyyatdır. SAGE hal-hazırda 1000-dən çox jurnal nəşr edir və eyni zamanda çoxsaylı akademik kitabların çapını həyata keçirir.

Nəşriyyat həmçinin açıq mənbə təşəbbüslərinə dəstək verir və "SAGE Open" platforması vasitəsilə bir sıra sahələr üzrə açıq girişli jurnallar təqdim edir.

**9.2.2.5. Oxford University Press**

Oxford University Press (OUP), dünyanın ən qədim universitet nəşriyyatı olmaqla, 1586-cı ildən etibarən fəaliyyət göstərir. OUP təhsil, humanitar və sosial elmlər, tibb və hüquq sahələrində minlərlə kitab və jurnal nəşr edir. OUP tərəfindən nəşr olunan jurnallar yüksək elmi və akademik standartlara cavab verir. Nəşriyyat həmçinin açıq mənbəyi təşviq edən platformalara malikdir və "Oxford Open" təşəbbüsü vasitəsilə açıq girişli məqalələrin yayılmasına şərait yaradır.

**9.2.2.6. Cambridge University Press**

Cambridge University Press (CUP), 1534-cü ildə təsis edilmiş və dünyada fəaliyyət göstərən ən qədim nəşriyyatlardan biridir. CUP təbiət elmləri, mühəndislik, sosial və humanitar elmlər üzrə minlərlə jurnal və akademik kitab nəşr edir. Nəşriyyat həm çap, həm də rəqəmsal formatda məhsullar təqdim edir və "Cambridge Core" platforması vasitəsilə istifadəçilərə geniş elmi resurslara çıxış imkanı yaradır. Cambridge University Press də açıq mənbəyi dəstəkləyir və "Cambridge Open Engage" kimi təşəbbüslərlə akademik biliklərin əlçatanlığını artırır.

**9.3.2.7. IEEE (Institute of Electrical and Electronics Engineers)**

IEEE, mühəndislik və texnologiya sahəsində dünyanın ən böyük peşəkar təşkilatlarından biridir və eyni zamanda elmi nəşriyyat funksiyasını da yerinə yetirir. IEEE tərəfindən nəşr olunan "IEEE Xplore" rəqəmsal kitabxanası vasitəsilə 200-dən çox jurnal, konfrans materialları və texniki standartlar təqdim olunur. Bu nəşrlər xüsusilə informasiya texnologiyaları, rabitə, elektronika və süni intellekt sahələrində geniş istifadə olunur. IEEE həmçinin açıq mənbə girişli jurnalların inkişafına da xüsusi önəm verir (IEEE, 2025).

**9.3.2.8. MDPI (Multidisciplinary Digital Publishing Institute)**

1996-cı ildə İsveçrədə təsis edilmiş MDPI, açıq mənbə modelini əsas fəaliyyət prinsipi kimi qəbul edən qabaqcıl nəşriyyatlardandır. Bu nəşriyyat müxtəlif elmi sahələri əhatə edən 400-dən çox jurnal nəşr edir. "Sensors", "Entropy", "Sustainability" və "Cancers" kimi jurnallar geniş tanınır. MDPI sürətli nəşr prosesi, açıq qiymətləndirmə mexanizmi və

məqalələrin dərhal əlçatanlığı ilə seçilir. Bu nəşriyyat elmi biliklərin daha geniş yayılması və ictimaiyyətə açıq olması prinsipini təşviq edir (MDPI, 2025).

### 9.2.3. Elmi Jurnalların Reytinq Sistemi və İndeksləmə

Elmi jurnalların beynəlxalq səviyyədə tanınması və tədqiqatların keyfiyyətli platformalarda dərc olunması üçün müxtəlif reytinq sistemləri və indeksləmə üsulları mövcuddur. Bu sistemlər jurnalların elmi qiymətini, təsir gücünü və nüfuzunu müəyyən etmək üçün statistik göstəricilərdən istifadə edir. Ən geniş istifadə olunan metriklərdən ikisi Impact Factor (IF) və CiteScore göstəriciləridir.

**Impact Factor (IF):** Elmi jurnalların akademik dəyərini və nüfuzunu ölçmək üçün ən geniş istifadə olunan göstəricilərdən biridir. Bu metrik ilk dəfə 1960-cı illərdə Eugene Garfield tərəfindən təqdim edilmiş və hal-hazırda Clarivate Analytics şirkətinə məxsus Journal Citation Reports (JCR) bazası vasitəsilə yayımlanır (Clarivate, 2025b). Impact Factor bir jurnalın məqalələrinin nə qədər tez-tez istinad olunduğunu göstərməklə, həmin jurnalın elmi aləmdəki təsir dairəsini qiymətləndirir. Clarivate Analytics tərəfindən Web of Science platformasında təqdim olunan bu göstərici, bir jurnalın müəyyən ildə aldığı ortalama sitat sayını göstərir. Hesablanması üçün əvvəlki iki ildə dərc olunmuş məqalələrə həmin ildə gələn sitatların sayı bu dövrdəki məqalə sayına bölünür (Garfield, 2006).

$$IF_Y = \frac{Y\ ilində,\ Y-1\ və\ Y-2-də\ dərc\ olunmus\ məqalələrə\ edilən\ istinadların\ sayı}{Y-1\ və\ Y-2\ illərində\ dərc\ olunmus\ məqalələrin\ sayı}$$

Misal olaraq, 2023 və 2024-cü illərdə jurnal ümumilikdə 100 məqalə dərc etmiş, 2025-ci ildə bu məqalələrə edilən istinadların sayı 400 olmuşsa,

$$IF_{2025} = \frac{400}{100} = 4.0$$

həmin jurnalda dərc olunan hər məqalə orta hesabla 4 dəfə istinad olunmuşdur. Bəzi sahələrdə IF 3-dən yuxarı olan jurnallar çox prestijli sayılır (amma bu sahədən asılıdır).

IF daha çox yüksək səviyyəli jurnallar üçün istifadə olunur və “Journal

Citation Reports” (JCR) vasitəsilə təqdim olunur.

**CiteScore (CS):** Elmi jurnalların keyfiyyətini və təsirini ölçmək üçün istifadə olunan başqa bir mühüm metrikdir. Bu göstərici Elsevier tərəfindən idarə olunan Scopus məlumat bazasında yayımlanan jurnallar üçün tətbiq edilir və Impact Factor-un alternativi olaraq qəbul edilir. CiteScore, jurnalların elmi təsirini, məqalələrə edilən istinadların sayını əks etdirən daha geniş və hərtərəfli bir yanaşma təqdim edir. Hesablanması IF ilə oxşar olsa da burada əvvəlki dörd ildə dərc olunmuş məqalələrə həmin ildə gələn sitatların sayı bu dövrdəki məqalə sayına bölünür (Elsevier, 2025b).

$$CS_Y = \frac{Y\ ilində,\ Y, Y-1, Y-2, Y-3\ də\ dərc\ olunan\ məqalələrə\ edilən\ istinadların\ sayı}{Y, Y-1, Y-2, Y-3\ illərində\ dərc\ olunan\ məqalələrin\ \text{ü}mumi\ sayı}$$

Misal olaraq, 2021 ilə 2024-cü illərdə jurnal ümumilikdə 200 məqalə dərc etmiş, 2025-ci ildə bu məqalələrə edilən istinadların sayı 400 olmuşsa,

$$CS_{2025} = \frac{400}{200} = 2.0$$

bu o deməkdir ki, həmin jurnalda dərc olunan hər məqalə orta hesabla 2 dəfə istinad olunmuşdur.

**Impact Factor və CiteScore Qarşılaşdırması**

Impact Factor və CiteScore bu sahədə ən çox istifadə edilən metriklərdir. Hər iki göstərici jurnalların elmi təsirini ölçmək üçün fərqli yanaşmalar tətbiq edir və müxtəlif üstünlüklər və məhdudiyyətlərə malikdir. Impact Factor və CiteScore göstəricilərinin əhəmiyyəti, üstünlükləri və məhdudiyyətləri müqayisəli şəkildə 2 saylı cədvəldə də təqdim olunmuşdur:

*Cədvəl 2. Impact Factor və CiteScore qarşılaşsırması*

| Göstərici | Impact Factor (Clarivate) | CiteScore (Scopus) |
|---|---|---|
| Hesablama dövrü | Son 2 il | Son 4 il |
| Nəşrlərin növü | Yalnız orijinal məqalələrə və icmal məqalələrə fokuslanır | Orijinal məqalələr, icmallar, məktublar və redaksiyalar daxil |
| Platforma | Web of Science / Journal Citation Reports | Scopus |
| Məqalə keyfiyyəti | Məqalə səviyyəsində qiymətləndirmə etmir, jurnal səviyyəsindədir | Məqalə keyfiyyətini fərqləndirmir, amma daha geniş yanaşma tətbiq edir |
| Manipulyasiya riski | Daha yüksək manipulyasiya riski | Daha az manipulyasiya riski |
| Mövcudluq forması | Abunə tələb olunur | Əsas məlumatlar açıqdır |
| Kvartil bölgüsü | JCR vasitəsilə təqdim olunur | Scopus Journal Metrics vasitəsilə təqdim olunur |

**Mənbə:** *Müəllif tərəfindən hazırlanıb.*

Impact Factor, elmi jurnalların təsirini ölçən ən geniş istifadə olunan göstəricilərdən biridir. Bu göstərici, yalnız son iki ildə dərc olunan məqalələrə edilən istinadlara əsaslanır və ümumiyyətlə yüksək nüfuza malik jurnalların təsirini göstərir. IF, jurnalın elmi dünyada nə qədər tanındığını və nə qədər istifadə edildiyini ölçməyə kömək edir. Bununla yanaşı, IF göstəricisi yalnız son iki ili əhatə etdiyi üçün bəzi elmi

sahələrdə qeyri-dəqiq ola bilər. Məsələn, humanitar elmlərdə və ya daha az sitatlanan sahələrdə bu göstərici doğru bir təsir ölçüsü verməyə bilər. Həmçinin, IF yalnız jurnalın ümumi təsirini ölçür və məqalə səviyyəsində keyfiyyətə dair məlumat vermir.

CiteScore, son dörd ildə dərc olunan bütün məqalələrə edilən istinadları nəzərə alır, bu da onu daha uzunmüddətli təsir ölçüsü kimi qəbul etməyə imkan verir. CS, həmçinin orijinal məqalələr, icmallar, məktublar və digər elmi yazıları da daxil edərək daha geniş bir qiymətləndirmə təqdim edir. Bu, elmi jurnalların geniş spektrini əhatə edir və müxtəlif elmi yazı növlərinin təsirini ölçür. Buna baxmayaraq, CiteScore yalnız Scopus bazasında indekslənən jurnallar üçün tətbiq edilir və bəzi yüksək keyfiyyətli jurnalların bu bazada indekslənməməsi problemi ilə qarşılaşa bilər. Bundan əlavə, CiteScore da məqalələrin keyfiyyətini fərqləndirmir, yalnız ümumi istinad sayısını nəzərə alır.

Beləliklə, həm Impact Factor, həm də CiteScore göstəriciləri jurnalların elmi nüfuzunu ölçməkdə mühüm rol oynayır. Tədqiqatçılar öz işlərini dərc etmək üçün bu göstəriciləri və kvartil bölgüsünü nəzərə almaqla uyğun jurnalı seçə bilərlər.

**Kvartillər**

Elmi jurnalların reytinqlərini və nüfuzunu qiymətləndirmək üçün istifadə olunan əsas meyarlardan biri kvartillərdir. Kvartil, bir jurnalın sahə üzrə sıralanmasını göstərir və jurnalların ümumi keyfiyyətini və elmi təsirini müəyyənləşdirmək üçün istifadə olunur (Macquarie University Library, 2025). Bu sistem, jurnalları dörd əsas qrupda (kvartildə) yerləşdirir, hansılar ki, hər bir kvartil elmi sahədəki jurnalların müəyyən bir faizi ilə əlaqədardır. Kvartillər əsasən Impact Factor və CiteScore kimi göstəricilər əsasında müəyyən edilir və aşağıdakı kimi təsnif edilir (Clarivate Analytics, 2025a; SCImago, 2025):

**Q1 (76-100%)**

- Q1 kvartili elmi sahəsindəki ən yüksək reytinqlərə malik olan jurnalları təmsil edir. Bu kvartildəki jurnallar, hər iki göstərici olan Impact Factor və CiteScore üzrə yüksək nəticələr əldə etmiş jurnallardır.
- Tədqiqatçılar üçün Q1 jurnalları, ən yüksək elmi nüfuz və təsirə malik jurnallar olaraq tanınır.
- Bu jurnalların məqalələri çoxsaylı istinadlar alır və elmi ictimaiyyət tərəfindən ən çox tanınan və qiymətləndirilən nəşrlərdir.

**Q2 (51%-75%)**

- Q2 kvartili orta səviyyəli yüksək keyfiyyətli jurnalları əhatə edir. Bu jurnallar Impact Factor və ya CiteScore göstəricilərində bir qədər aşağıdır, amma hələ də yaxşı qiymətləndirilir.
- Q2 jurnalları, geniş elmi ictimaiyyət tərəfindən qəbul edilir və çoxsaylı tədqiqatçılar tərəfindən istinad edilir, lakin bunlar Q1 jurnalları ilə müqayisədə bir qədər daha az təsir gücünə malikdir.

**Q3 (26%-50%)**

- Q3 kvartili orta səviyyəli jurnalları təmsil edir. Bu jurnallar, adətən daha az təsir gücünə malikdir və daha az sayda istinad alır.
- Q3 jurnalları, spesifik elmi sahələrdə müəyyən bir təhlil və ya təcrübə təqdim edə bilər, amma ümumilikdə elmi ictimaiyyətin geniş dairəsində tanınması daha məhduddur.

**Q4 ( 25% aşağı)**

- Q4 kvartili ən aşağı reytinqlərə sahib jurnalları təmsil edir. Bu jurnalların Impact Factor və CiteScore qiymətləri, digər kvartillərə nisbətən daha aşağıdır.
- Bu jurnallar, xüsusilə kiçik və ya daha az məşhur elmi sahələrdə fəaliyyət göstərən jurnallar ola bilər və tədqiqatçıların diqqətini çəkməkdə çətinlik çəkirlər. Lakin bəzi hallarda, çox spesifik və ya yerli mövzuları əhatə edən jurnallar da bu kvartildə ola bilər.

Həm Impact Factor, həm də CiteScore əsaslı kvartil sıralamaları, jurnalların nə qədər nüfuzlu olduğunu və nə qədər geniş şəkildə istinad edildiyini müəyyən etməyə kömək edir. Bu sıralama tədqiqatçıların və akademiklərin jurnallarda nəşr olunma qərarlarında nəzərə aldıqda, onların işlərinin daha geniş auditoriya tərəfindən görülməsi və daha çox təsir yaratması ehtimalı yüksəkdir. Kvartillər jurnalların sahə üzrə sıralanmasına əsaslanır və tədqiqatçılar üçün jurnalı seçməkdə istiqamətverici rol oynayır.

Web of Science və Scopus platformalarında jurnalların kvartil sıralamaları eyni olmaya bilər. Hər iki platformanın sıralama və indeksləmə metodları fərqli olduğu üçün bir jurnalın Web of Science-da Q2 olaraq sıralanması, Scopus-da isə Q1 olaraq qiymətləndirilə bilər. Bunun səbəbi, Web of Science və Scopus-un istifadə etdiyi fərqli metriklər və hesablama üsullarından irəli gəlir. Scopus daha geniş bir sahəni əhatə edən jurnalları indeksləyir və bu, bəzi jurnalların Scopus-da yüksək sıralama almasına səbəb ola bilər. Nəticə olaraq, jurnalların eyni kvartildə olmaması, yalnız istifadə olunan metodologiyalardan

deyil, həm də jurnalların əhatə etdiyi sahə, məqalə növü və beynəlxalq təsirinə bağlıdır. Bu səbəbdən hər iki platforma əsasən eyni jurnal üçün fərqli sıralamalar əldə edilə bilər.

## 9.3. Düzgün jurnal seçimi və mövzu uyğunluğu

Elmi jurnallara məqalə göndərmək istədikdə, müəlliflər qarşısında duran ilk və ən mühüm məsələlərdən biri mövzularına və elmi tədqiqatın səviyyəsinə uyğun, etibarlı və nüfuzlu bir jurnalın seçilməsidir. Bu, yalnız məqalənin dərc edilib-edilməməsinə deyil, həm də onun elmi ictimaiyyətdə necə qarşılanacağına, neçə nəfər tərəfindən oxunacağına və istinad ediləcəyinə birbaşa təsir edir. Yaxşı seçilmiş bir jurnal, tədqiqatın daha geniş yayılmasına və akademik karyerada irəliləyişə şərait yarada bilər. Əksinə, uyğunsuz və qeyri-nüfuzlu bir jurnalda nəşr, tədqiqatın təsirini azalda və ya onun görünməz qalmasına səbəb ola bilər.

Hal-hazırda dünyada 80 mindən çox elmi, həmkar yoxlamasından (peer-reviewed) keçirilən jurnal fəaliyyət göstərir (Kozlov, 2022). Bu jurnallar müxtəlif sahələri, metodologiyaları, regional və beynəlxalq miqyaslı mövzuları əhatə edir. Belə bir geniş miqyasda jurnal təklifləri arasında doğru seçim etmək həm informasiyanın bolluğu, həm də bəzi hallarda aldadıcı və oğurlayıcı (predatör) jurnalların mövcudluğu səbəbindən çətinləşə bilər.

Jurnal seçimi zamanı müəlliflərin diqqət yetirməli olduqları əsas məqamlar aşağıdakı kimi ümumiləşdirilə bilər:

- **Jurnalın mövzu sahəsi və hədəf auditoriyası**

Seçdiyiniz jurnaldakı məqalə mövzularının araşdırmanızın mövzusuna uyğun olması ən vacib şərtlərdəndir. Bu məqsədlə jurnalın məqsədlər və əhatə dairəsi (aims & scope) bölməsini və müəlliflərə istiqamət verən qaydaları diqqətlə oxunmalıdır (University of Arizona Libraries, 2024). Bu məlumatı öyrənmək üçün jurnalın son illərində dərc olunmuş məqalələri incələyərək, araşdırma mövzunuzun o jurnala uygun olup olmaması qiymətləndirilməlidir.

Jurnalın hədəf auditoriyası – yəni oxucu kütləsi də nəzərə alınmalıdır. Əgər tədqiqatınız çox spesifik ixtisasa və dar mövzuya aiddirsə, ixtisaslaşmış jurnal seçmək faydalıdır; daha geniş mövzular üçün isə ümumistiqamətli jurnallar nəzərdə tutulur (Packer et al., 2021). Jurnalın beynəlxalq yoxsa regional auditoriya üçün nəzərdə tutulduğunu da

müəyyənləşdirməlidir. Bəzi jurnallar yerli (regional) elmi məsələləri hədəfləyir, digərləri isə qlobal auditoriya üçün açıqdır.
Məqalənizi göndərməzdən əvvəl jurnalın məqsəd və istiqamətinə uyğunluğunu təqdimat məktubu və xülasədə vurğulamaq faydalıdır. Məsələn, jurnal ictimaiyyətə təsir mexanizmlərini vurğulayırsa, tədqiqatınızın bu aspektlərini xülasədə qeyd edin (Patel, 2020).

- **Elmi keyfiyyət və redaksiyanın səviyyəsi**

Jurnalda dərc olunan məqalələrin elmi etibarlılığı və keyfiyyəti jurnalın nüfuzunu göstərir. Məqalənin məqsəd-məzmunu, metodologiyası, nəticə və müzakirə bölmələri peşəkar səviyyədə hazırlanmalı, cədvəl və şəkillər oxunaqlı və keyfiyyətli olmalıdır (Perry et al., 2021). Jurnalın redaktə keyfiyyətinə də diqqət yetirməli və yazılarda səhv və qrammatika nöqsanları jurnalın redaksiyasının zəifliyindən xəbər verir. Yaxşı reytinqə malik elmi jurnallar, rəy prosesi və məqalə təqdimetmə qaydaları ilə bağlı şəffaf və ətraflı məlumat təqdim edirlər. Bu məlumatlar sırasında hansı növ rəy mexanizmindən istifadə edildiyi, etik prinsiplər və nəşr standartları jurnalın rəsmi veb saytında açıq şəkildə yer alır. Eyni zamanda, ilkin qiymətləndirmə üçün tələb olunan vaxt, ortalama rəy dövrünün uzunluğu və qəbul edilən məqalələrin faiz göstəricisi kimi statistik məlumatlar da tədqiqatçılara təqdim olunur. Bu cür şəffaflıq jurnalın etibarlılığını artırmaqla yanaşı, müəlliflərə düzgün jurnal seçimi etməkdə mühüm dəstək verir.

- **Redaksiya heyəti və jurnalın reputasiyası**

Jurnal seçərkən onun redaksiya heyətinə xüsusi diqqət yetirilməlidir. Redaksiya heyətində müvafiq sahə üzrə tanınmış alimlərin və təcrübəli mütəxəssislərin yer alması, jurnalın elmi keyfiyyətinin göstəricilərindən biridir (Patel, 2020). Eyni zamanda, nüfuzlu elmi müəssisələr və peşəkar cəmiyyətlər tərəfindən dəstəklənən jurnallar, adətən, yüksək akademik standartlara cavab verir. Bundan əlavə, jurnalın nəşriyyatının, istifadə etdiyi dərc modeli və onu maliyyələşdirən qurumların nüfuzu da önəmlidir. Tanınmış və etibarlı nəşriyyatlar tərəfindən çap edilən jurnallarda yayımlanan məqalələr, elmi ictimaiyyət tərəfindən daha çox qəbul edilir və daha yüksək etibarlılığa malik olur.

- **İndekslənmə və sitat göstəriciləri**

Jurnalın SCOPUS, Web of Science, MEDLINE, DOAJ və ya digər nüfuzlu elmi bazalarda indekslənməsi həmin jurnalın araşdırmalar üçün görünürlüyünü artırır (Baethge, 2013; Lewis, 2022). Müəlliflər jurnalın impakt faktoru və ya digər sitat indekslərinə (h-indeks, CiteScore,

Scimago JCR və s.) baxaraq, bu göstəriciləri sahədəki nüfuzla müqayisə edə bilərlər. Unutmayın ki, yüksək impakt faktoru jurnalın təkcə nüfuzunu deyil, həm də qəbul qaydalarının rəqabətliliyini göstərir.

- **Açıq çıxış siyasəti və müəllif haqqı**

Jurnalın açıq mənbə variantları və məqalə emal haqları barədə məlumat toplanmalıdır. Bəzi jurnallar elmi işləri geniş kütləyə çatdırmaq üçün xüsusi ödəniş tələb edir; müəlliflər öz büdcələri və fond tələbləri əsasında buna qərar verməlidir (Perry et al., 2021). Jurnalın müəllif hüquqları siyasətini nəzərdən keçirməlidir. Çünkü bəzi jurnallar məqaləni müəllifdə tam saxlamağa, bəziləri isə yayımlanan versiyası üzərində xüsusi hüquqlar təklif edir. Xüsusən dövlət və ya təşkilatlarının açıq mənbə tələblərinə uyğunluq üçün jurnalın siyasətini yoxlamaq vacibdir.

- **Nəşr müddəti və rəy prosesi**

Məqalənin jurnal tərəfindən gözdən keçirilmə müddətinə diqqət edilməlidir. Əgər araşdırmanız tez nəticə tələb edirsə, ortalama qərar müddəti qısa olan jurnallara üstünlük verilməlidir. Ancaq çox qısa (məsələn, bir həftədən az) rəydə predatör jurnalların cəlb olunma ehtimalı var (Packer et al., 2021).

- **Etik qaydalar və predatör jurnallar**

Jurnalın etik standartları (plagiat yoxlaması, qarşılıqlı maraq mübahisələri, insan hüquqları, məlumatın şəffaflığı və s.) ilə tanış olunmalıdır. Keyfiyyətli jurnallar bu qaydaları açıq şəkildə dərc edir. "Predatör" adlanan bəzi qeyri-etik jurnallar isə göndərişlərin demək olar ki, hamısını dərhal qəbul edib sonradan yüksək ödəniş tələb edə bilərlər (Kozlov, 2022).

- **Məsləhət və mənbələr**

Jurnal seçimini planlaşdırarkən mövzunuz üzrə rəhbər, müəllim və həmkarlarınızın təcrübəsindən yararlanmaq olduqca dəyərlidir. Mümkün jurnalların ilkin siyahısını tərtib edərkən, öz tədqiqatınızda istinad etdiyiniz jurnalları analiz edilməlidir. Bu jurnallar, ehtimal ki, sizin sahənizdə tanınmış və tövsiyə edilən nəşrlərdir (Lewis, 2022). Bundan əlavə, universitet kitabxanasının elektron kataloqu, elmi məqalə bazalarında (Scopus, Web of Science, DOAJ, Sherpa/Romeo) aparılan axtarışlar və elmi məsləhətçilərin yönləndirmələri sizə jurnal seçimi prosesində böyük kömək göstərə bilər.
Xüsusilə son illərdə çox sayda nəşriyyat və elmi platforma tərəfindən hazırlanmış "Journal Finder (jurnal tapıcı) " alətləri müəlliflərin işini xeyli asanlaşdırır. Bu alətlər adətən sizdən məqalənizin adı (title),

xülasəsi (abstract) və açar sözləri (keywords) daxil etməyinizi istəyir və bu məlumatlara əsasən uyğun jurnalları təklif edir. Tövsiyə olunan jurnalların təsir əmsalı, rəy müddəti, nəşr haqları və qəbul nisbəti kimi göstəricilər də əlavə olaraq göstərilə bilər.

**Ən məşhur və etibarlı 5 jurnal tapıcı aləti və linkləri aşağıdakılardır:**

- **Elsevier Journal Finder** - Elsevier nəşriyyatının təqdim etdiyi bu alət, Scopus indeksli jurnallar üzrə tövsiyələr verir.

https://journalfinder.elsevier.com

- **Springer Journal Suggester** - Springer Nature nəşriyyatına aid jurnallar üçün istifadə olunur.

https://journalsuggester.springer.com

- **IEEE Publication Recommender** - Texniki və mühəndislik sahələrində çalışan müəlliflər üçün idealdır.

https://ieeeauthorcenter.ieee.org/journal-recommender

- **Taylor & Francis Journal Suggester** - Sosial elmlər, humanitar sahələr və təbiət elmləri üzrə geniş jurnal təklifi verir.

https://authorservices.taylorandfrancis.com/journal-suggester

- **Wiley Journal Finder** - Wiley nəşriyyatının təqdim etdiyi və açıq çıxışlı jurnalları da ehtiva edən tapıcı sistemdir.

https://journalfinder.wiley.com

Bu alətlərdən istifadə etməklə müəlliflər təkcə jurnal seçimini asanlaşdırmır, həm də məqalələrinin qəbul şansını artırır və nəşr prosesində vaxt itkisinin qarşısını almış olurlar.

## 9.4. Məqalənin təqdim olunması və nəşr prosesi

Elmi məqalənin nüfuzlu bir jurnalda dərc olunması yalnız tədqiqatın tamamlanması ilə bitmir; əksinə, bu, ciddi şəkildə strukturlaşdırılmış və mərhələli bir nəşr prosesinin başlanğıcıdır. Bu proses müəllifin jurnal platformasında qeydiyyatdan keçməsi, təqdimat məktubu (cover letter) hazırlaması, məqalənin texniki və elmi baxımdan ilkin yoxlamalardan keçməsi, daha sonra isə anonim elmi rəy (peer-review) mərhələsində qiymətləndirilməsi ilə davam edir. Nəşr prosesi müəllifdən yalnız elmi etibarlılıq və orijinallıq deyil, həm də texniki dəqiqlik və jurnalın format tələblərinə tam uyğunluq tələb edir. Hər bir mərhələdə etik qaydalara və nəşr standartlarına riayət olunması məqalənin qəbul şansını artırır və nəşr müddətinin uzanmamasına şərait yaradır. Bu baxımdan, elmi nəşr prosesi, tədqiqatın elmi ictimaiyyətə düzgün və peşəkar şəkildə çatdırılmasında həlledici rol oynayır. Elmi məqalənin təqdim edilməsi və nəşr olunması aşağıdakı əsas mərhələlər üzrə həyata keçirilir. Bu mərhələlərin ardıcıllığı və qarşılıqlı əlaqələri 1 saylı şəkildə əks etdirilmişdir:

***Şəkil 1.** Elmi məqalənin təqdim edilməsi və nəşr olunmasındakı əsas mərhələlər*




***Mənbə:** Müəllif tərəfindən hazırlanmışdır.*

## 9.4.1. Məqalənin jurnal sisteminə təqdim olunması prosesi

Elmi məqalənin jurnal sisteminə təqdim olunması, tədqiqatçının ilkin olaraq sahəyə uyğun və nüfuzlu bir jurnal seçməsi ilə başlayır (Day & Gastel, 2012). Uyğun jurnal müəyyən edildikdən sonra, müəllif jurnalın təqdimat platformasında (məsələn, Editorial Manager, ScholarOne və ya Elsevier Editorial System kimi) istifadəçi qeydiyyatından keçir və elektron təqdimetmə mərhələsinə start verir.  Məqalələrin elektron sisteme təqdim edilməsi, bir neçə ardıcıl hissədən ibarət olub bu mərhələlər 2 saylı şəkildə verilmişdir.

***Şəkil 2.*** *Məqalələrin jurnala göndərilməsi prosesi*




***Mənbə:*** *Müəllif tərəfindən hazırlanmışdır.*

1. **Məqalənin Yüklənməsi:** İlk olaraq, məqalənin tam mətni sistemə yüklənir. Ardınca, məqalənin növü (Orijinal tədqiqat məqaləsi (Original Research Article), İcmal məqaləsi (Review Article), Texniki qeyd (Technical Note) və s.) seçilir. Bəzi platformalar yüklənmiş fayldan avtomatik olaraq məqalənin başlığını, xülasəsini, açar sözlərini və məqalənin aid olduğu istiqaməti sistemə daxil edirlər. Lakin bu sahələr müəllif tərəfindən də ayrıca yoxlanmalı və düzəliş

edilməlidir.

2. **Əlavə Faylların Yüklənməsi:** Məqalənin əsas mətni ilə yanaşı, əlavə məlumat faylları (.pdf formatında əlavələr), məqalənin orijinal faylı (.doc/.docx), müəllif hüquqları və icazə sənədləri, qrafiklər və şəkillər kimi vizual materiallar da bu mərhələdə sistemə ayrı fayllar olaraq yüklənir.
3. **Müəllif Məlumatları və Cover Letter:** Bu mərhələdə müəlliflərin adı, əlaqə məlumatları, təşkilati aidiyyəti və s. sistemə daxil edilir. Paralel olaraq, əgər müəllif istəyirsə məqalənin təqdimatını dəstəkləyən "Təqdimat məktubu (Cover Letter)" da əlavə edibilər. Bəzi jurnallar bu mərhələdə rəyçilərlə bağlı əlavə məlumat (təklif edilən və ya istnənməyən rəyçilər) da tələb edə bilər.
4. **Maliyyə Məlumatları və Layihə Dəstəyi:** Tədqiqatın maliyyələşdiricisi varsa, bu hissədə layihə nömrəsi və dəstəkləyici qurumun adı daxil edilir. Əgər məqalə müəyyən bir qrant çərçivəsində hazırlanıbsa, bu, qeyd olunmalıdır.
5. **Nəşr Modeli və Məlumatların Paylaşımı:** Müəlliflər bu mərhələdə açıq mənbə (open access) və ya ənənəvi çap (subscription-based) modellərindən birini seçirlər. Eyni zamanda, yayımlanacaq məlumatların əldə olunduğu mənbələr və etik icazələr barədə bəyanat təqdim olunur (COPE, 2019). Bəzi jurnallar müəllifdən məlumatların ictimaiyyətə açıq olmasına dair razılıq da tələb edə bilər.
6. **Son Yoxlama və Təsdiq:** Ən son mərhələdə sistem müəllifə təqdim etdiyi bütün məlumatları təqdim edir. Burada hər bir hissə yoxlanmalı, boş və ya səhv məlumatlar düzəldilməlidir. Bütün yoxlamalar tamamlandıqdan sonra məqalə redaksiya heyətinə elektron olaraq təqdim edilir.

Bu kompleks mərhələlərə düzgün şəkildə əməl olunmaması, məqalənin texniki səbəblərlə rədd olunmasına və ya nəşr prosesinin ləngiməsinə səbəb ola bilər (Patel, 2020).

## 9.4.2. Redaktor tərəfindən ilkin qiymətləndirmə prosesi

Elmi məqalə jurnal sisteminə təqdim edildikdən sonra ki mərhələdə, avtomatik texniki yoxlamadab keçir. Bu yoxlanışlarda məqalənin plagiat miqdarı və özünü istinad vermə sayı əsas yoxlanışlardandır. Bu mərhələdən sonra məqalə jurnalın baş redaktoru və ya məsul redaktoru tərəfindən ilkin qiymətləndirmə (preliminary editorial assessment) üçün nəzərdən keçirilir. Bu prosesin əsas məqsədi, məqalənin jurnalın

elmi istiqamətinə, metodoloji səviyyəsinə, struktur və texniki tələblərə uyğunluğuna ilkin baxışla qiymət verilməsidir (Day and Gastel, 2012; Patel, 2020).
İlkin qiymətləndirmə mərhələsində redaktor aşağıdakı əsas meyarları nəzərə alır:

1. **Jurnala uyğunluq:** Məqalənin mövzusu jurnalın elmi sahəsinə və fokusuna uyğun gəlirmi?
2. **Elmi yenilik və orijinallıq:** Tədqiqat yeni və orijinal nəticələr təqdim edirmi, yoxsa artıq nəşr olunmuş işlərin təkrarıdır?
3. **Metodoloji əsaslandırma:** Tədqiqat dizaynı, məlumat toplama və analiz üsulları elmi cəhətdən əsaslandırılmışdırmı?
4. **Struktur və dil keyfiyyəti:** Məqalə akademik üslubda yazılmışdırmı? Qrammatik və redaktə xətaları varmı?
5. **Etik standartlara riayət:** İnsan və ya heyvanlar üzərində tədqiqat aparılıbsa, müvafiq etik icazələr göstərilmişdirmi? Plagiat yoxlaması nəticələri qənaətbəxşdirmi?
6. **Texniki uyğunluq:** Məqalə jurnalın təqdimat formatına (şrift, sitat sistemi, bölmələşmə və s.) uyğun hazırlanmışdırmı?

Bu mərhələdə, əgər məqalə jurnalın istiqamətinə uyğun deyilsə, zəif struktura malikdirsə, elmi və ya etik problemlər ehtiva edirsə, redaktor rəyçilərə göndərmədən birbaşa rədd (desk rejection) qərarı verə bilər (COPE, 2019). Bu qərar, adətən 3–7 iş günü ərzində müəllifə bildirilməklə, onun daha uyğun bir jurnala müraciət etməsinə imkan yaradır. Əgər məqalə ilkin mərhələdə qəbul edilərsə, redaktor onu rəyçilərə göndərilmək üçün hazırlayır. Jurnalın rəyçi heyyətindən uygun rəyçiləri seçir və növbəti mərhələ olan elmi rəy prosesinə keçir.

## 9.4.3. Rəyçilərə göndərilmə və rəy prosesi

Məqalə redaktorun ilkin qiymətləndirməsindən uğurla keçdikdən sonra növbəti mərhələ olan rəyçilərə göndərilmə prosesinə daxil edilir. Bu mərhələdə redaktor məqalənin mövzusuna və metodologiyasına uyğun ixtisaslaşmış elmi ekspertlər – rəyçilər (peer reviewers) seçir. Rəyçilərin əsas vəzifəsi, məqalənin elmi keyfiyyətini, metodoloji düzgünlüyünü, nəticələrin etibarlılığını və ümumi tədqiqat dəyərini obyektiv şəkildə qiymətləndirməkdir (Benos et al., 2007).
Redaktor adətən iki və ya üç müstəqil rəyçiyə dəvət göndərir. Hətda bu say dörd rəyciyə qədər artırılabilər. Rəyçilər dəvəti qəbul etdikdən sonra məqaləni oxuyaraq strukturlaşdırılmış rəy forması və ya azad formada

yazılmış ekspert rəyi təqdim edirlər. Bu rəylər aşağıdakı sahələri əhatə edir:

- Tədqiqatın orijinallığı və elmi yeniliyi
- Məqsəd və hipotezin aydınlığı
- Metodologiyanın əsaslandırılması
- Analiz və nəticələrin düzgünlüyü
- Nəticələrin müzakirəsi və ədəbiyyatla müqayisəsi
- Format və dil baxımından uyğunluq
- Etik məsələlərin yerinə yetirilməsi

Rəyçilər, nəticədə aşağıdakı tövsiyələrdən birini verə bilərlər:

- **Qəbul et**
- **Qəbul ediləbilər ancaq dəyişikliklər tələb et** (kiçik (minor) vəya böyük (majör) düzəlişlərlə)
- **Rədd et** (elmi və ya texniki cəhətdən zəif olduğu halda)

Redaktor bu rəyləri nəzərə alaraq nəticə qərarı verir və onu müəllifə bildirir. Bu proses, elmi nəşrin əsas keyfiyyət təminatı mexanizmlərindən biri hesab olunur (Ware, 2011).

**Rəy Dövrləri və Onların Məzmunu**

Rəy dövrləri, elmi məqalənin dərc olunma prosesində təkrarlanan və mühüm mərhələlərdən biridir. Bu dövrlərdə rəyçilər tərəfindən məqaləyə dair elmi və texniki iradlar bildirildikdən sonra müəllif həmin iradlara uyğun düzəlişlər edir və məqaləni yenidən təqdim edir. Bu proses bəzən bir dövrlə yekunlaşsa da, bəzi hallarda iki, üç və ya daha çox rəy dövrü tələb oluna bilər.

Ənənəvi olaraq, əgər məqalənin əsas strukturu və elmi məzmunu qənaətbəxşdirsə, 1–2 rəy dövrü kifayət edir. Lakin bəzi hallarda rəyçilərin əlavə düzəlişlər, daha ətraflı məlumat və ya yeni nəticələr tələb etməsi səbəbindən 3 və ya daha çox dövr də baş verə bilər. İstisna hallarda, bu proses 4–5 dövrə qədər uzana bilər. Bu, jurnalın redaksiya siyasətindən, rəyçilərin tələblərindən və müəllifin düzəlişlərə nə dərəcədə adekvat cavab verdiyindən asılıdır.

Bütün bu dövrlər, elmi keyfiyyətin yüksəldilməsi və məqalənin nəşrə layiq səviyyəyə çatdırılması məqsədi daşıyır. Aşağıda bu rəy dövrləri mərhələli şəkildə təqdim olunmuşdur.

- **1-ci Rəy Dövrü: İlkin Qiymətləndirmədən Sonra Elmi Rəyin Təşkili**

**Məqsəd:**

Məqalənin elmi və texniki baxımdan ilkin baxışdan sonra müstəqil

rəyçilərə göndərilərək ilk dəfə qiymətləndirilməsi.

**Məzmun:**

- Redaktor məqaləni format və elmi uyğunluq baxımından yoxlayır.
- Rəyçilər “Kiçik düzəlişlər”, “Ətraflı düzəliş”, “Rədd” və ya “Qəbul” qərarlarından birini verir.
- Rəylər əsasında müəllifə düzəliş üçün şərhlər göndərilir.

- **2-ci Rəy Dövrü: Düzəlişlərin Yenidən Qiymətləndirilməsi**

**Məqsəd:**

Müəllif tərəfindən edilən düzəlişlərin rəyçilər tərəfindən yenidən yoxlanılması.

**Məzmun:**

- Rəyçilər əvvəlki düzəlişlərin yerinə yetirilib-yetirilmədiyini qiymətləndirir.
- Əgər bəzi iradlar natamam qalırsa, əlavə düzəlişlər tələb oluna bilər.
- Rəyçilər əlavə şərhlərlə yeni cavablar tələb edə bilər.
- Redaktor bu mərhələdə müəllifin cavablarının məqbul olub-olmadığına qərar verir.

- **3-cü Rəy Dövrü: Təkmilləşdirilmiş Cavabların Son Qiymətləndirilməsi**

**Məqsəd:**

Əlavə düzəlişlərin və yeni əlavələrin qiymətləndirilməsi və məqalənin nəşrə uyğunluğunun son dəfə nəzərdən keçirilməsi.

**Məzmun:**

- Rəyçilər əvvəlki şərhlərin tam cavablandırılıb-cavablandırılmadığını yoxlayır.
- Əgər ciddi qüsurlar qalmayıbsa, rəyçilər “qəbul” və ya “kiçik düzəliş” tövsiyəsi verirlər.
- Müəllif varsa, cüzi dəyişiklikləri edib təkrar təqdim edir.
- Redaktor qəbul və ya son düzəliş qərarı verir.

- **4-cü  və sonrası Rəy Dövrü: Son Dəyişikliklərin Yoxlanılması və Qəbul Qərarı**

**Məqsəd:**

Sonuncu dəyişikliklərin texniki və elmi cəhətdən düzgünlüyünü yoxlayaraq nəşr üçün son qərarı vermək.

**Məzmun:**

- Rəyçilər və ya yalnız redaktor dəyişikliklərin tam olub olmadığını

təsdiqləyir.

- Əgər problem yoxdursa, məqalə “nəşrə qəbul edilmişdir” statusu alır.
- Əgər hələ də qeyri-müəyyənlik varsa, çox güman ki məqalə qəbul edilmir.

Bu prosesin müəlliflərə maksimum 3-cü rəy dövründə tamamlanması məsləhət görülülür. Bir çox jurnal əgər 2 rəy dövründə rəyçilərin istəkləri uygun formada cavablanmadığında jurnal redaktoru  çox vaxt məqaləni qəbul etmir.

**Rəylərə Cavab Prosesi**
Rəylərin müəllifə çatdırılmasından sonraki mərhələ rəylərə əsasən düzəlişlərin aparılması və cavab məktubunun hazırlanmasıdır. Bu proses aşağıdakı ardıcıllıqla həyata keçirilir:

**1. Rəylərin diqqətlə oxunması**
Müəllif və ya müəlliflər komandasının hər bir rəyçinin şərhlərini diqqətlə oxuması və başa düşməsi vacibdir. Burada rəyçinin hansı məsələlərə diqqət yetirdiyi, hansı düzəlişlərin tələb olunduğu və hansı sualların cavablandırılmalı olduğu aydın şəkildə müəyyənləşdirilir.
**2. Düzəlişlərin edilməsi**
Məqalənin mətnində texniki, elmi və struktur baxımından tələb olunan dəyişikliklər həyata keçirilir. Hər bir düzəlişin yerinə yetirilməsi zamanı əvvəlki versiyada olan hissələrin üstündən keçilir və dəyişikliklər dəyişikliklərin vizuallaşdırılması rejimində qeyd edilir.
**3. Rəylərə cavab məktubunun (Response Letter) hazırlanması**
Bu məktubda müəlliflər hər bir rəyçiyə nömrə və ya başlıq üzrə cavab verir. Qəbul edilən düzəlişlər üçün “Rəyiniz üçün təşəkkür edirik, qeyd etdiyiniz məqamı düzəltdik və bu hissədə göstərdik:...” kimi cavablar verilir. Əgər müəllif rəyçi ilə razı deyilsə, bunun səbəbi elmi əsaslarla izah edilir.

Bu mərhələ akademik ədəbiyyatda yüksək keyfiyyətin qorunmasını təmin edən əsas hissələrdən biridir və müəllifin elmi etika və peşəkarlığını nümayiş etdirməsi üçün önəmli bir imkan yaradır. Bu cavablama şəkli əgər lazım olarsa ikinci, üçüncü rəy dövrərində tekrarlanaraq davam edir. Burada məqalə müəlliflərinin əsas məqsədi rəyciləri razı salmaqdır. 3 saylı şəkildədə rəylərə verilməli olan cavbların nümunəsi verilmişdir.

*Şəkil 3. Redaktor və Rəyçilərə verilməli uygun cavablar*

Hörmətli Redaktor,

Biz rəyçilərə və redaktorlara əsasən konstruktiv təkliflərinə görə təşəkkür edirik. Hakim iradlarını nəzərə aldıq və tövsiyələrə uyğun olaraq məqaləmizə düzəlişlər etdik. Hesab edirik ki, nəticədə əlyazma xeyli təkmilləşdirilib və ümid edirik ki, məqaləmiz, XXX XXX jurnalında dərc olunmaq üçün uyğun olacaq.

Rəyçilərin təkliflərinə cavab aşağıda verilmişdir (irad və cavab kimi). Məqaləmizin orijinal və yenidən işlənmiş variantlarını müqayisə etmək işini asanlaşdırmaq və sürətləndirmək üçün məqaləmizin orijinal variantının işarələnmiş variantını da təqdim edirik. Yenidən düzəldilmiş və yeni əlavə edilmiş hissələr fərqli rəngdə (göy) qeyd edilmişdir.

**Rəyçi 1 -ə cavab**

**Sual 1:** Cədvəl 2-dəki məlumatlar Şəkil 3-ə uyğun gəlmir. Zəhmət olmasa, hər hansı uyğunsuzluğu aydınlaşdırın və ya düzəldin(Səhifə 7, Sətr 23).

Cavab 1: Biz hakimin bunu qeyd etməsini təqdir edirik. Diqqətlə nəzərdən keçirdikdən sonra Şəkil 3-də yazım xətası olduğunu aşkar etdik. Biz bunu yenidən işlənmiş versiyada düzəltdik və indi Cədvəl 2 və Şəkil 3-dəki məlumatlar tam uyğundur.

**Sual 2:**Müəlliflər nəzəri hissədə Tənlik 15-də səhvlərə yol vermişdir. Bu tənlik düzəldilməlidir.

**Cavab 2:**Hörmətli Hakimə təşəkkür edirik.Qeyd etdiyiniz fikrə hörmətlə yanaşırıq, lakin tənliyin təqdimatında hər hansı nəzəri və ya riyazi səhvin olmadığını düşünürük. Tətbiq etdiyimiz yanaşma və tənliklər mövcud elmi ədəbiyyatda (məsələn, [Müəllif, İl]) geniş şəkildə istifadə olunur və qəbul olunmuş formalara əsaslanır. Tənlik 15, həmin mənbələrə uyğun şəkildə verildiyindən, bu hissədə dəyişiklik edilməsinə ehtiyac duymadıq.

**Rəyçi 2-ə cavab**

**Sual 1:** Metodologiya bölməsində [xüsusi metod] ilə bağlı kifayət qədər məlumatlar yoxdur (Səhifə 1, sətr 10). Lütfən, təkrarlanma qabiliyyətini təmin etmək üçün daha əhatəli izahat verin.

**Cavab 1:** Bu dəyərli təklifə görə hakimə təşəkkür edirik. Aşağıdakı əsas aspektlər daxil olmaqla, [xüsusi metodun] daha ətraflı izahını daxil etmək üçün metodologiya bölməsinə yenidən baxdı və əlavələr ettik (Səhifə 1, sətr 15).

**Sual 2:**Məqalədə bir sıra dil və üslub xətalarına rast gəlinir. Cümlələrin quruluşu və terminlərin istifadəsi bəzi yerlərdə anlaşılmazdır. Məqalənin dili redaktə olunmalıdır.

**Cavab 2:**Hörmətli Hakimə dəyərli iradınıza görə təşəkkür edirik. Qeyd etdiyiniz kimi, məqalədə bəzi dil və üslub çatışmazlıqları mövcud ola bilər. Bu səbəbdən, məqalənin tam mətni dil baxımından diqqətlə yenidən nəzərdən keçirilmiş və elmi üsluba uyğunlaşdırılmışdır. Terminlərin istifadəsindəki qeyri-dəqiqliklər və cümlə quruluşundakı anlaşılmazlıqlar redaktə olunmuşdur. Əlavə olaraq, yazının akademik səviyyədə aydın və oxunaqlı olması üçün məqalə peşəkar dil redaktorunun da nəzərindən keçirilmişdir. Ümid edirik ki, aparılan düzəlişlər məqalənin elmi və dil keyfiyyətini artırmışdır.

***Mənbə:** Müəllif tərəfindən hazırlanmışdır.*

### 9.4.4. Məqalənin Qəbulu

Məqalə bütün rəy dövrlərindən uğurla keçdikdən və rəyçilər tərəfindən irəli sürülən elmi və texniki tələblər tam şəkildə yerinə yetirildikdən sonra, jurnalın baş redaktoru tərəfindən yekun qərar qəbul olunur. Əgər təqdim olunan son versiya elmi baxımdan yetkin, texniki baxımdan düzgün və jurnalın standartlarına uyğun hesab edilərsə, məqalə "qəbul edildi" statusu alır.

Bu mərhələdə müəllifə məqalənin qəbul edildiyi barədə rəsmi məlumat göndərilir. Qəbul bildirişi, adətən elektron poçt vasitəsilə çatdırılır və burada məqalənin nəşr tarixi, identifikasiya nömrəsi (manuscript ID), nəşr olunacağı cild və buraxılış (issue) nömrəsi kimi texniki detallara da yer verilə bilər.

Qəbulla birlikdə müəllifdən bəzən məqalənin son formatının düzülməsi üçün kiçik texniki korrektələr mərhələsində iştirak etməsi də istənilə bilər. Bu mərhələdə müəllif yalnız texniki səhvləri (qrammatik və ya formatlama xətaları) düzəldə bilər, elmi məzmuna müdaxilə isə artıq nəzərdə tutulmur.

Məqalənin qəbul edilməsi, müəllifin tədqiqatının elmi ictimaiyyət tərəfindən tanındığının və jurnalın keyfiyyət meyarlarına cavab verdiyinin göstəricisidir. Bu həm də müəllif üçün akademik reputasiyanın möhkəmləndirilməsi baxımından əhəmiyyətli bir uğurdur.

## 9.5. Elmi jurnalların nəşr modelləri və müəllif hüquqları

Müasir akademik mühitdə elmi biliklərin paylaşılması və yayımı yalnız tədqiqat aparmaqla və ya məqalə yazmaqla bitmir. Məqalənin necə və harada yayımlandığı, kimlərə və hansı şərtlərlə əlçatan olduğu da ən azı elmi keyfiyyəti qədər əhəmiyyətlidir. Bu baxımdan, elmi jurnalların nəşr modelləri və müəllif hüquqları ilə bağlı prinsiplər, elmi kommunikasiyanın əsas sütunlarından sayılır.

Müəllif, məqaləsini təqdim etməzdən öncə onun hansı nəşr modelində yayımlanacağını və müəllif hüquqları ilə bağlı hansı şərtlərə razılıq verdiyini diqqətlə nəzərdən keçirməlidir. Çünki bu şərtlər, həm tədqiqatın ictimaiyyətə nə dərəcədə açıq olacağını, həm də müəllifin gələcəkdə öz işindən necə istifadə edə biləcəyini müəyyən edir.

Hazırda elmi jurnallar əsasən üç nəşr modeli üzrə fəaliyyət göstərir:

- ənənəvi nəşr modeli,
- açıq mənbə modeli

- hibrid model.

Bu modellər arasında fərqlər yalnız oxucuların çıxış imkanlarına deyil, həm də müəllifin hüquqi və maliyyə öhdəliklərinə təsir edir.

## 9.5.1. Ənənəvi nəşr modeli (Subscription-based model)

Ənənəvi nəşr modeli, elmi məqalələrin yayımlanmasında uzun illərdir istifadə olunan və bu gün də bir çox yüksək impakt faktorlu jurnal tərəfindən tətbiq edilən sistemdir. Bu modeldə əsas ödəniş yükü müəlliflərə deyil, məqaləni oxumaq istəyən oxuculara və ya onların təmsil olunduğu təşkilatlara (universitetlər, kitabxanalar və s.) yönəldilir. Başqa sözlə, bu nəşr modelində müəlliflər məqalələrini heç bir nəşr haqqı ödəmədən jurnala təqdim edir, lakin nəticədə bu məqaləyə çıxış yalnız abunə və ya ödəniş əsasında mümkündür (Suber, 2012).

**İşləmə Prinsipi**

Ənənəvi modeldə nəşr prosesi aşağıdakı şəkildə həyata keçirilir:

- Müəllif məqaləsini jurnalın redaksiyasına təqdim edir və bu proses üçün ödəniş etmir.
- Jurnal tərəfindən peer-review (elmi rəy), redaktə və nəşrə hazırlıq mərhələləri həyata keçirilir.
- Oxucular və ya onların təmsil olunduğu qurumlar məqaləyə çıxış əldə etmək üçün jurnalın abunəçisi olmalıdır və ya məqaləni ayrıca satın almalıdırlar.

Bu modelə uyğun işləyən əsas beynəlxalq nəşriyyatlara Elsevier, Springer, Wiley və IEEE kimi qurumlar daxildir (Larivière, Haustein & Mongeon, 2015). Bu nəşriyyatların illik abunə haqları, jurnaldan və paket növündən asılı olaraq, təxminən 500–5000 ABŞ dolları arasında dəyişə bilər. Bəzi böyük universitetlər isə hər il milyonlarla dolları bu tip abunələrə xərcləyirlər (Bosch, Albee & Henderson, 2020).

**Üstünlükləri**

Ənənəvi nəşr modelinin həm müəlliflər, həm də nəşriyyatlar və bəzən oxucular üçün müəyyən üstünlükləri mövcuddur:

- Müəlliflər üçün: Nəşr haqqı ödəmədən yüksək prestijə malik jurnallarda məqalə dərc etdirmək imkanı yaranır.
- Nəşriyyatlar üçün: Abunə sistemi sayəsində sabit və davamlı gəlir mənbəyi formalaşır.
- Oxucular üçün: Akademik qurumlar tərəfindən ödənilən abunə haqları sayəsində tədqiqatçılar çoxsaylı resurslardan pulsuz yararlana bilir.

**Çətinliklər və Tənqidlər**
Bununla yanaşı, bu model bir sıra problemlərlə də müşayiət olunur:

- Əhatə məhdudluğu: Abunə olmayan fərdi tədqiqatçılar, müstəqil alimlər və ya inkişaf etməkdə olan ölkələrin institutları bu məqalələrə çıxışda çətinlik çəkir.
- Yüksək abunə xərcləri: Hər il artan abunə qiymətləri, xüsusilə universitet kitabxanalarının büdcəsinə ciddi təzyiqlər yaradır (Bosch et al., 2020).
- Bilik bölüşümündə maneələr: Açıq mənbə çıxışın olmaması tədqiqatın təsir dairəsini və ictimai əhəmiyyətini azaldır (Suber, 2012).

## 9.5.2. Açıq mənbə modeli (Open Access model)

Açıq Mənbə (Open Access – OA) modeli, elmi tədqiqatların və nəşrlərin geniş ictimaiyyətə pulsuz və sərbəst şəkildə əlçatan olmasını təmin edən nəşr modelidir. Bu modelin əsas məqsədi, elmi biliklərin yayılmasını sürətləndirmək və tədqiqat nəticələrinin daha geniş auditoriya tərəfindən istifadə olunmasına şərait yaratmaqdır. Açıq mənbə modeli müəlliflər, tədqiqatçılar, tələbələr və ictimaiyyət üçün mühüm əhəmiyyət daşıyır, çünki bu yolla ödənişsiz şəkildə yüksək keyfiyyətli elmi məqalələrə çıxış əldə etmək mümkündür. Bu modeldə müəllif tərəfindən ödəmə tələb oluna bilər, amma bu modeldən asılı olaraq dəyişir. Bu modelin bir çox növü vardır.

**Qızıl Açıq Mənbə (Gold Open Access)**
Qızıl Açıq Mənbə modelində elmi məqalə jurnal tərəfindən nəşr olunduqdan dərhal sonra ictimaiyyət üçün tam şəkildə açıq olur. Bu modeldə oxucular hər hansı bir ödəniş etmədən məqaləni oxuya, yükləyə və paylaşa bilirlər. Lakin nəşr xərclərini qarşılamaq məqsədilə müəllif və ya onun təmsil etdiyi təşkilat tərəfindən məqalə emal haqqı ödənilməsi tələb olunur.

**Yaşıl Açıq Mənbə (Green Open Access)**
Yaşıl Açıq Mənbə modeli müəllifə elmi məqalənin bir nüsxəsini – adətən preprint (nəşrdən əvvəlki) və ya postprint (rəy prosesindən keçmiş, lakin nəşr edilməmiş versiya) – şəxsi veb saytında, institut repozitoriyasında və ya açıq elmi arxivdə yerləşdirməyə imkan verir. Bu halda, məqalə əvvəlcə ənənəvi, abunə əsaslı jurnalda dərc olunur. Yaşıl modeldə adətən müəllifdən ödəniş tələb olunmur. Lakin bəzi nəşriyyatlar müəllifin

məqaləni açıq şəkildə paylaşması üçün gözləmə müddəti (embargo period) tətbiq edə bilər.

**Brilyant/Diamant Açıq Mənbə (Diamond/Platinum Open Access)**
Bu modeldə nə müəllifdən, nə də oxucudan ödəniş tələb olunmur. Nəşr xərcləri əsasən universitetlər, elmi cəmiyyətlər və dövlət fondları tərəfindən qarşılanır. Bu yanaşma elmin hər kəs üçün açıq və ədalətli olmasını tam şəkildə təmin etməyə çalışır.

**Bürünc Açıq Mənbə (Bronze Open Access)**
Bürünc Açıq Elm modeli çərçivəsində məqalə nəşriyyatın öz veb saytında müvəqqəti olaraq açıq şəkildə təqdim edilir. Lakin bu açıq təqdimat rəsmi lisenziya ilə qorunmur, yəni Creative Commons kimi hüquqi əsaslı paylaşım şərtləri olmur. Bu cür məqalələr oxucular üçün pulsuz olsa da, onların yenidən istifadəsi və yayımı məhdud ola bilər.

**Preprint Açıq Mənbə (Preprint Open Access)**
Preprint modeli elmi məqalənin rəy prosesindən əvvəlki ilkin versiyasının ictimaiyyətlə paylaşılmasını nəzərdə tutur. Bu modelin əsas məqsədi tədqiqat nəticələrinin sürətlə yayılmasını təmin etmək, elmi müzakirələri stimullaşdırmaq və müəllifin prioritetini (ilk müəlliflik hüququ) qorumaqdır.

Preprint versiyaları aşağıdakı platformalarda yayımlanır:
- arXiv (fizika, riyaziyyat, kompüter elmləri)
- bioRxiv (biologiya)
- medRxiv (tibb)
- SocArXiv (ictimai elmlər) və s.

Preprint açıq mənbə modeli tədqiqatçılara erkən istinad almaq, geniş auditoriya ilə əlaqə yaratmaq və elmi ictimaiyyətdən rəy almaq baxımından əhəmiyyətlidir.

**Açıq Mənbə Modelinin Üstünlükləri**
Açıq elm modeli elmi biliklərin geniş yayılmasını təşviq edən, elmə əlçatanlığı və əməkdaşlığı artıran mühüm bir yanaşmadır. Bu modelin bir sıra nəzərə çarpacaq üstünlükləri vardır:
- Əlçatanlıq: Açıq mənbə sayəsində dünyanın istənilən yerindəki istifadəçilər hər hansı bir elm sahəsində nəşr olunmuş məqalələri sərbəst şəkildə, heç bir maliyyə məhdudiyyəti olmadan oxuya

bilirlər. Bu, xüsusilə inkişaf etməkdə olan ölkələrdəki tədqiqatçılar və tələbələr üçün böyük imkan yaradır.

- Təsir dairəsinin genişlənməsi: Açıq mənbə nəşrlər, ənənəvi abunə əsaslı nəşrlərlə müqayisədə daha çox istinad alır və bu da onların elmi təsir faktorunu artırır. Məsələn, Piwowar və digərlərinin (2018) apardığı araşdırmaya əsasən, açıq mənbə məqalələr daha yüksək istinad sayına malikdir.
- Maliyyə şəffaflığı: Açıq elm jurnalları adətən məqalə emal haqqını açıq şəkildə təqdim edir. Bu da tədqiqatçılara jurnal seçimində maliyyə şəffaflığı baxımından qərar verməkdə kömək edir.
- Qrant uyğunluğu: Bir çox beynəlxalq qrant verən qurumlar – məsələn, Avropa Birliyi (Plan S təşəbbüsü), ABŞ Milli Səhiyyə İnstitutu (NIH), ABŞ Milli Elm Fondu (NSF) və digərləri – açıq mənbə nəşr modelini maliyyə dəstəyi üçün ön şərt kimi müəyyən edirlər. Bu, açıq elmin elmi siyasətlərdəki əhəmiyyətini göstərir.

**Açıq Elm Modelinin Məhdudiyyətləri**

Bütün müsbət cəhətlərinə baxmayaraq, açıq elm modelinin bəzi məhdudiyyətləri və problemləri də mövcuddur:

- Yüksək nəşr haqları(qiymətləri): Bəzi açıq mənbə jurnalları tədqiqatçılardan 500–5000 ABŞ dolları arasında dəyişən nəşr haqları tələb edir (Solomon & Björk, 2012). Bu məbləğlər, xüsusilə fərdi tədqiqatçılar və ya məhdud büdcəli layihələr üçün ciddi maliyyə yükü yarada bilər.
- Keyfiyyət riskləri: Predatory adlandırılan bəzi jurnallar açıq mənbə nəşr modelindən sui-istifadə edərək, elmi rəy (peer review) prosesini ya tamamilə keçirmir, ya da keyfiyyətsiz icra edir. Bu cür fəaliyyətlər elmi keyfiyyətə və ictimai etimada zərər verə bilər.
- Ədalətsiz maliyyə bölgüsü: APC ödənişləri az resurslu ölkələrdəki və ya qeyri-kommersiya tədqiqat təşkilatlarındakı alimlər üçün böyük bir maneə ola bilər. Bu da açıq elmin “hamı üçün bərabər imkanlar” prinsipi ilə ziddiyyət təşkil edə bilər.

Bu səbəblərdən, açıq mənbə modelinin uğurla tətbiqi üçün həm qlobal miqyasda dəstəkləyici siyasətlərə, həm də daha ədalətli maliyyə mexanizmlərinə ehtiyac duyulur.

### 9.5.3. Hibrid Model

Hibrid modeli – adından da göründüyü kimi – ənənəvi abunə əsaslı nəşr sistemi ilə açıq elm prinsiplərinin birləşdiyi bir formatdır. Bu modeldə jurnal əsasən abunə sisteminə əsaslanır, lakin müəlliflərə ödəniş etməklə öz məqalələrini açıq şəkildə yayımlamaq imkanı verilir (Pinfield, 2015).

**Tənqidlər:**

- "İkiqat ödəniş" problemi (double dipping): Bəzi hallarda nəşriyyatlar həm abunə haqqı, həm də APC alaraq ikiqat qazanc əldə edə bilirlər. Bu isə kitabxanalar və tədqiqatçılar tərəfindən tənqid olunur.
- Daha bahalı model: Bəzən hibrid jurnalların APC-ləri, tam Açıq Elm (Gold OA) jurnallarına nisbətən daha yüksək olur.
- Açıq elmin fəlsəfəsinə tam uyğun deyil: Hibrid modeldə yalnız ödəniş edən müəlliflərin məqalələri açıq olur, digərləri isə bağlı qalır. Bu isə bərabərsizlik və əlçatanlıq problemini tam həll etmir.

Nəticə olaraq, Hibrid modeli keçid dövrü üçün praktik həll kimi qəbul edilsə də, bu modelin davamlılığı və ədalətliliyi uzunmüddətli perspektivdə müzakirə mövzusu olaraq qalır. Bir çox qurum və tədqiqatçı tam Açıq Mənbə modellərinin daha etik və əlçatan olduğunu düşünür.

### 9.5.4. Nəşr modellerinin qarşılaşdırılması

Ənənəvi model, açıq mənbə modeli və hibrid model müəllifin ödəniş məsuliyyəti, oxucular üçün əlçatanlıq səviyyəsi, müəllif hüquqları və elmi biliklərin yayılma sürəti baxımından bir-birindən fərqlənir. Aşağıda bu üç modelin əsas xüsusiyyətləri müqayisəli şəkildə qarşılaşdırması 3 saylı cədvəldə də təqdim olunur.

***Cədvəl 3.*** *Nəşr modellerinin qarşılaşdırılması*

| Model | Üstünlüklər | Çatışmazlıqlar |
|---|---|---|
| Ənənəvi | Yüksək prestij, müəllif üçün pulsuz | Məhdud çıxış |
| Açıq Elm | Geniş təsir dairəsi, yüksək sitat | Yüksək APC |
| Hibrid | Seçim imkanı | İkiqat ödəniş |

Cədvəldən də göründüyü kimi, bu üç modelin (ənənəvi, açıq mənbə və hibrid) hər birinin öz üstünlükləri və çatışmazlıqları mövcuddur. Elmi ədəbiyyat təhlil edildikdə, alimlərin bu modellərin hər üçünü də aktiv şəkildə istifadə etdikləri müşahidə olunur. Ümumilikdə elmi jurnallarda bu modellərin paylanması 4 saylı şəkildə təqdim olunmuşdur. Şəkildən də göründüyü kimi, ənənəvi model üzrə dərc olunan məqalələr ümumi nəşrlərin 55%-ni, açıq mənbə modeli 30%-ni, hibrid model isə 15%-ni təşkil edir.

***Şəkil 4.*** *Nəşr modellerinin dünyada istifadəsi.*




***Mənbə:*** *Müəllif tərəfindən hazırlanıb.*

Hibrid model, açıq elmə keçid üçün bir ara mərhələ funksiyasını yerinə yetirsə də, etik və maliyyə baxımından davamlılıq problemləri ilə üzləşir. 2023-cü il üzrə aparılan araşdırmalara əsasən, hibrid jurnallarda yayımlanan məqalələr ənənəvi modellə dərc olunanlara nisbətən orta hesabla 1.3 dəfə çox sitat almışdır. Bu nəticə modelin qismən uğurlu olduğunu göstərsə də, struktur və şəffaflıq baxımından müəyyən islahatlara ehtiyac olduğunu ortaya qoyur (Bosman & Kramer, 2023).

## 9.6. Elmi Nəşrlərdə Müəllif Hüquqları

Məqalənin çapı zamanı müəlliflərin nəşriyyatla imzaladığı copyright müqaviləsi, hüquqi baxımdan vacib bir sənəddir. Ənənəvi modellərdə müəllif bu müqavilə ilə yayım hüquqlarını nəşriyyata ötürür. Açıq Mənbə modellərində isə müəllif hüquqlarını saxlayaraq, məqaləsini lisenziya əsasında paylaşa bilir.(Suber, 2012).

**Nəşr Müqavilələrinin Növləri**

Elmi jurnallar müəlliflərdən əsasən üç əsas hüquqi modeldən birini seçməyi tələb edirlər:

- Copyright Transfer Agreement (CTA): Müəllif hüquqları tam şəkildə nəşriyyata ötürülür. Bu model ənənəvi elmi jurnallar arasında geniş yayılmışdır. Müəllif bundan sonra öz əsərindən istifadədə nəşriyyatın icazəsinə ehtiyac duyur (Tennant et al., 2016).
- License to Publish: Müəllif hüquqları müəllifdə qalır, lakin nəşriyyata nəşr etmək üçün lisenziya verilir. Bu model müəllifin müəyyən hüquqları özündə saxlamasına imkan verir (COAR, 2020).
- Open Access lisenziyaları (məsələn, Creative Commons): Müəllif bütün hüquqları özündə saxlayır və əsər açıq lisenziya altında yayımlanır. Bu modeldə müəlliflər əsərlərinin geniş şəkildə istifadəsinə şərait yaradırlar (Creative Commons, 2025).

**Müəlliflər üçün Tövsiyələr**

- Məqalə göndərdiyiniz jurnalın müəllif hüquqları siyasətini diqqətlə öyrənin.
- Mümkün olduğu halda “Copyright Transfer” əvəzinə “License to Publish” müqaviləsini seçin.
- Öz məqalənizi universitet arxivində və ya şəxsi veb səhifənizdə yerləşdirmək imkanınızı yoxlayın.
- Açıq lisenziyalar (xüsusilə CC BY) vasitəsilə məqalənizin daha çox yayılmasını təmin edin.
- Plagiat və müəllif hüquqları pozuntularından uzaq durun – həm hüquqi, həm də akademik nüfuz baxımından ciddi risklər mövcuddur.

## 9.7. Uğurlu nəşr üçün tövsiyələr və tez-tez buraxılan səhvlər

Akademik jurnallarda məqalə dərc etdirmək həm elmi karyeranın inkişafı, həm də elmi biliklərin yayılması baxımından mühüm əhəmiyyət

daşıyır. Uğurlu nəşr üçün yalnız yüksək keyfiyyətli tədqiqat aparmaq kifayət deyil; həmçinin düzgün təqdimat, redaksiya qaydalarına riayət və nəşr etikası da vacibdir. Bu bölmədə uğurlu nəşrə aparan əsas addımlar və müəlliflərin ən çox rast gəldiyi səhvlər təhlil olunur.

**Uğurlu Nəşr Üçün Tövsiyələr**

**Dəqiq və fokuslanmış tədqiqat mövzusu seçin:** Tədqiqatınızın yenilik dərəcəsini, aktuallığını və elmi ictimaiyyət üçün əhəmiyyətini əvvəlcədən müəyyənləşdirin (Belcher, 2019).
**Düzgün jurnal seçimi:** Məqalənin məzmunu və istiqaməti seçdiyiniz jurnalın elmi profili ilə uyğun olmalıdır. Jurnalın impakt faktoru, hədəf auditoriyası və nəşr dövriliyi nəzərə alınmalıdır (Gastel & Day, 2016).
**Jurnal qaydalarına riayət:** Hər jurnalın özünəməxsus struktur və istinad qaydaları var. Məqalənizi göndərməzdən əvvəl həmin qaydalara uyğunlaşdırın.
**Məqalənin dili və üslubu:** Elmi dil aydın, qrammatik baxımdan düzgün və terminoloji cəhətdən uyğun olmalıdır. Lazım gəldikdə peşəkar redaktordan dəstək alın.
**Güclü nəticə və müzakirə bölməsi:** Əldə etdiyiniz nəticələri analitik şəkildə izah edin, onları mövcud ədəbiyyatla müqayisə edin və gələcək tədqiqatlara işarə edin.
**İstinadların düzgün verilməsi:** Bütün istifadə olunan mənbələrə düzgün şəkildə istinad edilməli, plagiat halları aradan qaldırılmalıdır (Roig, 2015).
**Plagiat yoxlaması və etik prinsip:** Məqalə göndərməzdən əvvəl plagiat yoxlayıcı vasitələrdən istifadə edin və etik qaydalara əməl etdiyinizə əmin olun.
**Qəbul edilməmiş məqalələrə dair strategiya:** Əgər məqaləniz rədd edilərsə, ekspert rəylərindən faydalanın, təkmilləşdirmələr edin və alternativ jurnallara təqdim etməyə hazır olun (Belcher, 2019).

**Tez-Tez Buraxılan Səhvlər**

**Jurnala uyğun olmayan məqalə göndərmək:** Ən çox rast gəlinən səhvlərdən biri seçilmiş jurnalın profili ilə uyğun olmayan mövzuda məqalə göndərməkdir. Bu, məqalənin avtomatik rədd edilməsinə səbəb ola bilər.
**Qaydaların pozulması:** Format, istinad stili və uzunluq tələblərinə əməl

edilməməsi rəyçilər və redaktorlar tərəfindən mənfi qarşılanır.
**Aydın olmayan məqalə strukturu:** Giriş, metodologiya, nəticə və müzakirə hissələri arasında aydın keçidlərin olmaması, eləcə də natamam və ya dolaşıq mətn oxucu üçün çətinlik yaradır.
**Yetərsiz ədəbiyyat icmalı:** Ədəbiyyat icmalı kifayət qədər geniş və dərin olmadıqda, mövzuya nə dərəcədə bələd olduğunuz sual altına düşür.
**Tələsik göndərmə:** Məqalənin redaktə edilmədən və ya ilkin yoxlanışlar aparılmadan tələsik göndərilməsi ciddi texniki və məzmun xətalarına səbəb ola bilər.
**Etik məsələlərə laqeyd yanaşmaq:** İstinadsız fikirlər, plagiat, saxta məlumatlar və müəllifliklə bağlı pozuntular akademik nüfuzun ciddi şəkildə zədələnməsinə səbəb olur (COPE, 2021).

Uğurlu akademik nəşr üçün tədqiqatın keyfiyyəti qədər onun necə təqdim edildiyi də vacibdir. Elmi ictimaiyyətin diqqətini cəlb etmək və nüfuzlu jurnallarda dərc olunmaq üçün bu tövsiyələrə əməl etmək mühüm əhəmiyyət daşıyır. Müəlliflər öz tədqiqatlarını məsuliyyətlə təqdim etməli, etik prinsiplərə sadiq qalmalı və hər bir rəydən öyrənərək təkmilləşməyə çalışmalıdırlar.

**Uğurlu nəşr üçün yoxlama siyahısı**

- Məqalə mövzusu jurnala uyğundur
- Məqalənin strukturu (Nümunə üçün İMRAD modeli: Giriş–Metod–Nəticə–Müzakirə) düzgündür
- İstinad formatı (APA, IEEE və s.) jurnala uyğun tənzimlənib
- Plagiat yoxlaması aparılıb (<10%)
- Məqalənin dili qrammatik cəhətdən düzgün və elmi üslubdadır
- Ədəbiyyat icmalı aktual və kifayət qədər genişdir
- Qrafiklər, şəkillər və cədvəllər keyfiyyətlidir və düzgün adlandırılıb
- Məqalə bir və ya bir neçə həmkar tərəfindən oxunub və geribildirim alınıb
- Etik bəyannamə və müəlliflik bəyanatı əlavə edilib
- Cover Letter yazılıb və əlavə olunub

# Ədəbiyyat

1. Baethge, C. (2013). Impact factor and scientific quality: Is there a relation? Deutsches Ärzteblatt International, 110(47), 798–799. https://doi.org/10.3238/arztebl.2013.0798
2. Beall, J. (2016). Predatory journals: Ban predators from the scientific record. Nature, 534(7607), 326.
3. Belcher, W. L. (2019). Writing your journal article in twelve weeks: A guide to academic publishing success (2nd ed.). University of Chicago Press.
4. Benos, D. J., Bashari, E., Chaves, J. M., Gaggar, A., Kapoor, N., LaFrance, M., ... & Wang, K. (2007). The ups and downs of peer review. Advances in Physiology Education, 31(2), 145–152. https://doi.org/10.1152/advan.00104.2006
5. Bosch, S., Albee, B., & Henderson, K. (2020). Periodicals price survey 2020: Navigating the new normal. Library Journal. https://www.libraryjournal.com
6. Bosman, J., & Kramer, B. (2023). Open access publishing: current models and future directions. Open Science Review Journal, 12(2), 45-61.
7. Clarivate Analytics. (2025a). Web of Science. https://clarivate.com/academia-government/scientific-and-academic-research/research-discovery-and-referencing/web-of-science/
8. Clarivate Analycis. (2025b). Journal Citation Reports. https://clarivate.com/academia-government/scientific-and-academic-research/research-funding-analytics/journal-citation-reports/
9. cOAlition S. (2018). Plan S: Making full and immediate Open Access a reality. https://www.coalition-s.org
10. COAR. (2020). License to publish: Recommendations and best practices. Confederation of Open Access Repositories. https://www.coar-repositories.org
11. COPE. (2019). Ethical guidelines for peer reviewers. Committee on Publication Ethics. https://publicationethics.org
12. COPE. (2021). Committee on Publication Ethics: Core practices. https://publicationethics.org/core-practices
13. Creative Commons. (2025). About The Licenses. https://creativecommons.org/licenses/
14. Day, R. A., & Gastel, B. (2012). How to write and publish a scientific paper (7th ed.). Cambridge University Press.
15. Elsevier. (2025a). About Elsevier. https://www.elsevier.com/about

16. Elsevier. (2025b). CiteScore metrics. https://www.elsevier.com/
17. Garfield, E. (2006). The history and meaning of the journal impact factor. JAMA, 295(1), 90–93.
18. Gastel, B., & Day, R. A. (2016). How to write and publish a scientific paper (8th ed.). Cambridge University Press.
19. Gerard, P.( 2001). The Age Of Science: What Scientists Learned in the 20th Century
20. Google. (2025). Google Scholar. https://scholar.google.com
21. IEEE. (2025). About IEEE. https://www.ieee.org
22. Kozlov, M. (2022). More than 150 publishers join initiative to tackle predatory-journal menace. Nature, 612(7941), 14. https://doi.org/10.1038/d41586-022-03876-7
23. Larivière, V., Haustein, S., & Mongeon, P. (2015). The oligopoly of academic publishers in the digital era. PLOS ONE, 10(6), e0127502. https://doi.org/10.1371/journal.pone.0127502
24. Lewis, D. (2022). Choosing a journal for your paper. Elsevier Researcher Academy. Retrieved from https://researcheracademy.elsevier.com
25. Macquarie University Library. (2025). Journal Quartiles & Rankings. https://libguides.mq.edu.au/researchimpact/journal_quartiles
26. MDPI. (2025). About MDPI. https://www.mdpi.com/about
27. Packer, M., et al. (2021). Publishing your research 101: Selecting a journal. American Physiological Society. Retrieved from https://journals.physiology.org
28. Patel, D. M. (2020). Journal selection and manuscript submission process. Journal of Research Ethics, 12(3), 213–220.
29. Perry, M., Tyhurst, J., & Fong, J. (2021). How to evaluate journals: A checklist. Simon Fraser University Library. https://www.lib.sfu.ca
30. Pinfield, S. (2015). Making open access work: The 'state-of-the-art' in providing open access to scholarly literature. Online Information Review, 39(5), 604-636.
31. Piwowar, H., Priem, J., Larivière, V., Alperin, J. P., Matthias, L., Norlander, B., ... & Haustein, S. (2018). The state of OA: a large-scale analysis of the prevalence and impact of Open Access articles. PeerJ, 6, e4375. https://doi.org/10.7717/peerj.4375
32. Roig, M. (2015). Avoiding plagiarism, self-plagiarism, and other questionable writing practices: A guide to ethical writing. Office of Research Integrity. https://ori.hhs.gov
33. SCImago. (2025). SCImago Journal & Country Rank. https://www.

scimagojr.com
34. Scopus. (2025). Scopus. https://www.scopus.com
35. Solomon, D. J., & Björk, B. C. (2012). A study of open access journals using article processing charges. Journal of the American Society for Information Science and Technology, 63(8), 1485–1495. https://doi.org/10.1002/asi.22673
36. Solomon, D. J., & Björk, B.-C. (2016). Article processing charges for open access publication—the situation for research intensive universities in the USA and Canada. PeerJ, 4, e2264.
37. SPARC. (2021). Open Access overview. https://sparcopen.org/open-access/
38. Springer Nature. (2025). Company profile. https://group.springernature.com
39. Suber, P. (2012). Open access. MIT Press.
40. Taylor & Francis. (2025). About us. https://taylorandfrancis.com
41. Tennant, J. P., Waldner, F., Jacques, D. C., Masuzzo, P., Collister, L. B., & Hartgerink, C. H. J. (2016). The academic, economic and societal impacts of Open Access: An evidence-based review. F1000Research, 5, 632. https://doi.org/10.12688/f1000research.8460.3
42. University of Arizona Libraries. (2024). Choosing the right journal for your research. https://lib.arizona.edu/find/articles
43. Ware, M. (2011). Peer review: Recent experience and future directions. Publishing Research Consortium. https://publishingresearch.org

*i.ü.f.d., müəl Camalova Maral Rahib*

# X. AKADEMİK YAZIDA SÜNİ İNTELLEKTDƏN İSTİFADƏ: MÖVCUD TRENDLƏR VƏ GƏLƏCƏK İNKİŞAF İSTİQAMƏTLƏRİ

10.1. Süni intellekt və akademik yazı
10.1.1 Süni intelletktdən istifadədə mövcud vəziyyət
10.1.2 Süni İntellektin 4T Piramida modeli
10.2. Süni intellektə müəllim, tələləbə və institusional yanaşmalar
10.2.1. Müəllimlərin yanaşması
10.2.2. Tələbələrin süni intellektdən istifadəsi
10.2.3. İnstitusional baxışlar
10.4. Etik çağırışlar və akademik dürüstlük
10.5. Faydalar, məhdudiyyətlər və gələcək perspektivlər
Ədəbiyyat siyahısı

## 10.1. Süni intellekt və akademik yazı

Akademik yazı, ali təhsil və tədqiqat sahələrində çox önəmli olub elmi üslubdan istifadəni özündə əks etdirən fundamental bir bacarıqdır. Bu, yalnız biliklərin ötürülməsi vasitəsi deyil, eyni zamanda tənqidi düşüncənin, sahəyə dair anlayış və biliklərin paylaşılması və tələbənin/tədqiqatçının elmi yanaşmasının formalaşması vasitəsi kimi çıxış etməkdədir. Qloballaşan və rəqəmsallaşan dünyada akademik yazı və ünsiyyət artıq mədəni, dil və texnoloji fərqləri aşmaqdadır. Rəqəmsal platformaların, onlayn tədris imkanlarının və açıq girişli nəşrlərin yüksəlişi artıq alim və tədqiqatçıların elmi işlərə, həmkarlara və auditoriyalara daha sürətlə çıxışını təmin edərək mövcud akademik münasibətlər prizmasında böyük dəyişikliklərə yol açmışdır.

Texnoloji irəliləyişlərin elm və tədrisə sürətli tətbiqini nəzərə alsaq, Süni İntellekt alətlərinin akademik yazı prosesində getdikcə daha çox istifadə olunacağından əmin ola bilərik. Bu alətlərə ChatGPT, Grammarly, Elicit,

Copilot kimi vasitələr daxildir və onların sayı gündən günə artmaqdadır. Qeyd olunan Süni İntellekt vasitələri Böyük Dil Modellərindən (Large Language Models) istifadə etməklə akademik mətnlərin yaradılması, axıcı və anlaşılan strukturun qurulması və redaktəsi üçün yeni imkanlar yaradır. Onların ən çox müraciət olunan funksiyaları arasında qrammatik səhvlərin düzəldilməsi, qısaltma və düzəlişlərin aparılması, tərcümə və elmi üslubun qaydalarına uyğunluğun təmin olunması yer alır. Bu Süni İntellekt alətləri tələbələrin necə yazdıqlarını analiz etməklə yanaşı, onların mətn yazmağı öyrənmə yollarında da dəyişiklik yaradır.
Təhsil və tədqiqat sahələrində Süni İntellektin sürətli tətbiqi ehtiyatla qarşılanmalıdır. Süni İntellekt bir tərəfdən effektivlik, əlçatanlıq və fərdiləşdirmə vəd etsə də (Cohen & Moher, 2025), müəlliflik, orijinallıq və əsas akademik bacarıqların itirilməsi kimi vacib sualları da gündəmə gətirir (Granjeiro et al., 2025). Təhsil ekpertləri və ixtisaslaşmış qurumlar bu alətləri əsas akademik dəyərləri qorumaqla yanaşı yazı prosesinə inteqrasiya etməyin yolları barədə düşünürlər. Qeyd olunan mövzu son iki ildə (i.e. 2024-2025) akademik müstəvidə daha geniş müzakirə olunmaqdadır. Bu fəsil, Süni İntellektin akademik yazıya təsir imkanlarını araşdırmaqla yanaşı, cari tendensiyalara, praktiki tətbiqlərə, pedaqoji təsirlərə, etik məsələlərə və gələcək inkişaf istiqamətlərinə də nəzər salır.
Tarixən akademik yazı əhəmiyyətli dəyişikliklərə məruz qalmışdır. Ənənəvi olaraq, bu proses əl ilə yazılmış elmi nəticələrə ardıcıl rəy verilməsi və intensiv redaktə mərhələlərini əhatə edirdi. Bu mərhələlər həmkarlarla əməkdaşlıq və müzakirələr, elmi rəhbərlik və kitabxana əsaslı elmi ədəbiyyatın araşdırması kimi fəaliyyətləri özündə birləşdirirdi. Lakin rəqəmsal alətlər və onlayn resursların inteqrasiyası bu mənzərəni tədricən dəyişmişdir (Bax Qrafik 1). Son illərdə böyük dil modellərinin (Large Language Models abvr. LLM) və generativ Süni İntellekt (Generative Artificial Intelligence) texnologiyalarının meydana çıxması yeni bir dəyişikliyə səbəb olmuşdur (Jin et al., 2025). ChatGPT, JennyAI, Grammarly kimi alətlər istifadəçilərə mətnlərin yazılması, dəyişdirilməsi, tərcüməsi və strukturlaşdırılmasında kömək edir. Bu alətlər qrammatik səhvlərin düzəldilməsi və istinadların formatlaşdırılmasını avtomatlaşdıraraq akademik yazının texniki yükünü azaldır, müəlliflərə mətnin inkişafına və tənqidi təhlilə daha çox diqqət yetirməyə imkan yaradır.

***Qrafik 1:*** *Texnoloji nailiyyətlərin akademik yazıya təsiri (1950–2023)*




***Mənbə:*** *Qrafikin ingiliscə olan orijinal versiyadan istifadə edilməklə müəllifin verdiyi rəqəmlər əsasında ChatGPT tərəfindən hazırlanmışdır*

Bu qrafik 1950–2023 illərdə texnoloji dəyişikliklərin yeni akademik alətlərinin yaranmasına təsirini əks etdirir və mexaniki/rəqəmsal yazı maşınlarından başlayaraq müasir Süni İntellekt əsaslı köməkçilərə keçidə qədərki təkamülü göstərir. 1 saylı Qrafik texnoloji inkişaf meyillərini və texnologiya adaptasiyasının ən yüksək olduğu dövrü əks etdirir..

Bu texnoloji dəyişiklik, xüsusilə texniki dəqiqlik tələb edən sahələrdə - səhiyyə, mühəndislik, təhsil və s. - əhəmiyyətli təsir göstərir (Bax Qrafik 2.). Mühəndislik ixtisaslarının tələbələri artıq Süni İntellektdən mürəkkəb arqumentlərin qurulması və hesablama nəticələrinin aydın mətnə çevrilməsi üçün istifadə edirlər. Təhsil və iqtisadiyyat sahəsindəki tədqiqatçılar isə müxtəlif verilənlər bazaları əsasında alınan ədədi nəticələrin yazılı izahında pedaqoji nəzəriyyələrlə Süni İntellektin sintezindən faydalanırlar.

Bundan əlavə, bu texnologiyalar ingilis dilindən ikinci dil kimi istifadə edən tələbə və tədqiqatçılara dəstək verir, onların elmi işlərinin aydınlığını və təsir gücünü artırır (Alkamel & Alwagieh, 2024). Süni intellektdən istifadə edərək mürəkkəb akademik mətni qısa zamanda tərcümə etmək, yenidən fərqli şəkildə ifadə etmək və qısaltmaq qabiliyyəti tələbələrin dil məhdudiyyətinin tədrisə təsirinin azalmasına imkan verir. Qeyd olunan çətinliklər tələbələrin səhvlərini düzəltməsinə, yeni biliklərə yiyələnməsinə və bu prosesin onların akademik uğurlarına

təsir etməməsinə şərait yaradır. Akademik yazı imkanlarının bu dərəcədə genişlənməsi qlobal akademik mühitdə daha böyük əhatəliliyə doğru əhəmiyyətli bir addım sayıla bilər.

Qrafik 2: Sahələr üzrə süni intellekt alətlərindən istifadə səviyyəsi (2023–2025)




***Mənbə:*** *Qrafikin ingiliscə olan orijinal versiyadan müəllifin təqdim etdiyi rəqəmlər əsasında ChatGPT tərəfindən hazırlanmışdır*

**Məlumat Mənbələri:** 2 saylı Qrafikdəki məlumatlar 2023 və 2024-cü illər üçün Alkamel & Alwagieh (2024) və Jin et al. (2025) tərəfindən aparılmış empirik tədqiqatlara əsaslanır. 2025-ci ilə dair proqnozlar isə əvvəlki illərdə müşahidə olunan xətti artım tempinə əsasən müəllif tərəfindən hesablanmışdır.
Bu qrafik 2023, 2024 və 2025-ci (proqnoz) illər üçün səhiyyə, mühəndislik, təhsil, biznes və humanitar sahələrdə Süni İntellekt alətlərindən istifadənin səviyyəsini göstərir. 2025-ci il üçün əks olunan rəqəmlər müəllifin hesablamaları əsasında verilən proqnozları əks etdirir. Tədqiqat nəticələrindən məlum olur ki (Alkamel & Alwagieh 2024; Jin et al. 2025), səhiyyə, mühəndislik və təhsil kimi sahələrdə Süni İntellekt alətlərindən istifadə səviyyəsi digər sahələrlə müqaisədə daha yüksəkdir.

### 10.1.1. Süni intelletktdən istifadədə mövcud vəziyyət

Azərbaycan Süni İntellektin təhsil sektoruna inteqrasiyası sahəsində milli rəqəmsal transformasiya strategiyaları çərçivəsində mühüm irəliləyişlər əldə etmişdir. Əsas irəliləyişlər arasında Süni İntellekt Laboratoriyasının yaradılması, ASAN İmza, ASAN Ödəniş və digər e-idarəetmə platformalarının fəaliyyətinin genişləndirilməsi və beynəlxalq təşkilatlarla əməkdaşlıq yer alır. Rəsmi olaraq Milli Süni İntellekt strategiyasının qəbul edilməsi, Süni İntellekt Laboratoriyası və 4SIM (4-cü Sənaye İnqilabi) Mərkəzi kimi təşəbbüslər Süni İntellektin inkişafına ölkəmizdəki müsbət münasibəti göstərir. Süni İntellektin cəmiyyət tərəfindən qəbul edilməsi və bir çox sahələrdə vəziyyətin ölçülməsi üçün beynəlxalq təşkilatların təklif etdiyi hazırlıq indekslərindən geniş istifadə oluna bilər. Bu hesabatlarda Azərbaycanla bağlı əks olunan nəticələr hökumət, texnologiya və məlumat infrastrukturu sütunları üzrə stabil və dayanıqlı, müsbət inkişafı əks etdirir (Mammadov & Jamalova, 2025). Bütün dünyada kommersiya yönümlü Süni İntellektin inkişafı ilə innovasiya ekosistemləri və məlumatların düzgün/ədalətli formada ifadə olunmasında çətinliklər olsa da, Azərbaycan Cənubi Qafqaz regionunda rəqəmsal innovasiya liderinə çevrilməkdədir (Mammadov & Jamalova, 2025).

Azərbaycanın ali təhsil sistemi qlobal texnoloji və əmək bazarı tələblərinə cavab vermək üçün süni intellektlə bağlı ixtisaslaşmaları tədris prosesinə inteqrasiya edir. Universitetlər artıq süni intellekt, maşın öyrənməsi və məlumat/data analitikası üzrə yeni proqramlar təklif etməyə başlayıblar. Bəzi qabaqcıl tədris müəssisələrimiz bu kursları həm azərbaycan, həm də ingilis dilində təqdim edirlər (i.e., UNEC və ARNSU). Hələlik birbaşa Süni İntellektə əsaslanan ixtisaslar məhdud olsa da, tədris proqramlarının zənginləşdirilməsi və xüsusi laboratoriyaların yaradılmasına diqqət artırılır. ABŞ və Avropa İttifaqı ilə müqayisədə Azərbaycanın inkişafı strateji yol xəritələrində də qeyd olunduğu kimi təhsilin innovasiya və iqtisadi inkişafla uyğunlaşdırılması üzrə həyata keçirilir. Universitetlərdə yeni fənnlər və ixtisaslar üzrə kadr hazırlığına baxmayaraq burokratik maneələr, köhnəlmiş tədris metodları və fənlərarası/interdiseplinar yanaşmaların çatışmazlığı ilə bağlı problemlərin həlli müəyyən zaman tələb edir. Buna baxmayaraq, Azərbaycan Süni İntellekt və onunla bağlı yeniliklərin tədris sisteminə adaptasiyası istiqamətində mühüm addımlar atır (Jamalova, 2025).

Azərbaycan Respubikasının Prezidenti tərəfindən təsdiq olunan

“Azərbaycan Respublikasının 2025–2028-ci İllər üçün Süni İntellekt Strategiyası” təhsil sahəsində insan kapitalının inkişafına və rəqəmsal bacarıqların artırılmasına yönəlmiş kompleks tədbirləri və yuxarıda qeyd olunan problemlərin həllinə hədəflənən fəaliyyətləri əhatə edir. Bu strategiya ali təhsildə ixtisaslaşma, müəllim hazırlığı və elmi tədqiqatların dəstəklənməsi vasitəsilə ölkənin innovasiya potensialını gücləndirməyi hədəfləyir. Azərbaycanın qeyd olunan Süni İntellekt Strategiyasına əsasən təhsillə bağlı əsas diqqət yetirilən məqamlar aşağıdakılardır:

1. **Yeni tədris proqramları** – Ali təhsil müəssisələrində süni intellekt üzrə ixtisaslaşdırılmış proqramların yaradılması və genişləndirilməsi planlaşdırılır. Bu, həm texniki sahələrdə, həm də digər sahələrdə kadr hazırlığını hədəfləyir.
2. **Süni İntellekt Akademiyası** – Akademik və praktiki təlimlərin keçirilməsi üçün Süni İntellekt Akademiyasının yaradılması nəzərdə tutulur. Bu akademiya beynəlxalq universitetlərlə əməkdaşlıq edəcək və mütəxəssis hazırlığına töhfə verəcək.
3. **Tədqiqatların təşviqi** – Süni intellekt üzrə elmi tədqiqatların maliyyələşdirilməsi üçün xüsusi fondlar yaradılacaq, konfranslar və seminarların keçirilməsinə dəstək göstəriləcək.
4. **Müəllim və rəhbər heyət üçün təlimlər** – Dövlət orqanlarının rəhbər heyəti və digər əməkdaşlar üçün süni intellekt və məlumatların idarə edilməsi üzrə xüsusi təlimlər keçiriləcək.
5. **Maarifləndirmə və etik hazırlıq** – İctimaiyyətin süni intellektdən etik istifadə, fərdi məlumatların qorunması və texnologiya imkanları barədə maarifləndirilməsi də strategiyanın vacib hissəsidir.

## 10.1.2. Süni İntellektin 4T Piramida Modeli

Süni intellekt alətləri akademik yazıda daha geniş yer tutduqca, tədqiqatçılar bu vasitələrdən  istifadəni sistemli şəkildə əks etdirməyə çalışırlar. Ən çox istinad edilən və vizual cəhətdən asanlıqla təsvir edilən nümunələrdən biri isə 4T Piramida Modelidir. Bu model, Süni İntellekt istifadəsinin mürəkkəbliyi və təsirinin dörd iyerarxik səviyyədə olmasını göstərir. Piramida sadə texniki köməkdən başlayaraq etik cəhətdən mübahisəli sahələrə qədər dərin bir əlaqə formasını özündə əks etdirir (Bax Şəkil 1.). Akademik yazıda Süni İntellekt alətlərinin faydaları Jin et al. (2025) tərəfindən təqdim edilən bu model dörd əsas hissədən ibarətdir:

- **Texniki Dəstək:** Piramidanın əsas və ən aşağı təbəqəsidir. Burada Süni İntellekt alətlərindən qrammatik düzəlişləri, format dəyişiklikləri, yazı səhvləri və istinadların idarə olunmasında yaxından istifadə olunur. Məsələn, Grammarly və Zotero kimi alətlər bu funksiyanı yerinə yetirir.
- **Mətnin İnkişafı:** ChatGPT və QuillBot kimi alətlər ideya yaratmaq, zənginləşdirmək parafraz etmək və akademik mətnin strukturunun qurulması kimi proseslərdə istifadəçilərə yardım edir.
- **Transformasiya:** Bu zaman Süni İntellekt alətləri mətnin tərcüməsi (ChatGPT və Reverso), auditoriyaya uyğun tərzin seçilməsi və tənzimlənməsi və ya üslub dəyişikliklərinin yerinə yetirilməsi kimi funksiyaları yerinə yetirir.
- **Təhlükələr:** Piramidanın zirvəsində yer alır və plagiat, Süni İntellektdən həddindən artıq asılılıq, yaradılmış mətndə etik cəhətdən çatışmazlıqların olması kimi potensial riskləri əhatə edir.

Bu model təhsil mütəxəssisləri və tələbələrə əsas texniki yardımdan başlayaraq daha mürəkkəb transformasiya və risklərə qədər Suni İntellektdən istifadənin müxtəlif səviyyələrdə təsirini anlamağa kömək edir. Beləliklə, istifadəçilər bu alətlərdən düzgün istifadə etməklə, etik və effektiv şəkildə akademik yazının kefiyyətini artırmaq və onun kefiyyətini artırmaq imkanı qazanırlar. Bu model praktik dəstəkdən daha dərin, transformativ və riskli istifadələrə keçidi əks etdirir və istifadəçiləri akademik kontekstdə Sİ-nin necə və nə üçün tətbiq edildiyini aydın şəkildə qiymətləndirməyə təşviq edir (Jin et al., 2025).

***Şəkil 1.*** *4T Piramida Modeli (4T Pyramid Model)*




***Mənbə:*** *Jin et al. (2025) tərəfindən təqdim edilən modelə əsasında hazırlamışdır*

## 10.2. Süni intellektə müəllim, tələləbə və institusional yanaşmalar

### 10.2.1. Müəllimlərin yanaşması

Hazırda müəllimlər də süni intellektin akademik yazıda yaratdığı mürəkkəb təsirlərlə üzləşirlər. Müasir pedaqoqların bü məsələyə münasibətləri geniş spektri əhatə edir: bəziləri Süni İntellekti vasitələrindən istifadəni müsbət qarşılayır və onu zəif yazı qabiliyyəti olan tələbələr üçün dəstək, inklüziv təhsilin təşviqi və məhsuldarlığın artırılması baxımından faydalı bir alət kimi qiymətləndirirlər (Gayed, 2025). Digərləri isə Süni İntellektin tələbələrin müstəqil düşünmə qabiliyyətini azaltdığını və öyrənmə prosesini dumanlı hala gətirdiyini düşünərək narahatlıq bildirirlər (Christina & Panagiotidis, 2024).

### 10.2.2. Tələbələrin Süni İntellektdən İstifadəsi

Süni intellektin akademik yazıda istifadə olunması istifadəçilərin yazılarının kefiyyətini artıran alətlər təqdim etməklə yanaşı, yeni problemlər doğurmaqla tələbələrin fəaliyyətlərinə əhəmiyyətli dərəcədə təsir edir. Bir çox tələbə üçün Süni İntellekt alətləri yazı zamanı ani yardım vasitələri kimi çıxış edir, real vaxtda rəy verir, yazı dilini təkmilləşdirir və mətnlə bağlı təkliflər təqdim edir (Jin et al., 2025). Bu alətlər fərdi idarə olunan öyrənmə (Self-Regulated Learning) modellərində istifadə olunan vasitələrə uyğun gəlməklə yanaşı, tələbələrə layihələri müstəqil şəkildə redaktə etmək, anlamadıqları məslələri aydınlaşdırmaq və yazılarını zamanında təkmilləşdirmək imkanları yaradırlar. Süni İntellektdən istifadə sahəsində yüksək özünə inama sahib olan tələbələr xüsusilə ideya yaratma, mətnin yenidən təşkil olunması və parafraz etmə kimi funksiyalardan istifadə edərək akademik tapşırıqları daha yüksək səviyyədə inkişaf etdirmək imkanı qazanırlar. Süni İntellektdən istifadə xüsusilə EFL (eng. English as a Foreign Language - ingilis dili ikinci dil olan) istiqamətində təhsil alan tələbələrə dil baryerlərini aşmaqda və axıcı, qrammatik cəhətdən düzgün mətnlər yaratmaqda kömək edir (Alkamel & Alwagieh, 2024).

Bununla belə, tələbələr Süni İntellektdən məsuliyyətli istifadə sahəsində müəyyən çətinliklərlə də qarşılaşırlar. Süni İntellektdən həddindən artıq asılılıq orijinal düşüncənin və daha dərin idrak fəaliyyətlərinin

inkişafına mane olur. Bu alətlərdən həddindən çox istifadə yardım almaq və müəlliflik arasındakı sərhədləri pozaraq etik dilemma yaradır (Yusuf et. al, 2024). Rəqəmsal savadlılıq səviyyəsinin qeyri-bərabər olması tələbələrin Süni İntellektin nə zaman və necə düzgün istifadə oluna biləcəyini başa düşməsində fərqliliklər yaradır. Buna görə də tələbələrə Süni İntellekt alətlərinin güclü və zəif tərəflərini anlamaq üçün strukturlaşdırılmış dəstək, etik istiqamət və qərarvermə proseslərinə dair məlumatlar təqdim edilməlidir. Tələbələrin Süni İntellektdən tənqidi və strateji şəkildə istifadə edə bilən bacarıqlı istifadəçilərə çevrilməsi akademik dürüstlüyün qorunması və düzgün tədris nəticələrinin əldə olunması üçün vacibdir.

Son elmi araşdırmalar bir çox tələbələrin akademik yazı üçün Süni İntellekt alətlərindən istifadə zamanı etdikləri bir neçə ümumi səhvi müəyyən etmişdir:

- **Süni İntellektə həddindən artıq etibar:** Bir çox tələbə Süni İntellektin yaratdığı mətnə həddindən artıq güvənir. Bu isə öz növbəsində onların tənqidi düşünmə və yazı bacarıqlarının inkişaf imkanlarını azaldır (Dangin & Hikmah, 2024).
- **Plagiat və etik pozuntular:** Tələbələr köməkçi istifadə ilə etik olmayan istifadə arasındakı sərhədləri düzgün anlamadıqlarına görə, plagiata və müəllifliyin qeyri-müəyyənliyinə yol verirlər (John et al., 2024).
- **Faktların yoxlanılmaması:** Süni İntellektin təqdim etdiyi məlumatlarin bir çox hallarda yoxlanmadan qəbul olunması akademik işlərdə yanlışlıqlara səbəb olur (Nugroho & Trisusana, 2025).
- **Süni İntellektin yaratdığı mətnin səthi redaktəsi:** Mətnin Süni İntellekt tərəfindən yaradıldığını bilən tələbələr tez-tez yalnız səthi düzəlişlərlə kifayətlənir. Qeyd olunanlar elmi işlərdə səhvlərin və zəif arqumentlərin düzəldilmədən qalmasına səbəb olur (Radtke & Rummel, 2024).
- **Aşağı Süni İntellekt savadlılığı:** Süni İntellekt alətlərinin işləmə mexanizmini kifayət qədər dərindən anlamamaları tələbələrin parafraz etmə, istinadların formatlaşdırılması və ya üslubun qorunması kimi məsələlərə diqqət yetirməməsinə gətirib çıxarır (Hossain et al., 2025).
- **Üslub uyğunsuzluğu:** Tələbələr Süni İntellektin yaratdığı mətni işlərinə düzgün şəkildə inteqrasiya edə bilmədikləri üçün məqalədə

əlaqəlilik, üslub və aydınlıq baxımından uyğunsuzluqlar yaranır (Selim, 2024).

Bu davranışları anlamaq, tələbələrin Süni İntellektdən məsuliyyətli və strateji istifadə bacarıqlarını artırmağa yönəlmiş fəaliyyətlərin həyata keçirilməsi üçün olduqca vacibdir.

## 10.2.3. İnstitusional Baxışlar

ABŞ və Avropa universitetlərinin təcrübələri müxtəlif uyğunlaşma strategiyalarını nümayiş etdirir. Məsələn, Stanford və MIT kimi universitetlər şəffaflıq və akademik dürüstlük prinsiplərini önə çəkərək Süni İntellekt istifadəsini təşviq edən müvəqqəti siyasətlər hazırlayıblar. Cambridge Universiteti və KU Leuven kimi qurumların yazı mərkəzləri seminar dərslərinə Süni İntellekt savadlılığı mövzularını daxil etmiş və tələbələrə Süni İntellekt nəticələrini passiv şəkildə qəbul etmək əvəzinə onları qiymətləndirməyi və tənqid etməyi öyrədirlər. Eyni zamanda, LMU Munich və Amsterdam Universiteti kimi bəzi Avropa universitetləri Turnitin-in plagiat proqramından Süni İntellekt aşkarlama funksiyaları və ChatGPT istifadə qaydaları üzrə qiymətləndirmə sahəsində pilot layihələr həyata keçirirlər. Bu yanaşmalar akademik dürüstlüyü qorumaqla yanaşı, çoxdilli təhsil mühitində Süni İntellektin faydalarından istifadə etməyə yönəlib.

Post-sovet məkanında, Qazaxıstan, Ukrayna və Gürcüstan kimi ölkələrdəki universitetlər Süni İntellekt alətlərini geniş rəqəmsal təhsil islahatlarının bir hissəsi kimi tətbiq etməyə başlayıblar. Lakin infrastrukturun məhdudluğu və müxtəlif institusional prioritetlər səbəbindən bu tətbiqlər qeyri-bərabər şəkildə həyata keçirilir. Məsələn, Ukrayna Milli Texniki Universiteti kimi qurumlarda ChatGPT-nin "Akademik Məqsədlər üçün İngilis Dili" kurslarına inteqrasiyasına dair pilot layihələr həyata keçirilmişdir. Bu layihələr müəllim tərəfindən keçirilən təlimlərlə müşayiət olunaraq Süni İntellektdən asılılığı azaltmaq və tənqidi istifadəni təşviq etmək məqsədi daşıyır.

Türkiyədə, Orta Doğu Texniki Universiteti (ODTÜ) və Boğaziçi Universiteti kimi qurumlar akademik yazı dəstək proqramlarına Süni İntellekt alətlərini daxil etmişlər. Tədqiqatlar göstərir ki, türk tələbələri arasında qrammatik düzəliş və mətnin təkmilləşdirilməsi üçün Süni İntellekt istifadəsinə artan maraq mövcud olsa da etik istifadə və istinad idarəetməsi sahəsində təlim çatışmazlığı mövcuddur. Buna görə də universitetlər həm bakalavr, həm də magistratura səviyyəsində

Süni İntellektdən məsuliyyətli istifadəni təşviq edən seminarlar və istiqamətləndirici sənədlər hazırlayırlar.
İnstitusional baxımdan standartlaşdırılmış qaydaların olmaması Süni İntellektin tədris proqramlarına məsuliyyətli şəkildə inteqrasiyasını çətinləşdirir (Cohen & Moher, 2025). Qəbul edilə bilən istifadə, müəlliflik hüququ və akademik dürüstlük məsələləri ilə bağlı suallar hələ də cavabsız qalır. Bu problemlərin həlli üçün bir sıra universitetlər peşəkar inkişaf seminarları, Süni İntellekt savadlılığı modulları həyata keçirirlər. Eyni zamanda, tədris müəssisələri düzgün və yanlış istifadə hallarını müəyyən edən siyasəti əsaslandırmaq üçün pilot layihələrə başlamışlar. Bu təşəbbüslər şəffaflıq, tənqidi düşüncə və tələbə - Süni İntellekt əməkdaşlığını ön plana çəkir. Nəticə etibarilə, institusional səviyyədə Süni İntellekdən istifadə etik çərçivələr, müəllim məlumatlılığı və akademik dürüstlüyə əsaslanaraq həyata keçirilməlidir.

## 10.3. Etik çağırışlar və akademik dürüstlük

Akademik yazıda Süni İntellekt alətlərinin istifadəsi ciddi etik məsələləri gündəmə gətirir. Əsas suallardan biri müəllifliklə bağlıdır — Süni İntellektin yaratdığı mətnin müəllifi kimdir? Bundan əlavə, səhv və ya uydurma istinadların daxil edilməsi, gizli müəlliflik potensialı və orijinallığın azalması kimi məsələlər geniş müzakirələrə səbəb olmuşdur (Cohen & Moher, 2025 ; Granjeiro et al., 2025). Məsələn, ChatGPT kimi alətlər insan yazısını təqlid edən mətnlər yaratdığından istifadəçilərin plagiat və ya Süni İntellektin köməyi ilə hazırladıqları materialları aşkar etmək çətinləşir. Bu səbəbdən tələbələrin və tədqiqatçıların Süni İntellekt istifadəsini açıq şəkildə bəyan etməsi yönündə şəffaflıq çağırışları artmışdır (Alberth, 2023). Akademik jurnallar da artıq məqalə hazırlanmasında Süni İntellektdən istifadə barədə bəyannamə tələb etməyə başlayıblar (Yusuf et. al, 2024).
Ədəbiyyatın icmalı aşağıdakı etik çağırışların tez-tez qeyd edildiyini göstərir. Müəllif tələbələrə aşağıda qeyd olunan məsələlərə diqqət ayırmağı və gələcəkdə yazdıqları elmi işlərdə Süni İntellektdən istifadə zamanı ehtiyatlı olmağı tövsiyyə edir.

- **Müəlliflik və məsuliyyətin qeyri-müəyyənliyi:** Süni İntellekt ilə əməkdaşlıq əsasında hazırlanan elmi işlərdə müəllifliyin kimə məxsus olduğu mübahisəli hesab oluna bilər (Ros & Samuel, 2024).
- **Uydurma və “təxəyyülün nəticəsi” kimi çıxış edən istinadlar:** Süni İntellekt real görünən, lakin tamamilə uydurma istinadlar və faktlar

yarada bilər və buna geniş rast gəlinir. Süni intellektdən məsuliyyətsiz istifadə, elmi işlərdə yanlış məlumatların verilməsinə, oxucuların çaşdırılmasına və akademik dürüstlüyün pozulmasına gətirib çıxara bilər (Ajiye & Omokhabi, 2025).

- **Plagiat riski:** Bir çox hallarda Süni İntellekt ilə yaradılan mətn yetərli redaktə və ya istinad edilmədən istifadə olunur (John et al., 2024).
- **Akademik bacarıqların zəifləməsi:** Süni İntellektdən həddindən artıq asılılıq tənqidi düşüncə, əsaslandırma və yazı bacarıqlarının inkişafına mane ola bilər (John et al., 2024).
- **Qərəz və şəffaflığın olmaması:** Süni İntellekt sistemlərinə qərəzli məlumatlar öyrədildikdə onlar stereotipləri təkrarlaya və eyni elmi əsərdə müxtəlif baxış bucaqlarına istisna edə bilərlər (Ros & Samuel, 2024). Bu isə elmi əsərlərin fərqli hissələrində ziddiyyətli fikirlərin dəstəklənməsinə gətirib çıxarır.
- **Qaydalardakı uyğunsuzluq:** Universitetlərdə Süni İntellekt ilə bağlı siyasətlərin müxtəlifliyi tələbə və müəllimlərdə çaşqınlıq və etik qeyri-müəyyənlik yaradır (Rabbianty et al., 2023).

Akademik ictimaiyyət Süni İntellektin qəbul edilə bilən istifadə sərhədlərini müəyyən etmək üçün fəal şəkildə etik təlimatlar hazırlayır. Universitetlər tələbələrdə Süni İntellekt istifadənin fərqinə varmağı təşviq etməklə yanaşı qeyri etik istifadəni müəyyən etmək üçün aşkarlama alətləri, akademik dürüstlük bəyanatları və etik kodekslər tətbiq etməlidirlər.

## 10.4. Faydalar, məhdudiyyətlər və gələcək perspektivlər

Akademik yazıda Süni İntellektdən istifadənin bir sıra faydaları var. Süni İntellekt xüsusilə EFL (eng. English as a Foreign Language - ingilis dili ikinci dil olan) tələbələri və gənc tədqiqatçılar üçün yazı axıcılığını artırır, dil səhvlərini azaldır və mətn strukturunu yaxşılaşdırır (Alkamel & Alwagieh, 2024). Grammarly, JennyAİ kimi alətlər istifadəçiyə real vaxtda rəy verir, ChatGPT isə ideya yaratmaq, xülasə yazmaq və mətnləri yenidən qurmaqda tələbələrə kömək edir (Jin et al., 2025). Yuxarı siniflərdə və resursları məhdud olan universitetlərdə Süni İntellekt müəllim rəyinin əvəzedicisi deyil, tamamlayıcısı kimi çıxış edə bilər.

Lakin bu üstünlüklərlə yanaşı, müəyyən məhdudiyyətlər də mövcuddur. Süni İntellekt tərəfindən yaradılan mətnlərdə mövzuya dair dərinlik, hərtərəfli məlumatlılıq və tənqidi təhlildən istifadə sahəsində

çatışmazlıqlar olur (Granjeiro et al., 2025; Cohen & Moher, 2025). Həmçinin, Süni İntellektdən istifadə tələbənin fərdi üslubunu və yaradıcılığını məhdudlaşdıraraq (Yusuf et. al, 2024) yazı tərzinin standartlaşmasına şərait yaradır. Bundan başqa, Süni İntellektdən asılılığın yaranması səbəbindən əsas yazı bacarıqlarının inkişafı da zəifləyə bilər. Bu səbəbdən, Süni İntellektin tədrisdə rolu əvəzləyici xarakterli deyil, tamamlayıcı olmalıdır. Akademik dəqiqlik və intellektual orijinallığı təmin etmək üçün yuxarıda qeyd olunan alətlər üzərində istifadəçinin nəzarəti əvəzolunmazdır.

Gələcək illərdə akademik yazının inkişafının yeni bir mərhələsi olan Süni İntellektin köməyi ilə hazırlanan mətnlərin kefiyyətini yüksəltmək və bu sahədə savadlılığın artırılması məqsədi ilə tədris proqramlarına xüsusi mövzuların əlavə olunması qaçılmazıdır. Müəllimlər tələbələri yalnız texniki bacarıqlarla deyil, həm də Süni İntellekt tərəfindən yaradılmış mətni qiymətləndirmək və təhlil etmək üçün tənqidi biliklərlə təchiz etməlidirlər (Jin et al., 2025). Ehtimal olunur ki, yeni tendensiyalar konkret fənlərə və təhsil səviyyələrinə uyğunlaşdırılmış Süni İntellekt sistemlərinin inkişafına şərait yaradacaqdır (Jian, 2024). Akademik həyatın ayrılmaz hissəsinə çevrilən Süni İntellektdən istifadə məsuliyyətli, düşünülmüş və məlumatlı yanaşma əsasında həyata keçirilməlidir.

Süni intellekt artıq yalnız qrammatika düzəltmək və istinad yaratmaq üçün bir vasitə deyil, akademik yazının tədris, öyrənmə və qiymətləndirilmə tərzini köklü şəkildə dəyişə biləcək bir qüvvə kimi çıxış edir. Onun daha yüksək effektivlik, geniş əlçatanlıq və fərdiləşdirilmiş tədris imkanları kimi faydaları var. Lakin bu üstünlüklər etik, müəlliflik və təhsil bərabərliyi ilə bağlı çağırışlarla tarazlaşdırılmalıdır. Gələcəkdə Süni İntellektin tədrisə inteqrasiyası savadlılıq, şəffaflıq və pedaqoji əsaslarla qurulmalıdır.

Süni İntellektin akademik yazıdakı potensialını tam reallaşdırmaq üçün müəllimlər, tələbələr, texnologiyanın yaradılmasında iştirak edən mühəndislər və siyasətçilər arasında əməkdaşlığa əsaslanan dialoq vacibdir. Təlim və tədris proqramlarına Süni İntellekt savadlılığı üzrə təlimlər və təqdimatların mütəmadi əlavə edilməsi bu texnologiyaların təhsil məqsədləri ilə uzlaşdırılmasında əsas rol oynayır. Eyni zamanda, Süni İntellektin istifadəsinin sosial, idrak və etik aspektlərini öyrənmək üçün fənlərarası/interdisiplinar tədqiqatlar davam etdirilməlidir. Akademik yazını bir fundament, dialoq vasitəsi və intellektual dürüstlük prosesinin əsası olduğunu nəzərə alsaq, deyə bilərik ki, “süni intellektin

əsas məqsədi insan yaradıcılığını və mühakiməsini əvəzləmək deyil, onu gücləndirmək olmalıdır”.

## Ədəbiyyat siyahısı


1. Ajiye, O. T., & Omokhabi, A. A. (2025). The potential and ethical issues of artificial intelligence in improving academic writing. ShodhAI: Journal of Artificial Intelligence, 2(1), 1–9.
2. Alkamel, M. A. A., & Alwagieh, N. A. S. (2024). Utilizing an adaptable artificial intelligence writing tool (ChatGPT) to enhance academic writing skills among Yemeni university EFL students. Social Sciences & Humanities Open, 10, 101095.
3. Cohen, J. F., & Moher, D. (2025). Generative artificial intelligence and academic writing: Friend or foe? Journal of Clinical Epidemiology, 157, 1–3.
4. Dangin, M., & Hikmah, N. (2024). The potential uses and misuses of AI-powered writing skills on academic writing students’ side. Journal of Education, 9(2), 45–56.
5. Yusuf, A., Pervin, N. & Román-González, M. Generative AI and the future of higher education: a threat to academic integrity or reformation? Evidence from multicultural perspectives. Int J Educ Technol High Educ 21, 21 (2024). https://doi.org/10.1186/s41239-024-00453-6
6. Granjeiro, E. M., Del Bel Cury, A. A., Cury, J. A., Bueno, M., Sousa-Neto, M. D., & Estrela, C. (2025). The future of scientific writing: AI tools, benefits, and ethical implications. Brazilian Dental Journal, 36(1), 1–10.
7. Jian, M. J. K. O. (2023). Personalized learning through AI. Advances in Engineering Innovation, 5, 16-19.
8. Hossain, Z., Hınız, G., & Çelik, Ö. (2025). Exploring EFL Students’ AI Literacy in Academic Writing: Insights into Familiarity, Knowledge and Ethical Perceptions. Kuramsal Eğitimbilim, 18(1), 157–181. https://doi.org/10.30831/akukeg.1538011
9. Jin, X., et al. (2025). Human-AI collaboration in academic writing: A multidimensional framework. Computers in Human Behavior, 132, 107246.
10. John, A., & Hussin, S. (2024). Mini-review on the ethical use of AI bots in academic writing. International Journal of Academic Research in Progressive Education and Development, 13(1), 45–52.
11. Christina, R., & Panagiotidis, P. (2024). Teachers’ Attitudes Towards

AI Integration in Foreign Language Learning: Supporting Differentiated Instruction and Flipped Classroom. European Journal of Education, 7(2), 88-104.
12. Gayed, J. M. (2025). Educators' perspective on artificial intelligence: equity, preparedness, and development. Cogent Education, 12(1). https://doi.org/10.1080/2331186X.2024.2447169
13. Mammadov, T., & Jamalova, M. (2025). Adapting to a rapidly evolving world: Insights from AI initiatives in Azerbaijan. Advances in Mobile Learning Educational Research, 5(1), 1262-1271.
14. Nugroho, R. A., & Trisusana, A. (2025). Students' challenges and solutions of using AI-based tools for academic writing. Journal of English Language Teaching and Linguistics, 10(1), 15–25.
15. Rabbianty, A., & Azizah, N. (2023). AI in academic writing: Assessing current usage and future implications. Insania: Jurnal Pemikiran Alternatif Kependidikan, 28(2), 105–118.
16. Radtke, A., & Rummel, N. (2024). Generative AI in academic writing: Does information on authorship impact learners' revision behavior? Computers & Education, 193, 104687.
17. Ros, L., & Samuel, D. (2024). Navigating the AI frontier: A guide for ethical academic writing. Journal of Academic Ethics, 22(1), 1–15.
18. Selim, A. S. M. (2024). The transformative impact of AI-powered tools on academic writing: Perspectives of EFL university students. International Journal of English Linguistics, 14(1), 14.
19. Jamalova, M. (2025) 'Adapting to Artificial Intelligence-Related Specializations in Higher Education: Evidence from Azerbaijan', in M.E. Auer and D. May (eds) 2024 Yearbook Emerging Technologies in Learning. Springer Cham.